**SAYALI SADIQOVA**
**SİMA QULİYEVA**

# *İZAHLI TERMİNLƏR LÜĞƏTİ*

***I cild***

***BAKI - 2015***

*Lüğət Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının və İ. Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunur.*

Baş redaktor: *akademik* ***A.Əlizadə***

Elmi redaktorlar: *akademik* ***İ.Həbibbəyli***

*akademik* ***T.Hacıyev***

Rəyçilər: *professor* ***B.Xəlilov***

*fil.e.d.* ***İ.Abbasov***

**S-49.S.A.Sadıqova,S.M.Quliyeva**.İzahlı terminlər lüğəti. I cild, Bakı ,“AVROPA” nəşriyyatı, 2015, 242 səh.

Lüğətdə elm və texnikanın müxtəlif sahələrində işlənən 2500 yeni termin toplanmış və izahı verilmişdir. Lüğətdən müxtəlif sahə mütəxəssisləri, doktorantlar və elmi işçilər istifadə edə bilər.

S $\frac{4702060106-77}{8032-2015}$ *Qrifli nəşr*

© *«AVROPA» Nəşriyyatı-2015*

# ÖN SÖZ

Milli dillərin terminologiyasına bir qayda olaraq dildə işlənən terminlərin (sahə terminləri də bura daxildir) məcmusu kimi baxılır. Cəmiyyətin inkişafı, ictimai-siyasi dəyişikliklər dilin leksik sistemində terminologiyanın zənginləşməsini zəruriləşdirir. Məhz buna görə də terminoloji leksikanın inkişaf sürəti ümumi leksikanın inkişafını qabaqlayır. Qloballaşma şəraitində elmin, texnikanın inkişafına uyğun olaraq dilimizdə müxtəlif sahələrə –iqtisadiyyat, informatika, təhsil, texnika ilə bağlı yeni terminlər yaranır. Dildə yeni yaranan anlayış və məfhumların terminlərlə adlandırılması xüsusi məntiqi və linqvistik fəaliyyət sahəsidir. Belə ki, hər hansı anlayış və məfhumlara onların mahiyyətinə uyğun terminlərin seçilməsi mürəkkəb bir prosesdir. Bu prosesdə terminlərlə adlandırılan, işarələnən anlayış və məfhumların sistemləşdirilməsi , qaydaya salınması zəruridir. Çünki ayrı-ayrı elmi-texniki sahələrlə bağlı anlayış və məfhumları sistemləşdirmədən onların dil işarələrinin müəyyənləşdirilməsi mümkün deyil. Buna görə də müxtəlif sahələrdə anlayışları ifadə edən terminlərin yaradılması üçün ilk növbədə elmi-texniki məfhumların mahiyyəti aydınlaşdırılmalı, onlara məxsus xüsusiyyətlər və anlayışı dəqiq ifadə edən terminoloji vahidlər müəyyənləşdirilməlidir. Bu prosesdə terminlərin məzmun və ifadə formasının qarşılıqlı əlaqəsi zəruri xarakter daşıyır. Yəni,terminlərin mənasında iki əsas cəhət - onun predmetlə əlaqəsi , definitivləşməsi ilə yanaşı, həmin anlayışla bağlı müəyyən əlamət və xüsusiyyəti özündə əhatə etməsi də nəzərə alınmalıdır. Termində bu xüsusiyyətlər nəzərə alınmadıqda eyni sahə terminologiyasına daxil olan müəyyən bir anlayış əksər hallarda müxtəlif sahələrdə bəzən eyni terminlərlə, bəzən də müxtəlif terminlərlə

işarələnir.Bu baxımdan terminologiyanın nizama salınması müvafiq sahə anlayışlarının müəyyənləşdirilməsini və müəyyən sistemə salınmasını əhatə edir. Hər bir sahənin inkişafı onunla bağlı anlayışların yaradılması ilə birbaşa əlaqədardır. Bu nəzərə alınaraq lüğətdə müstəqillik illərində yeni yaranan 2500 termin toplanmış və onların izahı verilmişdir. Tərtib edilən lüğətdə müxtəlif sahələrə – iqtisadiyyat, informatika, dilçilik, geologiya, diplomatiya və s. aid yeni terminlər, yəni indiyə qədər nəşr olunmuş izahlı lüğətlərimizə daxil edilməmiş terminlər toplanmış və onların izahı verilmişdir. Lüğətdə eyni anlayışları bildirən müxtəlif terminlərə rast gəlindiyi kimi, bir terminin eyni sahədə bir neçə anlayışı ifadə etməsi halları da qeydə alınır. Məsələn:Adapter – 1. İnterfeys qurğusu olub, iki və ya daha çox bilavasitə qarşılıqlı əlaqəsi mümkün olmayan şəbəkələr arasında informasiya mübadiləsi üçün istifadə edilən qurğu. 2. Bir sistemdən başqa sistemə, bir formatdan başqa formata , qeyri-standartdan standarta keçməyə imkan verən elektromaqnit və ya mexaniki qurğu, uyğunlaşdırıcı kaset, qurğu və s. Adapter kaset;. 3. Hər hansı cihazı elektirik enerjisi ilə təmin etmək üçün onun şəbəkəyə qoşulmasını təmin edən qurğu. Telefon adapteri; Skaner- 1. Mətnlərin, foto və ya qrafik təsvirlərini kompüterin yaddaşına ötürülməsini təmin edən optik qurğu. 2. Faksimil veriliş qurğularında, qrafik verilənlərin daxil edilməsi sistemlərində şəkil (qrafik məlumatı) skanlaşdıran qurğu. 3. Siqnal formalaşdırıcısı. 4. Kabel xətlərində zədə yerini müəyyənləşdirən qurğu.

Anlayışların ilkin adlandırılması zamanı onlara verilən adlar çox vaxt bir neçə terminlə, müxtəlif dil vahidləri ilə ifadə oluna bilər. Çünki yeni yaranan anlayışların əsas əlamətlərini bəzən müəyyənləşdirmək çətinlik törədir, verilən ad yeni və dəqiq adlar yaradılana kimi işlək xarakter daşıyır. Yəni anlayışın müəyyən əlaməti əsasında verilən ad həmin anlayışın

elmi şəkildə dərk olunmasına qədər davam edir (əvvəlki adlar yeni və dəqiq adlar yaranana kimi işlənsə də) və elmi sistemdə yeni dəqiq ad formalaşdıqda əvvəlki ad bəzən paralel işlənir, bəzən də həmin sahədə işləkliyini itirir. Belə hallar da lüğətdə öz əksini tapır. Yəni bəzi hallarda terminlərin paralel şəkildə işlənməsi olduğu kimi saxlanılmışdır. Məsələn, jirondol –şamdan,- bra; kvest (güzəşt) – kompüter oyunları sinfi. Bu tip oyunların mənası; mikrob(virus) – kompüter virus tipi. Öz-özünə artan və bütün sistemi tutaraq onun resurslarını yeyən virus; prezentasiya – təqdimat . Dildə alınma və milli terminlərin paralel işlənməsi daha çox diqqəti cəlb edir. Məsələn, dərgi - jurnal-almanax terminləri paralel şəkildə işlənir. Alınma "jurnal" termini əvəzinə "dərgi" termini Türkiyə türkcəsindən götürülmüşdür. Mətbuatda jurnal sözü ilə paralel istifadə edilir. Terminologiyada belə termin müxtəlifliyi dublet və omonim terminlərin yaranmasına səbəb olur. Eyni zamanda bir sıra terminlərin anlayışa uyğun gəlməməsi onların yeni terminlə əvəz olunmasını tələb edir. Məsələn, sərxoş maus – kompüter mausunun kontakt şarının tutulması və ya çirklənməsi zamanı mausa verilən ad.Burada işlənən "sərxoş"termini anlayışı düzgün ifadə etmədiyinə görə "tutqun"termini ilə əvəz etmək daha münasibdir. Çünki anlayışlar adlandırılarkən terminlə anlayış arasındakı uyğunluqlar nəzərə alınmalıdır.

Müxtəlif sahələrdə yeni terminlərin yaranmasında dilin daxili imkanları hesabına yaranan terminlər də üstünlük təşkil edir. Xüsusən ümumişlək sözlər terminləşərək yeni mənalar ifadə edir. Məsələn, verilənlər – rəqəmlər, mətn işarələri və s. ibarət olan informasiya,yaxud da məlumat bazası. Avtomatik vasitələrlə insanın iştirakı ilə emal olunması üçün yararlı olan vəziyyətdə verilmiş informasiya; yaddaş – istənilən informasiyaları, verilənləri və icra olunan proqramı kompüterdə yerləşdirən qurğu. Funksional baxımdan yaddaş iki yerə

bölünür: daxili və xarici; yaddaş tutumu – kompüterin yaddaşında saxlana bilən informasiyanın (təsvir, yazı və s. işarələrin) maksimum miqdarının göstəricisi; uyğunlaşma (bioinformatika) – insanın ətraf mühitə fəal uyğunlaşmasının verilən mühit şərtlərində (məsələn: tərkibində karbon qazının yüksək olduğu zonada) normal həyat fəaliyyətinin davamlı olmasına, təminatına və qorunub saxlanılmasına istiqamətlənmiş biososial prosesdir. Uyğunlaşma zamanı orqanizm ətraf mühitin parametrlərində baş verən dəyişikliklərə əsasən öz həyat fəaliyyətini tənzimləyir, bu da ona yaşamağa və çoxalmağa imkan verir.

Milli dillərin leksik vahidlərində eyni səs cildinə malik sözlərin müxtəlif mənalar ifadə edə bilməsi ümumi leksikada təbii inkişaf prosesinin nəticəsi hesab edilsə də,terminoloji sistem üçün o qədər də xarakterik hal deyildir.

Alınmaların yazılış qaydalarının müəyyənləşdirilməsi də aktual problemlərdəndir. Bu baxımdan lüğətdə VEB-lə başlanan alınma terminlər defislə yazılmışdır. *Veb- proqram* – vebdə işləmək üçün yazılmış kiçik proqram; *veb-brauzer* – internet şəbəkəsində veb-səhifələrə baxmaq vasitələri; *veb-dizayner* – internet səhifələrinin (portalların) qurucusu (yaradıcısı); *veb-kamera* – təsviri internet şəbəkəsi ilə ötürmək üçün istifadə olunan rəqəmli videokamera; *veb-naşir* – internet materiallarının təşkilat və ya fiziki şəxs tərəfindən internetdə yerləşdirilməsi; *veb-sayt* – veb-serverdə verilənlər bölməsi olub, hər hansı təşkilat və şəxsə aiddir. Bu bölmədə istifadəçi özünün informasiyalarını veb-səhifə ilə əlaqəli çoxluq şəklində yerləşdirir. Saytın titul səhifəsindən istifadə edərək göstərici ilə onun müxtəlif səhifələrinə baxmaq olar. *veb-server* – internetdə və internet şəbəkədə istifadəçinin veb-səhifəsinə giriş verən, internetdə axtarış və başqa xidmətlər təklif edən kompüter.

Hər bir sahənin inkişafı onun anlayışlarının sistemə salınması ilə əlaqədardır. Sistemə salınma zamanı anlayışlar qruplaşdırılır. Anlayışların qruplaşdırılması prosesində bütün sahə terminologiyalarında nöqsanlar aydın şəkildə özünü göstərir. Bu çox vaxt anlayış ifadə edilərkən onun əsas fərqləndirici əlamətlərinin nəzərə alınmaması ilə bağlıdır. Çünki termin aid olduğu anlayışı həmin anlayışın fərqləndirici əlamətləri əsasında təyin edir. Terminlərdə bimənalılıq tələbi də bu baxımdan ödənilməlidir. Lakin çox vaxt bu tələblər gözlənilmir. Məsələn: *konversiya* – 1. hərbi-sənaye şirkətinin xalq tələbatına uyğun məhsullar istehsal edən şirkətə çevrilməsi (yaxud əksinə). 2. dilçilikdə - bir nitq hissəsinə aid olan sözün cümlədə başqa nitq hissəsi kimi işlənməsi.Belə terminlərin ifadə etdiyi mənaların da, onların ifadə etdiyi definisiyaların sayı da çoxdur. Deməli, mövcud anlayışı ifadə edən termini müəyyənləşdirən zaman onun definitiv əlaməti əsas götürülməlidir. Terminalma dilin terminoloji sisteminin zənginləşdirilməsi yollarından biri olsa da, termini ifadə edə bilən bu üsuldan imkan daxilində az istifadə edilməsi məqsədəuyğundur. Dilin daxili imkanları hesabına yaranan terminlərə üstünlük verilməlidir. Terminologiyanın inkişaf mənbələrindən birini təşkil edən alınmaların çoxluğu alınma terminlərin seçilməsinə, işlənməsinə xüsusi diqqət yetirməyi tələb edir. Hər gün elmi-texniki ədəbiyyatlarda, qəzet və jurnallarda, radio və televiziyada onlarla yeni terminlər işlədilir. Bunlar toplanmalı, hesaba alınmalı, orfoqrafiyası müəyyənləşdirilməlidir. Hətta qeyd olunduğu kimi, elə alınmalar var ki, dildə onların qarşılıqları işlənilir. Bununla belə imkan verilir ki, bunlar paralel işlənsin, dil özü gərəkliləri seçib saxlasın. Ona görə də bu yeni terminlər lüğəti vaxtaşırı təkrar tərtib edilməlidir. Dilimizdə son dövrlərdə işlənən yeni terminlərin izahlı lüğəti ilk dəfə tərtib olunduğu üçün bəzi mübahisə doğuracaq məqamların mövcudluğunu da istisna

etmirik. Buna görə də lüğətlə bağlı irad və təkliflərinizi Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasına və AMEA Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinə bildirəcək mütəxəssislərə əvvəlcədən təşəkkür edirik.

***Redaktorlardan***

**-A-**

**ABEKOR -**Banklararası informasiya mübadiləsinə kömək edən və iqtisadiyyat, maliyyə, bank işi sahələrində elmi araşdırmalar aparan beynəlxalq banklar birliyidir.
**ABOLİSİYA** – 1. Qanunun, yaxud hansısa hüquqi aktın ləğvi. 2. Hər hansı bir vəzifənin ləğvi və ya vəzifədən istefa vermə. 3. Şəxsin təqsirliliyinin qanunla müəyyən edilmiş qaydada sübut olunmadığı mərhələdə cinayət işinə xitam verilməsi. 4. Ləkələnmiş şərəf, ləyaqət, işgüzar nüfuzun bərpa olunması, böhtanın rəsmən təkzib edilməsi.
**ABORDAJ** – Avarlı və yelkənli gəmilərdə tətbiq edilən dəniz döyüşü üsulu.
**ABROQASİYA** – Yeni şəraitə uyğun gəlməyən köhnəlmiş qanunun ləğv edilməsi, əvvəl qəbul edilmiş bir qanunun başqa bir qanunla qüvvədən salınması.
**AÇAR SÖZÜ –** 1. Sənədi indeksləşdirmək üçün istifadə olunan söz və ya söz birləşmələri. 2. Proqramlaşdırmada, yaxud proqram dilində müəyyən əhəmiyyətə malik söz. 3. Açar sözü və ya kriptoqrafiyada parol.
**AÇIQ SİSTEMLƏR** – İstehsalçıdan asılı olmayan informasiya sistemləri.
**ADAPTER –** 1. İnterfeys qurğusu olub, iki və ya daha çox bilavasitə qarşılıqlı əlaqəsi mümkün olmayan şəbəkələr arasında informasiya mübadiləsi üçün istifadə edilən qurğu. 2. Bir sistemdən başqa sistemə, bir formatdan başqa formata keçməyə, qeyri-standartdan standarta keçməyə imkan verən elektromaqnit və ya mexaniki qurğu, uyğunlaşdırıcı kaset, qurğu və s. Adapter kaset;. 3. Hər hansı cihazı elektirik enerjisi ilə təmin etmək üçün onun şəbəkəyə qoşulmasını təmin edən qurğu. Telefon adapteri.

**ADAPTİV KORREKTOR -** Siqnalların qəbul edilmə şəraitinə avtomatik uyğunlaşmanı təmin edən qurğu adaptiv equalizer adlanır. Siqnalın simvollarası təhriflərini korreksiya (düzəliş) etmək üçün adaptiv korrektor kompensator tətbiq edilir.

**ADAPTİV KVANTLANMA –** Giriş siqnalının diapazonunun dinamik dəyişməsinə uyğun dəyişən adaptiv kvantlanma üsuludur. Kvantlanan siqnalın statistik xarakteristikasının və kvantlanma maneəsinin səviyyəsinin analizi əsasında tənzimlənmə həyata keçirilir.

**ADAPTİV REZOLYUSİYA** – Təsvirin ayrı-ayrı elementlərinin sərhədinin rezolyusiyasını artıran vasitə.

**ADARME** – Ticarət əməliyyatlarında istifadə edilən qeyri-metrik ölçüdür.

**ADENTİYA –** Anadangəlmə bütün və ya çoxlu dişlərin olmaması.

**ADDENDUM** – Ticarət gəmiçiliyində müqaviləyə əlavə. Bura tərəflərin razılaşdırdıqları yeni şərtlər və müqaviləyə düzəlişlər aiddir. Çarterlərin tərtibində geniş yayılmışdır. Addendumu da çarter kimi hər iki tərəf və ya onların agentləri imzalayırlar.

**ADDİTİV RƏNGLƏR** – Şüalanan obyektlərdən yaranmış rənglər.

**ADDİTİV SƏS-KÜY –** Kanalda siqnalın olub-olmamasından asılı olmayaraq istənilən maneə additiv səs-küy yaradır.

**ADİNAMİYA –** Həddən artıq zəiflik, gücün itirilməsi.

**ADLİB** – Televiziya və ya radioda canlı veriliş zamanı ekspromt. Aparıcının çıxışı və ya verilişin musiqi müşayiəti zamanı edilən improvizasiya.

**ADMİN** – Məlumat bazaları və informasiya sistemlərini idarə edən, onların səmərəli istifadəsini reallaşdıran şəxs.

**ADVALOR TARİF** – İdxal edilən əmtəələrin dəyərinə nisbətən faizlə müəyyən edilən gömrük rüsumu.

**AEROBUS –** Orta və uzaq məsafələrə uçan, çox sərnişin tutan təyyarə.

**AEROSÜZGƏC** – Tullantı sularını bioloji üsulla təmizləyən qurğu.

**AFFİRMASİYA –** Hesabların, sənədlərin təsdiq edilməsi.

**AFTOŞOKLAR –** Zəlzələ prosesində ən güclü təkandan sonra baş verən, lakin ondan daha zəif olan seysmik təkanlar. Aftoşokların sayı yüzlərlə olur və onlar bir neçə ay davam edə bilər.

**AGONİYA –** Yaşamanın son mərhələsi. Həyatın sonunun yaxınlaşması, beynin güclü zədələnməsi, əsas orqanların həyati fəaliyyətinin dayanması.

**AJİO** – 1. Qiymətli kağızların (pul nişanları, səhmlər, istiqrazlar) birjada onların məxsusi dəyərləri ilə müqayisədə satış qiymətinin fərqi. 2. Səhmlərin milli birjalardakı məzənnəsi ilə müqayisədə onların "üçüncü ölkələr"in birjalarında məzənnələrinin artması.3. Qızıl pullarla aparılan əməliyyatlarda metalın dəyəri ilə pulun birja dəyəri arasındakı fərq.

**AJİO-KONTO** – Mənfəətləri və zərərləri əks etdirən hesab.

**AKADEMIK BORC –** Fərdi tədris planında qeyd olunan fənlərdən ən azı birindən müəyyən olunmuş krediti qazana bilməyən tələbənin borcu.

**AKADEMİK MOBİLLİK –**Tələbənin və professor-müəllim heyətinin ölkədaxili və xarici ölkələrin ali təhsil müəssisələrində müvafiq olaraq sərbəst təhsil almaq və akademik fəaliyyət göstərmək hüququdur.

**AKKRESİYA** – Beynəlxalq hüquqda dövlətin ərazisinin yeni yaranmış quru sahələr hesabına təbii genişlənməsi.

**AKKUZATİV**– Bir sıra dillərdə vasitəli və vasitəsiz tamamlığın ifadəsinə xidmət edən hal.

**AKSELERASİYA** – 1. Sahibkarlığa aid müqavilənin vaxtından əvvəl sona yetməsi. 2. Konkret səbəblərə görə lazım olduq-

da istiqrazçılara borcun vaxtından əvvəl qaytarılması barədə kredit müqaviləsində ayrıca öhdəlik olmamasına dair qeyd.

**AKSEPTANT** – Vekseli imzalayan və gələcəkdə ödəniş müddəti zamanı onu ödəmək üzrə öhdəçilik götürən şəxs.

**AKSEPTSİZ ÖDƏNİŞ –** Borcların razılığının alınmasından asılı olmayaraq onların borclarının bankdan tutulması.

**AKSEPT –** Aksept kreditin bir növü; bu zaman importyorun bankı sonuncusunun köçürmə vekselini akseptləşdirir, onları nəzərə alır və eksportaya nağd ödəmə verir.

**AKSİDENSİYA** – 1. Predmetə xas olmayan təsadüfi, əlavə, keçici vəziyyət. 2. Kiçik həcmli poliqrafiya məhsulları, həmçinin plakat, afişa və s.

**AKTİV İNVESTİSİYA STRATEGİYASI** – Şirkətin yeni istehsal vasitələrinin tətbiqi, tələbatı çox olan məhsulların istehsalının yaradılması, rəqabət aparan şirkətlərin sıradan çıxması ilə ümumi gəlirlərin artımını təmin edən və müəssisənin rəqabət qabiliyyətini gücləndirən investisiya strategiyası nəzərdə tutulur.

**AKTUARİ** – 1. Sığorta hadisələrinin başlanması ehtimalını müəyyənləşdirməklə, sığorta haqlarını, mükafatlarını və s. hesablamaqla məşğul olan sığortalama texnikası üzrə mütəxəssis. 2. Həyatın sığortalanması ilə bağlı olan riyazi hesablamalar sahəsi üzrə mütəxəssisdir.

**AKUPUNKTURA** – İynəbatırma üsulu, bir çox xəstəliklərin müalicəsi; bədənin müəyyən nöqtələrinə xüsusi iynələr batırmaq metodu ilə müalicə.

**AKVABİLDİNQ –** Suda yerinə yetirilən, orqanizmə müsbət təsir göstərən, bədəni möhkəmləndirən, ona sağlamlıq və mütənasib forma verən xüsusi hərəkətlər.

**AKVAKULTURA** – Süni çoxaltma və yemləmə yolu ilə faydalı bioloji məhsulları (balıqlar, molyuskalar, yosunlar və s.) əldə etmək üçün göllərin məqsədyönlü istifadəsi.

**AKVAPARK** – Xüsusi su hovuzları, saunaları, su attraksionları, idman qurğuları və s. olan əyləncə-sağlamlıq mərkəzi.
**AKVATORİYA** – Özünəməxsus təbii, antropogen xüsusiyyətləri və resursları ilə su səthinin məhdudlaşdırılmış hissəsi.
**AKVATEL** – Nəqliyyat vasitəsi kimi istifadədən çıxarılıb, otel kimi istifadə edilən stasionar gəmi.
**AKVİZİSİYA** –1. Sığorta və nəqliyyat şirkəti tərəfindən yeni müştərilərin cəlb edilməsi. 2. Şirkətə nəzarət etmək məqsədilə onun səhmlərinin satın alınması.
**AQRAFİYA -** Yazılı və şifahi nitq arasında qanunauyğunluqları təmin edən psixofizioloji proseslərin pozulmasıdır ki, bunun nəticəsində yazma qabiliyyəti itir, bəzən də nitq pozğunluğu müşahidə olunur.
**AQROEKOLOGİYA** – Tətbiqi ekologiyada mühit amillərinin (abiotik və biotik) mədəni bitkilərin məhsuldarlığına, həmçinin kənd təsərrüfatı sahələrində yaşayan orqanizmlər qrupunun strukturuna və dinamikasına təsirini öyrənən bölmədir.
**AQROMETEOROLOGİYA** – Bu elm sahəsi kənd təsərrüfatının havadan və iqlimdən asılılığını öyrənir. Kənd təsərrüfatı klimatologiyanın yeni bir elm sahəsi olmamasına baxmayaraq kənd təsərrüfatında tətbiq edə biləcəyimiz iqlim tədqiqatlarının azlığı ciddi şəkildə hiss olunur.
**ALEATOR -** Müqavilələr zamanı icraçı tərəflərə məlum olmayan hallardan asılı olan riskli müqavilələr.
**ALENDİ** – Müqavilə barəsində işlədilir; Müddətsiz, qüvvədə olma müddətinin göstərilməməsi deməkdir.
**ALİENTASİYA** – 1.Əmlakın özgəninkiləşdirilməsi. 2. Səhmin, kapitalın, dəyərin sahibinin dəyişməsi, yəni bir şəxsə məxsus olan əmlakın digər şəxsin mülkiyyətinə verilməsi.
**ALLEQRİ** – Lotereyanın bir növü; bilet alandan dərhal sonra onun nəticəsi məlum olur.

**ALLONJ** – Üzərində qeydiyyat aparmaq üçün vekselə əlavə olunmuş vərəq.

**ALPARİ** – Valyutanın, istiqrazların, veksellərin bazar valyutası ilə onların nominal dəyərinin ideal bərabərliyi.

**ALPENŞTOK –** İti, polad uclu əsa. Dağ turizmi ilə məşğul olanlar tərəfindən istifadə olunur.

**ALQOL** – Yüksək səviyyəli primitiv prosedur maşın dili.

**ALTERNATİV AD –** 1. Müxtəlif proqram və aparat vasitələrinə istinad edilərkən ümumi halda şərti addan istifadə olunur. 2. Qoşulmaq üçün kod (radioistansiyaları çağırmaq üçün istifadə edilən kod).

**ALTERNATİV MARŞRUT –** Köməkçi və ya ehtiyat marşrut-əsas marşrut istifadəyə yararlı olmayanda, yaxud o yüklənərək tələb olunan trafik həcmini ötürə bilməyəndə dərhal alternativ (ehtiyat) marşrutdan istifadə edilir.

**ALTRUİZM** – Öz maraqlarını nəzərə almadan başqalarının xeyrinə fəaliyyətə hazır olma.

**AMALQEMASİYA** – (*hərfi:* "xəlitə") Cəmiyyətdə korporasiyaların, ittifaqların və digər qurumların öz kapitallarını təmərküzləşdirmək üçün vahid şirkət halında birləşməsi. Şirkətlərin birləşməsinin iki metodu məlumdur: 1. Kiçik şirkətlərin mülkiyyətinin bir iri şirkət tərəfindən birbaşa özünə birləşdirilməsi; bu halda birləşdirilən şirkətlərin strukturu dəyişmir. 2. Yeni şirkət yaradılması və digər şirkətlərin aktivlərinin ona verilməsi; bu birləşdirilən şirkətlərin hamısının strukturunun tamamilə dəyişməsi ilə bağlıdır. İstehsalın xarakteri etibarilə yekcins olan bir neçə müəssisənin birləşməsindən söhbət gedəndə bəzən fuziya termininindən istifadə edilir.

**AMANKO –** Birja termini- borc, çatışmazlıq, qıtlıq.

**AMBALAJ –** Beynəlxalq ticarətdə qablaşdırma xərcləri, qablaşdırma üçün material.

**AMORAL -** Əxlaq prinsiplərini danmaq; əxlaqa zidd, cəmiyyətin müsbət qiymətləndirmədiyi davranış, daxili inamın və ictimai təsirin gücünə arxalanan davranış qaydalarına zidd olan əməllər.

**AMPLİFİKASİYA** – 1. Sinonimlərin əlavəsi ilə ekspressivliyi gücləndirən üslub vasitələri. 2. Bir dildən digərinə tərcümə zamanı mətnin böyüməsi. 3. Çoxfaktorlu iqtisadi sistemdə amillər və parametrlərin təsirinin artması.

**ANAQRAM** – Yeni ifadə gətirmək məqsədilə bəzi sözlərdə hərflərin yerinin dəyişdirilməsi.

**ANALOQ MODULYASİYASI –** Bu modulyasiyada aparıcı siqnalın hər hansı parametri (amplitudası, tezliyi, fazası və s.) modulyasiya edilən giriş siqnalın amplitudasının dəyişməsinə düz proporsional olaraq dəyişir.

**ANATOSİZM** – Faizlərin faizinin tutulması, faizlərin nəinki ilkin məbləğdən, həm də keçən müddət ərzində artan faizlərdən hesablanması.

**ANDAJEMENT** – Tamaşalarda, konsertlərdə və s. tədbirlərdə iştirak etmək üçün artistə müqavilə ilə müəyyən müddətə həvalə olunan dəvət.

**ANDERQRAUND** – Mədəniyyətdə və incəsənətdə qəbul olunmuş mövcud ənənə və istiqamətlərə əks gedən cərəyan.

**ANDERRAYTER –** 1. Qiymətli kağızlarla bağlı əməliyyatlar üzrə makler. 2. Bank fəaliyyətində, eminentə xüsusi muzd müqabilində razılaşdırılmış şərtlər əsasında həmin qiymətli kağızların bazarda yerləşdirilməsinə zəmanət verən fiziki və ya hüquqi şəxs. 3. Sığortada sığorta kontraktlarının bağlanması və sığorta öhdəlikləri portfelinin formalaşması üçün cavabdeh olan hüquqi şəxs.

**ANDROİD** – Google və Handset Allience şirkətləri tərəfindən kodlaşdırılmış linuks əməliyyat sistemi əsaslı və mobil cihazlar üçün inkişaf etdirilmiş açıq qaynaq kodlu bir əməliyyat sistemi.

**ANFAS** – Ekrandakı fərdin üzünün qabaqdan (öndən) görünüşü; əşyanın üz tərəfdən şəkli.
**ANFİLADA** – Bir cərgədə yerləşən və bir-birlərinə içəriyə açılan qapılar vasitəsilə keçidi olan mənzillər sırası.
**ANİMASİYA** – Multiplikasiya hesabına rəqəmlərin canlandırılması. Video kameralarında istifadə olunan multiplikasiya funksiyası, ayrı-ayrı kadrlarla, yaxud müəyyən fraqmentlərlə çəkilişlər aparmağa imkan verən çəkiliş üsulu.
**ANİMASİYA EFFEKTİ** – Ekranda multiplikasiya vasitələri ilə personajların deyil, yağışın, tüstünün, işığın, suyun və s. hərəkətlərini yaradan təsvir.
**ANİMO** – Cizgi filmini yaratmaq üçün peşəkar kompüter proqramı. Onun vasitəsilə səhnə fonunu arxa kəsilmədən, element-element izləmək mümkündür. Fon çox böyük olduqda onu hissələrə bölüb, sonra birləşdirmək olur.
**ANKLAV** – Bir dövlət ərazisinin, yaxud bu ərazinin bir hissəsinin başqa dövlətin sərhədləri ilə əhatə olunması.
**ANQAJEMENT** – Bir artistin, yaxud teatr kollektivinin müəyyən müddətə tamaşalarda, yaxud konsertdə iştirak etmək üçün xüsusi dəvət olunması.
**ANQARİYA** – Müharibə edən dövlətin öz limanlarında və sularında bitərəf dövlətlərə məxsus gəmiləri həbs edərək istifadə etməsi.
**ANNEKSİYA** – Bir ölkə ərazisinin bir hissəsinin və ya hamısının digər bir ölkə tərəfindən məcburi surətdə zorla alınması, qəsb edilməsi.
**ANNOMİNASİYA** – Danışıqda eyni cür səslənən morfem tərkibi ilə üst-üstə düşən sözlərin işlədilməsindən əmələ gələn ifadələr. Alliterasiya nəticəsində belə ifadələr komik keyfiyyətlər kəsb edir. Belə ifadələrin fonetik və semantik (məna) oxşarlığı üslubi məqsədlərlə istifadə olunur.

**ANNUİTET** – 1. Müddətli dövlət istiqrazının bir növü. 2. İnkişaf etmiş ölkələrdə pensiya planlaşdırmasının ən çox yayılmış alətlərindən biridir. Annuitet sığorta edən tərəfindən sığorta edilən tərəfə ödənilən aylıq rentadır. Annuiteti qeyri-dövlət pensiya fondlarından və eləcə də sığorta şirkətlərindən almaq olar. Fərdi pensiya hesablarından fərqli olaraq, sığorta şirkətlərində sığorta edilən şəxs sığorta şərtlərinə uyğun olaraq istənilən zaman ödənişi dayandıra bilər və həmin ana qədər yığılmış məbləği götürə bilər.
**ANTEKOLOGİYA** – Yunan sözündən götürülüb gül və ekologiya deməkdir. Biologiyanın – bitkilərin çiçəklənməsi və tozlanması prosesinə təsir edən problemləri öyrənən bölməsidir.
**ANTEPENULTİM -** Vurğuya və fonetik proseslərə görə xüsusi mövqe kimi qeyd olunan, axırıncıdan (sonuncudan) əvvəlki ikinci heca. Axırıncıdan əvvəl ikinci heca həmişə vurğulu olduğundan bu hecanın qarşısındakı heca vurğusuz olur.
**ANTESEDENT** –1. Formal məntiqdə söyləmlər sırasında əvvəlinci söyləm. 2. Dilçilikdə anafora ilə bağlı ifadə; söz, söz birləşməsi və cümlə tərkibində nizamla, sıra ilə gələn komponentlərdən (üzvlərdən) əvvəlincisidir ki, buna müvafiq olaraq sonrakı komponenti işarə edir.
**ANTİQLOBALİZM** – Qərbi Avropada siyasi həyatda və iqtisadiyyatda hər şeyi birləşdirmək, ümumiləşdirmək prosesinə qarşı çıxış edən siyasi hərəkat, siyasi mübarizə.
**ANTİNOMİYA –** Qanundakı müddəalar arasında bir-birinə zidd fikirlərin mövcudluğu, bu ziddiyyətin məntiqi baxımdan sübutu.
**ANTİRƏQABƏT TƏCRÜBƏSİ** – Bazardakı hökmran mövqeyi ələ keçirmək yolu ilə inhisarlar tərəfindən rəqabət mübarizəsi normalarının pozulması.

**ANTİSİNTİLYASİYA –** Radiodalğaları ionosfer və troposferdə radiosiqnalların yayımında fuluktasiyasından yaranan təhriflərin aradan qaldırılması.

**ANTİSİPASİYA** – 1. Hadisələrin mümkün gedişinin qabaqcadan hiss edilməsi. 2. Daha gec başlamalı olan hər hansı hadisənin vaxtından əvvəl başlanması. 3. Borc öhdəliyinin vaxtından əvvəl icra olunması. 4. Verginin vaxtından əvvəl yığılması.

**ANTİTRES QANUNVERİCİLİK** – Bir sıra inkişaf etmiş ölkələrdə antiinhisar qanunvericiliyin bir hissəsi.

**ANTİVİRUS** – 1. Virusların tapılması və neytrallaşması üçün proqramdır. Virusun tapılması mümkün olmadığı halda, zədələnmiş proqram ləğv edilir. Antivirus proqramının filtr və ya keşikçi, detektor, həkimlər, immunizator, vaksinlər kimi növləri mövcuddur. 2. Virusların tapılması və məhv edilməsi üçün nəzərdə tutulub.

**ANTREPRENYOR** – İncəsənətin müəyyən növlərində menecer, təşkilatçı, prodüser.

**ANUSVARA** – 1. Saitin sonluğundakı əlavə burun səsi. Sonluğunda anusvara (əlavə burun səsi) olan saitlərə dilçilikdə adətən əlavə səslər kimi baxılır. 2. Yazıda anusvaranı göstərmək üçün işlədilən diakritik işarə.

**APARTEİD -** Əhalinin milli və irqi qruplarına münasibətdə irqi ayrı-seçkiliyin siyasi, sosial-iqtisadi və mülki hüquqlardan əhəmiyyətli surətdə məhrum edilmədə, ərazidən təcridetmədə və s. ifadə olunan ifrat forması.

**APART OTEL** – Qiyməti qonaqların sayından asılı olmayan, mənzillərdən ibarət mehmanxana.

**APELLİANT** – Məhkəmə prosesində apelyasiya şikayəti vermiş tərəf.

**APERTURA –** Antenanın şüalanma səthinin ölçüsünü xarakterizə edən parametrdir.

**APERİODİK ANTENA –** Bu antena nisbi genişzolaqlı olub, verilən spektrdə əsas xarakteristikaları (giriş müqaviməti, istiqaməti və s.) praktiki olaraq dəyişmir. Bu antenalara adətən sazlama tələb olunmur.

**APQREYD** – Kompüterin aparat vasitələrinin modernizasiyası, detalların təzələnməsi.

**APLET –** Böyük olmayan proqram olub, serverə əlavə yüklənir. Həmin serverə müştəri müraciət edəndə, o proqram istifadəçinin kompüterinə yüklənir.

**APOFEOZ** – 1. Hər hansı hadisəni və ya şəxsiyyəti şişirtmək, məşhurlaşdırmaq. 2. Bayram konsertinin, tamaşanın sonu, yekun kütləvi səhnəsi. 3. Hadisənin böyük təmtəraqla, təntənə ilə sona yetməsi.

**APOLİD** – Vətəndaşlığı, təbəəliyi olmayan şəxs.

**APOLİTİK –** Siyasi həyatda iştirakdan boyun qaçıran, siyasətlə maraqlanmayan.

**APOLOGİYA –** Kimisə və nəyisə qərəzdən qorumaq, müdafiə etmək; tərifləmək, ucaltmaq.

**APPLET** – Kiçik proqram-əlavə, internet şəbəkəsində WWW səhifəyə bərkidilmiş səhifənin zahiri görünüşünü yaxşılaşdıran yeni imkanlar, aşağı düşən menyu, "qaçan sətrlər" və s.

**APROBASİYA** – Nəzəri şəkildə qurulmuş metodların, hesablamaların, sxemlərin, iqtisadi proseslərin modellərinin praktikada, real şəraitdə yoxlanılması.

**ARALIQ İŞARƏSİ** – Proqramın yazılışında verilənlər və cümlə elementləri arasında yerburaxmanı göstərən simvol.

**ARANJİMAN –** Hazır musiqi əsərini hansısa alətdə ifa etmək üçün uyğunlaşdırmaq; ona müəyyən ritm və improvizə elementləri əlavə etmək.

**ARBİTR –** 1. Ümumi resurslara qoşulma prosesində konfliktləri həll etmək üçün proqram. 2. Münsiflər hakimi – iki tərəf arasında yaranmış mübahisəni həll etməli olan qərəzsiz vasitəçi.

**ARBİTRAJ** – 1. Mübahisə edən tərəflərin ekspert hakimlər rolu oynayan müstəqil arbitrlərə müraciət etmələri yolu ilə mübahisələrin həll edilməsi üsulu. Bu halda arbitrləri ya mübahisə edənlər özləri seçir, ya qarşılıqlı razılaşma əsasında , ya da qanunla müəyyən edilmiş qaydada təyin edilir. 2. Müəssisələr, təşkilatlar, idarələr arasında əmlak mübahisələrinin həll edilməsi, eləcə də müqavilənin yerinə yetirilməməsi ilə əlaqədar iddiaların tənzimlənməsi məqsədilə yaradılmış dövlət orqanı.

**ARBİTRON** – Ayrı-ayrı televiziya verilişlərinin tamaşaçılar arasında populyarlıq dərəcəsini dərhal müəyyənləşdirməyə imkan verən sistem.

**ARKAD** – Müxtəlif səviyyəli platformaları keçərək xal toplama tipli oyunlar. Bu cür oyunlar avtomatlar düzülmüş tağların tərəfinə qoyulur.

**ARMATOR** – Gəmi sahibi. Dəniz gəmisinin mülkiyyət hüququ ilə ona məxsus olub-olmamasından asılı olmayaraq həmin gəmini istismar edən şəxs.

**ART-DİZAYN** – Dizayn və avanqard təsviri incəsənətin nailiyyətlərini özündə birləşdirən; təsviri incəsənətin bir istiqaməti.

**ART-STUDİYA** – Geniş mənada incəsənət, yaradıcılıq studiyası; sənət əsərlərini yaratmaq və nümayiş etdirmək üçün yer.

**ARTEFAKT** – Təsvirdə əngəllər, təsvirin təhrifi. Təsvirin rəqəmsal işlənməsi zamanı yaranır.

**ARXİV** (kompüterdə**)** – Müəyyən müddət saxlanılması nəzərdə tutulmuş, nisbətən az istifadə olunan məlumatlar və proqramlar toplusu olub, sıxlaşdırılmış tərzdə diskdə saxlanılan informasiyadır.

**ARXİV FAYLI** – İyerarxik sistemli yaddaşda ən aşağı səviyyəyə keçirən fayl.

**ASILI QALMA -** Hesablama sisteminin bir halıdır. Burada proqramın normal işi pozulur və sistem kənar sorğulara cavab verə bilmir. Bu haldan çıxış yollarından biri əməliyyat sisteminin yenidən yüklənməsidir.

**ASSİQNASİYA** – Pul buraxma; konkret məqsədə görə büdcədən pul ayrılması.

**ASSEMBLER** – 1.Assembler dilindən və onun translyatorundan ibarət olan proqramlaşdırma sistemidir. Assemblerləşdirməni yerinə yetirən proqram və ya texniki vasitə. 2. Maşınyönümlü proqram dili. Assemberlər aşağı səviyyəli dillərə aiddir. Hər prosessora görə unikal assembler yaradılır.

**ASSENİZATOR** – Assenizasiya ilə məşğul olan adam.

**ASMA KONVEYER -** Birbaşa olaraq döşəməyə bərkidilmiş və hər hansı sahəni, dəhlizi boş saxlamağı tələb etməyən materialların idarəedilməsi avadanlığıdır.

**ATRİBUT (kompüterdə)** – Obyektin əlaməti, xarakteristikası və ya xüsusiyyəti. Məsələn, faylın atributları (“arxiv”, “gizli”, “sistem”).

**ATTENYUATOR –** Çıxış siqnalı giriş siqnalının funksional eyni olub, çıxış siqnalının səviyyəsi giriş siqnalının səviyyəsindən həmişə az olan qurğu. Bu qurğu sönmə funksiyasını yerinə yetirir.

**ATTORNEY** – Etibaredənə hüquqi xidmətlər göstərən etibarlı nümayəndənin adı.

**AUDİENSİYA** – Diplomatik nümayəndənin başçısının (səfir, konsul və s.) dövlət rəhbəri, hökumət başçısı, Xarici İşlər Naziri tərəfindən qəbul edilməsi.

**AUDİOPLATA** – Elektron hesablama maşınında səsi, musiqini, nitqi (danışığı) yazmağa, canlandırmağa və köçürməyə imkan verən xüsusi qurğu.

**AUDİOTEKST –** Səs teksti ilə cavablandırılan xidmət növü olub, burada sistem avadanlıqlarla təchiz olunur.

**AUDİOVİZUAL –** Səs və görüntü ilə verilən məlumat.
**AUDİOVİZUAL İNFORMASİYA** – Səslə müşayiət olunan təsvirli informasiya.
**AUDİT –** 1. Müəssisələrin (sığorta şirkətlərinin, birgə müəssisələrin, səhmdar bankların, birjaların və s.) dərc (nəşr) edildiyi və ya yuxarı təşkilatlara təqdim etdiyi maliyyə hesablarının, məlumatlarının, onların istəyi ilə hüquqi, iqtisadi və mühasibat baxımından qiymətləndirilməsi də daxil olmaqla maliyyə təsərrüfat fəaliyyəti nəticələrinin kompleks yoxlanmasıdır (ekspertizasıdır); 2. Sistemin hər hansı elementinin və ya qrup hissəsinin iş qabiliyyətinin itməsinin xüsusi jurnalda qeyd olunaraq uçotun qurulması.
**AUTEKOLOGİYA** – Bioloji ekologiyanın ətraf mühit amillərinin ayrı-ayrı orqanizmlərə və əhaliyə göstərdiyi təsiri öyrənən bölməsi.
**AUTENTİFİKASİYA –** Fiksasiya edilmiş kod olub, məlumat ilə birgə ötürülür. Qəbuledici tərəfindən bu kod xüsusi alqoritm vasitəsi ilə hesablanır. Fərdi autentifikasiya kodu SİM kart vasitəsi ilə də ötürülə bilər.
**AUTENTİFİKASİYA AÇARI –** Abunəçinin autentifikasiyası zamanı açıq və ya bağlı şifrlənmə açarı istifadə olunur. Radio şəbəkəsinin hər bir abunəçisinin fərdi autentifikasiya açarı vardır. Bu fərdi autentifikasiya açarı həmin abunəçinin radio terminalı şəbəkəyə qoşulmasının ilk anında həyata keçirilir.
**AUTİZM** – Üç yaşından əvvəl başlayan və ömür boyu sürən, ünsiyyətə əngəl törədən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran beyin xəstəliyi.
**AUTOGEN** (Özünətəlqin)- Autogen məşqlər, müalicə metodu; xüsusi psixi və fiziki məşqlər vasitəsilə insanın özünə nəyi isə təlqin etməsi, özünü inandırması.
**AUTRAYT** – 1. Mükafat və ya diskont tətbiq edilən mübadilə forvard valyuta əməliyyatı. 2. Mükafat və ya güzəşt nəzərə

alınmaqla banklararası müddətli valyuta sövdələrində valyuta məzənnəsi.

**AUTSAYDER** – 1. İnhisar təşkilatına daxil olmayan zəif müəssisə. 2. Yarışda axırıncı yerlərdən birini tutmuş idmançı və ya komanda. 3. Hər hansı sahədə reytinqli yarışmada, rəqabətdə geri qalan.

**AUTSORSİNQ –** Daxili qaydada əvvəlcədən razılaşdırılmış malların alınmasının və xidmətlərin göstərilməsinin kənar təchizatçılara verilməsi prosesidir.

**AUTTREYD** – Hər hansı anlaşılmazlıq və ya səhv nəticəsində yaranan əlverişsiz əqd və ya birja sessiyasının sonunda birtərəfli qalmış əqd.

**AUTTORN SƏNƏDİ** – Bir sıra ölkələrin limanlarında gəminin faktiki çatdırdığı və boşaltdığı yük haqqında tərtib edilən, son məlumatların qeyd olunduğu sənəd. Lakin adından və formasından asılı olmayaraq, hər bir konosament partiyası üzrə yükün təhvil verilməsinin nəticələri barədə məlumata malik olur. Bu sənəddə yükün artıqlığı və ya əskikliyi, habelə vəziyyəti (korlanma, zədələnmə) qeyd olunur.

**AVANPOST** – Başqa sözlə, forpost; irəlidə, ön mövqedə yerləşən gözətçi postu.

**AVERAJ** – Birja oyununun strategiyası. Onun mahiyyəti konkret səhm buraxılışının məzənnəsi dəyişdikcə, müəyyən zaman fasilələri ilə ardıcıl olaraq həmin səhmlərin alınması və ya satılması deməkdir.

**AVERKİL** – Gəminin və ya qayığın tərsinə çevrilməsi hadisəsi.

**AVİAİPOTEKA** – İpoteka girovu; bu halda kredit üzrə zəmanət qismində təyyarə və ya digər uçuş aparatı çıxış edir.

**AVİETKA** – Yüngül təyyarə. İdman avtomobillərinin yarışı.

**AVİSTA** – Vekselin, yaxud hər hansı digər pul hesablaşmaları sənədlərinin üzərində edilmiş yazı.

**AVİZO (BİLDİRİŞ VƏRƏQƏSİ)** – Qarşılıqlı hesablaşmalarda bank müəssisələri tərəfindən qəbul edilən xüsusi sənəd formasıdır.

**AVRO** – Avropa birliyinə daxil olan ölkələrin ümumi pul vahidi; hazırda dünya bazarında ən yüksək pul vahidlərindən biridir.

**AVROÇEK** – Avropa Bank iştirakçıları olan ölkələrin hər biri tərəfindən ödəməyə qəbul edilən çek.

**AVROKART** – Beynəlxalq kredit kartının geniş yayılmış növlərindən biri.

**AVROKLİRİNQ** – Dolların iki əsas klirinq sistemlərindən biri. ABŞ-ın depozitar trast şirkətinin prinsipi üzrə fəaliyyət göstərir.

**AVROKREDİTLƏR** – İri kommersiya bankları tərəfindən avrovalyuta bazarının vəsaitləri hesabına verilən beynəlxalq kreditlər.

**AVROPARLAMENT** – Avropa İttifaqının konkret prinsiplər üzrə müəyyənləşdirilmiş seçkili məsləhətçi orqanı.

**AVROSKEPTİK** – Avropa birliyi ölkələrinin inteqrasiya proseslərinə dair baxış nəzəriyyəsidir.

**AVROVALYUTA** – Xarici valyutadır. Kommersiya bankları bu valyutalarla emitent-ölkə xaricində qeyri-nağd depazit-ssuda əməliyyatları aparır. Avrovalyutadan kredit və istiqrazların verilməsində istifadə olunur; avrovalyuta satıla bilən vasitələrin ucuz və rahat əldə edilməsinə imkan verir. Kommersiya və mərkəzi (milli) banklar, iri şirkətlər əsas istiqrazlı kreditorlar hesab edilirlər. Avrovalyutaya cəlb edilən vəsaitlər daha əlverişli şərtlərə və faiz tariflərinə nail olmağa imkan verir. Avrovalyutada istiqrazların əksər hissəsi orta müddətli, əsasən avroistiqraz formasında olur.

**AVROPA İSTİQRAZI** – Beynəlxalq istiqraz kağız növü olub, borcu təqdim edənlə emitent arasındakı münasibəti əks etdirir.

**AVROPA OPSİONU –** Fəaliyyət müddətinin yalnız son günündə realizə oluna bilən opsion.

**AVROPA VALYUTA PLANI –** Qərbi Avropa iqtisadi və valyuta birləşməsi prosesinə təkan vermək məqsədilə AVS ölkələri tərəfindən tətbiq edilən enib-qalxan valyuta kurslarının birgə rejimi.

**AVTARKİYA** – Ölkəni təsərrüfat cəhətdən xüsusiləşdirmə, ümumi iqtisadi prinsiplərdən yayındırmaq siyasəti, yalnız özünü təmin edən qapalı iqtisadiyyat qurmaq üsulu.

**AVTOCAVAB –** Sorğu çağırışına terminal qurğusunun avtomatik cavabı. Qurğu hansı ki, çağırılan abunəçi evdə olmayanda abunəçiyə avtomatik səs siqnalı ilə cavab verir və ya çağıranın səsini (danışığını) yazır.

**AVTODAYANMA –** Avtomatik dayandırıcı, lent qurtararkən işi dayandıran, yaxud yaddaş siqnalına görə videoaparatı sükunət rejiminə keçirməyə imkan verən avtomatik sistem.

**AVTOFAKS** – Faksın avtomatik ötürülmə sistemi.

**AVTOKAR** – Avtomatik araba; hər hansı məhdud məkan çərçivəsində yükləri yaxın məsafələrə daşımaq üçün daxili yanma mühərriki ilə işləyən və özü hərəkət edən daşıyıcı qurğu.

**AVTOTANIMA –** Ştrix-kod oxuyucusunun avtomatik rejimdə iki və daha artıq simvolu fərqləndirmək imkanıdır.

**AVTOMATİK AXTARIŞ –** Avtomatik idarəetmənin qapalı sistemində axtarış prosesi.

**AVTOMATİK ÇEVİRGƏC –** Elektrik dövrələrin avtomatik kommutasiyası.

**AVTOMATİK QOŞULMA** - Əsas avadanlığın işi dayandıqda, ehtiyat avadanlığın avtomat qurğu ilə işə qoşulması.

**AVTOMATİK YÜKLƏNMƏ** - Operator ilkin yüklənmə prosesində sahəyə əmr verdiyi halda, məlumatların bir hissəsinin lentdən oxunması və onların EHM-ə daxil edilməsi.

**AVTOMATLAŞDIRILMIŞ İDARƏETMƏ SİSTEMİ** – Zəruri informasiyanı avtomatik toplayan və tapşırıqdan asılı olaraq bu informasiya üzərində müvafiq əməliyyatlar aparan “insan-maşın” sistemi.

**AVTOMATLAŞDIRILMIŞ İSTEHSAL(informatika) –** İnteqrasiya edilmiş istehsal sistemini təmin etmək üçün müxtəlif kompüterləşdirilmiş sistemlərin əlaqələndirildiyi (birləşdirildiyi) istehsaldır.

**AVTOMATLAŞDIRILMIŞ ÖYRƏTMƏ** - Elektron Hesablayıcı Maşının vasitəsilə öyrətmə. Tədris prosesində EHM-in tətbiqi. Avtomatlaşdırılmış öyrətmə sistemi öyrənən şəxsə müəyyən həcmdə informasiya verib, onun qarşısına suallar qoyur, cavablarını təhlil edib qiymətləndirir.

**AVTOMATLAŞDIRILMIŞ SİSTEM** – İnsanın fəaliyyəti ilə bağlı olan müxtəlif proseslərin avtomatlaşdırılması üçün nəzərdə tutulan texniki və proqram vasitələrinin kompleksi.

**AVTONOM REJİM –** Xidmət edən personalın iştirakı olmadan avtonom rejimdə işləyən trankinq retranslyatoru.

**AVTOSİNXRONLAŞMA –** Bu sinxronlaşma üsulunda sinxrosiqnal birbaşa giriş data verilənləri selindən ayrılır.

**AVUARLAR –** 1. Aktivlərdir (pul vəsaitləri, çeklər, veksellər, akkreditivlər). 2. Bankın özünün xarici müxbir-bank hesablarında saxlanılan xarici valyuta vəsaitləridir. Avuarlar hesabına xaricdə ödənişlər etmək və öhdəlikləri yerinə yetirmək olur. Hər hansı bir ölkəyə məxsus vəsaitlərin məcmusu xarici avuar adlanır.

**AZERTY KLAVİATUR** – Avropa düzülüşlü klavişləri olan klaviatura.

**-B-**

**BAĞLANMAQ** – Kompüter əməliyyatlarında, proqramların, yaxud məlumatların bir EHM-dən digərinə köçürülməsini ifadə edir.
**BAGER NASOSU** – İçərisində kül, qum, filiz və s. qarışığı olan mayeləri bir yerdən başqa yerə vurmaq üçün nasos.
**BAKALAVR** – Ali məktəblərdə təhsilin dördillik ilk pilləsi. Bolonya Bəyannaməsinə əsasən adi halda ən azı üç il davam etməli və ya Avropa Kredit Transfer Sisteminə görə minimum 180 kredit toplamalı olan birinci mərhələ/dövr təhsilini uğurla başa vurduqdan sonra verilən ali təhsil ixtisas dərəcəsidir.
**BAKALAVR DƏRƏCƏSİ** – Üç səviyyəli Bolonya ali təhsil sisteminin birinci səviyyəsidir. Ali təhsilin birinci dövrünün ixtisas dərəcəsidir və iş həcmi 180-240 kredit vahidindən ibarətdir. Bakalavr proqramı üzə təhsil seçilmiş ixtisas çərçivəsində əmək bazarında tələb olunan bilik və bacarıqların əldə olunmasını nəzərdə tutur.
**BAKALAVRİAT** – Bakalavr elmi dərəcəsi və ya bakalavr ixtisas dərəcəsinin təltif edilməsi və bakalavr diplomunun verilməsi ilə təsdiq olunan ali təhsildir. Birinci dövrün proqramı ikinci dövrün proqramlarına keçmək imkanı yaratmalıdır. Dublin deskriptorlarına uyğun olaraq, birinci dövrün başa vurulmasını ifadə edən ixtisas dərəcələri, öyrəndikləri sahə üzrə bilik və bacarıqlar qazanan, mövcud olan ən mütərəqqi bilikləri nümayiş etdirən, fikirlərini əsaslandıra bilən, peşəkar səviyyədə bacarıqlarını tətbiq edən, sosial, etik və elmi fikirləri nəzərə alaraq informasiyanın toplanmasını, təhlilini, həlli yollarını, istər mütəxəssislərə, istərsə də qeyri-mütəxəssislərə çatdırmağı bacaran məzunlara verilir.
**BAKEN** – Çayda, göldə dayaz yerləri göstərən nişan.
**BAKŞTAK** – Yelkənli qayığın istiqaməti, kursu.

**BALKER** – Qalaq yükləri (filiz, kömür, taxıl, sement və s.) daşımaq üçün gəmi.

**BANK BARATI** – Hər hansı bir hüquqi və ya fiziki şəxsə tapşırıqda göstərilən məbləğin ödənilməsi haqqında bir bankın digər banka tapşırığı.

**BANK LİKVİDLİYİ** – Müştərilərlə münasibətdə bankın öz təəhhüdlərini vaxtında yerinə yetirmək qabiliyyətidir.

**BANK MODUL –** Bir-biri ilə əlaqəli istifadə olunan avadanlıqlar, süzgəclər və ya yaddaş modul toplusu.

**BANKO** – Bank tərəfindən qiymətli kağızların alqı-satqısının aparıldığı kursdur.

**BANKNOT** – Emissiya banklarının dövriyyəyə buraxdığı kağız pullar, faizsiz bank biletləri.

**BANNER** – 1. Satış yerlərində malların reklamı üçün vitrinlərdə qoyulmuş, mağazaların girişlərinə, ticarət zallarının divarlarına vurulmuş, plastikdən, yaxud kağızdan düzəldilən üçkünc və ya dördkünc planşetlər. 2. Kiçik ölçülü reklam tablosu. İnternetdə geniş yayılmışdır və çox vaxt animasiyalı olur. İstifadəçilər kursorla bannerin üzərinə vurduqda reklam olunan səhifə yüklənir. 3. Banner reklamı (veb-səhifələrin reklam üsulu – reklam olunan saytın banneri daha çox izləyicisi olan saytlara qoyulur).

**BARAT VEKSEL-** Veksel sahibinin (trassantın) vekseldə göstərilmiş pul məbləğinin üçüncü şəxsə - vekselin birinci sahibinə (remitentə) ödənilməsi haqqında ödəyiciyə (trassata) göndərdiyi yazılı göstərişdir.

**BARBOTAJ** – Hava üfürməklə suyun oksigenlə zənginləşdirilməsi.

**BARBOTER** – Aşağı hissəsində qaz və ya buxarı nazik şırnaqla vermək üçün borucuğu olan maye qab.

**BARDEPOT** – Xaricdən borc götürülmüş vəsaitlərə ehtiyat tələblər sistemi.

**BARKOD** – Ştrixkod, malın (obyektin) unikal nömrəsinin qrafik görünüşüdür. Müxtəlif qalınlığı olan şaquli xətlər avadanlıq tərəfindən oxunaraq qiymət və s. məlumatların kompüterə ötürülməsinə imkan verir. Birölçülü (xətti), ikiölçülü və digər barkodları mövcuddur. Barkodların qrafik görünüş standartları simvol (rəmz) adlandırılır.
**BAROKAMERA** – Süni surətdə yüksək və ya alçaq barometrik təzyiq yaradılan hermetik kamera.
**BARTER** – Pul şəklində nağd və ya qeyri-nağd hesablaşma əməliyyatları ilə müşayət olunmayan əmtəə mübadiləsi növlərindən biridir. Əmtəələrin mübadiləsi ekvivalent əmtəə (pul məbləğləri) ilə həyata keçirilir və barter iştirakçıları üçün mənfəətli xarakter daşıyır.
**BARTER SAZİŞİ** – İdxal-ixrac sazişi kontragentləri arasında mübadilə müqavilələri ilə rəsmiləşdirilən, balanslaşdırılmış əsasda natural əmtəə mübadiləsini nəzərdə tutan sazişdir. Müqavilə malların dəyərinin gömrük nəzarəti və qarşılıqlı əmtəə axınının tarazlaşdırılmasının qiymətləndirilməsi üçün istifadə olunan, mübadilə edilən əmtəələrin hər birinin dəyər qiymətləndirilməsini əks etdirməlidir.
**BASORAMA** – Avtobusların damında quraşdırılmış işıqlandırılan reklam paneli.
**BAŞ KATALOQ** – İstifadəçilərin fayllarının və birinci səviyyəli altkataloqları qeydə alan fayllar kataloqu.
**BAŞ PAROL** – Müəyyən parollar yığımı üçün ümumi olan əsas söz. Parollar kataloqunun mühafizəsi üçün təyin olunmuş parol.
**BATİAL –** Materik dayazlığı ilə okean yatağı arasında orta mövqe tutan zona(200-500 metrdən 3000 m-ə qədər). Bu ekoloji zona dərinliyin sürətlə artması və hidrostatik (hidrosabit) təzyiqin, fitosintezləşdirici bitkilərin olmaması və s. ilə səciyyələndirilir.

**BATUT** –Tullanmaq üçün istifadə edilən hörmə tor.
**BAYBEK** – Mal mübadiləsi əməliyyatıdır. Bu əməliyyatlar zamanı göndərilmiş avadanlığın dəyərinin əvəzi olaraq həmin avadanlıqda istehsal olunmuş məhsul verilir.
**BAYKER** – Motosiklet azarkeşi, həvəskar.
**BAYNDER** – 1. Satıcı və alıcı arasında əvvəlcədən danışılmış şərtlər əsasında daşınmaz əmlakın alınması hüququnun təminatı kimi ödənən pulların, depozitlərin alınması haqqında sənəddir. 2. Sığorta şirkətləri tərəfindən riskin dərəcəsinin öyrənilməsinin aparıldığı bütün dövr ərzində, daimi sığorta alınana qədər müvəqqəti sığortanı əks etdirən sığorta kontraktının əsas şərtləri haqqında yazılı arayışdır.
**BAYPAS** – Boru kəmərlərinin düz hissəsi ilə paralel qapadıcı və ya tənzimləyici boru kəmərləri armaturları ilə, yaxud cihazlarla dövrələnməsi.
**BAYPAS ƏMƏLİYYATI** – Ürəkdə tıxanmış damarların dəyişdirilməsi əməliyyatı.
**BAYT –**1. Kompüter texnologiyasında istifadə olunan əsas informasiya vahidi. Ən minimal informasiya vahidi bit çox kiçik sayıldığından, adətən 8 bitdən ibarət olan B.-dan istifadə olunur. Bir çox hallarda B. da kifayət etmir. Belə hallarda kilobayt (Kb), meqabayt (Mb), giqabayt (Gb) və terabayt (Tb) işlədilir.**2.** Fərdi kompüterlərdə məlumatların ötürülməsi, saxlanması və işlənməsinin informasiya vahididir.
**BAZA SƏTRİ -** Sətirdə olan hərflərin aşağı nöqtələrinin xətti (altsətirdəki elementlər xaric).
**BAZA ŞRİFTİ** – Qoşularkən mətn prosessorunun işlətdiyi şrift. İstifadəçinin arzusu ilə dəyişdirilə bilər.
**BEKEREL** – Atom nüvəsinin radioaktiv parçalanma (fəallıq) sürətinin ölçü vahidi.
**BEK-OFİS** – Bankın xarici iqtisadi fəaliyyətə xidmət edən, sənədli əməliyyatlar aparan bölməsidir.

**BEKQRAUNDER -** Cari xarakterli marketinq məlumatları; sensasiya olmayan yenilik.

**BENÇMARK** – Hər hansı bir şeyin keyfiyyətini və ya nəticəsini ölçmək və ya müqayisə etmək üçün istifadə oluna biləcək standart və ya meyar. Müqayisə üçün etalonun olması bençmarkinqin (müqayisə prosesinin) həyata keçirilməsi üçün zəruri şərtdir.

**BENÇMARKİNQ** – Müəssisələrin, tərəfdaşların və rəqiblərin fəaliyyəti, onların istifadə etdiyi idarəçilik metodları haqqında informasiyanın yığılması və təhlili prosesidir. Bençmarkinqin məqsədi şəxsi fəaliyyətin səmərəliliyinin artırılması və rəqabətli mübarizədə üstünlük əldə edilməsindən ibarətdir. Bençmarkinqin obyektini texnologiya, istehsalat prosesləri, istehsal və məhsul satışının metodları təşkil edir. Təkmilləşdirmə məqsədilə mövcud proseslər barədə dəqiq təsəvvürün yaradılması və verilənlərin açıq mübadiləsi daxil olmaqla, müəssisələr arasında fəaliyyət göstəricilərini müqayisəsi prosesidir.

**BESSA** – Birja kağızlarının kursunun aşağı düşməsi.

**BESTSELLER** – Kütləvi tirajla nəşr edilən və çox satılan kitab.

**BETAKAM FORMATI** – Yarım düyümlük maqnit lent yazılışlı format, keyfiyyəti düyümlük formata yaxındır.

**BEYİN HƏMLƏSİ –** Ekspert qiymətləndirilməsinin metodlarından biridir. İxtisaslı ekspertlər (mütəxəssislər) qrupu tərəfindən problemlərin şifahi müzakirəsindən ibarətdir. Sərbəst fikir mübadiləsi və qeyri-ənənəvi fikirlərin (nəzərlərin) bildirilməsi əsasında əksəriyyətin tərəfdar çıxdığı nöqteyi-nəzərlərdən biri seçilir.

**BEYSER** – İdmanın ekstremal növü ilə məşğul olan idmançı.

**BEYNƏLXALQ MİQRASİYA** -xarici miqrasiya, dövlətlərarası miqrasiya;yaşayış yerinin dəyişməsi səbəbindən asılı

olmayaraq, adamların dövlət sərhədindən keçərək başqa dövlətlərə hərəkətini əks etdirir.

**BİD** – 1. Kontrakt bağlanması və ya malın aşağı qiymət üzrə konkret təklifi. 2. Konkret qiymətə mal alınması üzrə öhdəlik.

**BİXEVİORİZM (marketinqdə) –** Rəyin, zövqün, əxlaqın, istehsalçıların üstünlük vermələrinin formalaşmasının qanunauyğunluqlarını öyrənən elm sahəsidir.

**BİK** – Birjanın qiymətli kağızlarının məzənnəsinin qaldırılmasına xidmət göstərən birja alverçisi.

**BİLATERAL** – 1. Dildə işarənin ikitərəfli olması: işarələyən və işarələnən. 2. Dilin hər iki yanının üst damağa doğru qalxması ilə yaranan səs. Adətən, bu səs unilateral (təkyanlı) olur.

**BİLATERİZM -** Bilavasitə iki dövlət arasında qarşılıqlı razılaşma əsasında beynəlxalq ticarətin təşkil olunmasıdır.

**BİLBROKER** – Vekselin uçotu və təkrar uçotu üzrə olan sazişlərin vasitəçiliyini bilavasitə həyata keçirən şəxs.

**BİLLİNQ –** Telekommunikasiya (telefon, internet və s.) xidmətlərində hesabatların hazırlanması və istifadəçilərə təqdim edilməsi üçün tarifikasiya.

**BİLİNQVA** – Kompüter tərcüməsi zamanı sənədin iki dildə (orijinal və tərcümə dillərində) verilməsi.

**BİND** – İnternetdə domen adlar xidməti (domen adları serverini himayə edən proqram).

**BİOGENLƏR** – Canlı orqanizmlərin həyat fəaliyyətini optimal dərəcədə qoruyub  saxlamaq üçün onların fəaliyyəti prosesində meydana çıxan kimyəvi birləşmələr.

**BİOHƏRƏKƏTSİZ MADDƏ** - Orqanizmlərdən təşkil olunan qeyri-üzvi maddə (torpaq-yer, atmosferin Yer qatına yaxın olan hava qatı və s.).

**BİOİNFORMATİKA** – Biologiya, biokimya, kompüter elmləri, riyaziyyatı və s. birləşdirən yeni elm sahəsi.

**BİOKLOMATOLOGİYA –** Fiziki mühitin ümumiyyətlə, bütün canlılara göstərdiyi təsiri öyrənən elmdir. Bitkilərin və heyvanların müxtəlif amillərlə (bu amillərə hava və iqlim: temperatur, nisbi nəmlik, atmosfer təzyiqi, günəş radiasiyası, küləklər və s.daxildir) şərtləşdirilmiş reaksiyaları və hərəkət tərzləri (davranışları) onun tədqiqatlarının predmeti hesab edilirlər.

**BİOKORROZİYA –** Müxtəlif orqanizmlərin (xüsusilə, aerob bakteriyaların) həyat fəaliyyəti nəticəsində metalların zədələnməsi (dağılması) prosesi. Biodağılma su və neft borularında, sənaye obyektlərində və digər yerlərdə rast gəlinir, sulfat azaldıcı bakteriyalar metal məhsullar üçün daha aqressiv hesab olunurlar. Materialın biokorroziyadan mühafizəsi üçün müxtəlif funqisidlərdən istifadə olunur.

**BİOKÜTLƏ** – Canlı maddə kütləsidir. Adətən, müəyyən orqanizmlər qrupunun və ya trofik dərəcəsinin ümumi kütləsidir, məsələn: istehsalçıların (produsentlərin) biokütləsi. Biokütlələrin miqdarı təbiətin bioloji məhsuldarlığı ilə əlaqədardır, sahə və ya həcm vahidlərinə aid olan kütlə vahidləri ilə ifadə edilirlər (məsələn: $q/m^2$, $q/m^2$).

**BİOLOJİ PƏRDƏ -** Bioloji süzgəc yükünün səthində tullantı suyundakı çirkləndirici maddələri oksidləşdirən və minerallaşdıran bakteriyalardan və digər mikroorqanizmlərdən yaranmış pərdə.

**BİOM –** Biom “təbii zona” anlayışı ilə üst-üstə düşür. Müəyyən əlverişli iqlim şərtlərinə, bir-birinə bənzər bitki tiplərinə malik olan ekosistem qrupudur. Məsələn: tundra, tauqa, səhra biomu, xəzan meşə.

**BİOMETRİK MƏLUMATLAR** – Biometrik identifikasiya üçün istifadə olunan məlumatlar.

**BİOMETRİYA** – İstifadəçinin verifikasiya və identifikasiyası üçün (icazəsiz girişlərin qarşısını almaq üçün) metodlar işləyib hazırlayan elmlərin tətbiq sahəsi.

**BİOMEXANİKA** – Canlıların anatomik prinsiplərini öyrənən elm.
**BİONİKA ELMİ** – Bioloji obyektlərin onların mexanizmlərini texnikada tətbiqi üçün öyrənilməsi.
**BİOPSİYA** – Xəstəliyin xarakterini mikroskopla müəyyən etmək üçün canlı orqanizm toxumasından kiçik bir parçanın kəsilib müayinə edilməsi.
**BİPLEKSER** – Məlumatların yüksək sürətlə yayılması.
**BİPOLYAR** – İkiişarəli. Siqnalın ötürülməsinin bipolyar metodu.
**BİRGƏ-PROSESSOR** – Ayrıca mikrosxem (xüsusi prosessor), hər hansı bir funksiya daşıyan baş prosessoru tamamlayan.
**BİT**– İşarə, rəqəm; kompüter texnologiyasında (informatikada) ən minimal informasiya vahidi. Bir çox kiçik ölçü göstəricisi olduğundan bu sahədə əsas informasiya vahidi kimi 8 bitdən ibarət olan baytdan istifadə olunur. Bitlərdən baytlar, meqabaytlar və EHM-də istifadə olunan daha iri vahidlər əmələ gəlir. İkili say sistemində informasiya ölçüsü vahid olub, ən az informasiya vahidini (ikili say sistemində "0" və ya "1") göstərir. Bu ad ingilis dilindəki "binary digit" söz birləşməsindən yaranmışdır. Hazırda informasiya ölçüsü vahidi kimi bit, kilobit-Kb, meqabit-Mb-dən istifadə olunur.
**BİT DƏRİNLİYİ** – Kompüter ekranında təsvirin rənginin hər bir pikselini təsvir etmək üçün istifadə olunan termin.
**BİT KARTI** – Ayrı-ayrı piksellərdən ibarət təsvir. Bit kartı çap orijinallarının skan edilməsi yolu ilə qrafik ünsürlərin, eləcə də kadrların tutulması (Farme Grabber) qurğusunun köməyi ilə videotəsvirlərin rəqəmlənməsi nəticəsində yaradıla bilər.
**BİT XƏRİTƏSİ** – Rəqəmsal qiymət cədvəli, təsvirin hər bir pikselinin rəngini kodlaşdırır. Adətən, nöqtəli (rastr) təsvir anlamında işlədilir.

**BİTPAD-** Rəqəmsal planşet (qrafik təsvirlər üçün).
**BİZNES OTEL –** Sırf iş adamlarına xidmət göstərir.
**BİZNES KLASS** – 1. Təyyarədə, qatarda və s. xüsusi statusu olan şəxslər, o cümlədən biznesmenlər üçün nəzərdə tutulan yüksək rahatlıqlı, ali dərəcəli yer. 2. Tədris müəssisələrində maliyyə-iqtisad yönümlü, kargüzarlığı, marketinq və mühasibat uçotunu öyrənən xüsusi siniflər.
**BLANK-VEKSEL** – Üzərində konkret məcburi rekvizitlərin məbləği, göndərilmə tarixi, vekselverənin imzası olmayan vekseldir.
**BLASFEMİYA** – Dini müqəddəsliyə qarşı çıxmaq, bir dinin ehkamlarını, etiqadını danmaq, onları gözdən salmaq.
**BLEF** – 1. Kartla qumar oyununda aldadıcı gediş. 2. Guya böyük üstünlüyə malik olduğunu göstərmək üçün edilən yalançı jestlər.
**BLENDA** – Kino çəkilişi aparatını səpələnmiş yan işıq şüasından qoruyan ləvazimat.
**BLİTTER –** Böyük massivdə (məsələn, fayl, şəkil və s.) məlumatların nüsxəsinin çıxarılması və yaxud yaddaş sahəsinin bir hissəsindən digər hissəsinə köçürmək üçün istifadə olunan qurğu.
**BLOK** – 1. Müəyyən əməliyyatlar sistemini icra edən kompüter sisteminin bir hissəsi (məsələn, qida bloku, yaxud daxiletmə-xaricetmə bloku). 2. Başlanğıcı və sonu olan hər hansı bir proqramın hissəsi. *Yaddaş bloku* – vəhdət şəklində ünvanlanan yaddaş hissəsi. *Qida bloku* – kompüterin elektrik enerji mənbəyi. Kompüterlər, bir qayda olaraq, aşağı gərginlikdən istifadə edirlər. *Blok-aparat* – uzaq məsafələrdə kommunikasiya zamanı istifadə olunan qurğu.
**BLOKADA** –1. Ürəyin oyanmasında fasilə, impulsun ilişməsi; 2. Hər hansı bir orqanın funksiyasının itməsi.

**BLOKBASTER** – Super döyüş filmi; yüksək büdcəli bədii film.
**BLOKEYC** – Səhmlərə tələb aşağı olduqda səhmlərin iri bloklar halında satış qiymətinə, həmin blok səhmlərin ayrı –ayrı hissələrlə satıldıqda mövcud ola biləcək qiymətlərlə müqayisədə əsaslı ucuzlaşdırmanın həyata keçirilməsidir.
**BLOKİROVKA –** 1. Sistemin bir sıra funksiyalarını yerinə yetirə bilməmək vəziyyəti. 2. Tupik vəziyyəti. Sistemin öz funksiyalarını düzgün yerinə yetirə bilməməsi vəziyyəti.
**BLOKLAŞDIRMA –** 1. Cari əməliyyatı yerinə yetirməmiş sonrakıların xidmətinə qadağan edilməsi. 2. Verilənlərin saxlanılmasını təmin edən sistemlərdən biri. Bu termin paroldan istifadə edən sistemlərə aiddir.
**BLOQ** – Müxtəlif mövzularda vaxtaşırı təzələnən xəbərlər lenti. Hər bir oxucular tərəfindən şərh oluna bilər.
**BLUTUZ** – Kabelsiz (simsiz ) fərdi radio şəbəkəsi. Mobil telefonlarda, fərdi kompüterlərdə, videokameralarda istifadə olunur.
**BOBSLEY** – İdarə olunan xizəklərdə xüsusi düzəldilmiş buz yolla yüksəklikdən böyük sürətlə aşağıya enmək yarışı.
**BOD** – 1. Məlumatların ötürülmə sürəti vahidi. Saniyə ərzində ötürülən bitlərlə ölçülür. 2. Modemin buraxma qabiliyyəti ilə əlaqədar olub, informasiyanın ötürülmə sürətini göstərən ölçü vahidi. Bod modemin bir analoq siqnalından digərinə keçmək qabiliyyəti ilə müəyyən edilir.
**BOKS-PALET** – Bütöv və ya torşəkilli divarlara malik, bərk özüllü, çəngəlli yükləyici ilə qaldırmaq üçün uyğunlaşdırılmış müxtəlif ölçülü yeşiklər. Kiçik partiyalı yüklərin konteynerə yüklədilməsi üçün tətbiq edilir.
**BOKS TƏHLİL** – Girişdə və çıxışda müşahidə oluna bilən daxili strukturu və oradakı əlaqələri görə bilməyən sistemlərin təhlili. Kibernetikadan götürülmüş bu üsul qrammatik qaydalar

sistemini dilin törəmə strukturları ilə eyniləşdirir. İnsan beynindəki prosesləri qara qutuya bənzədir.
**BON** – Pul almaq üçün kredit kağızı.
**BONİFİKASİYA** – Malın keyfiyyətinin pisliyinə görə onun qiymətindən edilən güzəşt.
**BONUS** – 1. Əlavə ödəniş, mükafat. 2. Satıcının etdiyi əlavə güzəşt, endirim.
**BORC TƏƏHHÜDÜ** – Borc alanla verənin arasında tərtib edilən hüquqi sənəd.
**BORDERO** – 1. Mühasibatlıq sənədlərindən, hesablardan və s. çıxarış. 2. Satılmış qiymətli kağızların banklar, bank kontorları və maklerlər tərəfindən hazırlanan siyahısı.
**BORDSLAR** – Qalınlığı 2 düyümdən az, istənilən endə olan mişarlanmış ağac tirlər.
**BOŞALDILMA** – 1. Nəqliyyat vasitəsi və ya taranın yükdən azad edilməsi ilə əlaqədar olan logistik əməliyyatıdır. 2. Yükün nəqliyyat vasitəsi, tara, saxlanc və s-dən çıxarılması.
**BOTOKS** – Plastik cərrahiyyədə qırışların açılması üçün istifadə edilən preparat.
**BOTEL** – Uyğun formada təchiz olunmuş suda yerləşən kiçik gəmi.
**BOULİNQ** – Oyun xəttinin başlanğıcında dayanaraq xəttin sonundakı fiqurları boulinq topları ilə aşırtma məqsədi daşıyan əyləncəli idman növü.
**BOYENT** – Bazarın xoşagəlməz iqtisadi şəraitlə bağlı olaraq qiymətlərin sürətli artması ilə xarakterizə edilən müəyyən vəziyyətidir.
**BÖCƏK (informatikada) -** Proqram və ya aparat xətası. Bu ad kontraktlar arasında qalmış bir kəpənəyə görə ABŞ universitetlərinin birində güclü EHM-in sıradan çıxmasından sonra yaranıb.
**BRAKER** – Brakerajı həyata keçirən rəsmi əmtəəşünas.

**BRAKERAJ** - Əmtəələrin keyfiyyətlərinin standartların tələbinə və ya mal göndərilməsi haqqında müqavilənin şərtlərinə uyğunluğunun yoxlanması.
**BRANDMAUER** – Binalarda yanğının yayılmasının qarşısını almaq üçün divar. İki bina arasında yanğına qarşı tikilən divar.
**BRANXİOGİEN** – Qəlsəmə epitelindən əmələ gələn bədxassəli şiş.
**BRAŞPİL** – Gəmilərdə lövbəri qaldırmaq üçün mexanizm.
**BRAUZER –** 1. Hipertekst məlumatlarını axtarmaq və ya oxumaq üçün proqram. Məsələn, HTML məlumatlarına baxmaq üçün istifadə edilir. 2. Sürətli templə baxmaq üçün proqram. Bu vasitə yarımekran rejimdə tekst fayllarına və video məlumatlara baxmaq imkanı yaradır. 3. Veb səhifələrə baxmaq üçün proqram - klient.
**BRENDİ** – 1.Rəsmən beynəlxalq idman terminologiyasında – buz üstündə topla xokkey oyununun adı; 2. Tünd alkoqollu içki.
**BRENDİNQ** – Bu və ya digər firmanın mallarına uzun müddət üstünlük verilməsi şəraitinin yaradılması ilə bağlı marketinq fəaliyyəti.
**BREYK** – 1.*idm.* Boksda hakimin rinqdəki iştirakçılara mübarizəni müvəqqəti dayandırmaq və bir addım geri çəkilmək barədə verdiyi komanda. 2. *iqt.* Bazarda qiymətin kəskin düşməsi.
**BREYN-RİNQ –** Aparıcının suallarına tez və düzgün cavab verən, geniş biliyə malik oyunçuların iştirak etdiyi intellektual yarışma; televiziya oyunu.
**BREYNSTORMİNQ –** İnteraktiv dərslərdə tətbiq olunan metod; beyin həmləsi, əqli hücum.
**BROKER –** Müştəri hesabına alver edən və buna görə komisyon mükafatı alan birja alverçisi və ya vasitəçisidir. Adətən, agent komissiya və ya tapşırıq müqaviləsi əsasında fəaliyyət göstərirlər. Brokerlər alıcı və satıcı arasında əlaqə

yaradaraq ticarət sövdələşməsi bağlanmasını təmin edirlər. Broker rolunda ayrı-ayrı şəxslər, firmalar və təşkilatlar çıxış edə bilərlər.

**BROKER KOMİSYONU** – Yük axtarılmasına, sövdələşmə danışıqlarında vasitəçiliyə, sövdələşmənin icrasında və yaranan fikir ayrılıqlarının tənzimlənməsində köməyə görə gəmi sahibinin brokerə ödədiyi mükafat.

**BROKER FİRMASI-** Birja bazarında və ya birja bazarından kənarda olan vasitəçi təşkilatdır.

**BROKERİC** – Brokerin aldığı mükafatdır.

**BRUS** – İnşaat mexanikasında en kəsiyinin həndəsi ölçüləri uzunluğuna nisbətən kiçik olan cisim.

**BUFER** – İnformasiyanın müvəqqəti saxlanılması üçün istifadə olunan yaddaş hissəsi. Bufer klaviatura işlədiyi müddətdə vasitəçi rolunu oynayır. Bufer disketə, yaxud daşınan diskə yazılışı zamanı lazım olur.

**BUFER SAHƏ** – Məlumatların müvəqqəti saxlanması üçün kompüterin (və ya kontrollerin) operativ yaddaş qurğusu.

**BUK** – Valyuta dilerin alqı-satqısı üzrə imkanlarının tam tükənməsi vəziyyətini bildirən termindir.

**BUKİNQ LİST** – Müəyyən gəmiyə yüklənmək üçün nəzərdə tutulmuş yük haqqında məlumatların yazıldığı sənəd. Bukinq listə qablaşdırılmanın növü, yükün təsviri, çəkisi və həcmi, xüsusi yığılmanın zəruriliyi və s. məlumatlar daxil edilir.

**BUKİNQ NOT** – Dənizlə yük daşınması müqaviləsinin forması. Burada yükün növü, çəkisi, yükləmə və boşaltma limanları, stadiya vaxtı göstərilir. Gəmi sahibi, daşıyıcı və ya onun agenti, yük sahibi tərəfindən imzalanır. Bukinq not yük sahibinə öz yükləri üçün xətti gəmidə ehtiyat yer saxlamağa imkan verir.

**BUKMARK** – Maraqlı sənədin və ya səhifənin yadda saxlanılmış linki (ünvanı). Veb səhifədən sitat.

**BUKMEKER** – Totalizatorda, xüsusilə yarışda mərci qəbul edən şəxs.
**BULLİT** – Sol tərəfdən seçilmiş siyahının, hər sətrin başında qara yumru, kvadrat, ulduz və ya başqa işarəsi olan mətn fraqmenti.
**BUMERANQ** – 1. Əyilmiş taxta əmud və ya oraqşəkilli lövhəcik formasında metal alət. 2. İnsanın atdığı yanlış addımlarının zərərini çəkməsi.
**BUNQALO** – Yüngül materiallardan tikilmiş, turistlərin yerləşdirilməsi üçün istifadə olunur.
**BURQOMİSTR** – Dövlət hakimiyyətinin şəhər orqanlarında yüksək vəzifəli şəxs və ya bəzi ölkələrdə idarəetmə üsulu.
**BUSTER** – Kuki –faylların bloklaşdırılması üçün proqram. Spamın qarşısını alan.
**BUTİK** – Hazır geyim çeşidləri satan yerlərin ümumi adı.
**BÜROFAKS –** Ümumi istifadəli telefon şəbəkəsində fərdi faks aparatı olmayan istifadəçilər üçün faksimil rabitə xidməti təşkil edən qurum.
**BÜTÖV LOT** – Qiymətli kağızlarla ticarət üçün yekun məbləğlə ifadə olunan qiymətli kağızlar qrupu vahidi.

## -C-

**CAKUZİ** – Suyun xüsusi sistem üzrə dövr etdiyi və yüksək təzyiqlə vurulduğu vanna.
**CAVAB (informatikada)** – Müraciətlərin icra olunmasının nəticəsi; istifadəçinin müraciətinə sistem reaksiyası.
**CEKPOT** – Lotereyada böyük məbləğli uduş.
**CIĞIR** – Yazma-oxuma bağlılığı vasitəsilə maqnit diskinin bir tam dövr ərzində oxuna bilən hissəsi.
**CİNQL** – Reklam anonslarını müşayiət edən və tez-tez təkrarlanan qısa musiqi çağırışı.

**COBBER** – 1. Təkərdən satışı sürətlə həyata keçirən anbarlara malik olmayan əmtəələri alan və satan ticarət vasitəçisidir, topdansatış firmasıdır. 2. Birja ticarətinin iştirakçısıdır.
**COYSTİK** – Kursorun displeyin ekranında hərəkətinin əl ilə idarə edilməsini təmin edən qurğu.

**-Ç-**

**ÇAT -** İnternet şəbəkəsi dialoq rejimində qısa mətn məlumatları ilə mübadilənin təşkili. Bu halda dialoq iştirakçıları klaviatura vasitəsilə sorğu göndərir və displeyin ekranında cavabı alır.
**ÇAT SEANS –** İnternet şəbəkəsində qarşılıqlı dialoqun əsas forması.
**ÇİLƏYİCİ HOVUZ** – Su dövranlı basqılı boru kəmərləri sistemi ilə təchiz olunmuş açıq çən.
**ÇİP –** 1. Mürəkkəb siqnal elementi. Bu siqnalın uzunluğu informasiyalı simvolun uzunluğundan dəfələrlə azdır. 2. Bir kristal üzərində yarımkeçirici mikrosxem.
**ÇİP SÜRƏTİ –** Geniş skeptrli sistemdə siqnalların verilmə sürəti. Takt tezliyi giriş siqnalın tezliyindən dəfələrlə çoxdur.
**ÇİPS –** Lay-lay doğranmış və yağda qızardılmış kövrək, xırçıldayan kartof dilimləri.
**ÇİZBURQER** – İsti qəlyanaltı; ikiyə bölünmüş və arasına kotletlə pendir qoyulmuş ədviyyatlı dairəvi kökə.

**-D-**

**DAXİLETMƏ (informatika) -** Xarici qurğudan EHM-in əsas yaddaşına verilənlərin ötürülməsi. Xarici qurğularla əsas yaddaşın arasında verilənlərin qarşılıqlı surətdə ötürülməsini səciyyələndirən ümumi termin. Aparat texniki təminatı – hər hansı sistemin işlənməsi üçün vacib olan EHM, xarici qurğular,

terminal və abonent məntəqələr, rabitə vasitələrindən ibarət texniki vasitələr.

**DAXİLETMƏ QURĞUSU** – İnformasiyanın daxil edilməsini təmin edən hər hansı bir qurğu (klaviatura, disk daşıyıcısı, skaner, "mouse" qurğusu, işıq qələmi, ştrix kodu).

**DALĞA ƏDƏDİ** – Dalğa uzunluğu ilə əlaqəli kəmiyyət; 2π uzunluqda yerləşən dalğaların sayı.

**DALĞA VEKTORU –** İstiqaməti qaçan dalğanın yayılma istiqamətinə uyğun, modulu isə dalğa ədədinə bərabər vektor.

**DALĞAQIRAN** – Dəniz, göl, su hövzələri və s.-nin sahilboyu hissəsini dalğalardan mühafizə edən hidrotexniki qurğu.

**DAMNO** – 1. Pulun nominal dəyəri ilə, cari kurs üzrə hesablanmış dəyəri arasındakı fərq. 2. Bankların komissiyaya verilmiş veksellərin inkassasiya ilə əlaqədar, yəni bu veksellər üzrə nağd pulların alınması ilə bağlı xərclər.

**DAMP –** 1. Verilənlərin seqmentin birindən digərinə daşınma üsulu ilə yaddaşda olanların yenidən yazılışı. 2. Yaddaşda olanların çap etdirilməsi, yaxud ekrana çıxarılması. 3. Ekrana çıxarış, ekrandakının fayla çevrilməsi və ya çap edilməsi. 4. Faylın və ya yaddaşın bir hissəsinin yadda saxlanılması. 5. Müəyyən müddətdə kompüterin yaddaşı haqqında ətraflı informasiya.

**DAMPİNQ** – Tullantıların okeana və dənizlərə atılması, basdırılması. Hər il akvatoriyalara basdırılmaq üçün çoxlu miqdarda müxtəlif tullantılar aparılır. Dənizin dibini dərinlətmə işləri zamanı çıxarılan qrunt, sənaye tullantıları, inşaat zibili və hətta radioaktiv tullantılar dampinq adlanır.

**DANIŞIQ KLİŞESİ –** Danışıq dilində istifadə edilən stereotip deyim. Danışıq klişesinin fərqləndirilməsi təlimdə kommunikativliyin realizasiyasına kömək edir.

**DAŞIYICI** – İnformasiya (verilənlər) daşıyıcısı. Verilənlərin saxlanılması üçün nəzərdə tutulmuş maddi obyekt.

**DATA KART** – İnformasiya əməliyyatlarını yerinə yetirmək üçün elektron kart.

**DAYCEST –** Rəqəmli imza rolunu oynayan qısa şifrələnmiş məlumat. Bu rabitə kanallarında şifrə edilməmiş məlumatlar birgə ötürülür.

**DEBET -** Müəssisənin (bankın) borclarının miqdarını göstərən, mühasibat hesablarının sol tərəfidir. Aktiv hesablarda debet sayılan məbləğin artmasını, passiv hesablarda isə azalmasını göstərir. Bütün iqtisadi hesablaşmalar bir hesabın debetinə və digər hesabın kreditinə yazılır.

**DEBET NOT –** Bu və ya digər səbəblərə görə ödənilməli olan, sonuncu müəyyənləşdirilmiş məbləğin debet hesabına yazılması barədə bir tərəfin o biri tərəfə göndərdiyi bildiriş.

**DEBET KARTI** – Alıcının cari hesabından onun tərəfindən alınmış mal və xidmətlərə görə pul silinməsini həyata keçirən mikroprosessor kartoçka.

**DEBİTOR** – Kredit (borc) verilmiş hüquqi və ya fiziki (borclu) şəxslərdir.

**DEBİTOR BORCLARI** – 1. Debitorlardan, yəni hüquqi və ya fiziki şəxslərdən müəssisəyə çatacaq borcun məbləğidir. Debitor borcu iqtisadi fəaliyyətin normal prosesi və ya maliyyə, yaxud ödəmə intizamının pozulması ilə əlaqədar ola bilər. Debitor borcu xammal və materialların alınması üçün dövriyyə vəsaiti çatışmazlığında vaxtsız ödəmə hallarında, müəssisə dayanarkən işçilərə əmək haqqının verilməsində müəssisənin dövriyyəsindən vəsaitin ayrılmasını əks etdirir. 2. Şirkətin gəlirlərinin ümumi məbləğinin qeyri-müəyyənliyi nəticəsində, hələlik üçüncü şəxs tərəfindən daxilolmaların hesaba yazılmamış gəlirləridir.

**DEBURS** – Qaytarıla bilməyən ticarət və digər xərclər.

**DEDVEYT -** Gəminin texniki sənədinə müvafiq olaraq, icazə verilə bilən yükün və gəminin yanacaq ehtiyatının, ekipajın və

onun baqajının, içməli suyunun, azuqəsinin və s. birgə çəkisini əks etdirir.

**DEFİNİSİYA** – Predmet və ya hadisənin əsas mahiyyətini yığcam şəkildə əks etdirən izah, şərh, tərif; məzmunun tərif formasında qısaca ifadəsi.

**DEFLYASİYA** - Dövlət tərəfindən inflyasiyanın aşağı salınması məqsədilə tədavüldə olan pul vəsaitlərinin bir hissəsinin çıxarılmasıdır.

**DEFLYATORLAR –** Beynəlxalq təcrübədə iqtisadi göstəricilərin, o cümlədən UDM-un komponentlərinin müqayisəli qiymətlərdə hesablanması üçün və qiymət dinamikasının ümumiləşdirici məcmu *göstəricilərinin* xarakteristikası üçün istifadə edilən müxtəlif indekslərin məcmusudur. Qiymət statistikasında deflyator indeksləri inflyasiyanın miqyasını qiymətləndirən geniş əhatəli göstərici hesab edilir.

**DEFLYATORLAŞDIRMA –** Cari qiymətlərlə ifadə olunmuş göstəricilərin daimi, müqayisə edilən qiymətlərə çevrilməsidir.

**DEFOLT SVOPU** – Kredit müdafiəsi satıcısının müqavilə şərtlərinə uyğun olaraq müəyyən kredit hadisəsinin baş verməsi halında alıcıya müəyyən məbləği ödəməyə razılaşşdırılmış müqavilə. Onun əvəzinə alıcı satıcıya mükafat verir.

**DEFRAQMENTASIYA** – Sistemin yaxşı işləməsi üçün dağınıq məlumatların sərt diskdə bir yerə yığılması əməliyyatı; Fraqmentasiya vəziyyətinin aradan qaldırılması.

**DEİNİSİALİZASİYA** – Proqramın işə salınmasından əvvəl mühitin parametrinin bərpası.

**DEİNKAPSULLAŞDIRMA –** Verilənlərin bərpası prosesi. Bu proses nəticəsində informasiyalı işarələrlə xidmət işarələrin ayrılması həyata keçirilir.

**DEKHOLDER** – Brokerlər üçün müştərilərin tapşırıqlarının birja saxlayıcısı.

**DEKLEDERE –** Mülki hüquqda komisyon müqaviləsi şərtlərindən biri.

**DEKODER –** 1. Kodlaşdırılmış siqnalı verilən alqoritmlə emal etməklə ilkin vəziyyətə çevirmək üçün istifadə edilən məntiqi sxemlər (qurğu). 2. Deşifrə qurğusu, mikrosxem deşifrə qurğusu. Giriş siqnalını bir neçə çıxış siqnalına çevirir və məlumatları başqa şəklə salır.

**DEKODLAŞDIRMA** – Dekoder vasitəsi ilə aparılan əməliyyat.

**DEKREMENT** – 1. Mənfi artımın dekrementi, mənfi artım vermək, qiyməti azaltmaq. 2. Sistemin məhsuldarlığının aşağı düşməsi; məsələn, operativ yaddaşın az olması səbəbindən.

**DEKVANTLAYICI –** Kvantlanmış siqnalı analoq siqnala çevirən qurğu.

**DELFİNARİYA** – Delfinlər üçün okeanariya.

**DELİMİTASİYA** – Dövlət sərhədinin bağlanmış müqaviləyə uyğun təsvir edilməklə və xəritədə qeyd edilməklə müəyyənləşdirilməsi.

**DELİSTİNQ** – Qiymətli kağızların fond birjalarında ticarət siyahısından onların təminatı yoxlanıldıqdan sonra qərar əsasında çıxarılmasıdır.

**DELİVERİ DEYTS** – Yüklərin mənzilbaşına çatdırılması üçün firma tərəfindən təyin olunmuş tarix. Əgər yük bu tarixə gəlib çatmazsa, yükgöndərən müqaviləyə əsasən öhdəliklərini yerinə yetirməmiş sayır.

**DELİVERİ NOT** – Qaimə, gəmiyə yüklənmiş yük haqqında ətraflı məlumatların qeyd edildiyi sənəd. Yükalana təqdim olunmaq üçün tərtib edilir.

**DELİVERİ ORDER** – 1. Pay konosamentinin rolunu oynayan və konosament üzrə gəminin çatdırıldığı yükün bir hissəsinin müəyyən şəxsə verilməsi barədə sərəncamın qeyd olunduğu sənəd. 2. Yük sahibinin anbar sahibinə onda qorunub saxlanan

yükün bir hissəsinin müəyyən şəxsə verməsi barədə sərəncamın qeyd olunduğu sənəd.

**DELFİ METODU** – Ekspert qiymətləndirməsi metodologiyası.

**DELTA** – 1. Ehtimal olunan xəta. 2. Məhsulun əsas bazara çıxması ilə onun lokal versiyasının peyda olması arasındakı müddət.

**DEMARKASİYA** – Başqa-başqa dövlətlərə məxsus ərazi, demarkasiya xətti, müzakirə və ya sülh bağlayan iki ordunu bir-birindən ayıran xətt, zona.

**DEMARKETİNQ** – Marketinqdə, mallara olan tələbatın mövcud resurslar şəraitində onların istehsalı imkanlarının asan səviyyə artımı ilə şərtləndirilən davranış vəziyyəti və xəttidir.

**DEMARŞ** – Bir ölkənin hökumətinin, xarici işlər idarəsinin və ya diplomatik nümayəndəliyinin başqa dövlətə qarşı gerçəkləşdirdiyi diplomatik aksiya.

**DEMEREC** – Dənizlə yük daşınma müqaviləsində yük əməliyyatları üçün nəzərdə tutulmuş staliya vaxtından artıq müddətə gəminin boş dayanmasına görə fraxtedənin və ya yükgöndərənin, yaxud yükalanın gəmi sahibinə ödədiyi məbləğ.

**DEMİLİTARİZASİYA** – Hərbisizləşdirmə, silahsızlaşdırma. Ərazinin hərbi silah və texnikadan təmizlənməsi.

**DEMO** – Nümayiş üçün proqram, demoversiya, demo. Demo pulsuz yayılır (məsələn, reklam və marketinq məqsədləri üçün). Proqramın tam olmayan versiyası.

**DEMOBİLİZASİYA –** 1. Müharibənin qurtarması və ya hərbi xidmət müddətinin bitməsi ilə əlaqədar hərbi qulluqçuların silahlı qüvvələrdən tərxis olunması. 2. Silahlı qüvvələrin və iqtisadiyyatın bütün sahələrinin hərbi rejimindən normal fəaliyyət rejiminə keçirilməsi.

**DEMODULYASİYA –** Qəbuledici tərəfdə faydalı siqnalı almaq üçün modulyasiyaya əks əməliyyat. Maneələr və küylər

nəticəsində qismən təhrif olunan faydalı siqnal verici tərəfindən göndərilən siqnalla identik olur.

**DEMODULYATOR** –Modulyasiyalaşdırılmış siqnaldan başlanğıc siqnalını bərpa edən funksional qurğu.

**DEMON** – İstifadəçidən gizli gedən proses (çox vaxt fon rejimində). Məsələn, sənədin standart formalaşdırılması və ya çapı zamanı.

**DEMONTAJ** – Maşının, aparatın, qurğunun hissələrinin sökülməsi.

**DEMORSASİYA –** Dövlətin ikitərəfli beynəlxalq müqaviləni rədd etməsi və ya çoxtərəfli müqavilədən çıxması.

**DEMPFERLƏMƏ REAKSİYASI** – İstehsal səviyyəsini tələbatda və ya ehtiyatların həcmində baş verən dəyişikliklərə və tədricən uyğunlaşdıran reaksiyalar.

**DEMPİNQ** – Rəqibləri sıxışdırıb aradan çıxarmaq üçün malın ölkədən xarici bazara aparılıb daxili bazara nisbətən xeyli ucuz qiymətə satılması.

**DEMULTİPLEKSOR –** Multipleksora əks əməliyyat aparan qurğu. Faktiki olaraq, bu qurğu verilmiş alqoritmlərə uyğun qrup siqnalının bir neçə kanal siqnalına çevrilməsi (ayrılması) əməliyyatını həyata keçirir.

**DEMUTASİYA** – Təbii və ya antropogen faktorların təsirinə məruz qalan ekoloji suksessiyadır.

**DENONSASİYA** – Beynəlxalq hüquqda beynəlxalq müqavilə iştirakçılarından birinin müqaviləni yerinə yetirməkdən imtina etməsi və bununla onu özü barəsində qüvvədən salması.

**DEONTOLOGİYA –** 1. Etika və əxlaq normaları haqqında elm. 2. Hüquq normaları, etika, əxlaq qaydaları və optimal informasiya siyasətinin formalaşdırılmasını təmin edən bütün davranış normalarının məcmusu.

**DEPAKETLƏYİCİ –** Paket araşdırıcısı. Paketi araşdıraraq ondan informasiyalı (faydalı) məlumatı ayırır.

**DEPOLARİZASİYA** – Radio dalğalarının atmosferdə yayılması zamanı qütb dəyişmə effekti.
**DEPOPULYASİYA** (frans. *depopulation* – əhalinin azalması) – Hər hansı bir ölkənin və ya regionun əhalisinin mütləq sayının sistematik azalması (nəslin pozulması) əhalinin asağı təkrar istehsalı nəticəsində baş verir, sonra gələn nəsillər sayca əvvəlki nəsillərdən az olur. Depopulyasiya dedikdə, bəzən demoqrafik böhranın təzahür formalarından biri başa düşülür. Depopulyasiya əhalinin təkrar istehsalı üzrə göstəricilər sistemi, o cümlədən əhalinin təkrar istehsalının netto-əmsalı ilə xarakterizə olunur (onun kəmiyyəti uzun müddət ərzində vahiddən aşağı olur).
**DEPORTASİYA** – Bir xalqın yaşadığı ölkə ərazisindən zorla çıxarılması, məcburi köçürülməsi və ya qovulması.
**DEQRADASİYA –** 1. Sistemdə olan zədələr (dayanmalar) hesabına şəbəkə keyfiyyətinin mərhələli pisləşməsi prosesi. 2. Keyfiyyətin aşağı düşməsi, imkanların azalması. Məsələn, xətdə əngəllərin olması səbəbindən siqnalın keyfiyyətinin aşağı düşməsi.
**DEQRUPLAŞDIRMA** – Yüklərin yük partiyalarına göndərişlər üzrə, yük bağlamalarının isə son yük vahidlərinə bölüşdürülməsidir.
**DERATİZASİYA** – Epidemioloji və iqtisadi cəhətdən insan üçün zərərli olan gəmiricilərlə mübarizə tədbirləri kompleksi.
**DEREGİSTRASİYA** – (qeyd etməmək). Registrasiyadan (qeydiyyatdan) keçmiş mobil telefon stansiyasını aktiv mobil stansiyaları siyahısından çıxarmaq. Əgər uzun müddət radiostansiya efirə çıxmırsa, onda müşahidələr nəticəsində həmin radiostansiya avtomatik aktiv radiostansiyalar siyahısından çıxarılır.
**DERİVATİV -** Dəyəri bazis aktivlərinin dəyərinə görə müəyyənləşdirilən, təcili sövdələşmələr bazarında dövr edən

təcili sazişlərdir. Başqa sözlə, törəmə qiymətli kağızlardır, birja aktivinin bu qiymətli kağız əsasında olan qiymətinin dəyişməsi ilə bağlı baş verən əmlak hüququnun (öhdəliklərinin) ifadəsinin sənədləşdirilməmiş formasıdır. Derivativlərin tədavülünün əsas məqsədi müvafiq aktivlərin qiymətlərinin dəyişməsindən gəlir əldə etməkdən ibarətdir.

**DESENSİBİLİZASİYA** – Hər hansı bir maddənin təsirinə qarşı orqanizm həssaslığının azalması.

**DESKRİPTOR** – Məlumat- axtarış dili üçün söz, yaxud vahid söz birləşməsi yığımı olub, məzmunun əsas əlamətlərini əks etdirmək və sənədin axtarış surətini artırmaq üçün istifadə olunur.

**DESKRİPTOR TƏSVİRETMƏ –** 1. Verilənlərin növünü və ya şəbəkə resurslarını müəyyən edən əsas söz. 2. İnformasiya axtarışı sistemlərində sənədin əsas məzmununun təsviri üçün lüğət vahidi. 3. Obyekt haqqında əsas məlumatları əks etdirən parametrlərin toplusu.

**DESKRİPTORLAR TANIDICILAR** – İxtisas dərəcələri çərçivəsinə aid olan bir termindir. Deskriptorlar ixtisas dərəcəsinin müxtəlif səviyyələri üçün tədrisin (öyrətmənin) nəticələrini ümumiləşdirilmiş tərzdə təsvir edir. Deskriptorlar sistemi invariantdır, yəni hər hansı konkret təhsil konteksi ilə əlaqəli deyil və buna görə də o, ixtisas dərəcələrinin müqayisə edilməsinə imkan yaradır.

**DESMURGİYA** – Sarğılar və onların qoyulması ilə məşğul olan tibb sahəsi. Sarğı termini altında müxtəlif zədələnmə və xəstəliklər zamanı xəstənin bədəninə qoyulan müalicə vasitələri kompleksi nəzərdə tutulur.

**DESTRUKSİYA** – Təsərrüfatda formalaşmış iqtisadi, istehsal əlaqələrinin strukturunun pozulması, iqtisadiyyatın tənəzzülü, dağılmasıdır.

**DEŞİFRATOR –** Adətən bu qurğu ödənişli TV yayımlarında tətbiq edilir. Şifrələnmiş video siqnalı açmaq üçün istifadə edilir.

**DETOKSİKASİYA** – Təbii yolla və ya müxtəlif kimyəvi komponent və vasitələrin tətbiqi ilə orqanizmlərdə və bütövlükdə ekosistemlərdə müxtəlif zəhərli maddələrin zərərsizləşdirilməsi.

**DETOPONİMİZASİYA** – Xüsusi coğrafi adların ümumi ismə keçməsi.

**DEVALVASİYA** - Pul vahidinin, qızıl məzənnəsinin rəsmi azalması, yaxud milli valyutanın qızıla, gümüşə, xarici valyutaya görə məzənnəsinin aşağı düşməsi deməkdir. İnflyasiya, tədiyyə balansının defisiti (kəsiri) pul dövriyyəsinin pozulması nəticəsində digər ölkələrin valyutası ilə müqayisədə bir ölkənin valyutasının dəyişmə məzənnəsinin birdəfəlik aşağı düşməsi,qiymətdən düşməsidir. Devalvasiya zamanı ixrac olunan mallar ucuzlaşır, idxal olunan mallar isə bahalaşır.

**DEVİZAY** – Beynəlxalq hesablaşmalar üçün xarici valyuta ilə ödəniş vasitəsi.

**DEYLİ RİPORT** – Yükün boşaldılması haqqında stividor tərəfindən tərtib edilən və broker tərəfindən alınan gündəlik məlumatlar. Broker bu məlumatlardan istifadə edərək, gəmi sahibini gəmidə aparılan işlərin gedişindən xəbərdar edir.

**DEYTAQRAM –** Böyük (uzun) rəqəmli məlumatı kiçik hissələrə bölərək bir-birindən asılı olmayan şəbəkə vasitəsi ilə eyni ünvana (istifadəçiyə) ötürülməsi. Qəbuledici tərəfdə bütün məlumatlar yığılandan sonra ilkin məlumat (böyük məlumat) tam bərpa olunur. Deytaqramın uzunluğu veriliş sürətindən və şəbəkənin xarakterindən asılı olaraq dəyişir.

**DEYTAQRAM SOKET –** Birləşmə yaratmadan iki istiqamətdə verilişi və qəbulu təmin edən interfeys növü.

**DEYURE –** Beynəlxalq hüquqda dövləti, yaxud hökuməti tam qəti və rəsmi tanıtma.

**DEZİQNASİYA** – 1. Kreditor şəxslərin imzaları. 2. Xarab olmuş malların siyahısı.
**DEZİNFLYASİYA –** İşsizliyin səviyyəsini kəskin artırmadan inflyasiyanın məhdudlaşdırılması məqsədilə aparılan deflyasiyanın (tədavüldə olan kağız pulların miqdarının azaldılması) yüngül formasıdır. Hər şeydən əvvəl, faiz tariflərinin artırılması yolu ilə istehlak xərclərinin məhdudlaşdırılmasında, kreditlə alışa dair müqavilələrin bağlanmasına məhdudiyyətlərin qoyulmasında, defisit malların qiymətləri üzərində nəzarətin həyata keçirilməsində özünü göstərir.
**DEZİNTERMEDİASİYA** – Təchizat zəncirində aralıq mərhələlərin aradan qaldırılması prosesidir.
**DƏRƏCƏ -** Təsdiq edilmiş təhsil proqramının tələbə tərəfindən uğurla bitirildikdən sonra ali məktəb tərəfindən ona verilən ixtisas dərəcəsidir.
**DƏRƏCƏ PROFİLİ** – Təhsil proqramı və ya ixtisaslaşma xüsusiyyətlərinin təsviridir. Bu tanıdıcı, təhsil proqramının məxsusi məqsədlərinə əsaslanan proqramın əsas xüsusiyyətlərini, tədris olunan fənlərin akademik xəritəsinə və ya tematik təlimlərə necə uyğunlaşmasını və peşəkar ictimaiyyətə nə dərəcədə aid olmasını göstərir. Cəmiyyətin və konkret fənn sahəsinin birgə ehtiyaclarının, o cümlədən sözügedən təhsil proqramının təsis edilməsi üçün tələb olunan maliyyə və kadr resurslarının təhlili prosesinin nəticəsində yeni dərəcə profili təsis edilə bilər.
**DƏRGİ** - Jurnal, almanax. Alınma jurnal termini əvəzinə Türkiyə türkcəsindən götürülmüşdür. Müstəqillik dövrü mətbuatında jurnal sözü ilə paralel istifadə edilir.
**DİALOQ** – İstifadəçinin kompüterlə qarşılıqlı əlaqələrindən biri. Bu zaman istifadəçi sorğu göndərir, ona cavab və ya dəqiqləşdirmə üçün suallar alır.

**DİAPOZİTİV** – Diaproyektor vasitəsilə nümayiş etdirilən və ya şüşəyə yapışdırılan pozitiv fototəsvir.
**DİASPOR** – Xalqın (etnik birliyin) yaşadığı ölkədən müxtəlif səbəblərdən köçərək xaricdə məskunlaşmış və təşkilatlanmış hissəsi.
**DİCEY** – Səsyazma daxil edilməklə, şərh, zarafat və reklamla müşayiət olunan musiqili verilişin və ya əsasən, musiqi üzərində qurulmuş radio proqramının aparıcısı.
**DİDAKTİK VAHİD** – Müstəqil, forma baxımından strukturlaşdırılmış öyrənmə təcrübəsidir. Onun əldə edilməsi üçün səriştələr baxımından ifadə olunan aydın və təfsilatlı təlim nəticələri toplusu, müvafiq qiymətləndirmə meyarları olmalıdır. Didaktik vahidlərdə müxtəlif sayda kreditlər ola bilər, lakin buna baxmayaraq tövsiyə olunur ki, sözügedən vahidlərdə kreditlərin sayı eyni və ya onların hasili qədər olsun.
**DİFFAMASİYA –** Mətbuatda kimisə təhqir edən məlumatların (həqiqi və ya xəyali) dərc edilməsi.
**DİFFERENSASİYA** – Çeşidləmə. Bir maddənin ayrı-ayrı müxtəlif ünsürlərə bölünməsi, parçalanması, təbəqələnməsi.
**DİFFERENSİAL –** 1. Fyuçers kontraktları əsasında digər növlərin təklif edilməsi üçün tədarük edilən bazis növünün qiymətinə mükafat və ya güzəşt. 2. Qeyri-standart partiyalı qiymətli kağızlarla sövdələşmələri həyata keçirən dilerə verilən kompensasiya.
**DİFFERENSİAL RENTA –** 1. Daha xeyirli, yüksək səmərəyə malik resurslardan istifadə edilməsi hesabına alınan əlavə gəlir. 2. Torpaq sahibinin onun sahəsindəki torpağın daha məhsuldar olması və daha yüksək əmək səmərəliliyi hesabına əldə etdiyi əlavə gəlir şəklində torpaq rentasının formalarından biri.
**DİFRAKSİYA –** Radiodalğaların yayımında yolda olan maneələr hesabına onun strukturunun dəyişməsi difraksiya adlanır.

**DİFOLT –** Şirkətin ləğv prosesində olduğu vaxt qiymətli kağızlara faizlərin ödənilməsinin dayandırılması.
**DİLEMMA** – İki əlverişsiz çıxış yolundan birini, yaxud, adətən arzuedilməz iki imkandan birini seçmək zərurəti.
**DİLER –** 1. Fond birjasının üzvü olan firma və ya fərdi şəxsdir. Onlar birja əməliyyatlarını sadə agent-vasitəçi (broker) kimi aparmır, öz adından, öz vəsaiti hesabına fəaliyyət göstərir, daha doğrusu işə öz şəxsi pullarını qoyur, qiymətli kağızların, valyutanın, qiymətli metalların sərbəst alqı-satqısını həyata keçirirlər. 2. Biznesin iştirakçısı olan fiziki və ya hüquqi şəxsdir. Məhsulu topdan alır və onu kiçik partiyalarla və ya pərakəndə satır. Adətən, bu məhsul istehsalçısı firmaların agentləridir, onun diler şəbəkəsi iştirakçıları rolunda çıxış edirlər.
**DİLER BANK –** Fond bazarında dövlət qiymətli kağızların satıcısı rolunda çıxış edən kommersiya bankıdır.
**DİLER GÜZƏŞTLƏRİ –** Dilerin satış və servis üzrə şəxsi xərclərini ödəyən, həmçinin ona şərtləndirilmiş mənfəəti təmin edən məbləğidir.
**DİLERİK –** İstehsalçı şirkətlərin, sahiblərin və ya distrubüterlərin malların alqı-satqısı üzrə həyata keçirdikləri və ya realizə etdikləri əməliyyatlardır.
**DİLETANT** – Kifayət qədər hazırlığı olmaya-olmaya xüsusi bilik tələb edən müəyyən fəaliyyətlə-elm və sənətlə məşğul olan şəxs.
**DİLİNQ –** Xüsusi təchiz edilmiş yer. Orada dilerlər məlumatların işlənməsi və ötürülməsinin texniki rabitə vasitələrindən istifadə edərək sövdələşmələr bağlanması ilə məşğul olurlar.
**DİL PROSESSORU –** Xüsusi proqram və ya proqram vasitələri yığını olub, proqramların mətnin interpretasiya və ya yayımı funksiyalarını yerinə yetirir.

**DİNASTİYA** – Varislik hüququna əsasən eyni nəsildən olub, taxt-tacda bir-birini əvəz edən hökmdarlar sırası.

**DİPLEKS –** Bir antena vasitəsilə eyni zamanda bir neçə ötürücü ilə işləmək. Bir neçə ötürücü və ya qəbuledici ilə bir tezlikdə növbə ilə işi qurmaq.

**DİPLOMA ƏLAVƏ -** Diploma əlavə beynəlxalq səviyyədə tanınan formata əsasən uğurla başa çatmış təhsil proqramı haqqında daha təfsilatlı məlumat vermək üçün rəsmi ixtisas sənədinə əlavədir.

**DİPLOMATİK İMMUNİTET-** Xarici diplomatik nümayəndəliklərə, onların başçılarına, əməkdaşlarına verilən hüquqlar, imtiyazlar.

**DİREKT-MEYL –** Birbaşa poçt reklamı, daha çox işgüzar reklamda geniş istifadə olunan vasitə.

**DİREKTORİYA** – Məlumatların sərt diskdə yerləşməsinin iyerarxik elementi.

**DİSBURSMENT HESABI** – Xidmət göstərdiyi gəminin limanda olması ilə əlaqədar agentinin çəkdiyi xərclərin siyahısını əhatə edən sənəd. Bu sənədə gəmi kapitanının təsdiqlədiyi lazımi əsaslandırıcı sənədlər də əlavə olunur.

**DİSBURSMENT XƏRCLƏRİ** – Gəminin limanda olduğu zaman çəkilən xərclər. Disbursment xərclərinə bütün növ liman rüsumlarının, stividor işlərinin, bunker xidmətinin, ərzaq və gəmi təchizatının, agent və digər xidmətlərin ödənilməsinə çəkilən xərclər daxildir.

**DİSK** –İnformasiyanın yadda saxlanılması və təsvir edilməsinə qabil olan xüsusi materialdan ibarət xüsusi təbəqə ilə örtülmüş plastik dairəvi formada informasiya daşıyıcısı. İkitərəfli disk – hər iki tərəfi formalaşdırılmış və istifadə üçün hazır olan elastik maqnit disk.

**DİSKET –** Kompüter texnologiyasında istifadə olunan elastik diskli kaset; informasiya daşıyıcısı.

**DİSKONT –** 1. Qiymətli kağızın hal-hazırda fond birjasında satıldığı qiyməti, onun cari birja məzənnəsi ilə nominal, yaxud geri alınma qiyməti arasındakı fərq. 2. Valyutanın forvard məzənnəsi ilə nağd ödəniş məzənnəsi arasındakı fərq. 3. Əmtəənin təqdim edilmə tarixlərinin müxtəlifliyindən irəli gələn qiymət fərqi. 4. Standart tələblərə, yaxud müqavilə tələblərinə cavab vermədiyindən əmtəə qiymətindən güzəşt. 5. Ödəmə vaxtına qalmış müddətə görə faizlərin çıxılması ilə vekselin bank, yaxud özəl şəxs tərəfindən alqısı. 6. Bazardakı vəziyyəti nəzərə alaraq qiymətdən güzəşt. 7. Faizləri və xərcləri hesablamaqla qiymətli kağızın bank tərəfindən alqısı üzrə bank əməliyyatı.

**DİSKONTLAŞDIRMAQ –** Vaxtın müxtəlif anlarına aid olan xərclərin və nəticələrin qiymətlərinin qeyri-bərabərliyini araşdırmaq məqsədilə tez-tez maliyyə və iqtisadi hesablamalarda tətbiq olunan əməliyyatlardır. Müxtəlif dövrlərin kəmiyyətlərinin tutuşdurulması və müqayisəsi üçün istifadə edilir.

**DİSKONT BAZARI –** Pul bazarının bir hissəsidir. Ödəmə müddətləri bir ilə qədər olan veksellərin və qiymətli kağızların alqı-satqısı yolu ilə kredit institutları arasında qısamüddətli pul vəsaitlərinin yenidən bölüşdürülməsi həyata keçirilir.

**DİSKONT BROKERİ –** Öz müştəriləri üçün qiymətli kağızlarla əməliyyat apararkən minimum xidmətlər (məsələn, hüquqi və digər xidmətlər göstərmədən, təkcə hesabların rəsmiləşdirilməsi) təklif edən broker firmasıdır. Eyni zamanda uyğun olaraq digər broker firmaları ilə müqayisədə çox aşağı komisyon tələb edir.

**DİSKONT ƏMƏLİYYATLARI –** Bankların kommersiya veksellərinin və bəzi başqa uzunmüddətli öhdəliklərin diskontu üzrə əməliyyatlar. Bank bu əməliyyat nəticəsində diskont məbləği şəklində mənfəət alır. Firmalar bu əməliyyata vekselin

müddətinin qurtarmasına qədər pul vəsaitlərini dərhal almaq zəruriyyəti olduqda əl atırlar.

**DİSKONT FAİZİ –** 1. Veksellərin, kuponların, səhmlərin, istiqrazların, qiymətli kağızların və borc öhdəliklərinin ödəmə vaxtı çatana kimi, onların fəaliyyət müddəti qurtarana qədər bank tərəfindən alınan ödəmələr. Diskont faizi vekselin (və ya digər borc öhdəliyinin) nominalı ilə onun bank tərəfindən alınma qiyməti arasındakı fərqə bərabərdir. 2. Banklararası kreditin verilməsinə görə bank tərəfindən alınan borc kredit faizi.

**DİSKONT FAİZ DƏRƏCƏSİ –** Faiz tarifi, hansı ki, federal ehtiyat sistemi, mərkəzi bank kommersiya banklarına, onların pul ehtiyatlarının doldurulması və müştərilərə kredit vermək üçün kreditlər verir. Mərkəzi bankın hesablama tarifi nə qədər yüksək olsa, bir o qədər yüksək faizi sonra kommersiya bankları verdikləri kreditə görə alırlar və əksinə.

**DİSKONT KARTI –** Sahibinə güzəşt verən kredit kartı.

**DİSKONT PƏNCƏRƏSİ –** Mərkəzi bank tərəfindən maliyyə-kredit təşkilatlarının kreditləşdirilməsi, yaxud onlara veksellərin uçotuna dair əməliyyatların aparılması yolu ilə likvidliyin bank sisteminə “axını”.

**DİSKONT SİYASƏTİ –** Mərkəzi banklar tərəfindən aparılan pul kredit siyasətinin alətlərindən biridir. Ssuda kapitalına olan tələb və təklifin tənzimlənməsi məqsədilə, kreditə görə faiz dərəcələrinin aşağı salınması və ya qaldırılmasını özündə əks etdirir. Belə ki, Mərkəzi bank uçot dərəcələrini artıraraq kredit pullarına olan tələbin aşağı düşməsini təmin edir, faizləri azaldaraq tələbi aktivləşdirir.

**DİSKONT ŞİRKƏTLƏRİ –** Tarixən veksellərin uçotu üzrə ixtisaslaşmış, qısa müddətli kredit əməliyyatları ilə məşğul olan kredit təşkilatları. Onlar vəsaitləri tələb olunanadək borclar şəklində cəlb edir və onları qısamüddətli istiqraz vərəqələrinə,

xəzinə veksellərinə yerləşdirərək kommersiya bankları və mərkəzi bank arasında vasitəçi rolunu oynayırlar.

**DİSKONTLU İSTİQRAZ –** İkinci bazarda nominaldan aşağı qiymətlə satılan istiqraz.

**DİSKRESİON BROKER HESABI –** Bu hesab üzrə brokerə və ya banka öz müştərisi adından əməliyyatlar aparmağa etibarnamə verilir. Belə nəzərdə tutmur ki, broker müştərilərə verilən vaxt və sifarişlər üzrə seçmə münasibətdə qərar qəbul etmək səlahiyyətlərindədir.

**DİSKRESİON GƏLİR –** İstehlakçının qaçılmaz xərclər, ödənən vergilər, vacib həyati tələbatın ödənilməsi xərclərini çıxdıqdan sonra qalan, xalis gəlirinin bir hissəsidir. Belə qalıq gəlir istehlakçının şəxsi qərarı əsasında xərclənir, bu mənada sərbəst adlanır.

**DİSKRESİON SİFARİŞ –** Qeydiyyatdan keçmiş nümayəndəyə və ya digər broker firmasına qiymətli kağızların seçilməsi, qiymətli kağızların miqdarı və həmçinin alqı-satqı haqqında müştəri adından xüsusi qərarlar qəbul edilməsinə səlahiyyət verən sifarişdir.

**DİSKRESYA SİYASƏTİ –** Qanunverici və icraedici orqanın qərarında daha çox dəyişən iqtisadi vəziyyətə nəzərdə tutulan çevik siyasətdir.

**DİSKRETLƏŞDİRMƏ –** Fasiləsiz analoq siqnallarının diskret impulslar ardıcllığına çevrilməsi prosesi.

**DİSKRET İSTEHSAL** – Məhsulların fasilələrdə istehsal edildiyi metoddur. Məsələn, avtomobillərin, kompüterlərin və s-nin istehsalı.

**DİSKRET KƏMİYYƏTLƏR –** Müxtəlif qiymətli tapşırıqlara verilmiş fasiləsiz ölçülərin əksi olan kəmiyyətlər. İqtisadiyyatda üstünlük təşkil edən diskret anlayışlardan, göstəricilərdən istifadə edilir. Onlar qeydə alınır, ölçülür, müəyyən vaxt və

müxtəlif anlarda hesablanır (saat, gün, həftə, ay, rüb, il, bir neçə il).

**DİSKRET SİQNAL –** Diskret zamanı anlarında parametrlərin qiymətləri pikvari dəyişən siqnal diskret parametrlərə malikdir. Əgər diskret siqnal T-vaxt intervalında periodik təkrar olunursa, onda o periodik diskret siqnal adlanır.

**DİSKRETİZASİYA** – Rəqəmsal çevirmə. İki prosesdən ibarətdir: seçib ayırma (samplinq) və kvantlama (quantization).

**DİSKRİMİNASİYA –** Bir iqtisadi subyektin (dövlətin, müəssisənin, vətəndaşın) digərləri ilə müqayisədə qanunsuz əsaslarla hüquqlarından məhrum edilməsi və ya məhdudlaşdırılmasıdır. İqtisadi diskriminasiya gətirib ona çıxarır ki, diskriminasiya edilən subyekt səmərəsiz, xoşagəlməz vəziyyətə düşür. Dövlətə münasibətdə diskriminasiya onun tərəfindən retrosiya adlanan cavab tədbirlərini yaratmağa qadirdir.

**DİSPAÇ –** Gəmi sahibi tərəfindən yük sahibinə yükləmə-boşaltma işlərini vaxtından əvvəl yerinə yetirdiyinə görə verdiyi mükafatdır.

**DİSPAŞA –** 1. Gəminin ümumi qəzası üzrə zərərlərin hesabı (ekipajın, gəminin, yükün xilas edilməsi zamanı yol verilən). 2. Zərərlərin, xərclərin yüklərin daşınmasının təşkilində iştirak edən tərəflər (gəmi sahibi, yük sahibi, gəmini icarə edən) arasında bölüşdürülməsi. Dispaşa dispaşçı (dispaşer) tərəfindən tərtib edilir.

**DİSPETÇİNQ** – 1. Məhsulun hazırlanması üçün müəssisəyə sifarişin verilməsi prosesidir. 2. Ayrı-ayrı sifarişlər (naryadlar) üzrə istehsal resurslarının təfərrüatı yerləşməsini və onlara nəzarəti təmin edən prosesidir.

**DİSPLEY –** Ağ-qara yaxud rəngli elektron şüalı dəstək(ekran) olub, virtual olaraq şəkil, mətn və video şəklində informasiyanın təsvir olunmasını təmin edən qurğudur. Son dövrlər daha müasir displey kimi maye-kristalik indikator və s. cihaz-

larından istifadə olunur. Təsviretmə üsuluna görə displeylər qrafik və rəqəmli ola bilər. Təsviri nümayiş etdirən tablo, ekran; rəqəmsal avadanlıqda verilmiş rəqəmlərdən çıxan nəticəni mətn, cədvəl, çertyoj şəklində göstərən cihaz.

**DİSSİDENT** – Mövcud siyasi rejimi qəbul etməyən; hakim ideologiyaya qarşı çıxan; fərqli düşünən açıqfikirli adam.

**DİSTANT** – Məsafədən, uzaqdan icra edilən.

**DİSTANT TƏDRİS** - Müasir informasiya və telekommunikasiya texnologiyasına əsaslanan qiyabi təhsil sisteminin yeni inkişaf formasıdır. Distant tədris daha geniş istifadəçi auditoriyasına malik olmağa, tədris material və xərclərin yaradılmasında, istifadə edilməsində minimum xərclər sərf etməyə, müxtəlif məkanda olan istifadəçilərlə istənilən zaman anlarında telekommunikasiya imkanları vasitəsi ilə əlaqə yaratmağa və tədrisin yaradılmasına imkan verir.

**DİSTRİBÜTER –** Öz adından və şəxsi hesabı ilə fəaliyyət göstərən, maddi məhsullarla və ya qiymətli kağızlarla topdansatış (daha çox topdan-pərakəndə) əməliyyatlarını yerinə yetirən vasitəçidir. Distribüter və məhsul istehsalçısı (təchizatçı) arasındakı münasibətlər adətən uzunmüddətli müqavilə əsasında qurulur, tərəflərdən hər hansı biri kifayət qədər ciddi əsas olmadan, birtərəfli qaydada onun icrasından imtina etmək hüququna malik olmur. Əgər müqavilə təchizatçının təşəbbüsü ilə ləğv olunursa, onda o, öncədən distribüteri bu barədə məlumatlandırmalı və ya müqavilənin ləğv olunması nəticəsində ona dəymiş zərəri kompensasiya etməlidir.

**DİSTRİBÜTİV KOMPLEKT** – Distributiv proqram məhsulu. Kompüterdə qurulmuş proqramdan ancaq onunla fərqlənir ki, istifadəçi onu özü kompüterə yükləməlidir.

**DİT** – 1. İnformasiyanın onluq vahidi. 2. Ekranın bir pikselə bərabər göstərmə qabiliyyəti vahidi.

**DİZPOZİTİVLİK** – Mülki prosesdə prosessual müdafiə vasitələrindən istifadə imkanlarından biri.

**DOK QƏBZİ** – Sonradan gəmiyə yükləmək məqsədi ilə körpüyə və ya anbara qəbul edilmiş yük üçün dənizlə yük daşıyanın və ya ekspeditor-nəqliyyat təşkilatının yükgöndərənə verdiyi sənəd.

**DOKTORANTURA** – Ali təhsilin üçüncü dövrüdür, orta müddəti 3-4 ildir. Alimlik dərəcəsi (üçüncü dövr) namizədlərinin hazırlığı ali təhsil üzə Avropa məkanının ümumi ixtisas dərəcələri çərçivəsində həyata keçirilir. Ali təhsilin ən yüksək səviyyəsi olmaqla elm və elmi-pedaqoji kadrların hazırlanması, ixtisas və elmi dərəcələri yüksəldilməsini təmin edir. Doktorantların hazırlanması elmi işçilərin ixtisaslarının mövcud nomenklaturasına uyğun olaraq əyani formada aparılır və onun müddəti üç ildən artıq olmamalıdır.

**DOLU PALLET** (dolu altılıq) – Birnövlü malla tam yüklənmiş palletdir.

**DOMEN –** 1. Misal üçün internet şəbəkəsində hər ölkənin özünə aid domen adları vardır. (məsələn, .az-Azərbaycan, .tr-Türkiyə, .uk-Ukrayna, .ru-Rusiya və s.) 2. İnternet şəbəkəsində domen adlar fəzasının sahəsidir. Domen ad dedikdə, domenin simvolik adı nəzərdə tutulur. Domen ad bir domen daxilində istənilən hərf və rəqəm birləşməsi ola bilər. Domenin tam adı nöqtə ilə ayrılmış bütün domenlərin adlarından təşkil olunur və internetdə yerləşdirilmiş hər hansı veb-saytın ünvanını göstərir.

**DOMİSİLİAT –** Vekseldə göstərilən üçüncü şəxsdir. O vekseli ya alıcının yaşayış yerində, ya da başqa razılaşdırılmış yerdə ödəməlidir.

**DONMUŞ EKRAN** – Windows NT-də ən əsas sistem xətası (sistemin quruması), bu zaman ekran göy rəng olur.

**DOPİNQ** – İdmançının orqanizminin fiziki gücünü müəyyən dövr üçün saxlayan, sinir sisteminin fəaliyyətini tez və müvəqqəti stimulyasiya edən narkoloji və digər üsullar.
**DOPLER** – Ultrasəs tədqiqatların əlavə üsulu.
**DOPLER EFFEKTİ –** Qəbuledicinin vericiyə nəzərən (və ya əksinə) yerinin dəyişməsi ilə əlaqədar tezliyin dəyişməsi.
**DÖVR TANIDICILARI** – Hər üç dövrün ümumiyyətlə, gözlənilən təlim nəticələrinin ümumi xülasəsidir. Ümumi dövr (səviyyə) tanıdıcılarının ən yaxşı nümunəsi Birgə Keyfiyyət Təşəbbüsü (BKT) adlı ekspertlər qrupu tərəfindən hazırlanmış Dublin Tanıdıcılarıdır.
**DRAYVER** – Vasitəçi proqramların xüsusi növü. Qurğuların kompüterlə qarşılıqlı işini təşkil edən proqramlar.
**DRES-KOD –** Müəyyən olunmuş tədbir, təşkilat, iclaslarda iştirak etmək üçün tələb edilən geyim forması.
**DROİD** – İnformasiyanın internetdə axtarışı üçün agent.
**DROSSEL** – Qaynaq dövrəsinə qaynaq transformatorun ikinci dolağı ilə ardıcıl qoşulan və qaynaq cərəyan şiddətini tənzimləməyə təyin olunan, dəyişə bilən induktiv müqavimətli qurğu.
**DUAYEN** – Diplomatik nümayəndəliyin başçısı, təmsil olunduğu ölkədə həmkarları arasında etimadnaməsini hər kəsdən əvvəl təqdim etmiş yaşlı, stajlı diplomat.
**DUBL TƏSNİFATLARI -** Bolonya dövrünün sonunu təmsil edən təltiflərlə əlaqəli olan nailiyyət və qabiliyyətlərin səciyyəvi gözləntiləri üçün son dərəcə ümumi açıqlamaları özündə əks etdirir.
**DUBL-NEQATIV** – Kinofotosənədin neqativi olub, pozitivdən onun əksini çıxarmaq vasitəsilə alınır.
**DUOPOLİYA** – Bazarda, əsasən, iki, bir-birindən asılı olmayan, uyğun məhsulları satan (çoxsaylı alıcı şəraitində) satıcıların fəaliyyət göstərdiyi məhdud rəqabətin fərdi hadisəsidir.

**DUOPSONİYA** – Çoxsaylı satıcıların və yalnız müstəqil, uyğun mallar alan iki alıcının olduğu bazar vəziyyətidir.

**DUPLEKS –** Dupleks verilişi. Rabitə kanalı ilə məlumatların eyni zamanda iki istiqamətdə ötürülməsi. Bu halda rabitə kanalı, yaxud qurğuları ilə eyni zamanda siqnal ötürülür və əks tərəfdən siqnal qəbul edilir.

**DUPLEKS SİSTEM** – Bu, ikimaşınlı kompleksdir ki, biri işdən çıxanda ikinci kompüter onu əvəz edir.

**DVD –** Tex. Rəqəmsal yaddaşı olan informasiya daşıyıcısı. Xarici görünüşünə görə kompakt disklə (CD) oxşarlığı olsa da, daha böyük həcmdə informasiya saxlamaq qabiliyyəti ilə ondan fərqlənir. Hazırdan “DVD” dedikdə, həm də filmlərin DVD-video formatında olması nəzərdə tutulur.

## -E-

**E-AUDİT** – Xüsusi kompüter proqramı təminatları vasitəsilə vergi ödəyicisinin mühasibat informasiya sistemində saxlanılan verilənlər bazasına çıxış əldə etməklə elektron əməliyyatların tamlığının və düzgünlüyünün audit testləri və üsulları vasitəsilə yoxlanılması və təhlil edilməsidir.

**EBOLA VİRUSU** - Keçici ebola hemorragik qızdırmasının səbəbi olan virus. İnfeksion xəstəlikdir.

**EBONE ŞƏBƏKƏSİ** – Qərbi Avropanın İnternet-provayderlərə xidmət edən əsas baş magistral şəbəkəsi.

**EDİFAKT**- İdarəetmə, ticarət və nəqliyyat sahəsində məlumatların elektron mübadiləsidir.

**EDİKOM** – Ticarət sahəsində məlumatların elektron mübadiləsidir. Layihənin əsas məqsədi İntrastatın texniki struktur sistemi üçün əsas şərtlərin tərtib və müəyyən edilməsidir.

**EXOKOMPENSATOR –** Exo siqnalı kompensasiya etmək üçün telefon xəttinə qoşulmuş qurğu. Bu qurğunun iş prinsipi

həqiqi danışıq siqnalı ilə onun eyni nüsxəsinin gecikmə ilə əks olunmasının fərqini hesablanmasına əsaslanır.

**EXOKOMPENSASIYA –** Bir istiqamətdə ötürülən siqnalın əks istiqamətdə yaratdığı exo siqnalın kompensasiya üsulu.

**EXOPOÇTA –** Eyni zamanda çoxlu abunə qrupların portlarına ötürülən məlumat.

**EXOSÖNDÜRÜCÜ –** Bu qurğunun iş prinsipi veriliş müddətindən qəbulun blokirovka edilməsinə əsaslanır. Bu qurğuda biri verilişin başlanğıcını müəyyən edəcək qəbuledici tərəfdə söndürücünü qoşur, digəri isə verilişin sonunda qəbuledici tərəfdə söndürücünü açmaq funksiyalarını yerinə yetirən iki idarəetmə sistemi yaradır.

**EKOFOBİYA** – İnsanla təbiətin qarşı-qarşıya qoyulması haqqındakı təsəvvürlərə əsaslanan dünyagörüşüdür.

**EKOFUTUROLOGİYA** – "İnsan-cəmiyyət-biosfer" qlobal sisteminin əsas inkişaf ideyalarının proqnozlaşdırılmasıdır.

**EKOLOJİ MONİTORİNQ** – Təbiət və antropogen amillərin təsir altında ətraf mühitin vəziyyətinin dəyişdirilməsinin qiymətləndirmə və proqnozun kompleks müşahidə sistemidir.

**EKOLOJİ ŞOK** – Populyasiyanın məhvinə gətirib çıxaran biotik (məsələn, əhalinin çoxluğu) və ya abiotik (ətraf mühitin çirklənməsi) şəraitin qəfil dəyişməsindən yaranan kəskin pozulmadır.

**EKOPOLİS -** Ətraf mühitlə ahəngdə planlaşdırılan və işlədilən şəhər məskunlaşmasıdır. Müasir anlayışda əsas etibarilə istər insan həyatı, istərsə də təbiətdəki bitki və heyvanların müxtəlif növlərinin mövcudluğu üçün əlverişli ekoloji şərait yaradan, geniş təbiət sahələri (bağlar, parklar, təbiət abidələri və s.) olan azmərtəbəli şəhərdir.

**EKOSFERA** – Ekoloji mühit, daha doğrusu, canlı orqanizmlər və onları əhatə edən mühitdir.

**EKOSİD** – Geniş ərazidə bütün canlıların, o cümlədən insanın yaşayış mühitinin hərbi məqsədlərlə qərəzli dağıdılmasıdır.
**EKSFİLTRASİYA** – Daxili havanın bayıra filtrasiya edilmə prosesi.
**EKSHUMASİYA-** Məhkəmə-tibbi ekspertizasının və ya patoloji-anatomik tədqiqatların aparılması məqsədi ilə meyitin məzardan çıxarılması.
**EKSLİBPİS** – Kitab nişanəsi- kitabın üz qabığından sonra gələn, yazıçının adı, ya da simvolik naxış həkk olunan səhifə.
**EKSPANDER –** Verici tərəfdən siqnalı kompandlaşdırılan, (sıxılan) amplitudaya görə genişləndirmək üçün qəbuledici tərəfdə istifadə edilən qurğu.
**EKSPANDİRLƏMƏ** – Qaynaqlanmış boruları nizama salma əməliyyatı.
**EKSPLETİV** – Söyləmə (ifadəyə) ənənəyə uyğun olaraq, ya da xüsusi çalarlıq ekspressivlik vermək məqsədi ilə pərçimləndirilmiş izafi ünsür.
**EKSPLİSİT** – Səslənən danışıqda açıq şəkildə ifadə edilən, danışıqda öz ifadəsini açıq şəkildə tapmış dil vahidi. Adətən, “impilisit” termini ilə qarşılaşdırılır.
**EKSPLOZİV –** Partlayışla bitən, yəni hər üç fazaya malik olan samitlər eksploziv samitlər hesab olunur.
**EKSPLOZİYA –** Kipləşən partlayan samitlərin tələffüz məxrəcinin üçüncü mərhələsi (tekursiya).
**EKSPREDİTOR** – Tələb olunduğu halda, yükgöndərən və ya yükalanın adından əlaqəli xidmətlərin yerinə yetirilməsi də daxil olmaqla, yüklərin daşınmasını həyata keçirən tərəfdir.
**EKSPROMT** – 1. Xüsusi hazırlıq olmadan deyilən, ifa olunduğu anda yaradılan, improvizasiyaya əsaslanan (şeir, musiqi əsəri, danışıq, yaxud hərəkət). 2. Bədahətən, yaxud qabaqcadan düşünülmədən yazılan epiqram, zarafat xarakterli kiçik şeir.

**EKSSEDENT** – Sığortada təkrar sığortalama sistemi, həmin sistemə əsasən sığortaçı sığortalamağa qəbul etdiyi risklərin yalnız bir hissəsini təkrar sığortaya verir.
**EKSTRAORDİNAR** – Qeyri-adi, çox gözəl, zövq oxşayan, fövqəladə.
**EKSTRASENS** – Yüksək dərəcədə hissiyyatı, qavrayışı və başqalarına elektrofizioloji təsir etmək imkanı olan şəxs.
**EKSTRA ŞƏBƏKƏ (ekstranet) –** Bir və ya bir neçə şirkətin korporativ şəbəkələrinin internet üzərində bir-birinə bağlanması. Ekstra şəbəkəsindən yalnız əvvəlcədən icazəsi olan müəyyən qrup şəxslər istifadə edə bilir.
**EKTENSİONAL –** Dil vahidinin nominativ (adlandırma) cəhəti. Kontekstdə fərdi əşyalara müvafiq gəlib-gəlməməsi baxımından nəzərdən keçirilən dil vahidi.
**EKVALAYZER** – Səs tonuna nəzarət sistemi; yerin, şəraitin akustik xüsusiyyətlərinə görə səsin artırılıb-azaldılmaqla nizamlanması.
**EKZALATASİYA** – Həyəcanlanmış, hədsiz oyanıqlıq vəziyyəti; çox ağrılı, həyəcanlı durum.
**EKZEKUSİYA** – 1. Ölüm və ya bədən cəzası haqqında hökmün icra edilməsi. 2. Bədən cəzası.
**EKZOSENTRİK** – Leksik - qrammatik xüsusiyyətlərinə və funksiyalarına görə öz əsas elementlərinə müvafiq gəlməyən konstruksiyalar (mürəkkəb sözlər).
**EKZOSFERA-** Atmosferin tədricən planetlərarası sahəyə keçən ən xarici təbəqəsidir. Bu son dərəcə seyrək zonada atomlar o qədər azalır ki, hava zərrəciklərinin toqquşması çox az hallarda baş verir. Onların hərəkətini okean dalğalarından qopan köpük və sıçrantıların təşkil olunduğu su zərrəciklərinin hərəkətinə bənzətmək olar.

**ELATİV** – Sifətin çoxaltma dərəcəsinin yaranmasında istifadə olunan üsullardan biri; eyni bir sifətin təkrarı ilə sifət müvafiq əşya ilə müqayisə olunur.
**ELEKTRİK YUVASI (ROZETKA) –** Birləşdiricinin yuva hissəsi.
**ELEKTRON "AĞ LÖVHƏ" –** Rəng markerləri ilə onun üzərində nə çəkilirsə fərdi kompüterin ekranına çıxır.
**ELEKTRON ALIŞ-VERİŞ –** Müxtəlif növ elektron ticarət.
**ELEKTRON BAZAR –** Elektron bazar alqı-satqı işləri aparmaq üçün elektron biznesin virtual məkanı.
**ELEKTRON İMZA –** Məlumatın tam və həqiqiliyini yoxlamaq üçün ona sonunda əlavə edilmiş şifrələnmiş sətir (və ya işarələr). Elektron imza ilə əl yazısı imzası arasında fərq ondan ibarətdir ki, elektron imza məlumatdan məlumata dəyişilərək sənədin həqiqiliyinə zəmanət verir və onu dəyişməkdən müdafiə edir.
**ELEKTRON KOMMERSİYA** - İnternet vasitəsilə həyata keçirilən kommersiya fəaliyyətidir. Ümumdünya Ticarət Təşkilatının verdiyi tərifə görə, elektron kommersiya – əmtəə və xidmətlərin elektron üsulla istehsalı, yayılması, reklamı, satışı və çatdırılmasıdır. Kompüter texnologiyalarından və mobil rabitə vasitələrindən istifadə etməklə İnternet üzərindən hesablaşmaların aparılması üçün xidmət növü. Elektron pul kimi SİM və ya plastik kartlardan istifadə edilir.
**ELEKTRON MARKETİNQ –** Elektron texnologiya əsasında marketinqə deyilir.
**ELEKTRON MƏTN –** Kompüter sistemində istənilən mətn.
**ELEKTRON MÜHARİBƏ** - İnformasiya müharibəsi – elektron qurğuların və kompüter sisteminin sıradan çıxarılması.
**ELEKTRON NƏŞR –** Kompüterdə və ya digər elektron qurğulardan istifadə etməklə çoxaldılan , yaxud bir neçə şəkil, təsvir, işarə, sənəd və ya söz kimi göstərilə bilməklə üzərində

məlumatın qeyd olunduğu və ya saxlanıldığı əşyadır (disk və ya elektron faylı da daxil olmaqla).

**ELEKTRON ÖDƏMƏ** - Elektron vasitələrin köməyi ilə alqı-satqı haqqının ödənilməsi.

**ELEKTRON POÇT –** 1. Registrasiyadan keçmiş (fərdi parolu ilə) kompüter vasitəsi ilə məlumat və fayl mübadiləsi üçün istifadə edilən informasiyanın saxlanılması, verilişi və qəbulu sistemi. 2. Məlumatların yüksək sürətlə verilməsi, hesablama texnikası vasitələrinə daxil edilməsi, xüsusi rabitə vasitələri ilə hazırlanması və qaydaya salınması üçün elektrorabitə kanallarının aralıq "elektron poçt qutuları"dır.

**ELEKTRON "POÇT QUTUSU"** – Elektron şəkildə məlumatın saxlanması, ötürülməsi və qəbulu üçün vasitə. Elektron poçt məlumatı onu registrasiyadan keçirmiş (avtoriza-siya edilmiş şəxs-ixtiyari olan) şəxs tərəfindən istifadəyə imkan verilir. Parolu bilmədən digər şəxslər tərəfindən elektron poçtdan istifadə etmək imkanı yoxdur.

**ELEKTRON SƏNƏD –** İnformasiya sistemində istifadə üçün elektron formada təqdim edilən və elektron imza ilə təsdiq olunmuş sənəddir.

**ELEKTRON TENDER –** Elektron biznesin alqı-satqı prosesində bir alıcı və çoxlu satıcı olan vəziyyətində keçirilən tender.

**ELEKTRON TİCARƏT –** Müəssisə tərəfindən internet vasitəsilə əmtəə və xidmətlərin alqı-satqısını aparılmasıdır. Telefon, faks və ya əllə yazılan elektron məktublarla qəbul edilən sifarişlər elektron-ticarət hesab edilmir. Marketinq, menecment, ardıcıl təminat və informasiya sistemləri kimi bir-birindən fərqli olan təşkilat funksiyalarını birləşdirir.

**ELEKTRON TOP –** Elektron –şüa borusunun hissəsi. Elektron axınını monitor ekranına yönəldən.

**ELEKTRON VERGİ –** Vergi deklarasiyalarının onlayn rejimində işlənməsi və ötürülməsinə aiddir.
**ELEKTROPOSA QAYNAĞI -** Əritmə ilə qaynaqlama üsulu olub, burada metalın qızması və əriməsi maye posadan elektrik cərəyanı keçdikdə ayrılan istilik hesabına yerinə yetirilir.
**ELMMETRİYA** – Elmi informasiya axını və massivlərinin dinamika və strukturunun tədqiqatı ilə məşğul olan elm sahəsidir.
**EMANSİPASİYA** – Asılılıqdan, köləlikdən qurtulmaq, azad olmaq.
**EMİQRASİYA –** 1. Daimi, yaxud müvəqqəti (uzun müddətə) yaşamaq üçün başqa ölkəyə (könüllü, yaxud məcburi, özbaşına və mütəşəkkil), bir çox hallarda vətəndaşlığı dəyişdirməklə köçmələrdir. Emiqrasiyanın səbəbləri sosial-iqtisadi amillər (işsizlik, yaşadığı yerlərdə gəlirlərin və həyat səviyyəsinin aşağı olması, köçdüyü yerdən daha yaxşı şəraitin olması və s.), həmçinin siyasi, hərbi (müharibələr, münaqişələr, yeni dövlətlərin yaranması, dövlət sərhədlərinin dəyişdirilməsi), milli (etnik), dini və s. amillərdir. 2. Hər hansı bir ölkədə yaşayan emiqrantların məcmusu.
**EMİSSİYA** – Tədavülə bank-not, kağız pul və qiymətli kağız buraxılışı. Maliyyələşdirmə üçün istifadə olunan ödəniş vəsaiti və sənədlərinin yaradılması və dövriyyəyə daxil edilməsidir. Emissiyanı qısa zamanda bank sistemi və maliyyə institutları, başlıca olaraq mərkəzi (milli) bank, dövlət xəzinədarı (Maliyyə Nazirliyi) və digər banklar ilə valyuta yaradılması adlandırırlar.
**EMİTENT –** Qiymətli kağızları dövriyyəyə buraxan hüquqi şəxsdir. Öz adından onlara görə alıcılar və sahibkarlar qarşısında cavabdehlik daşıyır. Emitentlər dövlət-mərkəzi hökumət, bələdiyyə orqanları; dövlət tərəfindən himayəsi olan idarələr və təşkilatlar; xüsusi müəssisələr və təşkilatlar; ölkənin

qeyri-rezidentləri; istehsal və maliyyə səhmdar institusional vahidlər ola bilərlər.

**ENALLAQA** – Danışıqda söz formaları arasında məna əlaqəsi, məna uyğunluğu olduğu halda formal-qrammatik uyğunluğun pozulması, uzlaşmanın pozulması.

**ENDOSKOPİYA** – Daxili orqanlara işıqlandırıcı optik cihazla baxma.

**ENDŞPİL** – 1. Şahmat oyununda son mərhələ; bu mərhələyədək bir çox fiqurlar, hər şeydən əvvəl isə vəzirlər dəyişdirilir. 2. Sona yaxınlaşma, bir prosesin sonu.

**ENTROPİYA-** İstənilən səviyyənin ekosistemi neqentropiya kəmiyyəti ilə enerji tarazlığından uzaqlaşma tədbiri ilə xarakterizə olunur. Öz-özünü tənzimləməni qoruyub saxlayan təbii ekosistemlər entropiya ilə neqentropiya sistemləri arasındakı optimumu müəyyən etmək qabiliyyətinə malikdir.

**ENUKLEASİYA** – Göz almasının çıxardılması.

**EPİTAFİYA** – Ölənin xatirəsinə həsr olunmuş kiçik qəbirüstü yazı, şeir parçası və s.

**EROTEMA –** Emosionallıq yaratmaq və ya diqqəti cəlb etmək məqsədilə təsdiq və inkara sual forması verməsindən ibarət ritorik fiqur.

**ERQONOMIK KLAVIATUR** – Erqonomik tələblərə uyğun klaviatura.

**ESKALASİYA** – Bir hadisə və ya prosesin tədricən artması, güclənməsi və genişlənərək yayılması.

**ESPANDER** – İdman-məşq aləti, əzələləri inkişaf etdirmək üçün istifadə olunan vasitə.

**ETALON TEST** – 1. Eyni istismar şəraitində müxtəlif sistemlərin istehsal güclərini və yaxud buraxma qabiliyyətini qiymətləndirmək üçün aparılan universal test. 2. Attestasiya testi (sınağı) sistemin digər eyni sistemlə müqayisədə sınaq yoxlamalarının aparılması. 3. Kompüterin və ya proqram

təminatının məhsuldarlığını müəyyən etmək üçün test proqramı və ya paketi.

**ETİKON** – Yaşayış yerinin və orada yaşayan xalqın eyni adla adlanması.

**EVFUİZM** – Həddən artıq dəbdəbəli, təmtəraqlı üsul. Bu üsuldan, əsasən, bədii əsərlərdə daha çox istifadə olunur.

**EVTANAZİYA** – Xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırma.

**EYFORİYA** – Yüksək, şən əhvali-ruhiyyə, müvəffəqiyyətdən başgicəllənmə.

**-Ə-**

**ƏLBİSƏ -** Geyim, paltar, kostyum və s.-nin cəmi; (teatrda).

**ƏLİFBA (informatikada) –** Bir-birindən fərqlənən müəyyən edilmiş şəkildə seçilmiş işarələr və ya simvollar yığımı olub, onların vasitəsilə informasiya kodlaşdırılmış rəqəm selinə (data selinə) çevrilir.

**ƏNGƏC** – Su bəndində suyu buraxmaq üçün qapalı dəlik, suburaxıcı – yuxarı breyfdəki tikintiləri təmir etmək, su ilə gətirilmiş çöküntüləri yumaq və s. məqsədilə su anbarından boşaltmaq üçün qurğu.

**-F-**

**FABRİKASİYA –** Yığma əməliyyatlarından fərqli olaraq komponentlərin hazırlanması üçün nəzərdə tutulmuş istehsal əməliyyatıdır.

**FABRİKASİYA SİFARİŞİ –** Komponenti, onun miqdarını və istehsal metodunu müəyyən etməyə səlahiyyət verən, istehsalat müəssisəsinə sifarişdir.

**FAXVERK** – Əsasən azmərtəbəli binalarda tətbiq edilən divar konstruksiyası növü.
**FAKS-KÖMƏKÇİ –** Faksimil rabitəni dəstəkləyən ekspert sistem.
**FAKS-MODEM** – Faksimil ismarıcların ötürülməsi və qəbulu üçün modem. Faksimil və danışıq siqnallarını eyni telefon kanalı ilə ötürən və qəbul edən qurğu.
**FAKS-SERVER –** Dialoq rejimində faks sənədlərini qəbul və ya ötürən xüsusiləşdirilmiş server.
**FAKTOQRAFİYA –** Hər hansı elmi məlumatın, jurnalist məhsulunun sənədli əsası.
**FAKTORİNQ –** 1. Bank fəaliyyətində-müştərilərin (fiziki və ya hüquqi şəxslərin) kapital dövriyyələrinin kreditləşməsini və komisyon-ticarət əməliyyatlarının elementlərini birləşdirən bank əməliyyatıdır. Faktoring həm bank idarələrinin, həm də müştərilərin risk səviyyələrinin optimallaşdırılması məqsədilə, debitor borclarını inkasso edilməsini birləşdirir. Banklar müqavilələr əsasında faktoringi həyata keçirirlər. Bu zaman tədarük olunan əmtəələrə, yerinə yetirilən işlərə, göstərilən xidmətlərə görə tədarükçünün ödəniş tələbləri üzrə ödənişlərin alınması hüquqi banka verilir. Belə hallarda bankın birinci vekseli əldə etmək imkanına diqqət yetirmək vacibdir; 2. Ticarətdə və satışda-komisyon əməliyyatıdır. Bu zaman bir şirkət əmtəə tədarük edənə, ondan müştərinin debitor borclarını almaqla, ona müvafiq faizlərlə (komisyon) kredit verir. Mahiyyətinə görə, belə ticarət borc öhdəlikləri ilə olan ticarətdir. İxtisaslaşdırılmış xüsusi kompaniya tərəfindən müştərinin debitor borclarının alınaraq, borc veriləcək fiziki, yaxud hüquqi şəxsin hesabına keçirilməsi.
**FALŞ** - Əsası olmadan gerçək kimi təqdim edilən bir şey; yalan, saxta.

**FALSİFİKASİYA** – Saxtalaşdırma, hər hansı həqiqətin təhrif olunaraq yalanla əvəz edilməsi.
**FANKLUB** – Müasir musiqinin hər hansı aparıcı qolunun və ya bir ifaçının qızğın pərəstişkarlarının toplandığı klub.
**FANKOYL** – Kondisiyalaşdırılma sistemində havanın qızdırılması və ya soyudulması üçün istifadə edilən yerli cihazdır.
**FANTASMAQORİYA** – 1. Müxtəlif optik cihazların köməyi ilə alınan qeyri-real fantastik şəkil və fiqurlar. 2. Qarabasma, gözəgörünmə, sayıqlama. 3. Bədii priyom- əsərdə qorxu və ya gülüş yaradan qarabasma epizodlarından gen-bol istifadə.
**FAOLİT** – Fenolformaldehid qatranı ilə hopdurulmuş asbest əsaslı plastik kütlə.
**FASFUD** – Tez və ucuz başa gələn ayaqüstü yeməklər.
**FAVORİT** – 1. Yüksəkvəzifəli şəxsin sevimlisi olan və himayədarından mənfəət və üstünlük əldə edən işçi. 2. İdman yarışlarında (xüsusilə cıdır yarışlarında) əksər azarkeşlərin fikrincə qələbəyə daha çox şansı olan yarış iştirakçısı; azarkeşlərin sevimlisi.
**FAYL –** 1. Müəyyən proqram təminatı Word, Excel, Photoshop, Corel Draw və s. vasitəsilə yaradılan, kompüterin yaddaşında və ya elektron informasiya daşıyıcılarında saxlanılan informasiya . Fayldakı məlumat mətn, şəkil, audio və ya video xarakterli ola bilər. Fayllar, adətən, məzmununa uyğun müəyyən adla adlandırılır və müvafiq qovluqlarda yerləşdirilir ki, bu da onların tez tapılmasını asanlaşdırır; 2. Ayrı-ayrı vərəqləri yığıb saxlamaq, daşımaq üçün şəffaf sellofan qovluq.
**FAYL ATRİBUTU** – Fayllarla işi nizamlamaq üçün fayl sistemi ilə himayə olunan xüsusiyyətlər.
**FAYL DİSPETÇERİ** – “Windows”un müxtəlif versiyalarında işlədilən fayl idarəetmə proqramı.

**FAYL ÖTÜRÜCÜ PROTOKOLU –** Bu TCP/İP protokol ailəsinə daxil olub, böyük ölçülü faylların rabitə şəbəkəsində ənənəvi qaydalara uyğun ardıcıl nəqli üçün hazırlanmışdır. FTP protokolu uzaqdan kompüterin kataloquna baxmaq, onların nüsxəsini çıxarmaq və s. imkanlarını təmin edir. Birləşmənin qurulması və fayllarda mübadilə üçün istifadəsinin adı və parolunu göstərmək tələb olunur. Amma sadə qoşulma imkanlığı mövcuddur. Belə ki, istifadəçini registrasiya etmək üçün onun elektron ünvanını göstərmək kifayətdir. Belə prosedura faylların anonim ötürülməsi adlanır. FTP-nin detallı xüsusiyyətləri PFC 959 standartlarında izah edilir.
**FAYL SERVER –** Fayllarda daxil olmaq imkanı yaradan server. Fayl server fayllar, idarəetmə kateqoriyaları, idarəetmə cədvəlləri və s. yaddaşda saxlaya bilər.
**FAYLLARIN SİNXRONLAŞDIRILMASI –** Bir neçə variantda olan faylların bütün istifadəçilər üçün eyni formaya gətirilməsi proseduras.
**FAYLIN ADININ GENİŞLƏNMƏSİ** –Mikro EHM sistemlərində faylın tipini müəyyənləşdirən spesifik elementi.
**FAYLIN ADININ UZUNLUĞU –** Faylın adındakı işarələrin sayı. Bir çox disk sistemləri məhz müəyyən qədər işarə ilə məhdudlaşdırılır.
**FAYLIN BAĞLANMASI –** Proqramın fayl ilə işinin sonunu göstərən əməliyyat. Bu zaman bütün dəyişikliklərin diskə yazılışı yerinə yetirilir. Fayl üçün ayrılmış buferlər boşaldılır.
**FEDİNQ** – Radiodalğaların kəsilməsi- radiodalğaların yayılması, şərtlərin dəyişməsi nəticəsində qısa dalğalarda radio qəbuletmənin zəifləməsi və ya tamam dayanması.
**FEERİYA** – Səhnə effektlərindən, o cümlədən parlaq dekorasiya və kostyumlardan gen-bol istifadə etməklə yaradılan fantastik süjetli tamaşa.
**FEMTOSANİYƏ -** Saniyənin kvadrilyon hissəsi.

**FEYERVERK** – Qələbə, bayram və s. zamanı havaya atılan barıt tərkibli müxtəlif maddələrin yanması nəticəsində səmada yaranan əlvan işıqlar.

**FEYSBUK** – Dünyanın ən məşhur və çoxüzvlü sosial şəbəkəsi. İnsanların internet vasitəsilə bir-biri ilə əlaqəsini, yazışmasını, fikir mübadiləsini təmin edən sosial şəbəkə, virtual məkan.

**FİDER MƏNTƏQƏSİ** – Fider servisi vasitəsilə iş sahələrini məhsullarla təmin edən istehsal məntəqəsidir.

**FİDER SERVİSİ** – Əsas daşıma əməliyyatları üçün yüklərin toplanması və bölüşdürülməsi məqsədilə, avtomobil yolu xətlərindən yaxın ərazilərə uzanan qısa daşıma xətləridir.

**FİKSÇÜR-NOT** – Gəminin fraxt edilməsi faktını və onun əsas şərtlərini (gəminin adı və verilmə müddəti, yükün miqdarı və növü, yüklənmə və boşaldılma limanları, yük işlərinin normaları, fraxt dərəcəsi) qəti müəyyənləşdirən ilkin sənəd.

**FİKSİYA** – 1. Mövcud olmayan bir şey, uydurma. 2. Gerçəkliyin təhrif olunması, onun müəyyən məqsədlə hansısa şərti formaya salınması.

**FİLUMENİYA** – Kibrit qutularının və onların etiketlərinin kolleksiyalaşdırılması.

**FİLYER** – Satıcı tərəfindən verilən xüsusi veksel. Veksel sahibinə ona müəyyən şərtlərlə, müəyyən qiymətə satılmış, gətirilən malın qəbul edilməsi təklif edilir.

**FİŞİNQ** – Qarmaqatma, şüurlu sürətdə başqasının informasiyasını fişinq (balıqçılıq) üsulu ilə ələ keçirmə. Məxfi materialların haker üsulu ilə ələ keçirmə.

**FİTNES** – Sağlam, gənc insanlar üçün mümkün olan, xüsusi məşqlər, aktiv hərəkətlər nəticəsində əldə edilən yaxşı fiziki vəziyyət.

**FİTOTERAPİYA** - Bitkilərlə müalicə metodlarını öyrənən və istifadə edən tibb sahəsi.

**FLEŞ** – 1. Rəqəmli daşıyıcı. 2. Təcili qısa xəbər, jurnalistin hər hansı hadisə barədə göndərdiyi təcili, yığcam məlumat.

**FLİPPER** – Səhmləri onların alınmasından dərhal sonra satan, qısamüddətli maliyyə sazişləri bağlayan şəxs.

**FLOTEL** – Su üzərində hərəkət edən, böyük otel, təchiz olunmuş gəmi.

**FLOUT** – 1. Sənaye müəssisələrində emal prosesində olan və hələ hazır məhsul formasına gəlməmiş yarımfabrikatlardır. 2. Qəbzin və ya digər ödəmə sənədinin bank sisteminə daxil olması və vəsaitləri alan şəxsin hesabına müvafiq məbləğin köçürülməsi arasındakı zaman fasiləsidir. 3. Şirkətin fond bazarında tədavülə buraxılan səhmlərin sayıdır.

**FLÜTBET** – Üstündən açıq su axını keçən bənd və ya digər basqılı hidrotexniki qurğuların süni əsası.

**FOKUS QRUP** – Tematik sorğu üçün qrup. Qərar qəbul etmək üçün konkret mövzularda keçirilən sorğu qrupu.

**FOLİANT** – Smartfonlar, telefonlar üçün kitabxana. İnternetdən kitabları tapmaq, yükləmək, həmçinin şərhlər yazmaq, qiymətləndirmək üçün nəzərdə tutulmuş elektron kitabxana proqramı.

**FON MONİTORİNQİ** – Təbiət fonunu, eləcə də biosferin inkişaf prosesində onun xüsusiyyət və dəyişikliklərini xarakterizə edən göstəricilərin qeydə alınması və müəyyən edilməsidir. Ümumdünya meteoroloji təşkilat stansiyalarının monitorinqinin köməyi ilə atmosferin fon çirklənməsinin öyrənilməsi üzrə qlobal şəbəkəsi işləyir.

**FONOTAKTİKA** – Bir dildə mümkün və qeyri-mümkün fonem birləşmələrini öyrənən elm sahəsi. Söz və morfem tərkibində müxtəlif mövqelərdə fonemlərin birləşmə qabiliyyətini məhdudlaşdıran qaydalar.

**FORFEYTİNQ** – Kommersiya kreditinin bank kreditinə transformasiya formasıdır. Forfeter (alıcı) kimi, adətən, bank,

satıcı kimi isə ixracatçı iştirak edir, hansı ki, nağd vəsaitlərin çıxardılması, özünün likvidliyinin yaxşılaşdırılması, kredit riskinin aşağı salınması və öz balansının debitor borc hissəsindən azad edilməsi məqsədi ilə hesablaşma sənədlərini inkassa edir.

**FORMAT –** Audio, video və ya mətn məlumatlarının strukturunu birmənalı şəkildə izah edən xarakteristikalar.

**FORMATLAŞDIRMA –** Maqnit diskin bloklara (cığırlara) bölüşdürülməsi prosessoru.

**FOR ORDER** – Gəminin yüklənmə və ya boşaldılma limanına, yaxud müqavilə bağlanan zaman bu limanların adı yazılmayıbsa, yüklənmə-boşaldılma limanının adının bildiriləcəyi yerə getməsi barədə fraxtedənin sərəncamı.

**FORS - MAJOR** – Fövqəladə və qarşısıalınmaz halların yaranması. Belə halların yaranması nəticəsində müqavilənin şərtləri yerinə yetirilmir.

**FORUM –** Rabitə xidməti bazarında müəyyən texnologiyaları (standartları) tətbiq etmək üçün bütün növ işlərin aparılmasını koordinasiya edən beynəlxalq təşkilat. Bu təşkilat yeni standart və texnologiyaların tətbiq edilməsi işlərinin müvəffəqiyyətlə tənzimlənməsi üçün ayrı-ayrı istehsalçı şirkətlərin və rabitə operatorlarının nümayəndələrinin iştirakı ilə konfranslar təşkil edir.

**FORUM-FAKTOR** – Ana plataların və kompüter korpuslarının tipi. Baby format AT-dən fərqli olaraq daha rahatdır, həmçinin əlavə soyutma sistemi var.

**FORVARD** – İdman oyunlarında hücum xəttinin oyunçusu, əsas, aparıcı hücumçu.

**FOTOPRİNTER** – Xüsusi şırnaqlı printer. Fotokağızda fotoqrafiyanın yüksəkkeyfiyyətli rəqəmsal çapı üçün qurğu.

**FOTOREZİST** – İşığahəssas material. İşığın təsiri ilə bərkiyən material. Çap platalarının hazırlanmasında istifadə olunur.

**FRAQMENTASİYA –** Yaddaş diskinin ayrı-ayrı hissələrində boş yaddaş sahələrinin yaranması. Bunun nəticəsində sistem böyük sahənin ayrılması tələbini yerinə yetirə bilmir, baxmayaraq ki, boş sahələrinin cəmi tələb olunan yaddaşın həcmindən yüksəkdir.

**FRANÇAYZER –** Françayziyə müxtəlif, o cümlədən, maliyyə köməyi edən, ona marketinq proqramını, öz ticarət və firma nişanından istifadə hüququnu verən franşiza müqaviləsinin tərəflərindən biridir.

**FRANÇAYZİNQ –** İri şirkətlər tərəfindən kiçik müəssisələrlə, sahibkarlarla françayzer adından fəaliyyət göstərmək hüququ verən müqavilə əsasında həyata keçirlən iri və kiçik sahibkarlığın qarışıq formasıdır. Bu zaman kiçik müəssisə öz sahibkarlıq fəaliyyətini yalnız françayzerin müəyyən etdiyi formada, vaxtda və yerdə həyata keçirir. Françayzer isə françayzinqi mallar və texnologiyalar ilə təmin edir, habelə onun sahibkarlıq fəaliyyətinə hərtərəfli kömək göstərir.

**FRANŞİZA –** Françayzi və françayzer arasında imzalanmış və birinci tərəfə ikinci tərəfin marketinq proqramından, ticarət və firma nişanından istifadə etməyə imkan verən müqavilədir. Bu, müəyyən ticarət nişanına malik françayzi tərəfindən françayzerə həmin nişandan istifadə hüququnun verilməsi ilə bağlı xüsusi lisenziyalaşdırma prosedurunu nəzərdə tutur, lakin bununla yanaşı, françeyzer tərəfindən istehsal edilən məhsulların keyfiyyətinə nəzarət hüququnu öz əlində saxlayır.

**FRANKO BORT -** Əmtəənin qiymətinə onun dəyəri, daşınma xərcləri və müəyyən edilmiş limanda əmtəənin yüklənmə xərclərinin daxil edildiyi halda çatdırılma şərtləridir.

**FRANKO DAŞIYICI –** Satıcı malı gömrük rəsmiləşdirilməsindən keçirdikdən sonra, alıcı tərəfindən təyin olunmuş daşıcıya, razılaşdırılmış yerə çatdıracaqdır. Çatdırılma yerinin seçilməsi həmin yerdə malın yüklənməsi və boşaldılması üzrə

öhdəliklərə təsir edir. Əgər çatdırılma satıcının binasında həyata keçirilirsə, o zaman satıcı yükləməyə görə cavabdehlik daşıyır. Əksinə, əgər çatdırılma digər yerdə həyata keçirilirsə, o zaman satıcı malın yüklənməsinə görə cavabdehlik daşımır. Bu termin qarışıq daşımalar da daxil olmaqla hər hansı nəqliyyat növü ilə daşınma zamanı istifadə edilə bilər.

**FRAXT BAZARI** – Tonnajın fraxt edilməsi üçün sövdələşmələrin həyata keçirildiyi bazar.

**FRAXT HAQQI** – Daşınma müqaviləsində hər bir ayrıca halda razılaşdırılan yükün bir fraxt vahidinin daşınma qiyməti.

**FRAXT İNDEKSLƏRİ** – Hər hansı bazis dövrünün qiymətlərinə və ya 100 faiz kimi qəbul edilib qeydə alınmış haqlara münasibətdə dənizlə yüklərin daşınma qiymətləri səviyyəsinin dəyişməsinin nisbi göstəriciləri.

**FRAXT KONTRAKTI** – Gəminin fraxt edilməsi üçün kontrakt, bu kontrakta uyğun olaraq daşıyıcı (gəmi sahibi) müəyyən, əvvəlcədən razılaşdırılmış haqq müqabilində yükün daşınmasını öz öhdəsinə götürür.

**FRAXT ORDERİ** – Tonnajın fraxt edilməsi üçün fraxtedən tərəfindən öz brokerinə verilən və sövdənin rəsmiləşdirilməsi üçün zəruri olan aşağıdakı bütün əsas məlumatları əhatə edən tapşırıq sənədi: yükün adı və miqdarı, yüklənib göndərilmə müddəti, səfərəçıxma və təyinat limanları, yüklənmə və boşaltmanın norma və şərtləri, çarter proformasına istinad, habelə bir sıra xüsusi şərtlər.

**FRAXTEDƏN** – Yükdaşıma müqaviləsində (çarterdə) daşıyıcıdan yükün təyinat limanına daşınmasını tələb etmək hüququna malik olan tərəf. Fraxtedən daşımaya görə müəyyənləşdirilmiş haqqı (fraxtı) ödəməyə borcludur.

**FRESKA** – Yaş suvaq üzərində sulu boya ilə çəkilmiş şəkil, cəlbedici, mürəkkəb naxış.

**FRİ -ELONQSAYD** – Yükün çatdırılması haqqının ödənilməsi şərtidir. Bu şərt malın gəminin bortuna çatdırılan ana qədər olan xərclərin hamısının malsatan tərəfindən ödənilməsi vəzifəsini nəzərdə tutur.

**FRİQOLD** – Daşınmaz əmlakın tam, müddətsiz dövr üçün mülkiyyət hüquqları ilə alınması, alıcı birdəfəlik ödəmələr həyata keçirir.

**FRONTAL** – 1. Döyüş zamanı hədəfə ön tərəfdən, perpendikulyar yönəldilmiş (hücum, zərbə). 2. Rəssamlıq və heykəltəraşlıqda üzü tamaşaçıya tərəf çevrilmiş. 3. Ümumi olan, geniş yayılan. 4. Qəfil, hərtərəfli.

**FULL-SERVİS** – Tam xidmət. Reklam sahəsində reklamın bütün növləri üzrə xidmət göstərən agentliklərə aid edilir.

**FUNKSİYA –** 1. Siqnalın forma və xüsusiyyətlərinin xarakteristikaları. 2. İnformasiyanın emalı, xidmət rejimi, göstərilən servisin növü və s. təyinat üzrə prosedurlar.

**FURŞET** – Masa arxasında əyləşmədən, ayaqüstü edilən qəlyanaltı, yüngül yemək.

**FYUÇER -** Əmtəə və fond birjalarında həyata keçirilən təcili sazişlərdir. Sazişlərin bağlandığı anda xammalın, qızılın, valyutanın, maliyyə və kredit alətlərinin qeydə alınmış qiymətlərlə alış-verişidir. Əməliyyatlar müəyyən vaxt intervalında həyata keçirilir.

**FYUÇER BAZARI –** Fyuçer müqavilələrinin bağlanması səbəbi üzrə iqtisadi münasibətlərdir. Fyuçer bazarı-yalnız birja bazarıdır. Dəyərlər riskinin real bazara (nağd, fiziki) münasibətində sığorta funksiyasını yerinə yetirir.

**FYUÇER MÜQAVİLƏSİ –** Gələcəkdə saziş bağlanarkən tərəflərin müəyyən etdikləri qiymətlərdə, birja aktivinin alış-veriş haqqında vaxtın verilən anına standart birja müqaviləsidir.

**FYUÇER BİRJASI -** Əmtəə birjasının müasir forması.

**-G-**

**GEMİNASİYA** – Samit səsin uzadılması.
**GENOFOND** – 1. Populyasiyalarında, bu və ya digər növdən olan orqanizm qruplarında müxtəlif genlərin, müxtəlif formalarının nisbi sayı və keyfiyyət məcmusu. 2. Bu və ya digər xalqı, milləti təmsil edən görkəmli şəxslərin məcmusu, bütövlükdə millətə şamil edilən kəmiyyət və keyfiyyət ölçüsü.
**GEONOMENKLATURA** – Aİ ölkələrinin xarici ticarət statistikası üçün və Aİ-yə üzv ölkələr arasında ticarət üçün nomenklaturadır.
**GEOSTRATEGİYA** – Siyasi konsepsiya.
**GİD** – Turist qruplarını müşayiət edən bələdçi, ekskursiyaçı.
**GÖY EKRAN** – Microsoft Windos sistemində ciddi xətalar zamanı ekrana çıxır.
**GPS –** Peyk sistemi vasitəsilə coğrafi mövqeyi müəyyənləşdirən qlobal sistem.
**GÜDÜL** – Ətrafın amputasiyasından sonra onun qalan hissəsi və ya seqmenti.
**GÜZGÜ SERVER** – Saytların güzgü əksini özündə yerləşdirmək xidməti göstərir. Saytın əsas surətinin keçiricilik qabiliyyəti azalanda işə düşür.

**-H-**

**HAKER –** 1. Kompüter sahəsində biliklərinidən istifadə edərək şəbəkənin (yaxud bir kompüterin) əməliyyat sistemini zədələmək və yaxud konfidensial (bank, kommersiya və s.) məlumatları əldə etmək məqsədi ilə sistemin müdafiəsini məqsədli şəkildə qıraraq sanksiya edilmədən sistemə daxil olan şəxs. 2. Dağıdıcı proqramlar hazırlayaraq internetdə infor-

masiya sistemlərini və ya şəbəkələri sıradan çıxarmaq məqsədi güdən şəxs.

**HAMBURGER** - İsti qəlyanaltı; ikiyə bölünmüş və arasına kotlet qoyulmuş ədviyyatlı dairəvi kökə.

**HARD-DİSK –** Böyük informasiya tutumu olan bərk disk; materialın ilk işlənmə yeri, sərt maqnit diski. İfadə daha çox danışıq dilində işlənir.

**HAVA ÇARTERİ –** Hava nəqliyyati vasitələrinin icarə edilməsi haqqında müqavilədir. O, sərnişinlərin, baqajın, yüklərin, poçtun daşınması üçün bir və ya bir neçə reysin, yaxud bir neçə hava gəmilərinin bütün tutumunun, yaxud bir hissəsinin icarə edilməsini nəzərdə tutur.

**HAVATOPLAYICI** – Sıxılmış hava üçün silindrik şəkilli çən; hava üfürən maşından daxil olan havanın təzyiqini azaltmaq, havadan yağı və rütubəti kənar etmək üçündür.

**HAYRİNQ-** Lizinqin mövcud formalarından biridir; avadanlığın orta müddəti icarəsini nəzərdə tutur.

**HAYTEK İŞARƏSİ** – Yüksək texnoloji prosesləri, avadanlığı, yenilikləri tətbiq və istifadə edən şirkət.

**HEDCİNQ-** Tələb və təklif arasındakı uğunsuzluqdan müdafiə olunmaq üçün saxlanılan planlaşdırılmış mal ehtiyatıdır. Bu proseslə bağlı fəaliyyət hedcinq adlandırılır.

**HECA KOMPRESSİYASI –** Məlumatın heca həcminin ixtisar olunması, yaxud tərcümə dilində məlumatdakı hecanın sayının orijinal dildə məlumata nisbətən ixtisar olunması deməkdir.

**HECER –** Fyuçers birjasında heç əməliyyatlarını həyata keçirən təsərrüfat subyekti, firma, yaxud bank.

**HEÇİNQ –** Müqavilə bağlanan zaman malların nəzərdə tutulan qiymətləri ilə müqayisədə, malların bazar qiymətlərinin satıcılar və alıcılar üçün arzu edilməyən dəyişiklikləri ilə şərtlənən sığorta, itkilərə görə riskin azaldılması. Heçləmənin mahiyyəti

ondadır ki, malın satıcı (alıcı) tərəfindən satılmasına (alınmasına) müqavilə bağlayır, eyni zamanda əks xarakterli fyucers sazişini bağlayır, yeni satıcı alış üçün saziş bağlayır, alıcı isə malın satılması üçün. Beləliklə, qiymətin hər hansı dəyişməsi satıcılara və alıcılara bir kontraktla itki, o biri kontraktla isə qazanc gətirir. Bunun nəticəsində bütövlükdə onlar gələcək qiymətlərlə satılacaq, yaxud alınacaq malların qiymətlərinin artmasından, yaxud enməsindən zərər çəkmirlər.

**HEÇİNQ FONDU –** Konkret firmaların və buraxılışların qiymətli kağızlarını alan və satan investisiya şirkətidir.

**HECİRLƏMƏ** – Bank, birja və ticarət işlərində məzənnə itkilərinin qarşısını almaq məqsədilə tətbiq edilən metodları ifadə etmək üçün işlədilən termin.

**HEDLAYN -** Əsas hadisələr; hadisənin ən önəmli məqamını mediada bir sətirlə vermək.

**HENDOVER –** Avtomatik yenidən qoşulma. 1. Mobil şəbəkədə mobil stansiyanın bir baza stansiyasından digər baza stansiyasına avtomatik yenidən qoşulması prosesi. Belə yenidən qoşulmada rabitə kəsilmir. 2. Peyk rabitəsində yer stansiyasının (təyyarədə yerləşmiş stansiya) bir peykdən digər peykə yenidən avtomatik qoşulması.

**HERBALAYF** – Şəfaverici otlardan hazırlanan, müalicə-profilaktika və çəkini normallaşdırmaq məqsədilə balanslaşdırılmış qida sisteminə daxil edilən bir sıra dərman preparatlarının adı.

**HESABLAYICI KOMPÜTER** – Kompüter, ümumi halda - məlumatları alan, onların üzərində işləyən, bu və ya başqa nəticə formasından hasil eləyən istənilən qurğuya deyilir.

**HESABLAYICI MƏDƏNİYYƏTİ –** Hesablama texnikasından istifadə edən mütəxəssisin mədəniyyəti. EHM-də iş zamanı təhlükəsizlik qaydalarına əməl olunmasını, verilənlərin hazırlanması və sənədlər üzərində işin səliqə ilə aparılmasını

nəzərdə tutur. *İnformasiya mədəniyyəti* – informasiya səviyyəsi. Kompüter bilgiləri informasiya mədəniyyətinin tərkib hissəsidir.

**HEŞ-FUNKSİYA** - Heş-funksiyanın xassələri elədir ki, onun köməyi ilə alınan heş-kod məlumatla "möhkəm" bağlı olur. Məlumatın hətta bir biti dəyişdikdə belə heş-kodun bitlərinin yarısı dəyişir.

**HEYCUNKA –** Dəqiq vaxtında konsepsiyasına uyğun olaraq, son məhsulların planlaşdırılan satış qiymətlərini istehsal həcmi ilə uzlaşdırılması üçün bütün təchizat zənciri boyunca istehsalın dövrlər üzrə təşkili metodudur.

**HİPERAXIN** – "Çoxsaylı axın" texnologiyası, Pentium 4 prosessorlarında istifadə olunur.

**HİPERİNFİLASİYA –** Ölkənin aşağıdakı göstəricilərini əks etdirən iqtisadi vəziyyətdir; alış və satış üzrə ticarət əməliyyatları kreditin verildiyi bütün müddət ərzində (verilən müddət davamiyyətli olmasa da) alıcılıq qabiliyyətinin gözlənilən azalmasını nəzərə alan qiymətlərlə həyata keçirilir; əhali öz pullarını nisbətən sabit xarici valyutada saxlamağa üstünlük verir; tarif faizləri əmək haqqı və qiymətlər qiymət indekslərindən asılı olur.

**HİPERİSTİNAD** – Hipermətnin içərisində olan istifadəçini lazımı sənədə aparan işarə. Bu sənəd və ya səhifə fiziki cəhətdən başqa kompüterdə -serverdə də ola bilər.

**HİPERKORREKT** – Düzələn ifadə həqiqətdə sözün yanlış deyilişinə və ya yazılışına səbəb olur. Məs.: Məmməd Səid əvəzinə Məhəmməd Səid.

**HİPERKUB** – Prosessorların çoxprosessorlu sistemə birləşdirilməsi metodu.

**HİPERMARKET** - Ərzaq və qeyri-ərzaq mallarının geniş çeşidini təklif edən, maşınlar üçün dayanacaq yeri və müəyyən

iri ticarət meydanına malik olan özünəxidmət formasında pərakəndə satış obyektləridir (dükanlarıdır).

**HİPERMƏTN** – 1. Ənənəvi yazı mətnindən fərqlənir. Bu anlayış kompüterlərin işi ilə əlaqədar yaranmışdır. "Hipermətn informasiya təqdimidir. O, müəlliflər çoxluğunu, müəllif və oxucu funksiyalarının silinməsini, qeyri-dəqiq sərhədlərlə iş və oxu yollarının çoxluğunu mümkün edir. 2. Bu və ya başqa sənədə, həmin sənədin bir hissəsinə ,yaxud başqa sənədlərə, qeyri-mətn təbiətli digər mənbələrə istinad edən mətn; həmçinin bu cür mətni oxumaq, istinadlara nəzarət etmək, şəkillərin təsvirini əks etdirmək, səs və video əlavələri yerindən səsləndirmək imkanına malik olan sistem. İnformasiyanın hipermətn şəklində təsvir olunmasına əsaslanan ümumdünya hörümçək torunun son məqsədi şəbəkə resurslarını (fayllar, mətnlər, verilənlər bazası, proqram-serverlər) ümumi bir şəbəkə şəklində birləşdirilib, vahid ümumdünya hipermətnini yaratmaqdır. 3. Hipermətnin səciyyəvi xüsusiyyətlərinin məcmusu, informasiyaya girmənin təşkili və strukturudur.

**HİPPİLƏR** – 1. Müasir cəmiyyətdə qəbul edilmiş bir çox dəyər və normaları rədd edən gənclər qrupu. 2. Bilərəkdən səliqəsiz geyinmiş, ekstravaqant davranışa malik insanlar.

**HİSTEREZİS –** Siqnalın bu və ya digər tərəfə (siqnalın artması və ya azalması) dəyişməsi prosesində (siqnalın fluktasiyalarına) sistemin fərqləndirici reaksiyası. Qərar qəbul etmək üçün iki hədd (aşağı, yuxarı) istifadə edilən obyektlərdə histeresiz baş verir. Belə ki, bu prosesdə siqnalın get-gedə artan stansiyada onun səviyyəsi yuxarı həddən çox, siqnalın səviyyəsi azalan stansiyada isə siqnalın səviyyəsi aşağı həddən az olmalıdır. Mobil stansiya (telefon) iki eyni selin sərhəddində olanda histerezisin olması fluktasiya rəqs prosesini aradan qaldırır. Yəni ərazilərin sərhəddində yerləşən anda mobil telefonun

dövrü olaraq gah birinci, gah da ikinci baza stansiyasına qoşulmasının qarşısını almaq üçün histerezis tətbiq edilir.

**HİT** – Mahnının məşhur olması.

**HİT PARAD –** Tamaşaçı, oxucu və dinləyici auditoriyasının rəyi əsasında ən yaxşı musiqi əsərlərinin sıra ilə müəyyənləşdirilməsi.

**HOF MAKLER –** Birja maklerləri içərisindən birja üzvləri tərəfindən müəyyən müddətə seçilən baş birja makleri: birja komitəsinin tərkibinə daxildir. Onun funksiyalarına maklerlərin fəaliyyətini müşahidə etmək, baş tutmuş sazişlər üzrə birja komissiyası üçün hesabatların tərtib edilməsi daxildir.

**HOLDİNQ –** Nəzarət səhm paketinə sahib olmaqla bir neçə şirkəti bilavasitə idarə edən iri şirkət, korporasiya. Adətən, holdinq əhatəsində olan müəssisələrin vahid istiqamətdə iqtisadi siyasət aparmasını təmin edir və burda daxil olan hər bir səhmdar cəmiyyət ümumilikdə holdinqin maraqlarına xidmət edir.

**HOLOSEN** – Yerin geoloji tarixinin antropogen dövrünün sonuncu bitməmiş hissəsi. Holosen təqribən 10 min illik bir dövrü əhatə edən çağdaş geoloji zaman kəsiyidir.

**HOLOQRAFİYA** – Təsvir yaratmağın fotoqrafik üsulu; işıq dalğalarının qarşılıqlı təsiri nəticəsində obyektin həcmli təsvirinin alınması.

**HOLOQRAM –** İşığa həssas lövhədə yazılmış interferensiya mənzərəsi.

**HOMEOSTAZ** – İstənilən səviyyəli ekosistemin əsas strukturlarının, maddi-energetik tərkibinin sistematik təzələnməsi və onun komponentlərinin daim özünü requlyasiya etməsi ilə saxlanan daxili dinamik tarazlığının vəziyyətidir.

**HOST –** 1. Verilənlərin ötürülməsi şəbəkəsində (ötürülən və ya qəbul edilən informasiya) son qovşaq. 2. Paylanmış sistemdə aparıcı stansiya və ya əsas informasiya resurslarının cəmləşdiyi

baza stansiya. 3. Kompüter, internet şəbəkəsində öz resurslarına girməyə imkan verən, digər kompüterlərdəki məlumatın saxlanılmasını və ötürülməsini idarə edən sistem.

**HOŞİN PLANLAŞDIRMA METODU** – Şirkətin növbəti beş il ərzində harada olmaq istədiyini göstərən dövrə qədər vizion bəyanatını formalaşdırdığı (yapon) strateji planlaşdırma prosesidir.

**HOTELLİNQ ÜSULU** – Müəssisənin, firmanın maliyyə iqtisadi vəziyyəti nəticələrinin təhlili üsulu.

**HOT-LAYN** – Fövqəladə hallar zamanı iki dövlət orqanı arasında (əsasən də dövlət başçıları arasında) bilavasitə daimi əlaqəni təmin edən birbaşa telefon xətti.

**-X-**

**XARİCETMƏ QURĞUSU –** Kompüter siqnallarını insan üçün əlverişli formaya salan periferiya avadanlığı. Məsələn, displey, printer.

**XEDJER –** Qiymət riskini minimuma endirmək (xedjerləş-dirmə) üçün təcili və opsion əməliyyatlarından istifadə edən hüquqi və ya fiziki şəxslərdir.

**XEDJERLƏŞDİRMƏ –** Fyuçers (təcili) sövdələşmələrinin yerinə yetirilməsində qiymət və mənfəətin sığortalanması formasıdır. Sövdələşmə müddəti ərzində qiymətlərin dəyişmə-sində mümkün itkilərdən xedjerləşdirmənin köməyi ilə bazar subyektlərinin sığortalanması yolu ilə bank risklərinin bütün növləri optimallaşdırılır.

**XƏTA –** EHM-də yerinə yetirilən hesablamalardan alınan metodik səhv.

**XİDMƏT PROVAYDERİ –** müəyyən xidmətləri göstərmək üçün operatorla müqavilə bağlayan hüquqi şəxs. Operatorun

şəbəkə resurslarından istifadə edərək xidmət göstərən hüquqi şəxs.
**XİDMƏTLƏR –** İstifadəçiyə sistem tərəfindən təqdim edilən servis növləri. *Hesablayıcı xidmət* – hesablama mərkəzləri tərəfindən istifadəçilərə edilən xidmətlər: hazır proqramlar, proqramların hazırlanması və s.

## -İ-

**İDARƏETMƏ PANELI** – Microsoft Windows-un "nəzarət mərkəzi". Bu "virtual qovşaqda" sistemin və bir sıra qurğuların əsas parametrləri yerləşir.
**İDENTİFİKASİYA –** 1. Şəbəkəyə daxilolma imkanlığını idarə edən prosedura. Adətən, identifikasiya prosesi şəbəkəyə daxilolma səlahiyyətinin olub-olmamasını yoxlayan (autentifikasiya) əməliyyatdan öncə aparılır. 2. Paketin ünvanında yerləşən bu hissə informasiyanın ünvanlandığı obyektin növünü göstərir. İdentifikator şəbəkə növünü, marşrutlayıcının nömrəsini, istifadə olunan protokolu, portun nömrəsini və s. göstərə bilər. 3. Obyektin sistemə məlum olan obyektlərdən biri ilə eyniləşdirilmə prosesini təmin edir. Obyektlərin tanınmasıdır.
**İDENTİFİKASİYA KODU –** Vahidin kompüter fayllarında uçotunun sadələşdirilməsi məqsədilə ona verilən işarələr yığımıdır ki, bu da əksər hallarda müəyyən alqoritm və hesablanmış nəzarət rəqəminə malik olan ədəd (identifikasiya eyniləşdirmə nömrəsi) olur. İdentifikasiya (eyniləşdirmə) kodu vahidin mövcud olduğu bütün dövr ərzində dəyişməz olaraq qalmalıdır və heç bir məna yükü daşımamalıdır. İdentifikasiya kodu təkrarlanmır və yalnız bu vahidə məxsusdur.
**İDENTİFİKASİYA NÖMRƏSİ** – Faylda uçotunu sadələşdirmək üçün vahidə verilən simvollar dəstidir. İdentifikasiya nömrəsi (identifikator) qeyddən keçmiş vahidin

bütün mövcudluğu dövründə daimi olaraq qalmalıdır və məna əhəmiyyəti daşımalıdır.

**İDENTİFİKATOR –** 1.Dilin elementlərini adlandırmaq məqsədilə istifadə olunan leksik vahiddir. Verilənə mənimsədilmiş və latın hərfi ilə başlayan hərflər və rəqəmlər ardıcıllığı ilə təsvir edilən addır. 2. Proqramın bəzi elementlərinin identifikasiyası (eyniləşdirilməsi) üçün istifadə olunan simvollar şərtidir. Adlandırılan elementin növü proqramlaşdırma dilindən asılıdır, dəyişənlər məlumatların strukturu, yüksək səviyyəli konstruksiya və proqramın özü ola bilər. Məlumatların işlənməsində məlumatların bir hissəsinin yaddaş sahələrinin, yaddaş məkanının, cildlərin genişliyinin və s. identifikatoruna baxılır. İdentifikator proqram obyektlərinin qeyd edilməsi sisteminin yaradılması zamanı proqramçı tərəfində təyin edilir

**İDİOÜSLUB** – Mətnin konkret müəllifə xas olan diskursiv təcrübələrini (praktikaları) əhatə edir. İdiostil (üslub) struktur poetikanın, bədii ədəbiyyatın dilinin tədqiqində mühüm obyektlərdən biridir.

**İXTİSAS TANIDICILARI** – Hər hansı ixtisas üçün təhsilin nəticələri barədə ümumi açıqlamalar. Onlar Milli İxtisas Sistemlərində açıqlanmış hər hansı ixtisasın əsas nəticələrini təsvir edən səlis istinad istiqamətlərini təmin edir və səviyyələr arasındakı dəyişikliyini xüsusiyyətini izah edir.

**İKEBANA** – 1. Gülbağlama sənəti. 2. Süni ağac və ya gül.

**İKİLİ SOURSİNQ** – Müəyyən məhsul üzrə iki ekvivalent təchizatının seçilməsi və təchizatın onlar tərəfindən aparılmasıdır.

**İLLOKUTİV AKT –** Lokutiv akta məqsədyönlülüyün verilməsi, kommunikativ məqsədin ifadəsi.

**İMİC** – İctimai –siyasi xadim, yaradıcı şəxs, təşkilat, məhsul və s. haqqında formalaşmış obraz, ictimai rəy.

**İMİCMEYKER** – İctimai və ya dövlət xadimi, sənət adamı və b.-nın populyarlığının artması üçün onun müsbət obrazının formalaşması ilə məşğul olan şəxs.

**İMMİQRASİYA** - 1. Daimi və ya müvəqqəti (əsasən uzun müddətli) yaşamaq üçün ölkənin vətəndaşlarının köçüb ölkəyə gəlməsidir; 2. Başqa ölkə vətəndaşlarının çox vaxt yeni vətəndaşlıq almaqla daimi, yaxud müvəqqəti (əsasən, uzun vaxta) yaşamaq üçün digər ölkəyə daxil olmasıdır (yerləşməsidir). İmmiqrasiya bir sıra səbəblərlə müəyyən edilir: sosial-iqtisadi, siyasi, etnik (milli), dini və s. İmmiqrasiya əhalinin müxtəlif etnik qruplarının qarışmasına gətirib çıxarır və nəticədə etnoslar törəyir.

**İMİTASİYA –** Modelin köməkliyi ilə modelləşdirilən sistemin (obyektin) funksiyalarının və xassələrinin hamısının və ya bir hissəsinin təqlid edilməsi.

**İMİTATİV ƏLAQƏ –** Metamətndə mətnarası invariantın olduğuna şəhadət verən əlaqə; imitativ əlaqədə metamətn orijinalla müqayisədə öz semantik və üslubi uyğunluğunu – 1:1 səviyyəsində göstərir.

**İMİTATOR** – 1. Təqlid, imitasiya edən qurğu. 2. Modelləşdirici proqram.

**İMKAN (informatikada) –** Kompüterdən və onun fayllarında olan informasiyadan istifadə etmə hüququ. Bir neçə istifadəçisi olan kompüterlərdə imkan parollardan istifadə etməklə tənzimlənir. Həm də proqramlardan istifadəni, yaddaşdan informasiyanın alınmasını və verilənlərin yaddaşa daxil edilməsini təmin edir.

**İMPAKT FAKTOR -** Elmi İnformasiya İnstitutunda jurnalın vacibliyinin kəmiyyət göstəricisi – impakt faktor (İF) hesablanır.
**İMPİÇMENT** – Etimadsızlıq göstərmə; Qərbin bir sıra ölkələrində dövlətin yuxarı vəzifəli şəxslərini məsuliyyətə cəlb etməyin xüsusi proseduru.
**İMPLANTASİYA** – Ayrı-ayrı hüceyrələrin, toxumaların və ya bütöv orqanların yeni yerə köçürüb dirçəldilməsi; süni dişlərin əkilməsi.
**İMPLEMENTASİYA** – Beynəlxalq hüquq normalarının dövlət tərəfindən yerinə yetirilməsi.
**İMPLOSİON –** 1. Təfərrüatlı verilənlərin sıxlaşdırılaraq, çox səviyyəli qeydiyyat sənədlərinə və ya hesabatlara daxil edilməsidir. 2. Materiallar cədvəlində aşağıdan yuxarıya doğru istifadə olunan elementlərin və onların dəyərlərinin son məhsula yekun təsirinin izlənilməsi prosesidir.
**İMPRESSİONİZM** – Rəsmi impressionist üslubuna (yağlı boya stili) imitasiya edir.
**İMPROVİZASİYA –** 1. İfa və ya çıxış zamanı əvvəlcədən nəzərdə tutulmayan gedişlər, gözlənilməz yeniliklər etmək, melodiyanı və ya nitqin mətnini bədahətən dəyişdirmək; əvvəlcədən hazırlaşmadan müəyyən bir hadisəyə dərhal şeirlə cavab vermək. 2. Bədahətən ifa edilən musiqi, söylənilən şeir və s.
**İNAQURASİYA** – Yeni seçilmiş dövlət başçısının rəsmən öz vəzifəsinə başlaması ilə bağlı andiçmə mərasimi.
**İNKREMENT (ADDIM) –** Siqnalın amplitudasının və ya fazanın verilən müəyyən qiymətə dəyişməsi kvantlama addımları adlanır.
**İNDEKS –** Kompakt diskdə bir xətt içində müxtəlif bölmələrə ayrılmış fayllar arasındakı bölmələri göstərən yer.
**İNDEO KODEKSİ** – Hərəkət edən təsvirin sıxılması və göstərilməsi texnologiyası. Intel korporasiyasının məhsulu.

**İNDOSSAMENT –** 1. Onun vasitəsi ilə hüquqların yeni sahibinə verilməsinin həyata keçirilməsi haqqında arxa tərəfində keçmə qeydi olan qiymətli kağızdır (qəbzdir, vekseldir). İndossament indossant tərəfindən digər indossantın və yaxud təqdim edənin xeyrinə edilə bilər. Veksel indossament yolu ilə məhdud olmayan sayda ötürülə bilər; guman edilir ki, indeks qiyməti kağızda hansı vəziyyətdədirsə, o qayda ilə də aparılır və buna görə də arxasındaki siyahıda göstərilən sonuncu şəxs onun sahibi sayılır və ödənişi də o almalıdır. Ötürmə qeydində adın olmaması halında indossament onu təqdim edənə hesablanır; 2. Sənədin hüquqi qüvvəyə minməsi üçün zəruri olan imzadır. 3. Sığorta polisində (vəsiqəsində) aparılan istənilən düzəlişdir və ya sığortanın şərtlərinin dəyişməsilə əlaqədar olaraq sığorta haqqında müvəqqəti şəhadətnamədir.

**İNFANTİL** – Orqanizmin fiziki və psixi cəhətdən inkişafdan qalması; uşaq yaşına uyğun keyfiyyətləri olan yaşlı adam.

**İNFODEYT** – TV ekranlarında mətnin tam səhifədə göstərilməsi sistemi.

**İNFORMASİYA –** 1. Siqnalın faydalı tərkibi. Hər bir obyekt təbii xüsusiyyətlərə sahib sonsuz sayda müxtəlif siqnalların daşıyıcısıdır. Subyektin obyektin malik olduğu siqnaldan ala biləcəyi faydalı tərkibi informasiya adlanır. Subyektin aldığı informasiyanın çevirərək digər subyektə çatdıracağı prosesdə məlumat yaranır. Yəni siqnal çoxluğu informasiya çoxluğundan, informasiya çoxluğu isə məlumat çoxluğundan daha genişdir. 2. Faktiki verilənlər və onların arasındakı qarşılıqlı asılılıqlar haqqında biliklərin məcmusu. 3. Verilənlərə əlavə edilən məzmun. 4. Verilənlər. Kütləvi kommunikasiya vasitələri ilə yayılan ictimai məzmunlu məlumat, xəbərlər. Daxili və beynəlxalq səviyyəli aktual yeniliklər haqqında məlumatlar məcmusu. Publisistikanın janrları olan xəbərlər, reportajlar,

hesabatlar, müsahibələr, icmalar, informasiyanın əsas operativ janrlarıdır.

**İNFORMASİYA AXTARIŞI –** Yaddaş qurğusunda saxlanan müəyyən mövzu üzrə informasiyanın axtarılıb tapılmasına gətirən əməliyyatlar, metodlar və prosedurlar məcmusu.

**İNFORMASİYA BOKSU** – Məlumatların ötürülmə zəncirinin aralanmasını təmin edən binadaxili aparat qovşağı.

**İNFORMASİYA DAŞIYICISI –** Verilənləri saxlamaq üçün istifadə edilən maddi obyekt.

**İNFORMASİYA SİSTEMİ –** Müxtəlif xarakterli məlumatların sorğuya görə toplanması, saxlanılması, yeniləşdirilməsi, axtarışı və verilişi üçün sistem. Avtomatlaşdırılmış informasiya sistemləri, əsasən, sənədli (sənədlərin axtarışı üçün) və faktoqrafik (iqtisadi və statistik informasiya) olur.

**İNFORMASİYA TƏHLİLİ –** Sənədlərin öyrənilməsi, formalaşdırılan və istifadə edilən informasiyanın müəyyənləşdirilməsi, həmçinin sənəd dövriyyəsi və informasiya əlaqələri sxeminin yaradılması.

**İNFORMASİYALI CƏMİYYƏT –**Kompüterin kommunikasiya sahəsinə təsirinin gücləndiyi dövrdə böyük mübahisələrə səbəb olan futuroloji doktrina. Gələcək informasiya cəmiyyətinin cizgilərini daha ətraflı Amerika kulturoloqu O.Toffer proqnozlaşdırmışdır. Onun nəzəriyyəsinə görə, dünya sivilizasiyanın yeni üçüncü mərhələsinə qədəm qoyur. Bu mərhələdə dünyanın taleyində informasiyanın kütləviləşdirilmiş rabitə vasitələri həlledici rol oynayacaq. İqtisadiyyat və mədəniyyətdən tutmuş düşüncə tərzinədək həyatın böyük sahələrini əhəmiyyətli dərəcədə dəyişəcək. O, məhsul əvəzinə yaradıcı qüvvələrin və axtarışların həvəsləndiricisi kimi mənimsəniləcək. Belə ki, kompüterlər daim kütləni kütləvi qaydalardan, standartlardan və ehkamlardan asılı olmayaraq

fərdi, çoxvariantlı qərarların seçilməsində informasiyanın qlobal əngəlliklərində düzgün istiqamətlənməyə yönəldir.

**İNFORMASİYANIN MİQDARI –** Müəyyən ehtimala görə baş verən hadisə nəticəsində alınan informasiyanın ölçüsü; məlumatdakı informasiyanın qiymətləndirmə ölçüsü; bir təsadüfi kəmiyyətdə olan qeyri-müəyyənliyin digərinə nəzərən azalmasını xarakterizə edən ölçü.

**İNFORMATİKA –** İnformasiyanın strukturu və ümumi xüsusiyyətlərini (yaranma üsulu, saxlanılması, yığılması, ötürülməsi) öyrənən və insanların hər cür fəaliyyəti üçün vacib olan elm. Xüsusi ilə telekommunikasiya sistemlərində informatika elmi böyük əhəmiyyət kəsb edir.

**İNFORMETRİYA –** İnformasiyanın kəmiyyət aspektlərini öyrənən elmi istiqamətdir.

**İNFOTEYNMENT -** Əyləncəli informasiya.

**İNFRASTRUKTUR –** 1. Rabitə sistemləri və ya şəbəkənin arxitekturasını (nüvəsini) təşkil edən avadanlıq və qurğular. 2. İqtisadiyyat, səhiyyə, elm, təhsil və s.-nin mükəmməl işləməsinə xidmət edən kompleks. İstehsal və qeyri istehsal (sosial) infrastrukturları fərqli olurlar. İstehsal bölmələrinin tərkibinə daxil olmayan, təşkilati formada olanlardan ayrı olan və həqiqətdə isə istehsala xidmət edən sahələr və ya təsərrüfat bölmələri istehsal infrastrukturuna, əhaliyə xidmət edənlər isə qeyri-istehsal (sosial) infrastrukturuna daxil edilir.

**İNİTİALİZASİYA –** Kompüterin, qurğunun və ya proqramın ilkin vəziyyətə gətirmə prosesi.

**İNİTİALİZATOR –** Proqramı yükləməkdən öncə obyekti ilkin vəziyyətə gətirmək üçün verilənlər bloku.

**İNJEKTOR –** İnformasiya verilişində səhvləri tapmaq məqsəd ilə test siqnallarını sistemə daxil edən qurğu.

**İNJİNİRİNQ** – 1. Kommersiya qiymətləri əsasında mühəndis məsləhət xidməti. 2. Sifarişçi ilə bağlanmış müqavilə üzrə

məhsulun istehsalı və satışı prosesinin hazırlanmasının təmin edilməsi, tikintiyə xidmət və sənaye, infrastruktur və digər obyektlərin istismarı üzrə mühəndis-məsləhət xidmətlərinin yerinə yetirilməsidir.

**İNKAPSULYASİYA** – Məlumatların gizlədilməsi.

**İNKOTERM –** Beynəlxalq ticarət müqavilələrində istifadə olunan əsas çatdırılma terminlərinin interpretasiyası üçün Beynəlxalq Ticarət Palatası tərəfindən dərc edilmiş beynəlxalq qaydalar toplusudur.Bu, dünya kommersiya praktikası təcrübəsini ümumiləşdirən və yalnız alqı-satqı kontraktlarına aidiyyəti olan beynəlxalq ticarət terminləri toplusudur. Nəzərə almaq lazımdır ki, "İnkoterm"lər yalnız kontraktda onlara istinad edildiyi hallarda tətbiq olunur.

**İNNOVASİYA** – 1. Elmdə, iqtisadiyyatda və s.-də yenilik; texnoloji baxımdan təzə olan bir şey. 2. Təhsil və təlimdə yeni üsulların tətbiqi.

**İNNOVASİYA FƏALİYYƏTİ –** Bazarda tətbiq edilmiş yeni və ya təkmilləşdirilmiş məhsula; praktiki fəaliyyətdə istifadə olunan yeni və ya təkmilləşdirilmiş texnoloji prosesə; sosial xidmətlərə yeni yanaşmaya ideyaların (adətən, elmi tədqiqatların və işlənmiş digər elmi-texniki nailiyyətlərin nəticələrinin) transformasiyasi ilə əlaqədar olan fəaliyyət növüdür. İnnovasiya fəaliyyəti yekunda innovasiyaya səbəb olan elmi, texnoloji, təşkilati, maliyyə və kommersiya tədbirlərinin tam kompleksini nəzərdə tutur.

**İNNOVASİYA MƏHSULU –** Müxtəlif səviyyədə texnoloji dəyişikliklərə məruz qalmış məhsuldur. İnnovasiya məhsulları yeni və ya təkmilləşdirilməyə məruz qalmış, həmçinin yeni və əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş metodlara əsaslanan istehsalı (digər innovasiya məhsulu) əhatə edir.

**İNNOVATİV** – Yenilikçi, yaradıcı.

**İNSAYD** – Futbolda və xokkeydə orta xətt hücumçusu, mərkəzi hücum xətti ilə kənar hücumçular arasında mövqe tutan oyunçu.
**İNSTALYASİYA** – Sərt diskdə proqramın qurulması və onun əməliyyat sisteminə "bənd edilməsi".
**İNSTAQRAM** - Pulsuz foto paylaşma proqramı. İstifadəçilərinə çəkdikləri fotoşəkil üzərində digital filtr istifadə etmək və bu fotoşəkili instagramın da daxil olduğu, ictimai media xidmətləri ilə paylaşma imkanı tapmasıdır.
**İNSTİNET** – Qiymətli kağızların böyük dəstlərinin satıcı və alıcılarını kompüter sistemi vasitəsilə birbaşa, heç bir ənənəvi vasitəçiyə müraciət etmədən birləşdirən elektron səhm ticarət sistemi.
**İNTEQRASİYA –** Vahid sistemdə ayrı-ayrı proqram və texniki vasitələrin birliyi. Mikrosxema texnikada inteqrasiya səviyyəsi məntiqi elementlərin sayı ilə müəyyən olunur.
**İNTEQRASİYALILIQ –** Bir şəbəkə vasitəsi ilə müxtəlif növ məlumatları ötürə bilmək qabiliyyəti (xüsusiyyəti).
**İNTEQRATOR –** 1. Anloq siqnallarını hesablayan sxem. 2. Tətbiqi proqramları birləşdirən vasitə. 3. Rabitə şəbəkəsi quruculuğunda kompleks həllini təklif edən şirkət.
**İNTELSAT –** Beynəlxalq peyk rabitəsi konsorsiumu. İntelsat 25-dən çox peyk aparatı ilə ümumi beynəlxalq tarifin əsas hissəsini daşıyır. Bir peyk aparatının 12000-dən çox 35000-ə kimi telefon kanalı vardır.
**İNTELLEKTUAL TELEFON –** Xüsusi mikro prosessor kiçik ölçülü klavişa və displey ilə təchiz olunmuş data şəbəkələrinə qoşularaq informasiya mübadiləsi üçün yararlı telefon aparatı-intellektual telefon adlanır.
**İNTERAKTİV KOMPAKT-DİSK –** Müxtəlif informasiyanı, mətnləri, kompüter proqramlarını səsi və təsviri rəqəmli formada yazılmağa imkan verən disk.

**İNTERAKTİV MÜHİT** – Kompüter qurğuları ilə fotolara baxılmasına və ya səsə qulaq asmasına maksimum imkan yaradan dialoq mühiti.

**İNTERAKTİVLİK –** Xidmət olunan stansiya ilə ikitərəfli dialoq yaradan sistemin və ya istifadəçi xüsusiyyətləri (qabiliyyəti).

**İNTERFAKS** – Beynəlxalq faksimil rabitə sistemi.

**İNTERFERENSİYA** – 1. İşıq, səs, elektrik və istilik hadisələrində fiziki-bioloji dəyişiklik. 2. Dilç. Hər hansı xarici təsirlə yaranan dil hadisəsi.

**İNTERFEYS –** Kompüter sisteminin qurğuları arasında informasiya mübadiləsini həyata keçirmək üçün vahid siqnal və cihazlar şəklinə salınmış (unifikasiya olunmuş) rabitə sistemi. Məsələn, məlumatları maşına verən qurğu ilə yaddaş qurğusu arasında əlaqəni interfeys yaradıb, mübadilə üsulunun qayda və qərarlar toplusunu təşkil edir. Bura həm avadanlıq elementləri, həm də proqram təminatının fraqmentləri (drayverləri) daxildir. 2. Qoşulma (birləşdirmə), bir-birinə calandığı nöqtə. O, proqram və aparat vasitələrini fiziki və məntiqi səviyyədə bir-birinə qoşulmasını həyata keçirir. Faktiki interfeys iki proqram əlavəsinin və ya iki qurğunun bir yerdə işlədiyi aralıq sərhəd sahəsidir.

**İNTERFEYSLİ PROSESSOR –** Daha güclü kompüterin idarəetməsi ilə işləyən kompüter.

**İNTERNET –** Məlumat mənbəyi və onun istehlakçılarını vahid informasiya məkanına birləşdirən qlobal kompüter şəbəkəsi. Ümumdünya kompüter – peyk kommunikativ – informasiya xidmətlərinin şəbəkəsi. Növündən asılı olmayaraq, bütün məlumatlar rəqəmli formada verilir. Bu, o deməkdir ki, şəbəkə üçün nəyin - musiqinin, fotonun, yaxud videoklipin, məktubun kompüter proqramına verilməsinin heç bir fərqi yoxdur. Bu şəbəkə istənilən informasiya üçün şəffafdır. Bunları inteqral

xidmət şəbəkəsi də adlandırırlar. Müxtəlif ölkələrdə yaşayan və müxtəlif texniki maddi şəraiti olan milyonlarla istifadəçi bu şəbəkəyə qoşula bilər. İlk dövrlərdə şəbəkədən ABŞ hərbiçiləri, inzibati və elmi mərkəzləri istifadə edirdilər. Amma tədricən internet daha geniş auditoriyaya açılaraq ondan elektron-poçt və bank əməliyyatları, videokonfranslar, telemağazalar, teletəbabət, sifarişli proqramlar və s. xidmət növü kimi istifadəni təmin edir. İstifadəçilərin arzusu ilə informasiyanı kompüterin yaddaşında multimediya şəklində saxlamaq mümkündür.

**İNTERNET ABUNƏÇİLƏRİ –** İnternet şəbəkəsinə qoşulmaq üçün qoşulma haqqını ödəmiş fərdlər hesab olunur. Qoşulma sürətindən, internetə çıxış və ödəmə formasından asılı olmayaraq bütün abunəçilər nəzərə alınır.

**İNTERNET ARXİTEKTURASI ŞURASI –** İnternetin standartları və onun gələcək inkişaf siyasətini müəyyənləşdirən orqan. Bu şura IETF, IRTF və IESÇ (İnternet Enginurinq Streerinq Çroup) qruplarından ibarət olub, birinci qrup cari, ikinci qrup perspektiv tədqiqat, üçüncü qrup isə internetin fəaliyyətinin koordinasiyası ilə məşğul olmuşdur.

**İNTERNET İSTİFADƏÇİLƏRİ –** İnternet şəbəkəsinə qoşulmuş, internetdən istifadə etmiş şəxlər hesab olunur. İnternet istifadəçisi tələbə və ya şagird olduqda, o, internetdən “təhsil müəssisəsində” (təhsil aldığı yerdə) istifadə etmiş, müəllim olduqda “iş yerində” internetdən istifadə etmiş şəxs kimi nəzərə alınır.

**İNTERNET KOMPANİYA** – İnternetdə aparıcı biznes-dot-com. Bu ad . com (commercial) İnternet domenlərinin artması nəticəsində yaranıb.

**İNTERNET TELEFON –** Yeni İP texnologiyaları vasitəsi ilə QOS keyfiyyət parametri ilə səs danışıq siqnallarının İP kanalı ilə ötürülməsi. Hazırda internet üzərində səs ötürmək üçün (internet telefon rabitəsinin təşkili üçün) minlərlə şəbəkələr

qurulmuşdur və beynəlxalq trafikin əsas hissəsi həmin şəbəkələr üzərində təşkil edilir.

**İNTERPOLYASİYA** – Təsvirin və ya səsin qonşu elementlərin birləşməsi vasitəsi ilə bərpası.

**İNTERPRETASİYA** – Hər hansı bir faktın, hadisə və ya ədəbi əsərin fərqli yozumu.

**İNTERVAL TAYMER –** Zaman intervallarını proqramla formalaşdıran qurğu.

**İNTERVENSİYA –** Hər hansı ölkənin daxili işlərinə bir və ya bir neçə xarici ölkənin zorla müdaxilə etməsi.

**İNTOKSİKASİYA** – Orqanizmin özündə əmələ gələn və ya xaricdən daxil olmuş zəhərli maddələrin təsiri altında orqanizmin zəhərlənməsidir.

**İNTRAZONAL** – Zonadaxili, böyük coğrafi zonalara aid olmayan.

**İNVERSİYA** –1.Biologiyada,xromosomun daxili hissələrindən birinin 180 dərəcə dönmə nəticəsində onun quruluşunun dəyişməsi. 2.Riyaziyyatda, verilmiş çevrəsinə nəzərən müstəvi nöqtələrinin çevrilməsi. 3.Dilçilikdə, cümlədə adi söz sırasının dəyişdirilməsi ilə yaradılan bədii ifadə üsulu. 4. Telekommunikasiyada siqnalın işarəsini (yəni onun qiymətini tam ($180^0$) əks istiqamətdə çevirən, dəyişən məntiqi əməliyyat. 5. İlkin siqnalı almaq üçün əks çevirici.

**İNVERTER –** Gərginliyə görə çıxış siqnalı girişə nəzərən tam əks olan funksional element.

**İNVESTİSİYA –** Gəlir əldə edilməsi və müsbət sosial səmərəyə nail olunması üçün ölkə daxilində, eləcə də ölkə xaricində kapital qoyuluşudur. İnvestisiya kimi pul vasitələrindən, məqsədli bank əmanətlərindən, paylardan, səhmlərdən və digər qiymətli kağızlardan, kreditlərdən istiqrazlardan, girovlardan, texnologiyalardan, torpaqdan, binalardan, tikililərdən, maşınlardan, avadanlıqlardan, lisenziyalardan, o cümlədən əmtəə

nişanlarından, istənilən mülk və mülkiyyət hüququndan, intelektual dəyərlərdən istifadə edilir. Bütün yuxarıda sadalananlar investisiya fəaliyyətinin obyekti hesab olunur. İnvestisiya maliyyə mənbələri üzrə təsnifləndirilə bilər.

**İNVESTİSİYA DƏYƏRİ** – Alıcının özünün investisiya məqsədlərini güdməklə, əmlaka görə verməyə hazır olduğu qiymətdir. Yəni investisya dəyəri subyektiv anlayışdır, konkret mülkiyyət obyektinin, müəyyən məqsəd və meyarları olan konkret investor ilə əlaqələndirilir.

**İNVESTİSİYA FƏALİYYƏTİ** – İnvestisiyanın reallaşdırılması üzrə praktiki fəaliyyətdir. İnvestisiya fəaliyyəti investisya prosesini ümumilikdə onu təşkil edən komplekslər, o cümlədən kapital yaradan və maliyyə investisiyaların inkişafını, istehsal və qeyri-istehsal sahələrində investisiya proseslərini; iqtisadi regionların, iqtisadiyyatın əsas bölmələrinin inkişafını müəyyənləşdirir.

**İNVESTİSİYA FONDU** – Qiymətli kağızların ilkin bazarının formalaşması səhm alıcılarının riskinin azaldılması üçün yaradılan maliyyə bazarının subyektlərindən biridir. İnvestisiya fondu bir səhmdar cəmiyyətinin səhmlərinin 10%-dən çox olmayan hissəsinə sahib ola bilər və qiymətli kağızların 5%-dən çox olmayan hissəsini öz aktivlərində yerləşdirə bilər. Banklar, sığorta şirkətləri investisiya fondu ola bilməzlər. İnvestisiya fondu açıq və qapalı tipli ola bilər.

**İNVESTİSİYA GƏLİRİ** – Maliyyə aktivlərinə sahibkarlıqdan investorların əldə etdikləri gəlirdir. Əsasən faizlərdən, dividentlərdən (müəssisə şirkətlərinin qoymuş olduqları kapitala görə aldıqları mənfəət), bölüşdürülmüş və bölüşdürülməmiş gəlirlərdən bir başa inverstorların payından ibarətdir.

**İNVESTİSİYA KOMPLEKSİ** – İqtisadiyyatın sahələrinin əsas fondlara olan tələbatını təmin edən məcmudur. İnvestisiya kompleksinin aparıcı sahəsi kimi tikintini göstərmək olar. Belə

ki, əsas fondların və istehsal güclərinin istifadəyə verilməsinə hazırlıq əsaslı tikintinin məhsulu hesab olunur. Tikintinin ətrafında əsas etibarı ilə maşınqayırma müəssisələri və tikinti materialları sənayesini əhatə edən sahə və istehsalla bağlı kompleks toplaşır.

**İNVESTİSİYA MÜHİTİ –** Bu və ya digər ölkəyə xas olan və investorları cəlb edən, yaxud uzaqlaşdırılan siyasi, sosial-iqtisadi, maliyyə, sosial-mədəni, təşkilati-hüquqi və coğrafi amillərin məcmusudur.

**İNVESTİSİYA SUBSİDİYALARI –** 1. Şirkət tərəfindən kapital aktivlərinin (avadanlıqlara subsidiyalar) alınması və ya yaradılması, yaxud işgüzar aktivlərin uzunmüddətli növlərinin müəyyənləşdirilməsi məqsədilə alınmış subsidyalardır (köməkdir). 2. Pul və natura formasında kapital transferlərindən ibarətdir. Dövlət idarələri tərəfindən digər institusional vahidlərə - rezidentlərə və ya qeyri-rezidentlərə əsas kapitalın alınmasına çəkilən xərclərin tamamilə və ya bir hissəsinin maliyyələşdirilməsi üçün verilir.

**İNVESTORLAR –** İnvestisiya layihələrinə şəxsi istiqraz və ya cəlbedilmiş vəsaitlərini investisya formasında qoyulmasını həyata keçirən və qərar qəbul edən, onlardan məqsədli istifadə edilməsini təmin edən investisiya fəaliyyətinin subyektləri olan hüquqi və fiziki şəxslərdir. İnvestor qismində dövlət və bələdiyyə mülkiyyətini və ya mülkiyyət hüququnu idarə etmək səlahiyyətində olan orqanlar; vətəndaşlar, müəssisələr, sahibkarlar birliyi və digər hüquqi şəxslər; xarici fiziki və hüquqi şəxslər, hökumət və beynəlxalq təşkilatlar çıxış edə bilər. İnvestorlar tərəfindən qoyulan investisiya kapitalı maliyyə ehtiyatları, əmlak intelektual məhsul şəklində ola bilər.

**İP TELEFONİYA -** İP protokolları vasitəsi ilə abonentlərə telefon danışıqlarının ötürülməsi xidmətidir. İP telefoniya vasitəsi ilə səs siqnallarını, danışıqları xüsusi fayl kimi yadda

saxlamaq, onların həcmini sıxmaq və s. əməliyyatları icra etməyə imkan verir.

**İP TELEFONİYA** – İnternet şəbəkəsi üzərindən real zamanda danışıq siqnallarının ötürülməsinə əsaslanan texnologiyalar. İP şəbəkəsi ilə telefon şəbəkəsi bir-birinə (telefon çağırışlarını İP ünvana çevirən) şlüz vasitəsi ilə qoşulur. Bu şlüzü idarə edən qurğu "gatekeeper" adlanır.

**İP ÜNVANI -** İnternetə qoşulan hər bir abonent İP ünvanına malikdir. Məhz İP ünvanı üzrə şəbəkədə qurğuların axtarışı və qarşılıqlı əlaqəsi həyata keçirilir. İP ünvanı bir-birindən nöqtələrlə ayrılan dörd rəqəm blokundan ibarət ardıcıllığı əks etdirir.

**İPOTEKA** – İstənilən pul öhdəliklərinin təmin edilməsində daşınmaz əmlakın (əsasən torpaq tikililərin) girov qoyulmasıdır. Bu, kreditora (kredit verənə) girov qoyulmuş məbləği borcluya iddialarını bildirmək hüququnu verir.

**İPOTEKA BANKI –** Daşınmaz əmlakın alınması üçün uzun müddətli ipoteka krediti verən bank təşkilatıdır.

**İPOTEKA KREDİTİ –** Kredit-maliyyə təşkilatları tərəfindən daşınmaz əmlakın (torpağı yaşayış tikililərinin, istehsal binalarının, bütöv komplekslərin) girov qoyulması ilə bağlı verilmiş uzunmüddətli pul ssudasıdır (borcdur).

**İSLAMOFOBİYA-** yəni "İslamdanqorxu". ABŞ-ı hədəfə alan terror hücumlarından sonra bu söz qloballaşdı.

**İSTİFADƏÇİ –** 1. İnformasiyanın əldə edilməsi, yaxud müxtəlif məsələlərin həlli məqsədilə hesablayıcı texnikanın xidmətlərindən istifadə edən şəxs. 2. Digər sistemin resurslarından istifadə edən proqram, yaxud sistem. Rabitə şəbəkələri vasitəsilə informasiya mübadiləsi olan terminal, kompüter və s. qurğular. *İnformasiya xidmətləri* – informasiya təşkilatları və hesablama mərkəzləri tərəfindən informasiyanın toplanması, emalı və ötürülməsi sahəsində görülən xidmətlər.

**İŞƏSALMA** – Məhsulun ilk dəfə istehsala daxil edilməsi və ya onun yenidən istehsalının başlanılması və ya istehsal resursunun ilk dəfə olaraq istehsal prosesində istifadə edilməsi və ya onun təkrar istifadəsinin başlanılmasıdır.

**İZLƏMƏ–** Partiyanın və ya seriya nömrəsi üzrə məhsulun izlənilməsi üçün tələb olunan informasiyanın əldə edilməsi prosesidir.

**İZOBAT** – Xəritədə dəniz dibinin bərabər dərinliklərində nöqtələri birləşdirən xətt. Kontinental şelfin xarici hüdudunun müəyyənləşdirilməsinin distansiya meyarının növ müxtəlifliyi kimi tətbiq edilir.

**İZOKVANTA** – Müəyyən edilmiş həcmdə məhsul istehsalını mümkün edən müxtəlif xərc kombinasiyalarını bildirən xətt.

**İZOKVANT** - İstehsalın faktorlarının müxtəlif birləşmələrdə buraxılan məhsulların eyni kəmiyyətini verən nöqtələrin həndəsi yeridir.

**-J-**

**JAMPER –** İki obyekti (avadanlığı) bir-birinə birləşdirmək üçün istifadə edilən cüt izolyasiyalı naqil.

**JAR FAYL –** Java arkivdir. Java proqramlaşdırma dilində yazılmış proqramların saxlanıldığı adi ZİP- arxiv rolunu oynayır. JAR faylın işlək olması üçün, o, META-INF kataloqunda manifest. MF faylını saxlamalıdır.

**JAVA** – Elektron hesablama maşınında (EHM-də) mövcud proqramlaşdırma dillərindən biri. Yeni, müasir dillərdən hesab olunur. Əksər kompüterlərdə işləyir. Bu dildə yazılan proqramların ölçüsü xeyli kiçik, lakin sürət aşağıdır. Odur ki, bu dildə yazılan proqramlar daha çox internetdə və mobil telefonlarda geniş yayılır.

**JİRANDOL** – Şamdan, bra.

**JİROHESAB** - Hesablaşma çekləri vasitəsilə nağdsız hesablaşmalar, məbləğin bir hesabdan digərinə köçürülməsi yolu ilə kredit müəssisələri tərəfindən həyata keçirilən nağdsız hesablaşmaların müxtəlifliyidir (müxtəlif növləridir). Jirohesab terminindən,həm də nağdsız hesablaşmaların bütün sistemlərinin ifadə edilməsində istifadə olunur.

**-K-**

**KABEL SKANERİ** – Kabelin elektrik və mexaniki parametrlərini ölçən cihaz. Bu cihaz vasitəsilə kabeldə (dövrələrində) sönməni (dB/km), uzunluğu (metr), keçid sönmələri (dB/km) ölçmək mümkündür. Cihaz vasitəsilə kabel xətlərində zədələnmələri də (qırıq, qısa qapanma, sonluğun düzgün bağlanmaması və s.) müəyyən etmək mümkündür.
**KADR** - Displey ekranın məzmunu.
**KALİBROVKA** – Rəngin idarəedilməsi sisteminin düzgün işlənməsi üçün işıqverən qurğuların (skaner, monitor və s.) işıq xarakteristikasının saxlanması.
**KALKULYASİYA** – İstehsal edilən məhsulun və ya xidmətin maya dəyərinin hesablanması; bu məqsədlə tələb olunan bütün xərclərin pul ilə ifadəsi.
**KAMBİO** – Borc məktubu, veksel.
**KAMBİST** – Veksel əməliyyatları və sikkə ticarəti ilə məşğul olan şəxs.
**KAMEO** – Məşhur kinoulduzların filmin hər hansı parlaq epizodunda ani görünməsi.
**KANTE** – Ağacşəkilli sintaktik təsvirdə tərəfləri birləşdirən xətlər.
**KAPSUL** – 1. Telefon dəstəyində istifadə edilən ucadan səslənən telefon. 2. Qeyd olunmuş formatda məlumat.

**KAPETA-VAL** – Printerin çapedici başlığını hərəkət etdirən qurğu.

**KARQO -** Gəmidə daşınan və sığortalanmaya məruz qalan yüklərin dəqiq adı göstərilmədiyi hallarda istifadə olunan termindir.

**KART –** 1. Maqnit örtüyünə və ya CİP elementlə təchiz edilmiş kiçik ölçülü plastik informasiya daşıyıcısı. 2. İnformasiya qeydiyyatı.

**KARTAVİY -** Dilçəyin və ya dil kürəyinin arxa hissəsinin yumşaq damağa yaxınlaşması nəticəsində yaranan səs. Bəzən dilönü r samiti əvəzinə dilçək R-sı tələffüz olnur. Məs.: qarğa əvəzinə qaRqa və s.

**KART-BALANŞ** – 1. Bir səlahiyyətli şəxsin ağ vərəqi imzalayaraq mətni yazmağı başqasına etibar etməsi. 2. Bir kəsin başqasına onun adından çıxış etmək səlahiyyəti verməsi.

**KARTİNQ** – Avtomobil idman növü; “kart” tipli avtomobillərin yarışı; eləcə də həmin yarış üçün nəzərdə tutulan meydança.

**KARTRİC** – Şırnaqlı və ya lazer printerin mürəkkəbinin (və ya tozunun) dəyişilə bilən mənbəsi və ya çap qurğusunun içərisində toz və ya maye halında rəng maddələri olan hissə.

**KASTİNQ** – 1. İfaçıların tərkibinin müsabiqə yolu ilə müəyyən edilməsi, seçilməsi. 2. Nəyi isə atmağa, tullamağa aid olan idman növü.

**KATAMARAN** – Yuxarı hissələri birləşdirilmiş iki paralel gövdədən ibarət gəmi. Katamaranlardan turizm, su idmanı, balıq ovu, geoloji kəşfiyyat, elmi tədqiqat və digər işlərin yerinə yetirilməsi üçün istifadə olunur.

**KATASTROFİK KOD –** Yüksək dəqiqlik kodu. Bu kodda səhv sayı məhduddur.

**KAYZEN** – Biznes fəaliyyətinin davamlı təkmilləşdirilməsi prinsipidir.

**KAZUS** – 1. Şəxsin məqsədyönlü səylərinin nəticəsi sayılmadığı üçün, mövcud şəraitdə nəzərə alınmayan hadisə. 2. Mürəkkəb, mübahisəli və ya dolaşıq hüquqi iş.
**KEDDİ** – Kompakt disklər üçün konteyner.
**KEMPİNQ** – Avtoturistlər üçün xüsusi yay düşərgəsi. Əsasən, şəhərlərarası yol üstündə yerləşən, gecələmək üçün şəraiti olan yığcam, birmərtəbəli taxta və ya daş ev, kiçik hotel.
**KEP KOD –** Peycerin aktivləşdirilməsi üçün istifadə olunan elektron identifikasiya nömrələri. Belə ki, POCSAG standartı üçün kep-kod 8-dən 2097151 diapazonunda seçilir.
**KERB** – Ticarət sessiyalarında birja bağlandıqdan sonra edilən əqdlər.
**KEROSİNKƏSİCİ** – Ağ neft vasitəsilə xüsusi kəsicidən, ağ neft üçün çəndən və şlanqdan ibarət olan cihaz.
**KEŞ –** Əsas yaddaşla prosessor arasında aralıq olan ifrat, yüksək sürətli (ifrat yüksək əməli) yaddaş. Yaddaşın o hissəsidir ki, həmin hissədə istifadəyə hazır verilənlər saxlanılır və onlara tez-tez sorğu edilir.
**KEŞ DİSKİ – Ə**məli yaddaşın bufer sahəsi.
**KEŞ-YADDAŞ –** 1. Prosessorla əsas yaddaş arasında yerləşən kiçik tutuma və yüksək işləmə sürətinə malik yaddaşdır. 2. Komandaların buferə ötürülməsinə xidmət edən, yüksəksürətli, enerjidən asılı operativ yaddaş.
**KEYS** – 1. Sənəd, kağız, qovluq və s. yığmaq üçün kiçik çamadan. 2. Müzakirələrin – diskussiya və debatın struktur elementi.
**KİBERCİNAYƏTKARLIQ -** Kompüter sistemlərinin və şəbəkələrinin köməyi ilə, yaxud kompüter sistemlərinə və şəbəkələrinə qarşı həyata keçirilən istənilən cinayət əməlidir. Başqa sözlə, virtual mühitdə həyata keçirilən istənilən cinayət növünü “kibercinayət” adlandırmaq olar.

**KİBERTERROİZM** – Kompüter – telekommunikasiya texnologiyalarının köməyi ilə həyata keçirilən terrorizm.

**KİKER** – Başlıqdan əvvəl yazılan ifadə (məqalə haqqında açar məlumat daşıyan ifadə).

**KLASTER –** 1. Müəyyən işarəli ayrıca qrup yığımı. Bu – bir-birinə yaxın yerləşən bir neçə selldən ibarətdir. Bu sellər çərçivəsində bütün ayrılmış tezlik spektri istifadə edilir. Bu halda qarşılıqlı maneəni dəf etmək üçün tezliyin təkrar istifadəsi yolverilməzdir. Verilənlərin abstrakt tipi. 2. Klaster analizində aşkar edilən müəyyən əlamətlər toplusuna malik olan obyektlərin alt çoxluğu.

**KLAUZULA** – Qanun, müqavilə, razılaşma müddəası, şərti, maddəsi. Klauzula, adətən, sənəddəki xüsusi şərti hüququ bildirir.

**KLAVİATURA –** 1. Verilənlərin daxil edilməsi və redaktə olunması, həmçinin ayrı-ayrı əməliyyatların icrasının idarə edilməsi üçün istifadə olunan qurğunun xüsusi ardıcıllıqla düzülmüş klavişlər məcmusu. 2. Müəyyən qaydada yerləşmiş klavişlərin (üstündə işarəsi olan düymələrin) toplusu. 3. Musiqi alətlərində, kompüterdə və hər hansı mexanizmdə dillərin-klavişlərin müəyyən sistem üzrə düzülmüş komplekti.

**KLAVİŞ (DÜYMƏ) –** 1. Basıldıqda müəyyən işarənin kodunun generasiyasını təmin edən, yaxud konkret fəaliyyəti həyata keçirən klaviatura elementi. 2. Hər hansı musiqi alətində, mexanizmdə konkret funksiya daşıyan düymə, dil.

**KLAVİŞİN BLOKLANDIRILMASI –** Klaviaturanın sanksiyalanmamış istifadəsinin minimum olmasını təmin edən mexaniki və ya elektron açar.

**KLERK** – Bilavasitə müştərilərlə kassa əməliyyatları həyata keçirən bank işçisi. Mədaxil kassanın klerki və məxaric kassa-sının klerki ən çox yayılmış klerk kateqoriyalarıdır. İri

banklarda, həmçinin veksel klerki, kupon ödənişi üzrə klerk vəzifələri də olur.

**“KLİENT-SERVER” ARXİTEKTURASI –** Bu arxitekturada iki tip şəbəkə obyektlərindən-müştərilərdən (işçi stansiyalar) və serverlərdən (xidmət göstərən şəbəkə qurğuları) istifadə olunur. Bu alqoritmdə müştərinin təşəbbüsü ilə ondan şəbəkəyə sorğu göndərilir. Bu sorğuya əsasən şəbəkə serveri xidməti təqdim edir.

**KLİP-ART** – Sənədin tərtibatı üçün istifadə olunan kiçik vektor şəkil. Bir çox tərtibat proqramlarının, mətni və qrafik redaktorların klip-art kitabxanaları vardır.

**KLİRİNQ** – Vahid yoxlama mərkəzində ödəniş və ya qiymətli kağızların köçürülməsi tapşırıqlarının cəmlənməsi, onların müqayisə edilməsi, hesablaşma iştirakçılarının qarşılıqlı tapşırıqlarının aşkarlanması və hesaba alınması. Hesaba alınmadan sonra qarşılıqlı öhdəliklərin tamamlanması üçün xalis məbləğlərin köçürülməsi; qiymətli kağızlar bazarına münasibətdə bu proses çox vaxt klirinq adlanır.

**KLİRİNQ AGENTİ** – Klirinq palatasının üzvü olmayan bankın çekləri üzrə hesaba alma əməliyyatı aparan klirinq palatası üzvü.

**KLİRİNQ SAZİŞİ –** Qarşılıqlı ticarətdə tarazlığın əldə olunması məqsədilə idxalçı ilə hesablaşmaq üçün ixracatçının gəlirlərindən istifadə edilməsini nəzərdə tutan ticarət sazişidir.

**KLİŞE –** Kitab nəşrindən götürülmüş ifadələrin pejorativ mənada işlədilməsi. Bunları bəzən streotip ifadələr də adlandırırlar.

**KLUC** – 1. Qurğu, proqram və ya proqram hissəsinin işlənməsi. Nəzəri cəhətdən işlənməməli olan, amma işləyən. 2. Proqramda başdansovdu iş.

**KOAKSİL KABEL** – Kompüter şəbəkəsində istifadə olunur. Sadə şəkildə mis, nüvə, izolyasiya və ekrandan ibarətdir.

**KOARTİKULYASİYA** – Danışıq aktında fəal üzvlərin hərəkətində ardıcıllıq axınının nəticəsi olaraq səs məxrəclərinin bir-birinə qarışması. Klassik fonetikanın fərqləndirdiyi üç mərhələ: ekskursiya (başlanğıc), stasionar (orta) və rekursiya (son) fonetik təsvir baxımından özünü doğruldur. Həqiqətdə isə bu mərhələlər o qədər bir-birinə qarışır ki, onları bir-birindən ayırmaq faktiki olaraq qeyri-mümkündür. Ona görə də müasir fonetika elmi koartikulyasiyaya, danışıq aktının aramsız axınının tədqiqinə geniş yer verir.

**KOD –** İstənilən növ informasiyanın müəyyən məsafəyə ötürmək üçün, yaxud da mexanikləşdirilmiş və avtomatlaşdırılmış əməliyyatlardan keçirmək üçün ona əlverişli forma vermək məqsədi ilə yaradılan şərti işarələr, simvollar sistemi. Hər bir informasiya ilə müəyyən fərqli siqnallar kombinasiyasının əlaqələnməsinə imkan yaradan qayda. *Əmrin kodu*-əmrlər yığımında əmrləri təsvir etmək üçün istifadə olunan kod. 1. İlkin analoq siqnalın rəqəmli siqnala çevrilməsi proseduraı. 2. Hər hansı əlifba (yaxud say sistemi) ilə çoxlu işarələrin və ya onların kombinasiyasının birmənalı olaraq başqa çoxluğa çevrilərək rabitə kanalı ilə verilişi.

**KODEK** – Rəqəmli siqnalların işlənməsi və onların analoq siqnallara çevrilməsinə cavabdeh olan proqram və ya aparat qurğusu.

**KODER –** 1. Audio və video analoq siqnallar rəqəmli formaya çevirən qurğu. 2. Rəqəmli siqnallar (kodların) bir formatdan digərinə çevirən qurğu. Kodlayıcının tipindən asılı olaraq (ümumi istifadəli, yaxud məxfi) o, kodlayıcı və ya şifrator adlanır.

**KODLAŞDIRILMIŞ TƏSVİR –** Təsvirin yadda saxlanılması və emalı üçün əlverişli formada göstərilməsi.

**KODLAŞDIRMA –** Məlumatın kod şəklinə salınması, informasiyanın nəqli, emalı və saxlanılması üçün tətbiq edilən sistem.

**KOFE – BREYK** – Müxtəlif səviyyəli toplantılarda yüngül qəlyanaltı və qeyri-rəsmi ünsiyyət üçün qısa fasilə.

**KOLL-OPSİON** – Fəaliyyət müddətinin sonunadək təyin olunmuş qiymət ilə əmtəənin, qiymətli kağızın və ya fyuçers kontraktının alınması üçün opsion.

**KOMANDA –** Kompütərə təqdim edilən instruksiya, idarəedici qurğuda müəyyən operasiyanın icra olunmasını təmin edən idarəedici siqnal; *mütləq komanda* – hər hansı bir informasiya, yaxud parametrlərin göstərilməsi ilə icra olunan komanda, *xarici komanda* – yüklənmədən sonra icra olunan MS-DOS komandası, *daxili komanda* – operasiya sisteminin hissəsi olan və digər faylların yüklənməsini tələb etməyən MS-DOS komandası.

***KOMANDA DÜYMƏSİ*** – Windows proqramında kvadrat forması olan düymə. Ən sadə komandaların icrası üçün istifadə olunur. "Mouse" qurğusu vasitəsi ilə bu düymənin üzərinə kursor qoyulur və maus düyməsi basılır.

***KOMANDA SƏTRİ*** – İstifadəçi tərəfindən komandaların yazılması üçün nəzərdə tutulmuş displey ekranının sətri.

**KOMMERSİYA** – Ticarət; geniş mənada gəlir əldə etmək üçün aparılan ticarət əməliyyatları.

**KOMMERSİYA KOMMUTATORU –** Bu kommutatorun kanal tutumu az olub, ondan peşəkar rabitə sistemlərində istifadə olunur. Belə kommutatorların istifadəçilərinin bir hissəsini ümumi istifadəli telefon şəbəkəsinə çıxış yaratmaq imkanı vardır.

**KOMİKS** – Vahid məzmun xətti ilə bir-birinə bağlanan, süjetə uyğun olaraq müəsyyən ardıcıllıqla düzülən, qısa mətnlərlə müşayiət edilən şarj üslublu seriya rəsmlər.

**KOMİTENT** – Komissiya müqaviləsində tərəflərin biri olub, digər tərəfə mükafatlandırma üsulu ilə əmtəə, aksiya və s. ilə bir və ya bir neçə əqd həyata keçirməyə tapşırıq verir.

**KOMMUNİKASİYA PORTU** - Ardıcıl port, kompüterin arxa panelində giriş. Adətən, onlar iki ədəd olur – 9 və 25-milli, mausu (köhnə kompüterlərdə), həmçinin xarici modemi qoşmaq üçün port.

**KOMMUNİKATİVİSTİKA** – Müxtəlif dillərin və diskursların köməyi ilə sivilizasiyanın müxtəlif mərhələlərində həyata keçirilən kütləvi informasiya əlaqələrinin vasitə və humanitar funksiyalar sistemini öyrənən elm.

**KOMMUNİKE (diplomatiyada) –** Əsasən, beynəlxalq əhəmiyyətli məsələlərə dair hökumətin məlumatı, rəsmi xəbər. İki tərəfli kommunike adətən "birgə kommunike" və ya "birgə məlumat" adlanır. Kommunikedə qəbul olunmuş birgə qərarın konkret məsələləri üzrə tərəflərin mövqeyi müfəssəl şəkildə izah edilir.

**KOMMUTASİYA** – Giriş kanalı (xəttin) tələb olunan çıxış kanala (xəttə) qoşulması prosedurası. Yaxud giriş kanalların birindən məlumatı tələbə uyğun çıxış kanalların birinə transfer (ötürülməsi) proseduru.

**KOMMUTASİYA SAHƏSİ –** Üzərində bir sıra yuvaları (rozetkaları) olan panel. Bu paneldən (məftillə) əllə kommutasiya üçün istifadə edilir.

**KOMPAKT DİSK (CD)** – İnformasiyası optika vasitəsilə oxunan plastik disklər.

**KOMPANDER –** Bu qurğu kompressor və ekspander funksiyalarını özündə birləşdirir. Bu qurğu kanalla siqnalı

verilişdən qabaq onun dinamik diapazonuna sıxır (kompressiya) və qəbuledici tərəfdə siqnalın ilkin forması bərpa (ekspansiya) edilir.

**KOMPETENSİYA (SƏRİŞTƏ)** – Proqramın tədris olunan modulun mənimsənilməsinin nəticələrini təsvir edən biliklər, bacarıqlar və onların tətbiqi kimi parametrlərin vəhdətidir. Kompetensiya anlayışı formal kompetensiyanı, həmçinin bacarıq və biliklərin yeni peşə şəraitinə "köçürülməsini" və ya yeniliklər etmək bacarığını özündə əks etdirə bilər. Səriştənin səviyyəsi insanın əldə etdiyi bacarıq və bilikləri tətbiq edə bilmək qabiliyyəti kimi qiymətləndirilə bilər.

**KOMPİLYASİYA** – Proqramın əzəli mətninin başqa şəklə-obyekt modullarına salınması.

**KOMPİLYATOR** – Proqram translyatoru, proqramın əzəli mətnini proqramlaşdırma dilindən ekvivalent məqsədyönlü dil proqrama translyasiya edən, adətən maşın kodu.

**KOMPONENT –** 1. Proqram kompleksinin tərkib hissəsi. 2. Elektron sxeminin elementi. 3. Terminalların idarə olunması qurğusuna qoşulmuş daxiletmə-xaricetmə qurğusu.

**KOMPRADOR** – İnkişaf etməkdə olan milli bazarla bu bazara daxil olan xarici kapital sahibləri arasında vasitəçilik edən yerli tacir.

**KOMPRATOR –** İki analoq, yaxud rəqəmli siqnalların ampletud qiymətlərini nisbi müqayisə edən qurğu. Kompratoru proqram, yaxud aparat səviyyəsində reallaşdırmaq olar.

**KOMPROMAT** – Kimi isə nüfuzdan salmaq məqsədi ilə toplanmış ifşaedici material, sübutlar.

**KOMPROMİS** – 1. Qarşılıqlı güzəşt əsasında razılaşma; kiməsə güzəştə getmək; müəyyən maraqlardan imtina edib güzəştə getməklə ümumi razılığa gəlmək. 2. Rabitənin

təhlükəsizliyinin pozulması. Məsələn, şifrəli açarın sanksiya edilmədən (icazəsiz) açılışı.

**KOMPYUNKASİYA** – Bu termin “computer” və “commumication” sözlərinin birləşmələrindən yaranıb. Rabitə şəbəkələri ilə hesablama texnikası (kompüter) şəbəkələrinin inteqrasiyası deməkdir.

**KOMPÜTER** – Müəyyən əməliyyat ardıcıllıqlarını yerinə yetirmək imkanı olan aparat (hadware),əvvəlcədən qurulmuş (yazılmış) proqram təminatı və proqram təminatları (software) yüklənmiş, vahid sistem halında bir yerə cəmlənmiş fərdi və ya ümumi istifadəli ən geniş yayılmış vasitədir. Müəyyən proqram əsasında işləyən və elmi, məişət-sənaye, tətbiqi məsələlərin həlli üçün nəzərdə tutulan iri həcmli informasiyaları qısa müddətdə işləyib araşdıran qurğu; elektron hesablama maşını. Kompüter anlayışı köhnə hesablama texnikası anlayışından daha əhatəlidir.

**KOMPÜTER BİLGİLƏRİ** – Professional məsələlərin həlli üçün EHM-dən istifadə edilməsini təmin edən bilik və bacarıqların məcmusu.

**KOMPÜTER DƏSTƏKLİ İSTEHSAL** – İstehsal prosesini, zavodu və avadanlıqları təlimatlandırmaq və idarə etmək üçün kompüterlərin istifadə edildiyi istehsaldır.

**KOMPÜTER DƏSTƏKLİ LAYİHƏLƏNDİRMƏ** – Layihələndirmə, cizgilərin çəkilməsi və layihənin yaddaşda saxlanılması üçün interaktik rejimdə kompüterlərin və müvafiq proqram təminatının tətbiqidir.

**KOMPÜTERLƏŞDİRMƏ** - Kompüter sənayesinin məhsul və xidmətləri sənayesinin inkişafı, onlardan cəmiyyətdə istifadə prosesinin genişlənməsi, ölkənin müəssisələrinin, o cümlədən tədris müəssisələrinin, hesablayıcı texnika ilə təmin edilməsi və kompüter texnologiyaları sahəsində əhalinin savadlandırılması.

**KONDİSİYA** – Hər hansı məhsulun uyğun gəlməli olduğu norma, standart, keyfiyyət göstəricisi.
**KONDOMİNİUM** – Eyni ərazi üzərində iki və ya daha çox dövlətin ali hakimiyyətinin mövcudluğu.
**KONDUİT** – Qiymətli kağızların təcili buraxılışlarını birjada yerləşdirdikdə banklarla, trestlərlə rəsmiləşdirilməyən əlaqələr.
**KONFEDERASİYA** – 1. Müxtəlif subyektləri birləşdirən dövlət quruluşu forması. 2. Ayrı-ayrı ictimai təşkilatların könüllü ittifaqı.
**KONFİDENSİAL** – Gizli, məxfi, başqalarına bəlli olmayan (məlumat, proses).
**KONFİDENSİALLIQ –** 1. Ayrı-ayrı şəxslərə, yaxud təşkilatlara mənsub olan məlumatların mühafizəsi hüququ. 2. Konkret şəxslərin digərlərinin informasiyasından istifadə edilməsinə nəzarət aparılması hüququ.
**KONFİQURASİYA** – 1. Zahiri görünüş, kontur, surət; cisimlərin qarşılıqlı yerləşməsi. 2. Astr. Günəş sistemindəki cisimlərin xarakterik qarşılıqlı vəziyyəti. 3. Funksional elementlərin kəmiyyəti, qarşılıqlı əlaqələri və əsas xarakteristikaları nəzərə alınması ilə sistemin quraşdırılması. Xarakteri, miqdarı, qarşılıqlı əlaqələri, funksional elementlərin əsas xarakteristikaları dəqiq təyin olunmaqla sistemin tərtibi; aparat vasitələri və onlar arasındakı qoşulmalar toplusu verilmiş kompleksə (sistemə) daxil edilmiş vasitələr siyahısı. 4. Rabitə terminalları şəbəkələri və ya sistemlərin iş rejimləri və verilən şərtə uyğun istismarı üçün nəzərdə tutulan aparat və proqram vasitələrin (bu vasitələr arasında əlaqə daxil) toplusu.
**KONFLİKT (informatikada) –** Şəbəkədə paketlərin toqquşmasından yaranan yüklənmə.
**KONFORMİZM** – Kor-koranə uyğunlaşma, cəmiyyətdəki mövcud qaydaları olduğu kimi qəbul etmək, öz maraqları naminə qanunsuzluğa müqavimət göstərməmək.

**KONQLOMERAT** – 1. Kütlə yığını; müxtəlif tip əşya və ya anlayışların sistemsiz, mexaniki birləşməsi. 2. Müxtəlif ölkələrdə investisiyaların birləşdirilməsi nəticəsində yaranan inhisarçı təşkilatların birliyi.

**KONOSAMENT** – Yükü daşıma üçün qəbul edilməsini və təyinat limanına çatdırılması ilə bağlı öhdəlikləri təsdiq edən, yükgöndərənə təqdim edilən daşıma sənədlərindən biridir. Konosament dənizdə daşınan yüklərin gömrük nəzarətindən zəruri olan əsas sənədlərindən biridir.

**KONSENSUS** – İki və çoxtərəfli görüşlərdə qərarın, yaxud müqavilə mətninin ümumi razılıq yolu ilə qəbul edilməsi; hər hansı ziddiyyətli məsələdə ümumi dil tapılması, razılığa gəlmək.

**KONSENTRASİYA** – 1. Nəyinsə bir yerə cəmlənməsi, toplanması, mərkəzləşməsi. 2. Ayrı-ayrı komponentlərin qatılıq, sıxlıq dərəcəsi.

**KONSENTRATOR –** Giriş xətləri (kanalları) çıxış xətlərdən çox olan kommutasiya bloku. Bunun nəticəsində əgər çıxış xətlərinin hamısı məşğul olarsa, onda girişə daxil olan çağırış itir. Optik lifli şəbəkələrdə konsentrator aktiv qurğu olub, ona bir neçə işçi stansiya və ya digər konsentratorlar qoşmaq olar.

**KONSERN** – Vahid rəhbərliyə tabe olan sənaye-ticarət şirkətlərinin maliyyə baxımından birliyi.

**KONSERVASİYA –** Müvəqqəti dayandırılmış tikintilərdə binaların və tikililərin qurulmuş hissələrinin dayandırılması və gələcəkdə tikintinin davam etdirilməsi məqsədilə həyata keçirilən işlərdir. Konservasiyanın aparılması üçün zəruri kapital qoyuluşu nəzərdə tutulur. Müvəqqəti dayandırılmış tikinti və obyektlərə bunun üçün sənədli rəsmiləşdirmələr daxildir.

**KONSESSİYA** – Dövlətlə özəl şirkət arasında dövlətə məxsus təbii sərvətlərin, sənaye müəssisələrinin və s.-nin müəyyən müddətdə istismara verilməsinə dair razılaşma, müqavilə.

**KONSİQNASİYA** – 1. Göndərilmə. 2. Malların satış formalarından biridir. Komisyon satış formasına oxşardır, satıcı (konsiqnatora) verir. Vasitəçi tərəfindən mal satılanadək satıcı (konsiqnator) sahiblik edir. 3. Qəbul (təslim alma) planıdır.

**KONSİQNASİYA EHTİYATI -** Sifarişçinin xarici anbarlarında (yük sahələrində) saxlanılan, lakin təchizatçı şirkətin mülkiyyətində olan yükdür

**KONSOL –** EHM operatorunun operasiya sistemi ilə qarşılıqlı fəaliyyətini təmin edən qurğu. Əsas (baş konsol) və əlavə konsollar ola bilər. Konsol kimi bir qayda olaraq, displeydən istifadə olunur.

**KONSOLİDASİYA** – Birləşmə, həmrəy olma və müştərək hərəkət etmə; vahid ideya və maraqlar uğrunda mübarizə aparan qüvvələrin ümumi məqsəd naminə birləşməsi; xüsusən böhranlı vəziyyətlərdə siyasi güclərin vahid ideya və məqsəd naminə bir araya gəlməsi.

**KONSORSİUM** – İnhisarçı birlik formalarından biri; böyük layihələrin gerçəkləşdirilməsi üçün iri istehsal və maliyyə şirkətlərinin müvəqqəti birləşməsi.

**KONSPİRASİYA** – Hansısa fəaliyyəti gizli aparmaq məqsədi ilə tətbiq edilən üsul və tədbirlər sistemi.

**KONSTATASİYA -** 1. Bir şeyin doğruluğunun təsdiq edilməsi. 2. Faktların heç bir şərhə yol verilmədən, sadəcə, sadalanması; müəyyən mənada ümumiləşdirmə.

**KONSUMENT -** Əmtəə və xidmətlər istehlakçısı.

**KONTANQO** – Uzun müddətə əqd bağlanan zaman yaxın günlər üçün kotirovkaya əlavə.

**KONTENT** – Kompüterin yaddaşında qalan, yaxud rabitə kanalı ilə ötürülən (tekst, fayl, təsvir, multimedia) informasiya materiallarının xarakteristikası.

**KONTRAGENT** – Müqaviləyə əsasən üzərinə müəyyən vəzifə götürən şəxs və ya idarə.

**KONTRAJUR** – İşıq mənbəyinin çəkiliş obyektinin arxasında yerləşdirilməsi yolu ilə işıqlandırma.
**KONTRAPUNKT –** 1. Polifoniya, başqa sözlə, iki və daha çox müstəqil melodiyanın eyni zamanda səslənişi və inkişafı. 2. Başlıca melodik səsi izləyən melodiya. 3. TV-də səs, söz və təsvirin tama çevrilməsi.
**KONTRAST –** Təsvirin sahələri arasında ton fərqinin dərəcəsi. Maksimal kontrast – ağ və qara, heç bir keçid olmadan, aşağı kontrast – kəskin keçidləri olmayan ton yaxınlaşması.
**KONTROLLİNQ (marketinqdə)** – Bazarın əsas parametrlərini yoxlayan, bazarda vəziyyətin dəyişməsinə uyğun olaraq marketinq fəaliyyətinə zəruri düzəlişlər verən və marketinqin səmərəliliyini qiymətləndirən, marketinq tədbirləri planının və proqramının yerinə yetirilməsinə nəzarət sistemidir.
**KONVEKSİYA** – Otaqlarda qazabənzər maye və tozşəkilli maddənin soyuq və isti kütlələrin sıxlıqlarının müxtəlifliyi nəticəsində yerdəyişməsi (təbii konveksiya) hesabına və ya hərəkətə kənar təsirlərin köməyi ilə (süni konveksiya) istiliyin ötürülməsi.
**KONVENSİYA** – Hər hansı beynəlxalq miqyaslı problemlə (terrorla mübarizə, ekologiya və s.) bağlı xüsusi əməkdaşlıq sahəsində hökumətlərarası müqavilə.
**KONVERGENSİYA –** Sistemin funksional imkanlarının genişləndirilməsi və tətbiq edilən texnologiyaların universallaşdırılması məqsədi ilə müxtəlif təyinatlı avadanlıqların və rabitə xidməti sahələrinin bir-birinə inteqrasiya prosesi.
**KONVERSİYA –** 1. Hərbi-sənaye şirkətinin xalq tələbatına uyğun məhsullar istehsal edən şirkətə çevrilməsi (yaxud əksinə). 2. Dilç. Bir nitq hissəsinə aid olan sözün cümlədə başqa nitq hissəsi kimi işlənməsi.

**KONVERTASİYA –** Digər formaya, başqa keyfiyyətə çevrilmə; bir valyuta növünün və ya qiymətli kağızın gündəlik məzənnəyə uyğun olaraq digərinə dəyişdirilməsi.
**KONYUKTUR –** 1. Hər hansı hadisə, iş və prosesin gedişinə təsir edən şəraitin yaranması üçün şərtlər məcmusu. 2. Mövcud ictimai-siyasi şəraitin ədəbiyyat, incəsənət qarşısında qoyduğu tələblər.
**KOPİRAYTER** – Reklam mətninin tərtibçisi.
**KOQORTA** – Eyni bir vaxt dövrü ərzində müəyyən demoqrafik hadisələrin (məsələn: təqvim ili ərzində nikaha girmiş şəxslərin sayı, eyni nikahları pozulmuş və ya dul qalmışlar və s.) baş verdiyi insanların məcmusudur.
**KOR SÜRƏT** – Elektron məktubun surətinin göndərildiyi anonim ünvanlar. Bu zaman o biri adresatlar BCC ilə göndərilmiş ünvanları görmürlər.
**KORDON** – 1. Sərhəd dəstəsi; kütləvi tədbirlər zamanı hərəkəti məhdudlaşdırmaq məqsədilə sıx düzülmüş mühafizə postu. 2. Sərhəd dəstəsinin qərar tutduğu yer.
**KORREKSİYA –** Korreksiya elementləri daxil etməklə siqnalın tezlik və faza təhriflərinin aradan qaldırılması üsulu.
**KORREKTOR (hamarlayıcı) –** Siqnalın tezlik-faza təhriflərini aradan qaldıran qurğu.
**KORELYASİYA –** İki siqnalın bir-birinə parametrlərinə görə qarşılıqlı yaxınlıq dərəcəsini xarakterizə edir. Ənənəvi funksional asılılıqdan fərqli olaraq korrelyasiyalı əlaqə statistik və ya təsadüfidir. Yəni bu əlaqə bir siqnalın digərinə nəzərən gecikməsindən asılı olaraq təsadüfi dəyişir.
**KORELYATOR –** Təsadüfi siqnalların korrelyasiya funksiyalarını hesablamaq üçün qurğu.
**KOTİROVKA** – 1. Qiymətli kağızların və malların birja qiymətinin təyin olunmasıdır. 2. Qiymətli kağızların və malların

birjadakı dövriyyəsidir**.** 3. Qiymətli kağızların, xarici valyutaların və malların birja kursu (dəyəri) barədə rəsmi dərcidir.

**KOVENANT** – Hüquqi sənədləşmədə kovenant- müəyyən hərəkətləri etmək və ya müəyyən hərəkətlərdən çəkinmək barədə müqavilə öhdəliyidir (məsələn, iştirakçı tərəfi, vəkalətli idarə edənə, aktivlərin maliyyə göstəriciləri barədə informasiyanı vaxtaşırı təqdim etməyə məcbur edən sənəd).

**KÖMƏKÇİ PROSESSOR -** Kompüter sisteminin fon və ya xüsusi tapşırıqlarını yerinə yetirən və bu zaman baş prosessoru bunlardan azad edən ikinci – xüsusi prosessor.

**KÖMƏKÇİ QOVŞAQ –** İntellektual rabitə şəbəkələrində köməkçi qovşaq tətbiq edilir. Onun funksiyası şəbəkənin digər elementlərinə köməkçi xidmətlər göstərməkdir.

**KÖMƏKÇİ MALİYYƏ İDARƏLƏRİ –** Öz hesabına maliyyə aktivləri alan və bazarda öz üzərinə maliyyə öhdəlikləri götürən, tələb edilənədək depozitlər və əmanətlər qəbul edən, bəzən isə pul-kredit nizamlanması funksiyalarını yerinə yetirən maliyyə idarələridir.

**KÖMƏKÇİ XƏRCLƏR –** İstehsalın təşkilinə ümumi şəraitin yaradılması ilə əlaqədar xidmətlərə, onun təşkilinə və idarə edilməsinə çəkilən xərclərdir. Köməkçi xərclər daimi və dəyişən istehsal xərclərinə bölünür. Dəyişkən xərclər işin, xidmətlərin həcminin artmasından (azalmasından) asılı olaraq artır (azalır). Daimi köməkçi xərclər yerinə yetirilən işin (xidmətin) həcmindən asılı olmayaraq, fasiləsiz olaraq nisbətən eyni miqdarda müxtəlif hesabat dövrlərindən (hesabat ili ərzində) yaranır.

**KREATİV** – Yaradıcı təfəkkür tərzi.

**KREATİVLİK** – (yaradıcılıq) fərdin yaradıcılıq qabiliyyəti, prinsipial yeni ideyaların yaradılması və qəbul edilməsinə hazır olmağı xarakterizə edən, ənənəvi və ya qəbul edilmiş təfəkkür sxemindən kənara çıxan və müstəqil faktor qismində istedad

strukturuna daxil olan, eləcə də statik sistemlərin daxilində meydana gələn problemləri həll etmək bacarığı. Kreativlik-adətən məsələni orijinal və qeyri-adi eyni zamanda faydalı şəkildə  həll etmək kimi xarakterizə edilir.

**KREDİT** – Müəyyən təlim nəticələrini əldə etmək üçün tələb olunan vaxt baxımından tələbənin iş yükünü ölçmək üçün istifadə olunan "ölçü vahidi". O, işçi heyətə və tələbələrə zaman baxımından ölçülən təlim nəticələrinə nail olmaq və müvafiq iş yükü üzərində əsaslanan biliyin həcmini və səviyyəsini qiymətləndirməyə imkan verir.Kredit eyni zamanda xüsusi səviyyədə nəzərdə tutulmuş təlim nəticələrinə iş-əsaslı öyrənməyə və ya əvvəlki tədris və ya kurs işi vasitəsilə təsdiqlənmiş bilik səviyyəsinə nail olmanın tanınması kimi də təqdim edilə bilər.Təhsil müəssisəsi tərəfindən bəzi hallarda kreditin təhsil proqramının bir hissəsi kimi tanınması üçün onun müəyyən müddət ərzində təltif edilməsi tələbinin irəli sürülməsinə baxmayaraq, yığıldıqdan sonra, kredit, adətən, itirilə bilməz. Kreditlərin müəyyən müddətdən sonra itirilməsi halına bilik və vərdişlərin sürətlə dəyişdiyi fənn sahələrində, məsələn, informatika, tibb və s. rast gəlinə bilər.

**KREDİT TRANSFER SİSTEMİ –** (European Credit Transfer and Accumulation System – ECTA) – Təhsil proqramı ilə müəyyən olunmuş kompesansiyalara nail olmaq üçün tələbənin iş yükünü və təhsilalma trayektoriyasını müəyyənləşdirən sistemdir.

**KREDİT VAHİDLƏRİ** – Kredit vahidlərinin köçürülməsi və hesablanması (ECTS – Eropean Credit Transfer System), Avropa sisteminin tələblərinə uyğun olaraq həyata keçirilir. Avropa sistemi proqramların müqayisəsini, vətəndaşların akademik və əmək mobilliyini artırmağı təmin etmək üçün istifadə olunur. Eyni zamanda, bu sistem əmək məsrəflərinin ölçülməsinin real mexanizmidir.

**KREDİTLƏRİN TOPLANMASI** – Kreditlərin toplanması təhsil proqramları çərçivəsində mənimsəmə prosesidir. Kreditlərin toplanması sistemində sözügedən təhsil proqramının tələblərinə uyğun olaraq hər hansı təhsil proqramını uğurla tam və ya qismən başa vurmaq üçün müəyyən edilmiş sayda kreditlər əldə edilməlidir.

**KREDO** – 1. Məslək, yol, əqidə, dünyagörüşünün əsası. 2. Katolik kilsələrində inam rəmzi.

**KREKER –** Müxtəlif növlü haker olub, başqalarının məlumatlarını dağıtmaqla məşğul olurlar.

**KRİPTOANALİZ –** Məxfi açar bilmədən kriptoqrafik şifrələnmiş tekstin açılması.

**KRİPTODAYANIQLIQ –** Kriktoqrafik açarı bilmədən (açarsız) kriptoqrafik informasiyanın deşifrə edilməsinə qarşı dayanıqlıq xarakteristikası. Bu xarakteristika kriptozərbələrlə davamlılığı əks etdirir.

**KRİPTOƏMƏLİYYAT –** İnformasiyanın kriptoqrafik çevrilməsi məqsədi ilə proqram və aparat vasitələrinin tətbiqedilmə prosesi.

**KRİPTOQRAFİYA –** (yunan dilindən tərcümədə "gizli yazı" deməkdir). Xüsusi alqoritmlərlə məlumatları ilkin formasından başqa formaya çevirmə texnologiyası olub, o məlumatların oxunması yalnız açar məlumatını bilməklə və onun vasitəsilə mümkündür. Əvvəllər məxfiləşdirilmiş informasiyalar hərbi məqsədlər üçün istifadə olunurdu. Hazırda isə ondan kompüter baza verilənlərinin qorunmasında və müxtəlif təyinatlı rabitə sistemlərində istifadə edilir.

**KRİTİK NİSBƏT** – Layihənin ümumi həyata keçirilmə (tamamlanma) müddətinin onun tamamlanması üçün tələb olunan müddətə nisbəti ilə hesablanan indeks nömrəsidir.

**KRİTİK YOL** – Layihənin həyata keçirilməsi zamanı işlərin yerinə yetirilməsinin ən uzun ardıcıllığıdır. Yəni, layihənin

tamamlanması üçün zəruri olan minimal vaxtı göstərən işlərin yerinə yetirilmə sırasıdır.

**KROP** – Kadrlama. Təsvirin ölçüsünün kənarları kəsmə yolu ilə kiçildilməsi.

**KROSS –** Sadə tipli kommunikasiya qurğusu. Burada birləşmə kommunikasiya məftilləri vasitəsi ilə həyata keçirilir.

**KROSS-DOKİNQ** – Yenidən göndərilmə ("sahildən sahilə" və ya distribusiya-bölüşdürmə üzlərindən material axını) – qəbul edilən yükü (malı) özündə saxlamayaraq distribüter mərkəzindən (xabdan) birbaşa marketlərə göndərən distribusiya (bölüşdürmə) sistemidir. Yəni daxil olan kombinə edilmiş yüklərin bölüşdürülərək (qruplaşdırılaraq), eyni təyinat məntəqələri üzrə yük partiyaları şəklində çeşidlənməsi və dərhal daşınma, yaxud digər nəqliyyat əməliyyatları üçün hazırlanması prosesidir. Malın hazırlanması satıcının və ya tədarükçünün dükanında aparılır.

**KROSS KURS** – Bir valyuta kursunun digərinə nisbəti əsasında müəyyən edilir.

**KROSS TREYD -** Qeydiyyatda olduğu ölkə istisna olmaqla, digər ölkələr arasında gəmi vasitəsilə göstərilən xidmətlərdir.

**KROSSİNQ** – 1. Mədənlərdə, şaxtalarda havanı təmizləmək üçün ventilyasiya bacaları. 2. Cıdırda və ya hər hansı yarışda rəqibin yolunu qadağan olunmuş üsulla kəsmə.

**KSEROKS –** Elektrofotoqrafiyanın bir növü olan kseroqrafiya üsulu ilə alınan nüsxə, şəkil; surətçıxarma.

**KUBİZM –** Təsvirin oxşar rəng piksellərini kvadrat sahələrdə elə toplayır ki, sanki kubist rəssamlarının tərzini imitasiya edir.

**KULUAR** – Rəsmi iclas, konsert, teatr tamaşası və s.-nin keçirildiyi binada istirahət, qeyri-rəsmi ünsiyyət, fikir mübadiləsi, ayaqüstü söhbət üçün səhnədən və zaldan kənar yer.

**KURİKULUM** – Təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilini, məqsədyönlü və ardıcıl həyata keçirilməsini təmin edən konseptual sənədlər sistemi. Didaktik vahidlərin təsdiq edilmiş toplusu. Kurikulum (*curriculum)* latın sözü olub, qaçış, həyat yolu mənalarını ifadə edir. Hal-hazırda isə kurikulum anlayışı müxtəlif mənalarda işlədilir.İngilis dilində kurikulum anlayışı tədris proqramına daxil olan bütün fənlərin siyahısını, məktəb və ya universitetlərin tədris planı və tədris proqramını bildirir.Kurikulumla bağlı olan *sillabus* anlayışı özündə bütün fənn və mövzuların hərtərəfli təsvirini əks etdirir. Bu mənada sillabusu bir fənnin kurikulumu adlandırmaq olar. Əvvəllər, "kurikulum" termini təhsil müəssisələrində tədris proqramı kimi başa düşülürdü. Faktiki olaraq, kurikulum termini təhsil alanların həyatını müəyyən dövründə keçməli olduğu cəmiyyətlər, dövlətlər və mütəxəssislərarası təhsil sahəsində istifadə olunur.

**KURSOR** – Manipulyatorla (məs. mausla) idarə olunan yerdəyişən marker. Əmrlərin yazılması, seçmə, redaktə olunma, şəkilçəkmə və s. üçün istifadə olunur. Ekrandakı vəziyyətin indikatoru, daxil edilən hərfin çap olunacaq yerini göstərən marker. Əksər hallarda qısa xətt və ya düzbucaq formasında olur. Bəzi kompüterlərdə kursoru ekrandan məhv etmək olur. Bir neçə kursordan eyni vaxtda istifadə edilməsini təmin edən proqramlar da mövcuddur.

**KVALİMETRİYA** – Elmdə yeni istiqamətdir, keyfiyyətin kompleks miqdar ölçüsü ilə əlaqədardır. Kvalimetriya (marketinqdə) – malın keyfiyyət xarakteristikasına kəmiyyət qiyməti verilməsinə imkan verən elm sahəsidir.

**KVANT BİT –** Adi yaddaş bitindən onunla fərqlənir ki, informasiyanı iki, məsələn 0 və 1 kimi eyni zamanda yadda saxlaya bilər.

**KVANT KOMPÜTER** – Yeni potensial tipli kompüter. Hesablama üçün atomlar qrupunun müxtəlif vəziyyətlərdə olmasından istifadə edir.

**KVANTLANMA –** Analoq siqnalı diskretləşdirmədən sonra hər bir diskret siqnalı səviyyəsinin qiymətini ona yaxın tam ədəd qiyməti ilə vermək.

**KVAZİHAKER** – Özünü haker kimi göstərən, amma haker cəmiyyətinin psixologiyasının və mədəniyyətinin nə olduğunu bilməyən proqramçı.

**KVAZİMETA MƏTN –** Təxəllüs, daha doğrusu, bu müəllif mətninin özünün olmayan – «orijinal» tərcümə yerinə vermə situasiyasıdır. Kvazimeta mətn müəllifin kommunikativ strategiyasının nəticəsidir ki, o, metamətni qəbul etməyə, istifadə üçün qurulmaya istiqamətlənmiş, eləcə də öz (fərdi) xüsusi mətnin və onun kommunikativ dönərliliyin yaranmasıdır.

**KVAZİSTASİONAR HAL** – Qaynaq zamanı metalın və posanın dəyişkən həcmlərinin müvazinət halına çatmadan "yalançı" stasionar halda stabilləşməsi.

**KVEST (GÜZƏŞT)** – Kompüter oyunları sinfi. Bu tip oyunların mənası oyunçunun virtual "səyahət" zamanı məntiqi məsələləri həll etməsidir.

**KVOTA –** 1. Pay, hissə normadır. Vergi kvotası-müəyyən əsaslı qoyuluş vahidindən tutulmalı olan verginin həddi; 2. Kartel sazişi iştirakçıları arasında mənfəət kvotasının həcminə uyğun surətdə bölüşdürülür.

**KVOTALAŞDIRMA –** Malların (işlərin, xidmətlərin) müəyyən nomenklaturasının natural və dəyər ifadəsinin idxal və ixrac həcminin müəyyən dövr üçün dövlət tərəfindən müəyyən edilən kəmiyyət və ya dəyər məhdudiyyətləridir. Kvotalaşdırmadan idxal-ixrac əməliyyatlarının dövlət tənzimləməsinin qeyri-tarif vasitəsi kimi istifadə olunur.

**-Q-**

**QABAQLAMA STANDARTLARI** – Standartlaşdırma obyektlərinə praktikada əldə edilmiş normalar səviyyəsinə nisbətən daha yüksək tələblər verilir; ölçü cəhətdən əsaslandırılmış proqnozlara görə bunlar gələcəkdə optimal tələblər olur.

**QADJET** – Kiçik ölçülərlə fərqlənən, daha çox mürəkkəb qurğulara (PC (fərdi kompüter), PDA (cib fərdi kompüteri, smartfonlara) qoşulan məsələlərin məhdudlaşdırılmış dairəsini yerinə yetirən ixtisaslaşdırılmış qurğu və bacarıqlı olmayan muxtar rejimdə işləmək.

**QALEREYA** – Dəmir yolu və avtomobil yollarında, həmçinin mədən işlərində qoruyucu dəmir-beton tikinti.

**QALFVİND** – Külək gəmini diametral müstəvisinə təqribən 90 dərəcə bucaq altında əsərkən küləyə nisbətdə yelkənli gəminin istiqaməti.

**QAMBIT** – Şahmat oyununda təşəbbüsü ələ almaq üçün piyada və ya fiqurun qurban verilməsi ilə əlaqədar başlanğıc.

**QAMBRİNİZM** – Pivədən sui-istifadə etmə nəticəsində əmələ gələn alkoqolizm; pivə alkoqolizmi.

**QAP** – Birja qiymətlərinin kəskin şəkildə artımı və azalması. Bu halda gün ərzində qiymət səviyyəsi o qədər artmış olur ki, minimum qiymət səviyyəsi ötən birja gününün qeydə alınmış maksimum qiymət səviyyəsini geridə qoyur və gün ərzində maksimum qiymət səviyyəsi ötən gün qeydə alınmış minimum qiymət səviyyəsindən daha çox azalmaya məruz qalır.

**QAPALI ABUNƏ-** 1. Qiymətli kağızların, bir qrup investorların arasında elan edilmədən, qeyri-rəsmi yerləşdirilməsi; 2. Buraxılan qiymətli kağızların yalnız təsisçilər arasında, yaxud onların qərarı ilə cəlb edilən investorlar arasında yerləşdirilməsi.

**QAPALI BAZAR** – 1. Satıcılar və alıcılar arasında möhkəm kommersiya əlaqələrinin bərqərar olduğu bazardır. Buraya yeni şəxslərin daxil olması bir sıra maneələrlə çətinləşdirilir. 2. Alıcının məzənnəsinin satıcının məzənnəsi ilə eyni olan bazar durumu. Bu o vaxt baş verə bilər ki, bazara brokerlər xidmət edir və onların xidmət haqqını əqdin təşəbbüskarı olan tərəflərdən yalnız biri ödəyir.
**QAPALI DEPONENTLƏŞDİRMƏ** – Bank tərəfindən müştərinin qiymətli şeylərinin saxlanılması; bu qiymətli şeylərə kapital qoyuluşları kimi baxılmır.
**QAPALI GİROV** – Korporasiyanın aktivlərini artıq girova qoyduğu və təzə girov kağızlarını buraxmağın mümkünsüz olduğu şəraitdə əmələ gələn vəziyyətdir. Bu halda korporasiya girovsuz istiqraz vərəqələrinin buraxılmasına əl ata bilər, lakin bunun üçün onun maliyyə sabitliyi və yüksək imici olmalıdır.
**QAPALI GÜZƏŞTLƏR** – Qiymət güzəştləridir, beynəlxalq sindikatın daxili ticarətində firmadaxili mal göndərmələrində mallara, həmçinin xüsusi hökumətlərarası razılaşma ilə göndərilən mallara tətbiq edilir.
**QAPALI İNHİSAR** – Rəsmi, hüquqi cəhətdən mühafizə olunmuş inhisardır. Belə inhisar, iqtisadiyyatın o sahələrində fəaliyyət göstərir ki, orada rəqabət qadağalara məruzdur.
**QAPALI MÖVQE** – 1. Qiymətli kağızlarla saziş üzrə hesablaşmaların başa çatdırılması, satılmış kağızın alınması, yaxud alınmışının satılması. 2. Birjada yeni səhmlərin yayılmış formasıdır. Bu halda ya bir bank (və ya bank sindikatı) müəyyən dəyərə bütün emissiya olunmuş səhmlər alır və sonradan eksklüziv satıcı kimi çıxış edir.
**QAPALI VALYUTA -** 1. Konversiya edilməyən - yalnız bir ölkənin hüdudlarında istifadə edilən valyuta: qapalı tipli səhmdar cəmiyyəti öz səhmlərini təsisçilərin qərarı ilə qapalı

abunə formasında yayır. 2. Mübadiləsinə, ölkəyə gətirilməsinə , ölkədən çıxarılmasına nəzarət və məhdudiyyətlər olan milli və xarici valyutadır. Onlarla əməliyyatlar aparılmasına çoxlu qadağalar qoyulur.

**QARA QUTU –** Əvvəlcədən ona daxil olan siqnala reaksiyası məlum olmayan qurğu olub, onun daxili strukturu haqqında informasiya mövcud deyil.

**QARIŞIQ EHTİYAT SİSTEMİ** – Sabit sifariş kəmiyyəti sistemi və sabit intervallı sifariş sisteminin xüsusiyyətlərini özündə əks etdirən ehtiyatlarla nəzarət sistemidir.

**QARIŞIQ EMAL PROSESİ** – Diskret, təkrarlanan və yaxud proses emalı stillərinin kombinasiyasında istifadəyə imkan verən istehsal mühitidir.

**QATT** – Dünya ölkələrinin çoxu arasında qəbul edilmiş çoxtərəfli saziş. Özündə ölkələrarası ticarət kontraktlarının bağlanması və beynəlxalq ticarət əməliyyatlarının aparılması qaydalarını ehtiva edir. Saziş iştirakçıları bir-birinə əlverişli qarşılıqlı ticarət şəraiti yaradırlar (ticarətdə ən böyük əlverişli şəraitin yaradılması rejimi). Saziş xarici ticarətdə lüzumsuz məhdudiyyətləri və ayrı seçkiliyi aradan qaldırmaq vəzifəsini daşıyır.

**QAVİATA** – Sinxron üzgüçülük fiquru. Aşağıdakı əsas mövqe və hərəkətlərdən ibarətdir: sinə üstündə, üfüqi bucaq, köndələn ox ətrafında irəli 4/1 dövrə, suya dalmada ayaqlarla yuxarı bucaq, katalin dönüşü (birinci 90 dərəcədə ayaqlar qapanmış vəziyyətdə çevrilir, ikinci 90 dərəcədə müxtəlifadlı istiqamətdə "şpaqat" mövqeyinə qədər açılır), arxası üstə.

**QAYIDAN ÇEK –** Ödəyən bank tərəfindən səhv tərtib edilmiş sənədlərin ödənilməsi halında onun xeyrinə yazılmış çek, bu isə ödənilmiş məbləğin qaytarılmasına səbəb olur.

**QAYNAQ FLÜSÜ** - Ərimiş qaynaq metalını atmosfer havasının zərərli təsirindən qoruyan, maye metalla kimyəvi

qarşılıqlı təsirə girərək oksidləri reduksiya edən, posalaşdıran, habelə onu oksidləşdirən, müxtəlif metal duzları və oksidlərindən ibarət olan qranullaşmış ovuntu şəkilli qaynaq materialı.

**QAYNAR KLAVİŞLƏR** – Proqram idarəetməsini sürətləndirir. Adətən, mausla görülən işləri əvəz edir.

**QAYTARILMA** – Anbarda saxlanılan yüklərin stellajlardan boşaldılması, saxlama vahidlərinə yerləşdirilməsi, boşaldılma məntəqəsinə istiqamətləndirilərək, çatdırılması əməliyyatıdır.

**QAZOANALİZATOR** – Qaz qarışığının (əsasən, nəfəsalma və nəfəsvermə havasında) kimyəvi tərkibinin keyfiyyət və kəmiyyət analizini keçirmək üçün cihaz. İdmançıların test yoxlamaları zamanı istifadə olunur.

**QEDAN** – Karate-doda dabandan qurşağa qədər hücum və ya müdafiənin aşağı səviyyəsi.

**QELOTOLOGİYA** – İnsanın fiziki və psixi sağlamlığına gülüşün təsirini öyrənən elm.

**QEOKEŞİNQ** – Peyk naviqasiya sisteminin tətbiqi ilə turizm oyunu. Oyun başqa iştirakçıların tərəfindən gizlədilmiş gizli yerlərin tapılmasından ibarətdir.

**QERL-BEND** – Qızlardan ibarət olan musiqi qrupu.

**QEŞEFT** – Fond birjasında həyata keçirilən gəlirli, uğurlu əməliyyat.

**QEYRİ-LİKVİDLƏR** – Müəssisəyə lazım olmayan, artıq mal-material qiymətləri, həmçinin satılması mümkün olmamış hazır məhsul.

**QEYRİ-REZİDENT** – 1. Müəyyən bir ölkədə fəaliyyət göstərən, amma başqa ölkədə qeydiyyatda olan hüquqi şəxsdir. 2. Bir ölkədə fəaliyyət göstərən, amma daimi başqa ölkədə yaşayan fiziki şəxsdir. Qeyri-rezidentlər üçün xüsusi vergiyə cəlbetmə qaydaları müəyyən edilə bilər.

**QEYTKİPİNQ** – Uşağın xeyrinə qərarların qəbul olunmasının sistemi. Ailənin dəstəyinə sosial xidmətləri yönəldir və dövlətin (məsələn, uşaq evinə) himayəsi altına uşağın düşməsinin qarşısını alır.
**QƏBZ CAVAB –** İnformasiya nəzəriyyəsində bu anlayış onu göstərir ki, siqnal səhvsiz qəbul edilib təkrar çağırış tələb olunmur.
**QƏBZ ÇEKİ** – Çekin ümumi forması. Onun kötüyündə ödənişin məqsədi haqqında məlumat verilir.
**QƏTİ ƏQD** – İştirakçıları tərəfindən qiymətli kağızların müəyyən edilmiş müddətdə çatdırılması (satıcının öhdəliyi) üzrə öhdəliklərin götürüldüyü və şərtlərin dəyişdirilməsi nəzərdə tutulmayan müddətli əməliyyat növü.
**QƏTİ QİYMƏT** – Müqavilə bağlandığı zaman təyin edilmiş və onun qüvvədə olduğu bütün müddət ərzində dəyişməz qalan qiymət.
**QƏTİ OFERTA -** Bu oferent tərəfindən bir mümkün alıcıya müəyyən növ əmtəənin satışı barədə göndərdiyi yazılı təklifdir ki, orada göstərilən müddət ərzində satıcı öz təklifi ilə bağlı olur və başqa alıcıya analoji təklifə müraciət edə bilməz. Əgər alıcı ofertanın bütün şərtləri ilə razıdırsa, onda o, satıcıya poçt və ya teleqrafla qeyri-şərtsiz aksept, yəni satıcının qəti ofertasının bütün şərtlərini dəyişdirmədən qəbul etməsi barədə öz razılığını bildirir; satıcının yalnız bir potensial alıcıya təklif etdiyi oferta. Burada satıcının satmaq öhdəliyinə məruz qaldığı müddət göstərilir. Alıcı aksept etdikdə əqd baş vermiş sayılır.
**QIRIŞ** – İnvestorlar üçün maraq doğuran, onların diqqətini çəkən maliyyə innovasiyası, maliyyə bazarında qeyri-adi hadisədir.
**QIRMIZI STORNO** – Uçot registrlərində, cədvəllərində buraxılmış səhvin düzəlişi üçün qırmızı mürəkkəblə edilmiş

mühasibat qeydi. Qırmızı rəngli rəqəmlər çıxılır "stornolaşdırılır".

**QISA HECİNQ** – Fyuçers kontraktın ticarət əqdləri bazarında əmtəənin real satışı ərəfəsində real əmtəə ilə satışı. Əldə olunan təxminən eyni sayda maliyyə aktivlərinin və ya əmtəənin qiymətinin aşağı düşməsi təhlükəsini aradan qaldırmaq məqsədilə istifadə olunur.

**QIZIL ÇEK** – Qızılla təmin olunmuş və qızılla gəlirə zəmanət verən (adətən, illik 20 faizə qədər təqdim edənə adsız qiymətli kağızdır; qoyulan qızıla dəyişməyə qəbul olunur.)

**QIZIL FİKSİNQ** – London qızıl birjasında qızıla tələb və təklifin nisbəti əsasında qızılın bazar qiymətinin hər gün qeyd edilməsi.

**QIZIL HƏYƏCAN** – Qeyri-sabit valyutalardan qızıla "qaçma" və vaxtaşırı onun qiymətinin qalxması. Əsasən, funtsterlinqin qiymətdən düşdüyü zaman güclü olub, bu isə qızıl pulun tənəzzülünə və qızılın ikiqat bazarının yaranmasına gətirib çıxardır.

**QIZIL KVOTA** – Beynəlxalq Valyuta Fondunda (BVF)-BVF-üzvü olan ölkənin haqqının bir hissəsidir. Bu hissə qızılla ödənilir.

**QIZIL LİNQOT** (ing.qold linq)– Standartlaşdırılmış yüksək (əyarlı) 995/1000 tirli olan qızıl külçə. Onun çəkisi 400 unsiya , yaxud 12,5 kq-a yaxındır. Daha rahat istifadə fraksion, daha kiçik lonqotlar mövcuddur; 5, 10, 20, 25, 50, 100, 200, 500, 1000.

**QIZIL SƏHM** – Səhmdar cəmiyyətinə çevrilən, özəlləşdirilən dövlət müəssisəsinə baxan dövlət orqanının əlində saxlanan şərti səhm. Bu cür səhm müəyyən vaxt dövründə dövlət orqanına səhmdarlar iclasında həlledici səs verir ki, bu da bəzi səhmdar müəssisələrində, o cümlədən fəaliyyəti dövlət və

ictimai mənafelərə toxunan müəssisələrdə dövlətin təsirinin saxlanılması üçün zəruridir.

**QIZIL STANDART** – Qızılın pul əmtəəsi kimi istifadə edilməsinə əsaslanan , ölkənin pul və valyuta münasibətlərinin təşkil edilməsi forması.

**QIZIL VALYUTA** – Bilavasitə qızıla dəyişdirilən pul vahidi.

**QİYMƏT FAS** – Yükü göndərənin yükü körpüyədək daşıma ilə nəqliyyat-ekspeditor xərclərini məhdudlaşdıran qiymətdir.

**QİYMƏT FOB** – Satıcının daşıma və sığorta üzrə xərclərinin yalnız bir hissəsini (o cümlədən malın ancaq gəminin bortuna daşınması anınadək olan xərcləri) ödədiyini nəzərdə tutan qiymətdir.

**QİYMƏTQOYMA -** Mal və xidmətlərə qiymətləri qoyma, yaranma prosesidir. İlk növbədə bütövlükdə bütün mallara aid olan qiymətlərin qoyulması vasitələri, üsulları ilə səciyyələnir. İki əsas qiymətqoyma sistemini fərqləndirirlər: təklif və tələbin qarşılıqlı təsiri əsasında formalaşan bazar tipli qiymətqoymanı və dövlət orqanları tərəfindən qiymətlərin təyin edilməsi əsasında formalaşan mərkəzləşdirilmiş dövlət qiymətqoymasını əhatə edir.

**QİYMƏT SİF** – yükün daşınması, gömrük tutmalarının və sığortanın ödənilməsi, habelə malın məhv olması və ya xarab olması riski üçün satıcının malların təyinat yerinə çatdırılmasınadək məsuliyyət daşıması üzrə bütün xərcləri özündə ehtiva edən qiymətdir.

**QLİPTOTEKA-** Heykəltəraşlıq əsərləri saxlanılan yer.

**QLİSSER** – İtisürətli yüngül gəmi.

**QLOBAL AXTARIŞ** – Bütün sənəd, məlumatlar bazası və ya disk üzrə axtarış.

**QLOBAL ÇİRKLƏNMƏ -** Biosferin təbii, fiziki-kimyəvi, bioloji göstəricilərini pozan çirklənmədir. Bütövlükdə planetimizin istənilən nöqtəsində aşkar olunur.

**QLOBAL EKOLOGİYA –** İnsan və planetar ekosistemin qarşılıqlı münasibətlərini öyrənən elmdir. Biosferin Yerin təkində baş verən proseslərə, kosmik əhatə və antropogen faktlarla ekoloji qarşılıqlı əlaqəsini öyrənən elmi istiqamətdir.
**QLOBAL ROUMİNQ –** Mobil telefon abunəçisi ilə ərazi və təşkilati məhdudiyyət olmadan rabitə.
**QLOBAL TƏHLÜKƏSİZLİK –** İnsanın ətraf mühitə, ətraf sivilizasiyaya zərərli təsirini istisna edən istənilən fəaliyyətidir.
**QLOSSA** – Əlyazmaların mətnində və ya haşiyədə aydın olmayan, qəliz sözlərin şərhi, tərcüməsi. Əvvəllər qlossa sözünü naməlum söz və ya ifadələr adlandırırdılar. Mətndə sətirlərin altında və üstündə olan tərcümələri interlingnal qlossa, haşiyələrdəki söz tərcümələrini marqinal, bilavasitə mətndə edilən tərcümələri isə konkret qlossa adlandırırlar.
**QLOSSOLALİYA** – Xüsusi nitq pozğunluğu, xəstələrin xüsusi dil vasitəsilə ünsiyyətə girə bilmələrindən ibarətdir.
**QOBAN** – Qo oyunu üçün lövhə. Qısa ayaqlarda qalın bütöv taxta masa şəklində yerinə yetirilmişdir. Həmçinin bu lövhədə rendzyu oynamaq olar.
**QO-KART** – Mikroavtomobil kartlarının başlanğıc adı.
**“QOLDENROD”** (*“Qızıl əsa”*)– mütləq sürət rekordu göstərən daxili yanma mühərrikli sonuncu rekord avtomobil-lərindən biri.
**QOLF** – Təbii düzəngahda balaca bərk topla oynanılan oyun. Topu işarə qoyulmuş cığır vasitəsilə yerdə qazılmış kiçik dairəyə salmaq lazımdır. Qolfun iki növü var. Bunlardan biri udulmuş və ya uduzulmuş oyaqların nisbəti ilə müəyyən edilir. İkinci növ isə dövrəni bitirmək üçün endirilmiş zərbələrin sayı ilə hesablanır.
**QOL-MAYNDER** – Futbol qapılarının arxasında videomüşa-hidə sistemi. 24 kameradan ibarətdir, hansı ki, köndələn tirlərə quraşdırılıb keçirilmişdir. Kompleks hesab edilmiş saniyələr

ərzində hakimə videonu gözdən keçirməyə icazə verir və düzgün qərar qəbul etməkdə kömək edir. FİFA mütəxəssislərinin fikrincə, indi "qol-maynder" ən perspektivli sistemdir.

**QOLOQRAFİYA** – Lazer şüaları ilə işıqlandırmaqla əşyanın surətinin alınması üsulu və fotoneqativin həmin şüalarla təkrar işıqlandırılması; ekranda və ya istənilən müstəvidə (o cümlədən fəzada) əşyanın irihəcmli təsvirinin alınması üsulu.

**QOLOQRAM** – Varlığın və ya obyektin həcmli, üçölçülü, proyeksiya edilən təsviri. Adətən, əlaqə sistemlərində istifadə olunur.

**QONORANT** – Vekselin üzərində imzası ilə təsdiq etməklə veksel məbləğinin ödənişinə zəmanət verən şəxs.

**QONORAR -** Ədəbi, musiqi, elmi əsərin, kəşfin müəllifinə, eləcə də onun varislərinə əsərlərinin nəşri və istifadəsi üçün verilən pul mükafatı. Müəllif hüququ adlana bilər.

**QONORAT** – Vekseli təqdim etməklə qonorantın zəmanəti əsasında borc məbləğini əldə edən şəxs.

**QONŞU QOVŞAQLAR –** Bir-birinə bilavasitə bir və ya bir neçə kanallarla birləşən qovşaq stansiyalar.

**QONŞULUQ MATRİSASI –** Hər bir şərti qonşu şəbəkəni ona perpendikulyar olan hər bir sütun isə ona təqdim edilən şəbəkə resurslarına uyğun olan düzbucaqlı matrisa şəklində qurulmuşdur.

**QONZO-JURNALİSTİKA** – Jurnalistikada istiqamət. Hekayəni çox subyektiv üslubda təşkil edir, hansı ki, birinci şəxsdən aparılır. Müxbir təsvir edilən hadisələrin bilavasitə iştirakçısı rolunda çıxış edir. Bu hadisələrin əsas mənasını vurğulamaq üçün öz şəxsi təcrübəsi və emosiyalarından istifadə edir. Bu üslubun ayrılmaz xüsusiyyətləri – sitatlardır, istehza, yumor, şişirtmələr və hətta normativ olmayan leksika.

**QOPÇUR** – Vergi növüdür. Bu vergi əvvəllər Azərbaycanda ödənilmirdi və onu ölkəmizə monqollar gətirmişdilər. Qopçur

monqol dilində "otlaq yer" deməkdir, ilk vaxtlar yalnız elatlardan alınırdı. Həmin dövrdə onun dərəcəsi bir faiz idi, hər yüz qoyundan, yaxud atdan, inəkdən və s. birini ödəyirdilər. Sonralar pul şəklində əhalinin qalan hissəsindən də alınmağa başlandı.

**QOŞA SƏHMLƏR-** Hüquqi cəhətdən bir-birindən asılı olmayan və faktiki olaraq eyni şəxslərə məxsus olan iki səhmdar cəmiyyətin səhmləri. Bu cür cəmiyyətlərin hər ikisində səhmdarların yığıncaqları eyni vaxtda keçirilməlidir.

**QOVUŞMA** – İki və ya daha çox şirkətin əmlakının və fəaliyyətinin yeni şirkətin yaradılması, yaxud birləşən şirkətlərdən birinin digərini udmaq məqsədilə bir qayda olaraq könüllü birləşməsi. Yeni şirkət yaradıldıqda digərlərinin fəaliyyətinə son qoyulur.

**QRADİYENT** – Bir rəngdən digərinə tədriclə keçid. Rəssamlar bunu "genəltmə" adlandırır.

**QRADUALİZM** – Digər makroiqtisadi siyasət istiqamətlərinə ciddi təsir göstərməməklə inflyasiya dərəcəsinin tədricən aşağı salınması. Bu, dövlətin pul-kredit tənzimlənməsinin yumşaq vasitəsi hesab olunur.

**QRAFİK PRİNTER –** Printerin plotterlə (qrafika quraşdırıcısı) birləşdirilməsinin bir formasıdır. Qrafik printerin mexanizmi üfüqi istiqamətdə hərəkət edən yazı element və şaquli istiqamətdə kağızı hərəkətə gətirən qurğudan ibarətdir.

**QRAFİK REDAKTOR –** Qrafik təsvirlər üzərində işləyən proqram.

**QRAFİK SİSTEMLƏR –** Təsvirlərin ekrana gətirilməsi və ekrandan xaricetmə sistemləri. Bütün kompüterlər qrafik təsvirlərlə əməliyyatları aparmağa qadirdir. Müasir mikrokompüterlər yüksək həllolunma səviyyəsinə malik rəngli qrafikadan istifadə edir.

**QRAFİKA –** 1. Təsvirlərin daxil edilməsini, əks etdirilməsini və çıxışını təşkil edən vasitələr və sistemlər. 2. Təsvirlərin qurulması və dəyişdirilməsi sisteminin hazırlanması ilə əlaqədar proqramlaşdırma sahəsi.

**QRAFİKİ TƏSVİR –** Müxtəlif əşyaların səth üzərində müəyyən şərtlik dərəcəsi ilə yerinə yetirilən təsvir.

**QRAFİT** – Aerozol rənginin köməyi ilə binaların divarlarında və başqa səthlərdə çəkilmiş yazılar, şəkillər və ya təsvirlər. Küçə incəsənətinin növü; və ya *sprey-art*.

**QRAN-PRİ** – Festivalda, müsabiqədə jürinin seçimi ilə ən yaxşılara verilən ali mükafat.

**QRANT** – Dövlət sifarişi ilə yerinə yetirilən elmi-tədqiqat və yeniliklərin maliyyələşdirilməsi üçün subsidiyalar. Elmi-tədqiqatların, alimlərin, ədəbiyyat və incəsənət xadimlərinin maliyyə dəstəyi üçün xeyriyyəçilik məqsədi ilə ayrılan pul vəsaitləri.

**QRANT-ELEMENT** – Verilmiş kreditlərin güzəşt edilmə dərəcəsini ümumiləşdirən qiymət. Müxtəlif kredit və borc verilməsi şərtlərinin qarşılıqlı tutuşdurulması üçün beynəlxalq statistikada geniş istifadə olunan göstəricisidir. Hər bir kreditin şərtləri üç parametrlə: 1) verilmə vaxtı; 2) güzəştin müddəti; 3) faiz dərəcəsi ilə xarakterizə edilir.

**QRANTOR** – Hədiyyə verən, qrant verən xarici xeyriyyəçi təşkilat; qrant vəsaitini təqdim edən tərəf, subyekt.

**QRANULYASİYA** – Bu effekt zamanı təsvirin ölçüləri dəyişəndə piksel sayı eyni qalır.

**QRASİYA DÖVRÜ -** İmtiyazlı vaxt dövrüdür, bu dövr ərzində tam istifadə edilmiş kreditin ödənilməsinə başlanması vaxtı başqa, daha sonrakı dövrə keçirilir.

**QRATİFİKASİYA** (*hərfi: "mükafatlandırma"*) – İşçilərə öz vəzifələrini keyfiyyətlə yerinə yetirmələrinə görə verilən pul mükafatı, həvəsləndirmə, stimullaşdırma.

**QRATİS** – Əvəzsiz, havayı, dəyəri ödənilmədən. Bu ifadə daha çox bir sıra ticarət münasibətlərində məhsulun sonradan dəyəri ödənilməmək şərti ilə verilməsi, göndərilməsi kimi istifadə olunur.
**QRAUNDEFFEKT** – Avtomobil kuzovunun altında havanın seyrəlməsi hesabına meydana çıxan aerodinamik qüvvə.
**QREB** – Snoubordinq idmanı növündə lövhəni altdan tutub qaldırmaqla icra edilən və qeyd olunan texniki element (lövhə-xizəyi imkan daxilində yüksəyə qaldırmaq lazımdır).
**QREQARİ** – Öz fərdi maraqlarını komanda ilə birgə mübarizəyə və ya komanda liderinin maraqlarına tabe tutan idmançı. Termin peşəkar velosiped idmanı üçün xarakterikdir.
**QRİLETTA** – Quşdan və ətdən hazırlanmış qril yeməkləri və ya qriletta.
**QRİN** – 1. Qolf klyuşkasında rezin və ya dəri tutacaq. 2. Əllərlə klyuşkanı tutma. 3. Meydanda çalanın bilavasitə ətrafında sahmanlanmış qolf üçün ən qısa otlu sahə. 4. Dollar.
**QRİNDERSLƏR** – İşçi tipli yüksək çəkmələr; skinhedlər, panklar, qotlar və bəzi başqa qeyri-rəsmilərin elementi.
**QRİN-KARD** – ABŞ-da əcnəbilərə seçki hüququndan başqa bütün hüquqları verən sənəd; yaşayış üçün pasport.
**QRİNMEYL** – Korporativ şantaj; aksiya paketinin firmaya emitentə, idarəetməyə və ya firma-emitentin indiki sahibinə müəyyən qiymətdə, bazar qiymətindən baha satışı. Qrinmeyler rədd edildiyi halda firmanı hədələyir və ya firma-emitentin fəaliyyətində çətinliklər yaradır. Qrinmeyl korporativ reyderstliklə oxşardır, amma ondan fərqli olaraq birmənalı qeyri-əxlaqi hesab edilir.
**QRİNMEYLER** – Aksiya paketini firma-emitentə satan şəxs.
**QRİNPİS** – Müstəqil beynəlxalq ekoloji təşkilat. Qrinpis təşkilatının nümayəndələri dinc çıxışlar yolu ilə ətraf mühitin məhv edilməsinə qarşı mübarizə aparırlar. Onlar nüvə silahının

sınaqlarının dayandırılmasına, radioaktiv tullantıların basdırılmasına qarşı tədbirlər keçirir, nadir heyvanların qorunması məqsədilə ekspedisiyalar təşkil edirlər.

**QROTEKS** – 1. Ədəbi əsərdəki surətə fantastik səciyyə verən ifrat mübaliğə. 2. Bərabər qalınlıqlı ştrixləri olan mətbəə şriftinin növü.

**QRUNDERLİK** – Səhmdar cəmiyyətlərin, bankların, sığorta şirkətlərinin kütləvi, qaydasız təsis edilməsi. Bu qiymətli kağızların geniş emissiyası, birja möhtəkirliyi, müvəqqəti, qondarma firmaların yaradılması .

**QRUP EQOİZMİ** – Öz qrup maraqlarını başqa qrupların və bütün qalan insanların maraqlarından yüksək tutan müəyyən qrup vətəndaşların, şəxslərin kollektiv eqoizminin xüsusi formasıdır.

**QRUP HƏRRACI** – Sifarişçilərin toplandığı birja ticarətinin bir formasıdır. Sonra əqdlər ticarət zalında bir, yaxud iki dəfə səlahiyyətli brokerin, yaxud birja əməkdaşının nəzarəti altında həyata keçirilir.

**QUDVİLL** – Firmanın maddi ölçüyə gəlməyən aktivləri, kapitalı, məsələn, ad, texniki səriştə, əlaqələr, marketinq üsulları, təsir və b. Qudvill özlüyündə müəssisənin qiymətləndirmə dəyərini əks etdirir. Ona müəssisənin yalnız xüsusi kapitalının xalis dəyəri deyil, həm də onun əmtəə nişanının, şəbəkəsinin, müəssisənin bazarda olan payının, strateji yerləşməsinin və s. dəyəri daxilidir.

**QUQL** – İnternet şəbəkəsində axtarış sistemi.

**QUQL EYNƏK** – Üzərində optik bir ekran olan eynək şəklində kompüter. Səs ilə idarə olunur. Cihaz ilə internetə bağlanmaq və üzərindəki kamera vasitəsilə şəkil və video çəkmək olur.

**QURMAN –** Zərif, ləziz yeməklərin həvəskarı, dadlı yemək sevən və ya həyat tərzində bunu nəzərə çarpdıran adam.

**QUTTURALLAŞMA** – Səsin dilin arxa yumşaq damağa doğru qalxaraq kipləşib-partlaması və ya nov yaranması ilə əmələ gəlməsi və ya onun (səsin) tələffüzünün yerinin damaq pərdəsi istiqamətində dəyişməsi. Məsələn: *“k”, “g”, “x”*.

**-L-**

**LAMPSUM** – 1. İri məbləğ, ümumi məbləğ. 2. Yükün çəkisindən asılı olmayaraq gəmi fraxtı (kirə edilmiş gəmidə daşınan yük) üçün ödənilən dəyişməz məbləğ. 3. Lampsum-royaltı qeyd olunmuş icarə haqqı.
**LAPAROSKOPİYA** – Narkoz vasitəsilə və incə bir teleskopun göbək deşiyindən keçirilərək qarın içi orqanlarının görünməsi ilə aparılan əməliyyatdır.
**LAYNER** – 1. Müəyyən istiqamətdə müntəzəm reyslər həyata keçirən, sərnişin və yükdaşıyan böyük dəniz gəmisi. 2. Çoxyerli və yüksək sürəti olan iri sərnişin təyyarəsi.
**LAZER –** Cəmləşdirilmiş işıq axınlarının alınması üçün optik kvant generatoru. Məcburi şüalanma nəticəsində işığın güclənməsi – xeyli sayda informasiya məlumatlarının işlənib – hazırlanması və sürətlə ötürülməsi üçün ən yeni informasiya texnikasında (printer və telekompüter sistemlərində) geniş tətbiq edilən, intensiv istiqamətlənmiş işıq şüaları axınları almaq üçün qurğu. Lazer şüasının köməyi ilə də təsvir almaq olar.
**LAZER PRİNTERİ** – Elektrostatik çap qurğusu tipi. Bu qurğularda təsvir kseroqrafiya prinsipi ilə formalaşır, yəni lazerin koherent işıq şüası təsviri elektrostatik barabana keçirir, o isə öz növbəsində toneri özünə çəkərək kağıza ötürür.
**LAZER YAZISI –** Rəqəmli texnologiyanın əsasında siqnalların lazer şüası ilə kompakt-disklərə və videokasetlərə yazılması sistemi. Səs siqnallarının kompakt-disklərə yazılışı

yarımkeçirici lazer şüası rəqəmli formaya çevrildikdən sonra həyata keçirilir. Lazerin az güclü fokuslaşdırılmış şüası bir mikrosaniyə ərzində asan əriyən materialı buxarlandıraraq diskin səthində 1 mkm-dək dərinlikdə bir-birinin ardınca gələn dərinliklərdən ibarət mikroyazı cığırları formalaşdırır. Yazılan siqnallar olmadıqda diskin səthi dəyişməz qalır. Siqnallar diskin yalnız bir tərəfinə yazılır.

**LED TV** – İşıq yayan diod. Led texnologiyasının istifadə olunan düz ekranlarda işlənən görüntü texnologiyası. Led tv-lərin işıq mənbəyi özünəməxsusdur.

**LEGİSLATURA** – 1. Qanunverici orqanın fəaliyyətdə olduğu dövr. 2. Bir ölkənin qanunverici orqanları.

**LEGİTİM** – Qanuni olan; əhalinin əksər hissəsinin dəstəklədiyi; xüsusən siyasi qüvvələrin çoxunun qəbul etdiyi, beynəlxalq birliyin tanıdığı.

**LEKAJ -** Saxlanan və daşınan zaman tökülməsi və axıb getməsi nəticəsində malın çəkisi və həcmində yaranan itki.

**LENDİNQ -** Təyin olunmuş limana gəlmiş gəmidən yüklərin boşaldılmasına görə ödəmələrdir.

**LESSİROVKA -** Əsas rəng üzərində yarım parlaq rəng tətbiq edərək dərin əlvan rənglər almaq üçün texnika.

**LEVERC –** Xarici borc vasitələrinin, o cümlədən emissiya olunmuş istiqrazların aksiya sahiblərinin xüsusi kapitalına nisbəti.

**LİFTİNQ** – Effektli estetik nəticə almaq məqsədilə üzün və bədənin dərisinin dartılması; kosmetik prosedur.

**LİKVİD AKTİVLƏR** – Banklarda o aktivlər likvid hesab olunur ki, onlar nağd pullar və ya qısa zaman ərzində nağd pullara çevrilə biləcək vəsaitləri təmsil edir.

**LİKVİDANT** – Fəaliyyətini dayandırmış sahibkara, firmaya öz tələblərini irəli sürmüş kreditordur.

**LİKVİDAT** – Fəaliyyətinin ləğv edilməsi ilə bağlı olaraq borcları alınan borcludur.

**LİKVİDİVLİK** – 1. İşgüzar terminologiyada firmanın aktivlərinin, qiymətlərinin nağd pula çevrilməsi qabiliyyəti, aktivlərin sürətlə hərəkət etmə qabiliyyətidir. 2. Borcalanın öz borc öhdəliklərini vaxtlı-vaxtında yerinə yetirmək qabiliyyətidir; ödəmə qabiliyyətidir. 3. Bazarın qiymətli kağızları udmaq qabiliyyətidir, mövcud qiymətlər səviyyəsi şəraitində onların əsaslı dəyişdirilməsi baş verməsi, satış tədbirləridir. 4. Sözün geniş mənasında səmərəlilik, aktivlikdir.

**LİKVİDLİK RİSKİ** – Qeyri-likvid formada olan aktivlərin xeyli hissəsinin dondurulması və onları pul vəsaitlərinə çevrilməsinin mümkünsüzlüyü səbəbindən, cari maliyyə öhdəliklərinə əməl etmək qabiliyyətinin olmaması riski.

**LİMİTED** – Hər hansı müəyyən bir kompaniyanın, yoldaşlıq müəssisəsinin, bankın və s. öz üzərinə götürdükləri öhdəliklərə görə məhdud cavabdehlikləri.

**LİNG EFFEKTİ** – İqtisadi ədəbiyyatda bu termin "ling effektini" ifadə etmək üçün istifadə olunur, məsələn, xeyli həcmdə borc vəsaitlərini cəlb etmək üçün xüsusi (şəxsi) kapitaldan istifadə olunması və bu əsasda əlavə mənfəət qazanmaq imkanı.

**LİNK** – Söhbət və yarışma üçün başqa bir internet səhifəsini aktivləşdirmək.

**LİNQVİSTİK PROSESSOR –** Təbii dildə yazılmış mətnləri maşın dilinə və ya əksinə çevirən proqram və ya proqram aparat kompleksi.

**LİPOSAKSİYA** – Vakuum üsulu ilə dərialtı piyin soyularaq artıq çəkinin azaldılması; piy qatlarının, çapıqların və s. ləğvi məqsədilə aparılan kosmetik cərrahi əməliyyat.

**LİQA –** Şəxslərin, təşkilatların, dövlətlərin yaratdıqları yüksək ali səviyyəli ittifaq, cəmiyyət, birliklər.

**LİQATURA –** Qiymətli metallara onların möhkəmliyini artırmaq və ya əyarını ucuzlaşdırmaq, aşağı salmaq məqsədilə əlavə edilən kənar aşqar, qarışıqdır. Ərintidə liqaturanın miqdarı onun əyarı ilə müəyyən edilir. Liqatura sikkələrin zərb edilməsində, zərgərlik məlumatlarının hazırlanmasında istifadə edilir. Sikkənin əyarının əsaslı surətdə aşağı salınması, yəni qiymətli metallara liqaturanın böyük miqdarda əlavə edilməsi dövlət hakimiyyəti tərəfindən feodalizm dövründən başlayaraq tətbiq edilmişdir.

**LİSENZİYA** – 1. Xarici ticarət əməliyyatlarının aparılması üçün səlahiyyətli dövlət orqanları tərəfindən verilən icazədir; 2. Hər hansı fəaliyyət növü və yaxud ayrı-ayrı əməliyyatlar, məsələn, fərdi tibbi iş, balıq tutulması, heyvanların vurulması və s. üçün səlahiyyətli dövlət orqanları və müstəsna mülkiyyət hüququna malik olan sahibkarlar tərəfindən verilən icazədir; 3. Lisenziyalı – sahibkara bu və ya digər sənaye mülkiyyətindən (ixtira, əmtəə nişanı, sənaye nümunəsi və s.) və yaxud nou-haudan istifadə üçün maraqlı şəxsə (lisenziya alana) müəyyən şərtlər və razılaşdırılmış ödənişlər əsasında müstəsna hüquqların verilməsidir. 3. Konsessiyalara, patentlərə, ticarət nişanlarına və oxşar hüquqlara ümumi investisiyadır.

**LİSENZİYA MÜQAVİLƏSİ** – İxtiralardan, texniki biliklərdən, əmtəə nişanlarından kommersiya və istehsal məqsədləri üçün istifadə edilməsi haqqında hüquq verən razılaşmadır. Müqavilə bağlayan tərəflər kimi lisenziya (lisenziyaverən) və lisenziat (lisenziyaalan) çıxış edirlər.

**LİSENZİYA ÖDƏMƏSİ –** İntellektual mülkiyyətin sahibinə bu mülkiyyətdən kommersiya məqsədləri üçün istifadə edilmə hüququna görə ödəmələrdir.

**LİSENZİYA RAZILAŞMASI –** Lisenziyaların, nou-haunun, mal nişanlarının, texniki biliklərin, injiniriq xidmətlərinin istifadəsinə hüquq verilməsi barədə müqavilədir.

**LİSENZİYA SİSTEMİ** – Xarici ticarət əməliyyatlarının, malların idxal və ixracına dövlət icazəsinin (lisenziya) verilməsi vasitəsilə tənzimlənməsidir.

**LİSENZİYALAŞDIRMA** – 1. Xarici ticarət əməliyyatlarında sahibkarlıq və peşəkar fəaliyyətin tənzimlənməsi alətlərindən biridir. Əmtəələrin ixracı və idxalına dair müəyyən növ fəaliyyətin həyata keçirilməsi haqqında səlahiyyətli rəsmi orqanlar tərəfindən icazə verilməsini nəzərdə tutur; 2. Müəyyən şərt daxilində əməliyyatların həyata keçirilməsi hüququ verən icazənin verilməsidir; bir şəxs tərəfindən digər şəxsə qonorar və ya lisenziya ödəməsi əvəzində hüquq verilməsidir. Lisenziyalaşdırma, lisenziyaların verilməsi, lisenziyaların olduğunu təsdiq edən sənədlərin yenidən rəsmiləşdirilməsi, lisenziyaların fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi ilə əlaqədar həyata keçirilən tədbirlərdir.

**LİSENZİYANIN QİYMƏTİ –** 1.İstehlakçıya lisenziya ilə verilən, texnologiyanın, yaxud başqa nouhauların faydalılığının ümumiləşdirilmiş göstəricisi; qiymətin əsasında, alıcının iş praktikasında lisenziya obyektinin ifadəsi hesabına əlavə gəlirin miqdarı haqqında təsəvvür qoyulur; 2. Proqram məhsulun qiyməti, belə məhsul ya onu hazırlayan şəxsdən, yaxud onun müəllifi tərəfindən təsdiq edilmiş dilerdən leqal olaraq əldə edilir; bu cür sxemlə kompüter proqramlarının çoxu kütləvi satılır.

**LİSENZİYAVERƏN** – İxtiranın, patentin, texniki və texnoloji yeniliyin sahibi, mülkiyyətçisidir. O, bu yeniliklərdən müqavilədə müəyyən edilmiş bəndlərdə istifadə etmək hüququ verən lisenziyanı digər şəxsə (lisenziyaalana) verir və ya satır.

**LİSENZİYALI MƏHDUDİYYƏT –** Lisenziya şəhadətnaməsində məhdudlaşdırılan xidmətlər.

**LİSTİNQ** – 1. Emitentlərin maliyyə vəziyyətlərinin yoxlanılmasından sonra onların qiymətli kağızlarının birjada ticarətə

buraxılışı. 2. Translyator tərəfindən formalaşdırılanın tərkibində translyasiyanın nəticələri olan (obyekt modulu, diaqnostik məlumatlar və digər informasiya) mətndən ibarət sənəd istifadəçinin sifarişi ilə verilir. 3. Ticarət birjalarına qiymətli kağızların seçilməsi və buraxılmasının fond birjaları tərəfindən tənzimlənməsi üsuludur.

**LİZİNQ –** 1. Mülkiyyət hüququ icarəyə verəndə saxlanılmaqla, lizinq alanlar tərəfindən istehsal məqsədləri üçün istifadə edilən avadanlığın, texnikanın, nəqliyyat vasitələrinin, istehsal təyinatlı tikililərin orta və uzun müddətə icarəyə götürülməsidir. Lizinq ənənəvi bank kreditləşdirməsinə və fərdi maliyyə ehtiyatlarında istifadəyə alternativ olan kapital qoyuluşunun maliyyələşdirilməsinin xüsusi formasıdır. 2. Müəssisənin icarədara verdiyi mülk, maddi və ya qeyri-maddi kapital əmtəələrinin (proqram təminatı və s.) icarəsidir.

**LİZ-BEK** – Beynəlxalq lizinqin yeni forması. Kontrakt şərtinə görə lizinq forması başqa ölkənin istehsalçı firmasından onun istehsal etdiyi maşın və avadanlıqları nağd pulla alır və sonra isə möhlətlə ödəmək şərti ilə onun özünə satır.

**LOBBİÇİLİK –** Dövlət orqanlarının, qanunvericilik, icraedici və məhkəmə hakimiyyətinin iqtisadiyyatın ayrı-ayrı sahə və sferalarının, regionların, müəssisələrin, sosial qrupların obyektiv zərurətlə deyil, amma maraqlarla, bəzən vəzifəli şəxslərin ələ alınması ilə diktə olunmuş himayə edilməsinə istiqamətlənmiş fəaliyyətidir. Hakimiyyət nümayəndələri şəxsində lobbiçilər öz qəyyumlarına sərfəli dövlət sifarişləri, krediti, köməyi, güzəşti, lisenziyası, iqtisadi kommersiya fəaliyyəti üçün sərfəli şərait almağa, yeni təşkilatlar yaratmağa və qeydiyyatdan keçirməyə, rəqibləri sıxışdırmağa kömək edirlər. Aqrar lobbisi və sənaye lobbisini fərqləndirmək qəbul edilmişdir.

**LOBOTOMİYA** – 1. Mikroprosessorun kompüterdən təmir və ya dəyişilmə üçün çıxarılması əməliyyatı. 2. “Ağıl imkanları”nın azaldılması yolu ilə ucuz kompüterlərin yaradılması.

**LOGİN** – Psevdonim, şəbəkəyə daxil olmaq üçün vacib olan istifadəçi adı. Qeydiyyat.

**LOGİSTİKA** – 1. Maddi-texniki təminatın, mal-material ehtiyatlarının idarə edilməsi. 2. Məhsulun, əmtəənin, servizin müştərinin tələbatını ödəmək üçün hər hansı başlanğıc nöqtədən istehlak nöqtəsinə qədər olan hərəkətinin idarə edilməsi prosesinə deyilir. Logistika anlayışına nəqliyyat, xidmət, anbar, materialların kompleklәşdirilməsi və hərəkət xəttinin təhlükəsizliyi haqqında informasiyalar da daxildir. Logistika əmtəənin sıradan çıxdıqda məhv edilməsi məsələləri ilə də məşğul olur.

**LOGİSTİK ETİKET** – Məhsula yapışdırılmış kağız və ya plastik etiket, məhsulun və ya onun bağlanmasının üzərinə həkk edilən mətn ya da təsvir şəkilində olan və məhsul barəsində məlumat daşıyan vasitədir.

**LOGİSTİKA SİSTEMİ –** Ekanometrik modelləşməyə, kompüterləşməyə və nəqliyyat-anbar infirastrukturunun inkişafına əsaslanan marketinqdə perspektiv istiqamətdir, əmtəələrin yerinin dəyişdirilməsi və anbarlaşdırılması (saxlanmasının idarə edilməsi) sistemidir. Onun vəzifələrinə daxildir: göndərmə və daşımaların operativ idarə edilməsinin əlaqələndirilməsi; mal ehtiyatlarının tənzimlənməsi, əmtəələrin hərəkətinin logistik sisteminin modellərinin qurulması, onların fəaliyyətinin davamlılığının təhlili, kompüterləşdirilmiş və mexanikləşdirilmiş anbar şəbəkəsinin və s. yaradılması.

**LOGİSTİKA DƏSTƏYİ TƏHLİLİ** – Məhsula logistik dəstəyi müəyyənləşdirən və qiymətləndirən məhsul emalı prosesinin bir hissəsi kimi analitik prosesdir.

**LOGİSTİKA İDARƏETMƏSİ** - Əmtəələrin, onların ehtiyatının, xidmətin və yarandıqları nöqtədən birinə istehlak nöqtəsinə kimi bununla bağlı məlumatların effektiv və məhsuldar axınının istehlakçıların tələblərinin ödənilməsi məqsədilə planlaşdırılması, reallaşdırılması və nəzarət olunmasının həyata keçirildiyi tədarük həlqəsindəki prosesin bir hissəsidir.
**LOGİSTİKA KANALI** – Əmtəə dövriyyəsində iştirak edən istehlakçılar, təchizatçılar, vasitəçilər, yükdaşıyanlar, sığortaçılar və digər şəxslərdən ibarət qismən nizamlanmış çoxluqdur.
**LOGİSTİKA MENECERİ** – Təşkilati bölmənin logistika funksiyası üzrə məsul olan meneceridir.
**LOGİSTİKA SERVİS PROVAYDERİ** – Əsas kommersiya fəaliyyətinin logistik əməliyyatlarının yerinə yetirilməsindən ibarət olan hüquqi şəxsdir.
**LOGİSTİKA VAHİDİ** – 1. Həm logistika planlaşdırması, həm də əməliyyatların predmetidir. 2. Əsasən, anbar və ya saxlanc olmaqla malların axınında hər hansı bir həlqədir.
**LOGİSTİKA XƏRCLƏRİ** – Logistika əməliyyatlarının həyata keçirilməsində sərf olunan xərclərdir.
**LOKALLAŞDIRMA –** Axtarılan obyektin yerinin müəyyənləşdirilməsi. Sistemin yerli bazarının xüsusiyyətlərinə (xüsusi ilə dilinə) uyğunlaşdırılması.
**LOKAL ŞƏBƏKƏSİ –** Məhdud əraziyə, müəyyən yerə xas olma; qəbul edilmiş həddən kənara çıxmayan.
**LOKALİZATOR –** Zədə və ya nasaz yerin müəyyənləşdirilməsini təmin edən proqram və aparat vasitələri.
**LOKAUT –** 1. Bir və ya bir neçə iş yerinin tam və qismən bağlanmasıdır. Əsas məqsədi öz tələblərini işçilərə qəbul etdirmək və ya onlara qarşı durmaq üçün işverən tərəfindən işçilərin normal əmək fəaliyyətinə mane olmaq təşəbbüsüdür, öz narazılıqlarını işçilərə bildirməkdir, ya da digər iş verənlərin tələblərini , narazılıqlarını müdafiə etməkdir; 2. Kollektiv əmək

mübahisəsi və təhlil elan olunması, habelə idarənin, filialın, yaxud nümayəndəliyin ləğv edilməsi (yenidən təşkili) ilə əlaqədar işəgötürənin təşəbbüsü ilə işdən çıxarmadır.

**LOKUSİYA -** Danışıq aktı nəzəriyyəsində hər bir danışıq hərəkətinin danışıqda söz və söz cərgələrinin müəyyən qrammatik ardıcıllıqla düzülməsinin reallaşması, tələffüzünün bir hissəsi (faktiki aspekt), obyekt və hadisələrə münasibət (retik aspekt). Bunlar ikisi birlikdə ifadə formasıdır, retik aspektə isə propozisiya (Mokusiya-peilokusiya Propozisiya) uyğun gəlir.

**LOMBARD KREDİTİ** – Tez satıla bilən daşınan əmlakın girovu ilə verilmiş qısamüddətli kredit.

**LONQ-MÜDDƏT –** Bir neçə illiyə, bir qayda olaraq iki ildən artıq müddətə hesablanmış uzunmüddətli maliyyə əməliyyatıdır.

**LOQOTİP** – Hər hansı şirkətin, ticarət-sənaye birliyinin, kompaniyanın tam və ya qısaldılmış adını əks etdirən orijinal qrafik görüntü (yazı).

**LOQROLLİNQ -** Qanunvericilik orqanlarının üzvlərinin arasında “səslə alver” təcrübəsi.

**LORENTS ƏYRİSİ –** İqtisadi bərabərsizlik səviyyəsini müəyyən edən, qrafiki diaqram.

**LORO-KONTO –** 1. Bank tərəfindən, özünün tapşırıqlarına əsasən əməliyyatları yerinə yetirən müxbir banka açdığı kommersiya hesabıdır. 2. Müxbir bankda hər hansı bir bankın üçüncü bank tərəfindən açdığı müxbir hesabdır.

**LUNA-PARK –** Müxtəlif növ attraksionları və başqa əyləncə qurğuları olan geniş şəhər parkı, əyləncə şəhərciyi.

## -M-

**MAJORİTAR** – Majoritar sözü fransız dilindən tərcümədə "çoxluq" deməkdir. Majoritar seçki sistemində kim çoxluğun səsini qazanarsa o da seçilir.
**MAGİSTR DƏRƏCƏSİ** – Ali təhsilin ikinci dövrünün uğurla bitirilməsindən sonra qazanılan dərəcədir. Magistr proqramı üzrə təhsil (onu həmçinin magistratura da adlandırırlar), adətən, dörd semestrdən ibarətdir. Dublin deskriptorlarına uyğun olaraq, ikinci dövrün məzunlarının bakalavr səviyyəsində əldə etdiyi və ya daha əhatəli olan bilik və bacarıqlar elmi araşdırmalar kontekstində ideyaların əsl inkişafı və ya tətbiqi üçün əsas olmalıdır və buna imkan yaratmalıdır. Onlar bu bilikləri, anlamları və bacarığı yeni və ya tanış olmayan vəziyyətlərdə, problemlərin həllində, öyrəndikləri sahədə daha geniş olan (və ya fənlərarası) kontekstlərdə tətbiq etməyi bacarmalıdırlar.
**MAKROASSAMBLER** – Makro vasitəli assambler, yəni makrosların proqramlaşdırılması üçün vasitə.
**MAKROBLOK** – Başlıq və verilənlərdən ibarət video informasiya hissəsi. Başlıq kod sözü onun qrupdaxili pozisiyasını (mövqeyini) müəyyənləşdirir, habelə indentifikator makroblokun növünü xarakterizə edir.
**MAKROİQTİSADİYYAT** – İqtisadiyyat elminin bir sahəsidir. Ümumiləşdirilmiş (yekun) iqtisadi göstəricilər (aqreqatlar) əsasında iqtisadiyyatı həm bütövlükdə, həm də onun mühüm məcmusu olan ev təsərrüfatı, biznes, dövlət bölmələrini və s. öyrənir. Makroiqtisadiyyatın vəzifəsi iqtisadiyyatın ümumi vəziyyətini, quruluş sxemini və iri göstəricilər arasında iqtisadi əlaqələri əks etdirməkdən ibarətdir.

**MAKROKOMANDA VİRUSU** – Word for Windows və ya Excel proqramlarının fayl sənədlərini yoluxduran geniş yayılmış virus sinfidir.

**MAKROLİNQVİSTİKA –** 1. Dili "makroskopik" səviyyədə, daha doğrusu, onu geniş planda statistik metodlarla tədqiq edən dilşünaslıq sahəsi. 2. Dilşünaslığın mikro və makrolinqvistika bölgülərinin mövcudluğu kompleksi və onun vahid şəkildə nəzərdən keçirilməsi.

**MAKROMEDİYA –** Makromedia Web-lə bağlı proqramlar istehsal edən nəhəng şirkət olub, ilk dəfə ABŞ-da yaradılıb.

**MAKROPAYLAŞDIRMA –** Praktikada mobil rabitə şəbəkəsində bir sell mərkəzində bir baza stansiyası əvəzində iki və daha çox baza stansiyası yerləşdirməklə makropaylaşdırma həyata keçirilir.

**MAKROPROSESSOR –** Adi prosessorlardan fərqli olaraq makroprosessor mikrokomandaları yaymaq funksiyasını da yerinə yetirir.

**MAKROSELL –** Mobil rabitə şəbəkəsinin əhatə dairəsi. Bu dairənin radiusu 1÷35 km intervalında ola bilər. Bu əhatə dairəsi bir neçə makroselldən ibarətdir. Bu makrosell daxilində bir çağırışa xidmətdə bir və ya bir neçə paralel birləşmə təmin edilə bilər.

**MAKROSLAR** – Makrokomandalardır. Baza ilə işləyərkən tez-tez istifadə olunan hər hansı əməliyyatlar ardıcıllığını, bir neçə komandaları bir makrosda qruplaşdırırlar və onu klavişin bir düyməsinə mənimsədirlər.

**MAKROSTRUKTUR –** 1. Optik cihazların köməyi olmadan, adi gözlə və ya lupanın köməyi ilə azca böyüdülməklə görünən bərk əşyaların strukturu. 2. Geniş mənada iqtisadiyyatın aparıcı sahələrinin əlaqəli sistem şəkildə qurulması.

**MAKROTƏRCÜMƏ –** Tərcümə yerdəyişmələri, daha doğrusu, bir dil səviyyəsindən digərinə, bir kateqoriyadan digərinə keçid.

**MANDATLI BAYT –** Uzunluğu dəyişən verilənlər blokunda başlıq məlumatında bir və ya bir neçə bayt mandatlı bayt kimi informasiya blokunun strukturunu və formatını dəqiqləşdirir.

**MANİFEST –** Nəqliyyat vasitələri tərəfindən müxtəlif təyinat məntəqələrinə daşınan yüklərin bütün spesifikasiyalarını əks etdirən sənəddir:1. Bir qayda olaraq, yük manifesti konosamentlərə əsaslanır və yükləmə limanlarında agentlər tərəfindən rəsmiləşdirilir. 2. Rəsmi və inzibati məqsədlər üçün manifest konosamentlərin məcmusunu əks etdirir.

**MANKO** – Kassada pulun həqiqi məbləğdən əskik olması.

**MANSARD** – Binanın damı altında yerləşən yaşayış sahəsi, hündür əyri divarlı və kiçik pəncərəli otaq.

**MANŞET** – Qəzetin ön səhifəsində ən vacib xəbər üçün ayrılmış yer; qəzetin birinci səhifəsinə çıxarılaraq xüsusi təqdimatla verilən məlumat, diqqəti cəlb edən yazı.

**MATRİSA** – İki ölçülü verilənlər massası olub, hər bir elementin yerləşmə nöqtəsi bir mənalı olaraq uyğun sətir və sütunun kəsişməsi ilə xarakterizə olunur.

**MATRİSALAŞDIRMA** – Şifrəli matrisa sxemi vasitəsi ilə verilənlərin şifrələnməsi.

**MAQNİT BAŞLIĞI –** Verilənləri daşıyıcıda yazan və onları daşıyıcıdan oxuyan maqnit diski və ya maqnit lenti yığıcısının qovşağı.

**MAQNİT LENTİ –** İnformasiyanın uzun müddət saxlanılması üçün istifadə olunan qeyri-maqnit kütlədən ibarət üzərinə ferromaqnit təbəqə çəkilmiş yanmaz elastik lent. Maqnit lenti səthi nazik ferromaqnit təbəqəsi (maqnit daşıyıcısı) ilə örtülür.

**MARAZM** – Son dərəcə arıqlama, gücdən düşmə, psixi fəaliyyətin, demək olar ki, tamamilə dayanması ilə müşayiət olunaraq orqanizmin həyat fəaliyyətinin zəifləməsi.

**MARİNİST** – Dəniz mənzərələri çəkən rəssam.

**MARJA** – 1. Qiymətli kağızların, əmtəə və xidmətlərin və s.-nin qiymətləri, məzənnələri, yaxud faiz dərəcələri arasındakı fərq. 2. İqtisadi subyektin cəlb etdiyi və yerləşdirdiyi kredit vəsaitlərin faiz dərəcələri arasındakı fərq. 3. Fond bazarında həyata keçirilən əməliyyatların riskindən sığortalanmaq məqsədilə müştəri tərəfindən vasitəçi şəxsə verilən pul vəsaiti və ya girov. 4. Malların birja bülletenlərində göstərilən satıcı qiyməti ilə alıcı qiyməti arasındakı fərqdir. 5. Faiz tariflərinin (məsələn, bank tərəfindən cəlb edilən əmanətlər və verilən ssuda (borc) üzrə tariflər arasında), yaxud Mərkəzi Bank tərəfindən yenidən maliyyələşdirmə tarifinin və bank kapitalından müəssisələrə verilən kredit tarifi (dərəcəsi) arasındakı fərqin miqdarıdır. Marja kredit təşkilatının xərclərinin ödənilməsinin zəruriliyi və müəyyən gəlirin təmin edilməsi nəzərə alınmaqla müəyyənləşdirilir. 6. Satış qiyməti ilə maya dəyəri arasındakı fərqdir. Marja, bir qayda olaraq, onun uyğun gəldiyi maya dəyəri əsasında müəyyən edilir.

**MARKER** – 1. Məlumatların işlənməsini təmin edən, xidməti funksiyaları yerinə yetirmək üçün *məlumatların maşın daşıyıcılarına* köçürülən xüsusi işarədir. Qeyd olunan zonanın əvvəlinə və yaxud ondan sonra yerləşdirilir. 2. Nəyinsə göstəricisi, məsələn, cəm halın göstəricisi. 3. Nəyə isə işarə. 4. Siqnal işarəsi. 5. Oriyentir işarəsi.

**MARKERLİ KANAL –** Asinxron veriliş kanallarında sinxronizasiyasını təmin edən məntiqi kanal.

**MARKETİNQ** – 1. Məhsul istehsalını artırmaq və istehlakçı tələbatına fəal təsir göstərmək məqsədi ilə bazarın öyrənilməsi üzrə tədbirlər sistemi. 2. Tələbatın ödənilməsinə yönəldilmiş və

bazar konyukturu haqqında məlumat əsasında həyata keçirilən, bazarın öyrənilməsi, əmtəə və xidmətlərin istehsalı və satışının idarə edilməsi və tənzimlənməsi üzrə fəaliyyətdir.

**MARKETİNQ MƏLUMATLARI** –Marketinq tədqiqatlarında istifadə edilən rəqəmli məlumatlar, faktlar, qiymətlər və informasiyalardır. Marketinq məlumatları iki növə bölünür: xarici və daxili. *Xarici* – müəyyən məqsədlər üçün müxtəlif idarə və təşkilatlar tərəfindən yığılan, ancaq firmanın marketinqində istifadə edilən məlumatlardır. *Daxili* məlumatlar firmanın özü tərəfindən yığılır və işlənib hazırlanır. Daxili məlumatlar öz növbəsində konkret marketinq fəaliyyəti üçün xüsusi yığılan *birinci* məlumatlara, digər məqsədlər üçün toplanan, lakin marketinqin ehtiyacları üçün istifadə edilən (məsələn, mühasibat hesabları) *ikinci* məlumatlara bölünür.

**MARKETİNQ TƏDQİQATI** – Marketinqin tərkib hissəsidir, onun məlumat-təhlil tələbatını təmin edən, istənilən tədqiqat fəaliyyətidir. Marketinq tədqiqatı metodologiya baxımından özündə statistika, ekonometriya, sosiometriya, kvalimetriya, biheviorizm və spesifik (xüsusi) marketinq metodlarının mürəkkəb birliyini əks etdirir.

**MARKETİNQ XƏRCLƏRİ –** Bazarın genişləndirilməsinə və ya xidmətinə yönəldilmiş işgüzar fəallığın bütün növləri kimi müəyyənləşdirilir. Marketinqə bazarın öyrənilməsi, reklamların təşkili, satışın stimullaşdırılması, sponsorlaşdırma və ictimaiyyətlə əlaqələr daxildir.

**MARKETİNQ XİDMƏTİ -** Tələbatı ödəmək və gəlir əldə etmək məqsədilə *xidmətin* göstərilməsinə (istehsalı və satışına) yönəldilmiş fəaliyyət növlərinin məcmusudur.

**MARKET-MEYKER** – 1. Birja və birjadan kənar *qiymətli kağızlar bazarının* dileri (vasitəçisi) hesab edilən maliyyə şirkətidir və öz fəaliyyət miqyasının təsiri ilə özü tərəfindən qiymətləndirilən kağızların bazar qiymətlərinin müəyyənləş-

dirilməsində iştirak edir. 2. Fond bazarında proseslərin gedişini izləyən, inkişaf meyillərini, gözlənilən gəlirliliyi, qiymətli kağızların etibarlılığını qiymətləndirən bazar iştirakçılarına qiymətlər, məzənnə, dividentlər haqqında məlumat verən fond birjasının yüksək ixtisaslı işçisi, qiymətli kağızlar bazarının meneceridir.

**MARKİTANT** - Ordunu yürüşdə müşayiət edən, ərzaq ehtiyatı və içkilərlə təmin edən xırda alverçini göstərən tarixi termin. Çox vaxt markitantlar qadınlar olurlar.

**MARQO** – İşgüzar sənəddə, kommersiya məktubunda müəyyən qədər qeydlər aparmaq üçün qoyulan boş yer.

**MASKİRATOR –** Səsi təsadüfi qulaq asılmasından müdafiə edən qurğu.

**MASTER-KART –** Bank-maliyyə sistemində ödəmə kartlarının bir növü.

**MATRİSA –** İki ölçülü verilənlər massası olub, hər bir elementin yerləşmə nöqtəsi olaraq uyğun sətir və sütunun kəsilməsi ilə xarakterizə olunur.

**MEDİA SERVER –** Multimedia məlumatlarının yadda saxlanılması və emalında istifadə olunan server.

**MEDİAMORFOZ** – KİV proqramlarında faktların, yaxud ideyaların təhrifi, fakt və hadisələrin bilərəkdən eybəcərləşdirilməsi.

**MEDİAN** – Qrafiki proqramlarda təsvirin çatışmayan cəhətlərini aradan qaldıran alətlərdən biri. Ətraf piksellərin parlaqlığı ilə “xarab” piksellərin parlaqlığını orta həddə gətirir.

**MEDİAPLEYER** – Multimedia məlumatlarını oxudan proqram.

**MEDİATOR** –1. Beynəlxalq mübahisədə vasitəçi kimi çıxış edən dövlət;2. Sinir uclarını hərəkətə gətirmək üçün işlədilən bioloji aktiv maddə.

**MEDİUM –** Ruhlarla danışan, insanlarla “ruhlar” dünyası arasında vasitəçilik edən adam.
**MEQABİT YADDAŞ** – Meqabiti yadda saxlayan qurğu, tutumu bir neçə meqabit olan yaddaş.
**MEQAPOLİS –** Şəhərin böyüməsinin, yerləşdirilməsinin ən iri formasıdır. Əsas şəhərin onu əhatə edən kəndlərlə, aqlomerasiyalarla birləşməsi nəticəsində əmələ gəlir.
**MELOMAN** – Musiqiyə, mahnıya hədsiz aludəçilik; mahnı, musiqi aşiqi.
**MEMBRAN KLAVİATUR** – Baha olmayan, düz, toza və çirkə davamlı plastikdən hazırlanmış mexaniki klavişləri olmayan klaviatur.
**MENECER –** Şirkətin fəaliyyətində idarəetməni həyata keçirən şəxs; müxtəlif sahələrdə idarəetmənin təşkili məsələləri üzrə mütəxəssis.
**MENECMENT** – İstənilən sahədə məhsuldarlığa nail olmaq üçün səmərəli idarəetmə; idarəçiliyin forma, metod, vasitə və prinsiplərinin məcmusu. Menecmentin əsas məqsədi – istehsalın yüksək səmərəliliyinə nail olmaq, müəssisənin, firmanın, şirkətin resurs potensialından düzgün istifadə etməkdir.
**MENECMENTDƏ EKVİVALENTLİK** – Eyni situasiyada müvəffəqiyyətə nail olmaq üçün müxtəlif yolların olması.
**MENECMENTDƏ İMİTASİYA -** Real vəziyyət modelinin hazırlanması və vəziyyətin necə dəyişə biləcəyini başa düşməkdən ötrü elmi təcrübələrin keçirilməsi prosesi.
**MENTALİTET** – milli ənənə və yaşam tərzindən doğan düşüncə və davranış, ağıl və təfəkkür tərzi.
**MENYU (informatikada) –**İstifadəçinin seçə bilməsi üçün displeyin ekranına çıxarılmış variantlar (rejimlər, əməllər, cavablar və s.) siyahısı, seçilmiş variant sistemin növbəti işini müəyyən edir.

**MERDCER** – Bir firmanın digər firmanı udması, bu halda sonuncu öz şirkət statusunu itirir. Bu prosesdə yeni şirkət yaranmır. Merdcer üç formada həyata keçirilir: 1. Merdcer həyata keçirən şirkət digər şirkətin əsas vəsaitlərini alır. 2. Merdcer həyata keçirən şirkət digər şirkətin səhmdar kapitalının bir hissəsini alır və həmin şirkət üçün qoldinq şirkətinə çevrilir. 3. Merdcer həyata keçirən şirkətin səhmləri digər şirkətin səhmləri əvəzində buraxılır.

**MERÇANDAYZİNQ-** Satışın stimullaşdırılması. Marketinqin pərakəndə satışda malların hərəkətinin maksimum tezliyini təmin etməyə, realizasiyaya marağın artırılmasına yönəldilmiş bölməsi.

**MERKANTİL** – Tacirlik, hər hansı məsələdə öz maraqlarını nəzərə almaqla iş görmək, qazanc güdmək.

**METAFAYL** – Fayllar haqqında məlumat daşıyan ayrıca fayl.

**METALLİZASİYA** – Mikrosxem istehsalında çap platası hazırlanmasının bir mərhələsi.

**METROPOLİYA** – İşğal olunmuş, müstəmləkə vəziyyətinə salınmış, başqasından asılı olan dövlət.

**MEYNFREYM** – Ümumi məqsədli universal elektron-hesablama maşınıdır. Bu kompüterlərdən müdafiə, maliyyə və sənaye sahələrində geniş istifadə olunur. Meynfreym kompüterləri böyük, mürəkkəb hesablamalar aparmaqla yanaşı özünə çoxlu sayda terminal birləşdirir. Təyyarə və qatarlara sərnişin biletlərinin satışını mərkəzləşdirilmiş qaydada həyata keçirən hesablama sistemlərində meynfreymlərdən istifadə olunur. Meynfreym kompüterləri əsasən IBM firmasında istehsal olunur.

**MƏLUMATLARIN VİZUALİZASİYASI** – İstifadəçinin əhəmiyyətli informasiyanı asan seçməsi üçün eksperimental və s. məlumatların qrafiki təsviri üçün metodlar.

**MƏNFİ İSMARIC –** Elektron məktub göndərənin, onun mesajının göndərilməsi mümkün olmadığı barədə mesaj.
**MƏNTİQ – 1.**Təfəkkürün qanunları və formaları, biliklərin və təfəkkürün həqiqiliyinin şərtləri haqqında elm.2. *Maşın məntiqi* – Hesablayıcı maşının qurulması və fəaliyyətinin məntiqi əsasları.
**MƏRKƏZİ REDUKTOR** – Qazalovlu emal məntəqələrini qazla mərkəzləşdirilmiş qaydada qidalandırdıqda tətbiq olunan reduktor.
**MƏTN PROSESSORU –** Mətn redaktorun və formaterin birləşməsi. Mətnlərin çap edilməsi üçün istifadə olunur. Mətn prosessorlarının iki növü vardır: tam uyğunluq rejimində işləyən prosessorlar və redaktorluğu mətnin yığılmasından sonra həyata keçirən prosessorlar.
**MƏTN REDAKTORU –** Kompüterdə mətnli informasiyanın işlənməsi üçün təyin olunan tətbiqi proqram təminatı növü. Bu proqram mətnin fayla yazılması, simvol, sətir və mətnin yerləşdirilməsi, silinməsi, yaxud əvəz olunması, orfoqrafiyanın yoxlanılması, mətnlərin müxtəlif forma və biçimlərə salınması, mətnlərin çapı və s. funksiyaları yerinə yetirir. Daxil edilən mətnin ekrana çıxarılması və yaddaşa göndərilməsini təmin edən proqram. Lazım gəldikdə mətni redaktə etmək də olar.
**MƏTNİN SEQMENTASİYASI-** 1. Müxtəlif həcmdə (uzunluqda) söz birləşməsi olan söz və ifadələrin zəncirinin fərqləndirilməsidir ki, onlar bəzi semantik-sintaktik əlaqələrlə tərtib olunmuş, bölünmüşlər (formal təyinedicilər), adətən, onların seqmentasiyası keyfiyyətində köməkçi sözlər çıxış edir. 2. Mətn vahidlərinin ardıcıl şəkildə təqdim olunması. 3. Mətnin nitq seqmentlərinə nitq zəncirinin idarə olunan komponentin idarə edən söz ardınca fasiləsiz saxlanılması prinsipinə söykən-məklə bölünməsi və bəzi istisnaları nəzərdə tutmasıdır ki, o

mətnin informativliyini müəyyənləşdirməyə kömək etməklə, yazılı tərcümə metodlarından birinin əsasını təşkil edir.

**MİKRO EHM –** EHM-in 4-cü nəslindən olan mikro elektron hesablama maşınıdır. Mikroprosessordan, böyük inteqral sxemlərdə yerinə yetirilən yaddaşdan və giriş-çıxış qurğuları ilə rabitə vasitələrindən ibarətdir. Həm terminal, həm də fərdi EHM kimi istifadə edilir. Mikro EHM əsasında istifadəçilərə istiqamətləndirilmiş hesablama kompleksləri yaradılır.

**MİKROTEK** – Mikrosurətlərin sistemləşdirilmiş məcmusu.

**MİKROARXİTEKTURA** – Mikroprosessorun daxili strukturu və ya qeydiyyat faylını, keş-yaddaşı, buferi, həmçinin planlaşdırma məntiqini və onun icrasını özündə saxlayan mikrosxem.

**MİKROB** – Kompüter virus tipi. Öz-özünə artan və bütün sistemi tutaraq onun resurslarını yeyən virus.

**MİKRO-BİLLİNQ** – Veb-səhifələrin məzmununa nəzarət etməyə və s. xırda xidmətlərə görə mikro-nağd yığım.

**MİKROMARKETİNQ –** Müəssisənin marketinq fəaliyyəti, marketinqin istehsalçılar və istehlakçılar arasında əlaqəni təmin edən bir hissəsi.

**MİKROMÜHİT –** Firmaya maraq göstərən və onun fəaliyyətinə təsir edə bilən mal göndərənləri, alıcıları, xidmət istehlakçılarını və kontrakt qruplarını da daxil etməklə firma ilə və onun xidmət göstərdiyi müştərilərlə bağlı iqtisadi mühit.

**MİKROPLYONKA-** Kağız sənədlərin surətini çox zaman bu mikroplyonkaya çıxarırlar.

**MİKROPROSESSOR –** Bir konstruktiv modulda bir və ya bir neçə mikrosxemdən ibarət proqramla idarə olunan, inteqral mixrosxem bazasında yerinə yetirilən fiksasiya ilə məlumatları işləyib hazırlayan proqram-idarəedici qurğudur. Mikroprosessor verilmiş komanda sistemlərinin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur. Hesabi-məntiqi qurğudan, daxili yaddaşdan və

idarəetmə qurğusundan ibarətdir. Fərdi EHM-də mərkəzi idarəetmə funksiyasını yerinə yetirir.

**MİKSTURA** – Bir neçə maddənin qarşılığından ibarət dərman məhlulu.

**MİKŞER** – Səs yazımı və səsyazma sistemlərində bir neçə siqnalı birləşdirib-ayırmaq və tənzimləmək üçün qurğu.

**MİQRANT –** Miqrasiya edən şəxs, yəni daimi yaşayış yerini həmişəlik yaxud uzun müddətə dəyişdirməklə bu və ya digər ərazilərin sərhədlərini keçən şəxsdir.

**MİLL** – Dolların mində bir hissəsi, sentin onda bir hissəsi.

**MİLLİ İXTİSAS SİSTEMİ** – Milli ixtisas sistemi beynəlxalq miqyasda anlaşıla bilən, milli səviyyədə bir dövlətin ali təhsil sisteminin ixtisas strukturudur.

**MİLLİ EHM –** 3-cü nəsil, kiçik qabaritli stasionar hesablama maşınlarıdır. Problem-istiqamətləndirmə maşınlar sinfinə daxil edilir, real vaxt sistemlərində işlər üçün idarəedici hesablama kompleksi kimi istifadə edilir.

**MİNİ-MARKET –** Əsasən ərzaq mallarını satan ticarət sahələrinə malik olan özünəxidmət mağazasıdır.

**MİRAJ** – Xəyal, ilğım; üfüqdə cismin və ya göyün bir hissəsinin mövhumi xəyalının görünməsindən ibarət optik hadisə.

**MİZANTROP** – Adamsevməzlik, insanlara nifrət edən, onlardan kənar gəzən adam.

**MOBİL ABUNƏÇİ –** Hərəkətdə işləyən istənilən növ yerüstü və ya peyk rabitə abunəçisi.

**MOBİL STANSİYA –** Quruda, suda və havada hərəkətdə olan bütün növ mobil stansiyaların və mobil telefon aparatlarının ümumi adı.

**MOBİL BANK** – Mobil telefon vasitəsilə günün istənilən vaxtı, onlayn rejimində, məkandan asılı olmayaraq hesabı idarə edən və bir çox əməliyyatları həyata keçirə bilən xidmət.

**MOBİL KOMMERSİYA –** Mobil terminalın (stansiyanın) köməyi ilə bank əməliyyatlarının aparılması, müxtəlif növ xidmət və malların sifarişi.
**MOBİLLİK** – Mobilliyin inkişafı Bolonya prosesinin əsas vəzifələrindən biridir. Tələbələrin mobilliyini onların Avropa ali məktəblərində qismən təhsil alması və onların gələcəkdə xarici ali məktəbdə təhsil alma müddəti kimi tanınması imkanını, eyni zamanda orada əldə olunmuş kredit vahidlərinin tanınması imkanını nəzərdə tutur.
**MODEM –** EHM-də istifadəçini telefon xətti vasitəsilə lokal kompüter şəbəkəsinə qoşan, yaxud ayrıca bir kompüteri qlobal şəbəkəyə birləşdirən qurğu. Modem kompüter ilə telefon xətti arasında rabitə qurğusu olub, rəqəm elektrik siqnallarını analoq formasına, yaxud əksinə avtomatik çevirmək üçün tətbiq edilir.
**MODERATOR** – Xəbərlər qrupunun kuratoru. Şəbəkədə qaydalar yaradan və onların gözlənilməsini həyata keçirən adam.
**MODİFİKASİYA –** 1. Obyektin mahiyyətinə toxunmadan hər hansı dəyişiklik. 2. Modifikatordan istifadə edilməsi. *Ünvanın modifikasiyası* – Ünvanın proqramda nəzərdə tutulmuş dəyişikliyi (Məsələn, ünvan konstantasının əlavə edilməsi) *Komandan modifikasiyası* – proqramın yerinə yetirilməsi zamanı komandanın kod, yaxud ünvan hissəsinin dəyişdirilməsi prosesi.
**MODİFİKATOR –** Komandanın istifadəçi parametri.
**MODUL –** 1. Müəyyən bir funksiya yerinə yetirən konstruktiv olaraq avtonom hazırlanmış, digər qurğularla bağlantı vasitələri olan qurğu. 2. Tədrisin nəticələri nöqteyi-nəzərindən proqramın aydın surətdə ifadə olunmuş nəticələri və qiymətləndirmə meyarları olan hissəsi.
**MODULYASİYA -** 1. Aparıcı tezliyin hər hansı parametrinin (amplitudasının, tezliyin və ya fazasının) aşağı tezliyin

qanununa uyğun dəyişməsi ilə verilməsi prosesi. Modulyasiya üsulları spektrin maneəyə davamlılığına və spektral effektivliyinə görə xarakterizə olunurlar. 2. Rəqəm siqnallarının analoq formasına çevrilməsi prosesi. Bu prosesin əksi demodulyasiyadır.

**MONETARİZM** – İqtisadiyyatı sabitləşdirmək və resurslardan daha səmərəli istifadə etmək siyasəti yeridərkən pulun rolunu üstün tutan nəzəriyyə.

**MONİPÜTER** – Bir korpusda olan monitor və kompüter. Smart (və ya monoblok) kompüterlər.

**MONİTOR –** 1. Sistemin işinə vizual (görüntülü) nəzarəti həyata keçirmək üçün istifadə olunan elektron qurğu. 2. Verilənlərin emalı prosesində digər proqramlara nəzarət və onları müşahidə etmək üçün istifadə edilən xüsusi proqram. **3.** Elektron qurğular (kompüter, televizor, telekamera) vasitəsilə yaradılan təsviri əks etdirən ekran; displey.

**MONİTORİNQ** – Müəyyən proseslərin dinamikasını, qaydalara uyğunluğunu öyrənmək və qeydə almaq məqsədi ilə həyata keçirilən davamlı, sistemli müşahidə. Monitorinq dəqiq müəyyən edilmiş metodika (müşahidə, müqayisə, sorğu və s.) və konkret meyarlar əsasında gerçəkləşdirilir. Bu və ya başqa sahədəki real vəziyyəti göstərən monitorinq təklif və proqnozları ehtiva edə bilər, lakin həmin sahə ilə bağlı qərar və ya hökm çıxara bilməz.

**MONOKANAL** – Bir stansiyadan şəbəkədə olan bütün stansiyalara informasiyanın ötürülməsi.

**MONOLOQ –** İstifadəçinin EHM ilə qarşılıqlı fəaliyyət rejimi. Bu zaman tərəflərin biri digərinə dərhal cavabının verilməsini tələb etməyən informasiya ötürülür.

**MONOMETALİZM** – Bir metalın ümumi ekvivalent kimi çıxış etdiyi və pul dövriyyəsinin əsasında durduğu pul sistemidir.

**MORATORİUM** – Müəyyən öhdəliklərin yerinə yetirilməsi zamanı fasilə; fövqəladə hallarla əlaqədar dövlət tərəfindən hər hansı fəaliyyətin dayandırılması.
**MOTİVASİYA** – Ayrı-ayrı şəxslər və çoxlu sayda şəxslərdən ibarət qruplar üçün stimul , təkanverici qüvvə rolunu oynayan , onları müəyyən tərzdə hərəkət etməyə , müəyyən hərəkətlərdən çəkinməyə sövq edən daxili istək və həvəs.
**MOTOPLANER** – Mövcud mühərrik gücü hesabına üfüqi uçuşu saxlamaq imkanı verən, lakin öz gücü hesabına uçub-qalxma üçün kifayət etməyən mühərriklə təchiz edilmiş təyyarə.
**MULTİBAQ –** Parça və ya plyonka materialdan istehsal olunmuş və yüksək sıxlıqlı qablaşdırma üçün nəzərdə tutulan, elastiki, daxili amortizasiyalı vasitədir.
**MULTİKULTURALİZM -** Eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasət.
**MULTİMEDİA –** 1. Bir yüksək sürətli verilənlər seli daxilində çoxlu sayda müxtəlif növ informasiya (səs, şəkil, canlı təsvir, mətn, qrafika və s.) elementlərindən ibarət verilənlərin sintektik strukturu. 2. Multimedia vasitələri. Audio, video və mətn sellərinin inteqrasiyası ilə generasiya, yaxud veriliş təşkil edən proqram və aparat vasitələri. 3. İnformasiya texnologiyalarında məlumatların işlənməsi, saxlanılması və müxtəlif kanallarla (TV, radio, qəzet, internet və s.) yayılması.
**MULTİMEDİA XİDMƏTLƏRİ –** Bu xidmətlər multimedia vasitəsi ilə (məsələn, videotelefon və s.) həyata keçirilir.
**MULTİPLEKSOR –** Bir neçə selləri bir çıxış qrup siqnal-larında, yaxud çoxkanallı məlumatda birləşdirən (cəmləşdirən) qurğu.
**MULTİPROSESSOR REJİMİ** – Multiprosessor hesablama sistemlərinin, yəni bir neçə prosessoru olan sistemlərin köməyi ilə tapşırıqların həllini təşkil etmək üsuludur.

**MÜBADİLƏ BUFERİ** – Başqa sözlə cib də adlanır. Buraya hər hansı obyekti əvvəl gizlətmək, sonra başqa yerə təzədən qoymaq olar. Windows-un mübadilə buferinə mətnin də bir hissəsini, hətta bütöv bir faylı da yerləşdirmək mümkündür.
**MÜHAFİZƏ** - Diskdən, yaxud lentdən surətlərin sanksiyalaşdırılmamış götürülməsinin qarşısını alan sistem. Kompüter sistemində bu, həmçinin aparat vasitələrinin proqram təminatının və verilənlərin korlanmasının qarşısını alır. *Yaddaşın mühafizəsi* -yaddaşın hər hansı sahəsindən istifadə etməsindən qoruyan proqramdaxili kod. Hesablayıcı sistemdən istifadə olunması imkanlarından məhrum etmək, yaxud onlarda istifadənin məhdudlaşdırmaq məqsədi güdən vasitə; aparaturadan sanksiyalaşdırılması istifadənin qarşısının alınması üçün görülən hüquqi, təşkilati və texniki tədbirlər.
**MÜRACİƏT(informatikada) –** Yaddaş qurğusu və orada yerləşən verilənlərin oxunması və ya yazılması üçün istifadə olunan fayl ilə əlaqənin yaradılması prosedurası.
**MÜVƏQQƏTİ FAYL –** Onu yaradan məsələ bitdikdən sonra ləğv edilən fayl.
**MÜVƏQQƏTİ YADDAŞ –** Aralıq emal nəticələrinin saxlanılması üçün ayrılan xüsusi yaddaş qurğusu və ya əməli yaddaşın bir bölməsi.
**MÜZİKL** – 1. Özündə dramaturgiyanı, musiqini və plastik sənəti üzvi şəkildə birləşdirən xüsusi səhnə janrı; musiqili səhnə əsəri. 2. Dramatik süjetdə danışıq musiqi və mahnıların təcəssüm etdiyi kinosənəti janrı.
**MÜZİKL – HOLL –** Proqramda estrada, sirk, balet, musiqi nömrələrinin növbə ilə bir-birini əvəzləyən estrada kartının növü.

**-N-**

**NANOSİSTEM** – Nanotexnologiyanın köməkliyi ilə yaradılmış atom konstruksiyası.
**NANOTEXNOLOGİYA** – 100 nm və daha kiçik ölçülü qurğular düzəltmək metodları üçün işlədilən ümumi termin. Burada materiallar üzərində iş molekulyar və atom səviyyəsində aparılır.
**NAVİQASİYA PEYKİ –** Hərəkətdə olan obyektlərin yerini müəyyən etmək üçün müəyyən obyektlərdə (orbiti əvvəlcədən ciddi müəyyənləşdirilir) yerləşdirilmiş, xüsusiləşdirilmiş peyk. Bu peyk hərəkətdə olan obyektlərin yerini müəyyən etmək üçün xüsusi radio dalğaları şüalandırır. Hər bir peyk, həmçinin onun efirdə yerləşmə vəziyyəti və almanax sistemi haqqında məlumat göndərir. Bu informasiya peykin portunun yaddaş qurğusunda saxlanılır və yer izləmə stansiya tərəfindən o periodik olaraq korreksiya edilir.
**NEFTOMAFİYA** – Neft sahəsində terror yolu ilə məqsədini həyata keçirən gizli təşkilat və ya cəmiyyət.
**NEOLOKAL NİKAH** – Nikahın bağlanmasından sonra ər-arvadın valideynlərindən asılı olmayan, özlərinə xüsusi yeni ev təsərrüfatını yaratmasıdır.
**NEONATAL ÖLÜM** – (yeni doğulanların ölümü) – Uşaqların doğulduğu andan həyatının 28-ci günündə ölməsidir. Körpə ölümünün əsas göstəricilərindən biridir.
**NETBUK** – Kiçikölçülü, qismən məhdud imkanlı mini-noutbuk.
**NETTİNQ** – 1. Bankın valyuta disklərinin səviyyəsinin aşağı salınması üsullarıdır ki, bu da onların iriləşdirilməsi yolu ilə valyuta əməliyyatlarının sayının maksimum ixtisar olunmasında ifadə olunur. 2. Valyuta sövdələşmələrinin sayının, onların iriləşdirilməsi və hərracın, birja bölmələrinin bütün iştirak-

çılarının fəaliyyətinin razılaşdırılması yolu ilə ixtisara salınmasıdır.

**NEYROAGENT** – Şəbəkələrin idarə edilməsində süni intellektdən istifadə edilməsi texnologiyası.

**NEYROKİBERNETİKA** – Beynin strukturuna bənzər proqram-aparat modelləşmə.

**NƏQLİYYAT MƏRKƏZİ** - Müəyyən nəqliyyat müəssisələrinə yükdaşıma xidmətləri (məsələn, transşipment) göstərən fikirlər və ya qurğulardır.

**NƏQLİYYAT SERVİSİ** - Müəyyən edilmiş marşrut üzrə yüklərin, sərnişinlərin və s.-nin daşınması üçün göstərilən xidmətdir.

**NİTQ KOMPRESSİYASI –** 1. İlkin mətnin heca həcminin ikinci dərəcəli informasiyalara malik nitq vahidləri hesabına kiçildilməsi və eyni zamanda leksik və qrammatik transformasiyalar hesabına qısaldılması. 2. Vəzifəni yerinə yetirərkən danışanın qarşıda qoyduğu məqsədə çatması üçün həcmi kiçiltmək bacarığı. Nitqin kompressiyası sinonimik yolla, yaxud ona yaxın olan deyim hissələrinin heca həcminin kiçildilməsinin, nitqin bəzi parçalarının buraxılması yolu ilə əvvəlki parçaların məna məzmununun əvəz edilməsi informasiyaya malik ünsiyyət situasiyasında olan kommunikasiyanın vəzifəsi nöqteyi-nəzərdən izafisi. 3. Nitq kompressiyası sinonimik və ona yaxın söz birləşmələri və cümlələrin daha müxtəsər sözlər, söz birləşmələri, cümlələrlə əvəz edilməsi, nitq parçalarının buraxılmasıdır ki, o əvvəl verilmiş informasiyanı və məna vahidlərinin buraxılmasını əvəz edir, konkret ünsiyyət şəraitində ya izafidir, ya da kommunikativ vəzifənin yerinə yetirilməsi nöqteyi-nəzərdən aparılır. Nitq kompressiyası imkanı dilin izafi informasiyası ilə izah olunur.

**NOKTÜRN** - Əsasən, fortepianoda gecə vaxtı açıq havada ifa olunan kiçik həcmli lirik, melanxolik musiqi əsəri.

**NOSTRO –** Müəyyən kredit idarəsinin müxbir bankda açdığı bank müxbir hesabıdır. Belə hesablarda qarşılıqlı ödəmələr əks etdirilir.

**NOSTRİFİKASİYA** – Xarici ölkələrdə verilmiş təhsil haqqında diplomun, adın, elmi dərəcənin tanınması, təsdiq edilməsi.

**NOTABENA** – Hansısa mətnin bir hissəsində xüsusi işarə ilə nəyəsə diqqət yetirməyi göstərmək.

**NOTASİYA** – 1. Simvollardan ibarət işarələr sistemi və proqramlaşdırma dilinin qaydaları. 2. Öyüd, nəsihət.

**NOTİFİKASİYA –** Vekselsaxlayan tərəfindən vekselə protest olunması haqqında vekselverənə göndərdiyi bildirişdir.

**NOU-HAU** – 1. Onu alan şəxsin müəyyən üstünlüklərini və kommersiya xeyrini təmin etmək üçün texniki, iqtisadi, inzibati, maliyyə və digər xarakterli məlumatlar da daxil edilməklə, tam və ya qismən mühafizə sənədinə malik olmayan məxfi biliklərdən, təcrübədən, bacarıqlardan (vərdişlərdən) istifadədir. 2. İstehsalın təşkilində istifadə edilə bilən yeni üsul və texnologiyalar, kommersiya xarakterli ixtira, elmi-texniki nailiyyət.

**NOUTBUK –** Yastı (maye-kristal) ekranı, üstündə klaviaturası və avtonom qida qurğusu olan kiçik ölçülü fərdi kompüter. Bu öz texniki parametrlərinə görə stolüstü kompüterlərdən geri qalmır. Həcmcə adi kompüterdən kiçik, maye-kristal displeyli, klaviaturalı, asanlıqla daşına bilən portativ mini-kompüter.

**NUKLEAR AİLƏ** – Uşaqlı, yaxud uşaqsız ər-arvad cütlüyündən, yəni nikahda olmayan öz uşaqları ilə valideynlərin birindən ibarət ailədir.

**NULİFİKASİYA –** 1. Ləğv etmə, hər hansı bir qanunun etibarsız olmasını etiraf etmək. 2. Pul həddindən artıq qiymət-

dən düşdükdə dövlət qanun verməklə əvvəlki pul nişanını ləğv edir.

**NYUSMEYKER** – Hadisə və ya faktla bağlı müəyyən müddət ərzində oxucu və tamaşaçı üçün maraq kəsb etdiyinə görə jurnalistlərin diqqətini cəlb edən şəxs, siyasi xadim.

**-O-**

**OBSTRUKSİYA** – Rəsmi iclası, toplantını, tədbiri, xüsusən parlament iclasını qəsdən pozmaq; konkret məqsədlə nümayiş etdirilən protest forması.

**OFERTA** – Ticarət gəmiçiliyində fraxt müqaviləsinin müəyyən şərtlərlə bağlanılması barədə təklif.

**OFFŞOR** – Maliyyə-kredit əməliyyatları zamanı iş adamlarına müəyyən güzəştlər verən, əlverişli biznes şəraiti yaradan sahibkarlıq mərkəzi.

**OF-LAYN** – 1. Hesablama sisteminə qoşulmayan, sərbəst, ayrıca, müstəqil rejim. Proqram materialının aşağı keyfiyyətli nüsxələrindən istifadə etməklə ilkin videomontaj. 2. Kəsilmə, ayrılma, dayandırılma, qurğudan açılma. 3. Çox vaxt qeyri-xətti olan montaj sistemi. Bu cür sistemlərdə montaj vərəqələrinin yaradılması üçün aşağı keyfiyyətli videotəsvirlərdən istifadə edilir. 4. Kompüter və internetlə əlaqəsi olmayan; məsələn, *of-layn kitabxana* – İnternet kitabxanasından fərqlənən adi kitabxana. 5. Əlavə, köməkçi.

**OKRET –** 8 bit uzunluqlu kod kombinasiyası olaraq vahid tam informasiya elementi kimi emal edilir. “Okret” və “bayt” tətbiq sahəsinə görə bir-birindən fərqlənirlər. Kompüterin yaddaşında saxlanılan və emal edilən 8 bit informasiya elementi əsasən bayt adlanır, okret isə impuls kod modulyasiyasında hər hesablanmış 8 bitdən ibarət kanal məlumatlarıdır.

**OKSİTON** – Son hecası güclü vurğu ilə səciyyələnən sözlər. Qədim yunan dilində axırıncı hecası akut vurğu ilə deyilən sözlər. Adətən, baritona qarşı qoyulur.

**OLBİQO** – Veksel üzrə olan borcun ümumi məbləği; ayrı-ayı şəxslərin banka olan borcunun qeydə alındığı bank kitabı.

**ONKOFOBİYA** – Xərçəng xəstəliklərindən qorxma.

**ONKOL** – 1. Borclarını ona açılmış kreditdən tədricən istifadə etməklə ödəmə hüququ. Bu hüquq əmtəə, veksel, qiymətli kağız girovu ilə təmin edilir. Hər bir tərəfin tələbi ilə onkol istənilən vaxt ləğv edilə bilər. 2. Kredit münasibətlərinin bir forması. Bu halda kredit müddəti təsbit olunmur və borcalan subyekt kreditor tərəfindən ona açılmış kredit vəsaiti hesabından davamlı qaydada borc vəsaitini istifadə etmək imkanına malik olur. 3. Beynəlxalq ticarət münasibətlərində razılaşma formalarından biri. Bu razılaşmaya görə, göndərilən məhsulun qiyməti davamlı şəkildə fiksə olunmuş qiymətlərlə müəyyən edilir. Bu halda məhsulun qiyməti alıcının seçiminə görə birja kotirovkası əsasında müəyyənləşdirilir.

**ONLAYN** – 1. Telekompüter əlaqələrinin operativ interaktiv rejiminin adı. Onlayn (hərfi mənada: xətdə) sözü birbaşa, montaj, fasiləsiz yeniləşdirilən məlumat bazası, cari informasiya təqdimatı xidməti, internetdə ixtisaslaşdırılmış informasiya ehtiyatları qovşağı – "şəbəkə ofisi" bildirən müxtəlif terminlərin tərkibinə daxildir. 2. Kredit kartı vasitəsilə əldə edildiyi an kredit kartı emitentinin kompüter ilə birbaşa rabitəsi.

**ONLAYN XİDMƏT** - Əməliyyatların baş verməsindən dərhal sonra əməliyyat barədə məlumatların emal olunmasıdır. Bu məlumatın partiyalar üzrə emalından fərqli olaraq real zamanda həyata keçirilməsi nəzərdə tutulur.

**ONOMATOPEYA** – Səs təqlidi. Təbiət səsləri, heyvan səsləri və eləcə də digər səs təqlidi yolu ilə yaranan şərti səslər; səs təqlidi yolu ilə sözlərin yaranması.

**OPART** – Müasir təsviri incəsənətdə istiqamət, dekorativ məqsədlər üçün optik xətt və rəng effektlərindən istifadə edilir.
**OPERAND** – 1. Üzərində əməliyyat aparılan obyektdir; 2. Üzərində əməliyyat aparılan obyekti müəyyən edən maşın əmrinin bir hissəsi. 3. Hesablama proqramlarının yerinə yetirilməsinin gedişində EHM-lə həyata keçirilən əməliyyatların obyektidir.
**OPERASİONALİST** – 1. Operasionalizmin davamçısı. 2. Operasionalizmin nümayəndəsi. 3. Əməliyyatların icra edilməsində fəaliyyət göstərən bank qulluqçusu.
**OPERASİONALİZM** – Müasir fəlsəfədə istiqamət, neopozitivizm forması, İngilis-Amerikan fiziki P.Bridjmenın təqdim etmələrinə əsaslanan, obyektiv həqiqətin əks edilməsi kimi elmi anlayışlara baxmır, amma müxtəlif əməliyyatlar (ölçülər, hesablar və s.) nəticəsində yaranan məntiqi qurmalar kimi baxılır.
**OPİUM** – Xaşxaş bitkisinin kal toxumlarının qurudulmuş şirəsindən hazırlanan narkotik maddə.
**OPTASİYA** – Başqa dövlətin vətəndaşlığına keçmə hüququ.
**OPTİK DİSK –** Lazer şüasının köməyi ilə informasiyanın yazılışı və hesablanması üçün vasitə.
**OPTİMALLAŞDIRMA** – 1. Bir çox mümkün variantdan optimal variantın seçimi; mümkün variantlardan ən yaxşısının və ya müəyyən funksiyanın ekstremunun tapılması. Plan tutarkən, layihə qurarkən, müəyyən prosesi idarə edərkən və s. meydana çıxır; məsələn, *idarənin prosesinin optimallaşdırması*. 2. Sistemin xarakteristikalarının yararlaşdırılması.
**OPTİMETR** – Nisbi üsulla dəqiq xətti ölçmələr aparmaq üçün cihaz.
**ORDİNARİST** – Komandirin yanında və ya ştabda onların tapşırıqlarını (əsasən, rabitə işləri və əmrlərin ötürülməsi) yerinə yetirmək üçün hərbi qulluqçu.

**ORFOTON** – Sözün söyləndiyi şəraitdən asılı olmayaraq öz prosodik xüsusiyyətlərini saxlaması.

**ORQTEXNİKA –** Müəssisə və təşkilatlarda sənədlərin qeydiyyatı, planlaşdırılması, analizi və hazırlaşdırılması işinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasında istifadə olunan texniki vasitələrin məcmusu.

**ORİQAMİ** – "Kağız qatlama" sənəti; kvadrat formalı rəngli kağızları kəsmədən və yapışqan işlətmədən qatlayaraq müxtəlif fiqurlar düzəltmək. Oriqami klassik və modulyar olmaqla iki yerə bölünür. Klassik oriqamidə bir qayda olaraq bir kağızdan istifadə olunur. Modulyar oriqami isə oxşar hissələrin bir-birinə birləşdirilməsi nəticəsində yaranır.

**ORTOREKSİYA** – Qida nasazlığının növü. Düzgün qidalanmağa çalışmaq (yalnız sağlam qida yemək). Bu nasazlıq düzgün qidalanmaq istəyən və bu ideyanı absurd həddə çatdıran insanlarda baş verir.

**OSSİLYATOR** – Qövsün davamlı yanması üçün təyin olunan elektrik aparatı.

**OVASİYA** – Sürəkli alqışlar, həyəcanın, bəyənmənin və coşqunluqla qarşılanmanın ifadəsi.

**OVERBOT** – Müəyyən zaman ərzində bazarda məhsulun, aktivin daxil olması (məqsədli və ya məqsədsiz şəkildə), yaxud yüksək tələb nəticəsində qiymətin ciddi şəkildə qalxması vəziyyəti. Bu ifadə daha çox qiymətli kağızlar bazarında işlədilir.

**OVERDRAFT** – Müştəri tərəfindən bankda olan özünəməxsus kredit qalığından artıq həcmdə vəsait göstərməklə kredit həddini aşması vəziyyəti. Overdraft zamanı, adətən, heç bir rəsmi kredit müqaviləsi tələb olunmadan bank müştərisi qısamüddətli bank kreditlərindən istifadə etmək imkanına malik olur.

**OVERLEY** – Maşın proqramının daxili yaddaşda daim saxlanılmayan bir hissəsi (seqmenti).

**OVERNAYT** – 1. Növbəti bank günü ödənilməli olan banklararası qısamüddətli kredit müqaviləsi 2. Kontrakt günündən sonrakı birinci iş günü həyata keçirilmiş xarici valyuta mübadiləsi üzrə əməliyyat. 3. Bir iş günü ərzində aparılmış maliyyə əməliyyatı. Hesabatlarda overnayt, adətən, **ON** kimi ifadə olunur.
**OVERSOLD** – Bazara qısa zaman ərzində böyük həcmdə məhsulun, aktivin daxil olması, dolması nəticəsində qiymətin ciddi şəkildə düşməsi vəziyyəti. Bu ifadə daha çox qiymətli kağızlar bazarında işlədilir.
**OVERTAYM** – 1. İş vaxtından artıq vaxt. 2. Qeyri-iş vaxtında yükləmə-boşaltma əməliyyatlarının daha yüksək tariflə keçirilməsi. 3. Gəminin yüklənməsinə və ya boşaldılmasına sərf olunmuş iş vaxtından artıq vaxt (bayram və istirahət günləri, fasilə vaxtı və s.).
**OXLOFOBİYA** – Camaatdan qorxu.
**OXLOKRATİYA** – Xalq hakimiyyəti; ən primitiv variantlarda populist meyilli ictimai-siyasi qrupların hakimiyyəti.
**OZONOTERAPİYA** – Tibbi ozonun köməyi ilə müalicə üsulu.

## -Ö-

**ÖDÜL** – İctimai və yaradıcı fəaliyyətin müxtəlif sahələrində xüsusi xidmətlərə və əldə edilmiş parlaq nailiyyətlərə görə verilən mükafat.
**ÖKÜZ SPREDİ** – Qiymətlər arasındakı fərqdən mənfəət əldə etmək məqsədilə kontraktın yaxın aylar üçün alınıb, vaxtını uzadaraq satılması.
**ÖZƏLLƏŞDİRMƏ** - İstehsal vasitələrinin, əmlakın, mənzillərin, torpağın, təbii resursların dövlət mülkiyyətindən çıxarıl-

ması. Dövlət mülkiyyəti obyektlərinin kollektivlərə və fərdi şəxslərə satılması, yaxud əvəzsiz verilməsi vasitəsilə keçirilir.

**ÖZGƏNİNKİLƏŞDİRMƏ** – Bir şəxsə məxsus torpağın, əmlakın başqa şəxsin mülkiyyətinə verilməsi. Özgəninkiləşdirmə, əsasən, ilk sahibin istəyi ilə əmlakı alan şəxslə bağlanılan müqavilə üzrə, yaxud məhkəmənin qərarı ilə məcburi qaydada (müsadirə) baş verir. Özgəninkiləşdirmə əvəzli, müəyyən vəsaiti ödəməklə, yaxud əvəzsiz bağışlanma şəklində keçirilə bilər.

**ÖZÜNÜİDARƏETMƏ –** Müəssisənin idarəedilməsi üsulu, qaydası. Bu zaman əsas idarəetmə funksiyalarını müəssisənin özü, heç bir xarici müdaxilə olmadan yerinə yetirir.

**ÖZÜNÜMALİYYƏLƏŞDİRMƏ –** Müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin həm cari xərclərin, həm kapital qoyuluşlarının, həmçinin cari dövr xərclərinin şəxsi mənbələrdən ödənildiyi tərzdə həyata keçirilməsi.

**ÖZÜNÜSIĞORTA –** Sığorta edilən tərəfindən müntəzəm pul ayırmaları hesabına yaratdığı şəxsi sığorta (ehtiyat) fondlarının yaradılması.

**ÖZÜNÜTƏNZİMLƏMƏ** – İqtisadi sistemdə istənilən fəaliyyət qaydasının avtomatik təmin edilməsinə imkan verən ünsürlərin, əlamətlərin mövcudluğu.

**ÖZÜTUŞLANAN** – Yeni çıxan proqram məhsullarını tezliklə almaq istəyi olan istifadəçi.

**ÖZXƏRCİNİ ÖDƏMƏ** – Müəssisə xərclərinin onun gəlirləri hesabına ödənilməsi ilə səciyyələnən təsərrüfatçılıq prinsipi, müəssisə maliyyəsinin vəziyyəti. Özxərcini ödəmə kommersiya hesabının başlıca prinsipi, əsas şərtidir.

**-P-**

**PAKT** – Qarşılıqlı və kollektiv təhlükəsizliyin, qarşılıqlı köməyin və s. təmin edilməsi, yaxud dövlətlərin əməkdaşlığının konkret şərtləri üçün mühüm əhəmiyyət kəsb edən norma və prinsiplərin müəyyən edilməsi kimi məsələləri nizamlayan beynəlxalq ikitərəfli və çoxtərəfli müqavilələrə verilən ad.
**PAKET** – Şəbəkə səviyyəsi hüdudlarında rabitə qurğuları arasında məlumatların ötürülməsinin əsas bloku.
**PAKET TELEFON –** İnternet şəbəkəsi üzərində real zamanda danışıq siqnallarının ötürülməsinə əsaslanan texnologiyalar. İP şəbəkəsi ilə telefon şəbəkəsi bir-birinə (telefon çağırışlarını İP ünvana çevirən) şlüz vasitəsi ilə qoşulur. Bu şlüzü idarə edən qurğu "gatekeeper" adlanır.
**PALİTRA –** Rəsm proqramlarında istifadə olunan rənglərin məcmusu. Bir qayda olaraq, ekrana 256 rəngdən yalnız 16 rəng çıxarılır. Qalan rəngləri rəngin nömrəsini daxil etməklə ekrana çıxartmaq olar.
**PALLET** – İki tamasaya (plankaya) vurulmuş platforma və ya döşənək. Əsas yüklərin yüklədilib-boşaldılmasını sürətləndirmək və ucuzlaşdırmaq məqsədi ilə onların birləşdirilərək iriləşdirilməsinə imkan verir.
**PALLET VAHİDİ** – Qablaşdırılmış malların həcmi. Yaxşı olar ki, onlar steallajlarda asan yerləşdirilsin və çəngəlli qaldırıcı, yaxud qollu paket vasitəsilə daşınması mümkün olsun.
**PALLETLƏR PARKI** – Standart ölçülü palletlərin cəmidir.
**PANEL** – Mütəxəssislər qrupu.
**PANORAMA** – 1. Yüksəklikdən tam görünən məkan; ümumi mənzərə, görünüş. 2. Televiziya və kinoda çəkiliş üsullarından biri.

**PANXRONİYA** – Dil hadisələrinin bütün zamanlara, zamandan xaric, fövqəl zaman, universal, ümumilikdə insan dilinə xas olduğunu iddia edən yanaşma.
**PARADİQM** – Söz formalarının bir-birinə qarşı duran müəyyən çoxluğu, yəni söz formaları bir bütöv daxilində qarşılıqlı münasibətdə olurlar, bu formalar şəkilçi dəyişmələri ilə bütövlükdə yeni məna kəsb edir.
**PARADİQMA SIRASI –** Konkret leksik vahidin söz dəyişmə formasının cəmi, konkret təşkil edən, söz forması cəmi.
**PARADİQMATİKA** – Dil vahidlərinə dil sisteminin şaquli vəziyyətdə bir-birini əvəz edə bilən elementlər kimi yanaşma.
**PARADOKS** – Bir məsələyə münasibətdə hamının qəbul etmiş olduğu nöqteyi-nəzərdən kəskin fərqlənən (çox vaxt zahirən) gözlənilməz mühakimə, fikir, davranış.
**PARAFRAZA** – Neyrolinqvistika afatiklərin və dil xətaları olan uşaqların danışıq fəaliyyətinin göstəricisi. Ənənəvi olaraq parafrazanın aşağıdakı növləri fərqləndirilir: a) fonematik parafraza-samitlərdən biri və ya bir qrupu tələffüz olunmur. (stol) əvəzinə (tol); b) qonşuluqda və ya məsafəcə aralı yerləşən səslərin təsiri.
**PARAQRAMATİZM** – Neyrolinqvistikada mənimsənilmiş dil yayınması, morfoloji və ya sintaktik əlaqənin pozulması.
**PARALALİYA** – Dislaliyanın xüsusi forması. Bu zaman bir səs sistemlilik olaraq başqa səslə əvəz edilir.
**PARALEL PORT** – Kompüterin arxa panelində printer, skaner və xarici disk qurğusu qoşmaq üçün giriş yeri.
**PARANTEZ** – Cümlənin tərkibinə daxil edilən kiçik vahidlər. Adətən, belə vahidlərin tərkibinə daxil olduğu cümlə ilə heç bir qrammatik əlaqəsi olmur.
**PARAXRONİZM** – Baş verdiyi tarixi daha gec vaxta istinad etməkdən ibarət olan xronoloji səhv.

**PAREZ** – Natamam iflic, bədənin müəyyən funksiya daşıyan hissəsinin zəifləməsi.
**PARİTET** – Geniş mənada bərabərlik; eyni vəziyyətli tərəflərin bərabərliyi.
**PARKİNQ** – Avtomobillərin dayanacağı üçün xüsusi olaraq təchiz edilmiş yer.
**PARNOMAZİYA** – Səslənməsinə, səs tərkibinə oxşar, ancaq etimoloji  və semantik cəhətdən fərqli sözlərin işlədilməsindən ibarət ritorik fiqur.
**PAROL** –  1. Verilənlərin, yaxud proqrama daxil olmaq üçün istifadəçinin sistemə təqdim etdiyi işarələr (söz). 2. Parol verilənləri və proqramları sanksiyalaşdırılmamış daxil olmasından qoruyur. Şəbəkədə işləməkdən ötrü istifadəçinin identifikasiyası üçün şifrə.
**PAROLA GÖRƏ İDENTİFİKASİYA –** İstifadəçinin yalnız sistemdə saxlanılan (nüsxəsi) parola görə identifikasiya edən prosedura. Bu prosedurada istifadəçinin şəbəkə resurslarından istifadə etmək hüququ və istifadə həddi müəyyən edilir.
**PARONİMİK ATTRAKSİYA** –  Paronimlərdən birinin digərinin əvəzinə işlədilməsi.
**PARSEL** – Kiçik həcmlərdə su nəqliyyatı ilə göndərilən qiymətli yüklər.  Adətən, qeyri-ticari xarakterli yüklərə aid olunur (reklam materialları, suvenirlər və sair). Parsel yüklərin yükgöndərən tərəfindən göstərilən dəyəri onların tam maya dəyərindən aşağı olmamalıdır.
**PARTER** – İdmanda rəqibinin fəndinə məruz qalan pəhləvanın diz çöküb, əllərini və ya dirsəklərini xalça üzərinə qoyması vəziyyəti.
**PARTOKRATİYA** – 1. Siyasi, qanunverici və icraçı hakimiyyətin bir partiyaya tabe olduğu siyasi quruluş. 2. Partiyada və ölkədə siyasi hakimiyyəti öz əlində cəmləşdirən partiyanın bürokrat təbəqəsi.

**PATİOS** – Dialektin primitiv, sırf sosial münasibətlərlə məhdudlaşan ifadəsi, mənanın zəifləməsini göstərən dialekt ifadəsi.

**PAUPER** – Yaşamaq, mövcud olmaq üçün vəsaitləri olmayan, çox kasıb adam.

**PAUZA –** Növbəti verilənlər qrupunun terminalda əks etdirilməsi prosesində yaranmış fasilə. Bir qayda olaraq, istənilən klavişin basılması ilə prosesi davam etdirmək mümkündür.

**PAYLOT-FİLM** – Təklif olunan filmin süjeti və personajları haqqında təsəvvür yaradan reklam roliki.

**PEDANT** – Hər şeyə irad tutan, yalnız müəyyən edilmiş qaydalara əməl olunmasını tələb edən müəllim, himayəçi, usta.

**PEDAQOJİ İNNOVASİYA –** Təhsil müəssisələrində, pedoqoji nəzəriyyələrdə, müəllim və şagirdlərin fəaliyyətində, təlim-tərbiyənin məzmun, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə, bütövlükdə pedoqoji sistemdə baş verən yeniliklərdir.

**PEQQİNQ –** Hər hansı bir element üçün verilmiş material tələbləri yaradan ana məlumatların təyin edilməsi prosesi; verilmiş məhsul üçün ümumi tələbin və ya məhdudiyyətlərin mənbəyi barədə təfərrüatlı məlumatları əks etdirir.

**PENİTENSİAR** – Bir sıra ölkələrdə məhbəs, həbsxana tipli islah müəssisəsi.

**PENOPLAST** – Hədsiz çoxlu məsamələri olan plastik kütlə.

**PENYA** – Pul öhdəliklərinin vaxtında yerinə yetirilməməsinə görə sanksiya.

**PERFOKART** – Fərdi kompüterlər meydana çıxana qədər informasiyanın kağız daşıyıcısı.

**PERFOKARTOTEKA** – Kodlaşdırılmış perfokartlardan ibarət kartoteka.

**PERFORMANS** – 1. Mətni olmayan, bəzi hallarda isə tamaşaçının özlərinin iştirakı ilə keçirilən teatr improvizasiyası. 2. Rəssamlıqda "canlı" əlavələrdən istifadə edən istiqamət, az anlaşılan, üzərinə izahat lövhəcikləri vurulan rəsmlərin işlənməsi.

**PERİFERİYA** – 1. Əyalət, ucqar, mərkəzdən uzaq yer. 2. Riyaziyyatda həndəsi fiqurun sərhədi. 3. Bədənin ətraf üzvləri.

**PERİFERİYA QURĞUSU –** 1. Mərkəzləşdirilmiş idarəetmə sistemlərində uzaq obyekt. Bu obyektlə rabitə yalnız şəbəkə vasitəsilə həyata keçirilir. Belə obyektlər mərkəzi obyektə nəzərən xarici (periferiya) obyekti adlanır. 2. Kompüterə xüsusi kabellə birləşdirilən aparat vasitələri. Məsələn, printer, monitor, terminal və s.

**PERİNATAL** – Uşaq hələ ana bətnində ikən onun sağlamlığına nəzarət etmək;

**PERLOKUSİYA –** Nitq aktının nitqdən kənar nəticələr ilə əlaqəsi.

**PERMANSİV** – 1. Semit dillərində hərəkətin daimiliyini göstərən tərz. 2. Hazırkı vəziyyəti əvvəllər icra olunmuş hərəkətin nəticəsi kimi təsvir edən kateqorial hal forması.

**PERMUTASİYA** – 1. Danışıqda ünsürlərin bir-birini qarşılıqlı tərzdə əvəz etməsi, ünsürlərin qarşılıqlı sintaqmatik əvəzetmələri. 2. Generativ transformasional qrammatikada iki mərhələli mürəkkəb formal əməliyyat. Bu zaman bir element silinir və başqa bir yerə əlavə edilir.

**PERSEPSİYA –** Duyğu orqanları ilə gerçəkliyin qavranılması. Kommunikasiya aktında əsasən görmə və eşitmə persepsiyası fərqləndirilir.

**PERSONA QRATA –** Diplomatik praktikada işlədilən termin. Arzu olunan və ya etibar edilən şəxs, bir dövlətə diplomatik

nümayəndə təyin olunmaq üçün namizədliyi həmin dövlətin hökuməti tərəfindən bəyənilən, qəbul edilən şəxs.

**PERTİNENT** – Dil vahidlərini fərqləndirməyə xidmət edən. Relevantlığın eyni. Müəyyən dildə dil vahidlərinin intellektual mənalarını fərqləndirə bilən səs qarşılaşmaları (fonoloji, distinktiv, relevant).

**PEŞƏ STANDARTI** – Peşəkarlıq ixtisas dərəcəsi tərəfindən biliklərə, bacarıqlara, vərdişlərə, təcrübəyə, dəyərlər sisteminə və fərdi keyfiyyətlərə olan tələbləri müəyyənləşdirən sənəddir.

**PETABAYT** – Yaddaşın tutumunu ölçmə vahidi, bir milyon qiqabayt. Petabaytlar telekommunikasiyada videoarxivlər üçün yaradılır.

**PETİSİYA** – Ali hakimiyyət orqanlarına ünvanlanan kollektiv xahiş, müraciət və ya etiraz məktubu.

**PEYCER –** Maye kristal displey və antenası olan fərdi çağırışı qəbul edən kiçik ölçülü qəbuledici. Mobil telefondan fərqli olaraq peycerdə məlumatı yalnız yazılı mətn şəklində göndərmək mümkündür. Bu qəbuledici yalnız qısa həcmli mətn məlumatları qəbul edir. Mobil rabitənin inkişafı ilə əlaqədar peycer rabitəsi öz əhəmiyyətini itirmişdir.

**PEYKLƏ İNTERNET –** Peyk kanalları ilə internetə alternativ qoşulma imkanlığı yaradan sistemlər. Hal-hazırda çoxlu rabitə peykləri sistemində internetə interaktiv qoşulma imkanları təmin edilir.

**PİAR** – Hansısa təşkilat, lider və onun işi haqqında müsbət rəy və imic formalaşdırmaqdan ibarət olan fəaliyyət növü. ***Qara piar*** – hansısa tanınmış şəxsə, ictimai xadimə, müəyyən bir işə, layihə və ya quruma qarşı qərəzli olaraq mənfi fikrin formalaşdırılması.

**PİKANT** – 1. Tünd, kəskin dad verən, ədviyyat. 2. Maraq oyadan, cəzb edən; xüsusi maraq doğuran.

**PİKET** – 1. Çox da böyük olmayan mühafizəçilər dəstəsi. 2. Hər hansı ictimai hadisə və ya problemlə bağlı bir qrup şəxsin kiçik dəstələr formasında etiraz bildirməsi. 3. Geodeziya işləri zamanı yerə vurulan nömrəli payalar. 4. Köhnə kart oyunu.

**PİKOSELL -** 10÷100 metr kiçik radiuslu ərazidə fəaliyyət göstərən məftilsiz mobil şəbəkə. Əhali daha çox olan yerlərdə (məsələn, supermarket, vağzallar və s.) belə şəbəkələr qurulur.

**PİKSEL –** Şəklin əsas ünvan elementi və ekranda nöqtə. Bu termin "picture element" söz birləşməsindən yaranıb.

**PİK-TAYM** – Auditoriyanın ekran qarşısına toplandığı ən yaxşı vaxt, radio və TV reklamını nümayiş etdirməyin ən münasib vaxtı.

**PİKTOQRAM** – 1. Hər hansı icra olunan fəaliyyətin seçilməsi üçün ekranda kiçik həcmli təsvir. Məsələn, zibil yeşiyini təsvir edən piktoqram. Kursorun bir piktoqram üzərində yerləşdirilməsi, yaxud Return və ya Enter klavişinin basılması, ekranda yerləşən fayl bağlanır, yaxud məhv edilir. 2. Microsoft Windows nişanı. Windows-da fayllar üzərində işi yüngülləşdirən çox mühüm element. Piktoqram sənədin tipi haqqında çox mühüm informasiya və genişlənmə funksiyasını daşıyır.

**PİLOT SİQNAL –** 1. Adətən, sinxronizasiya üçün istifadə edilən və aparıcı tezlikdə şüalandırılan modulyasiya edilməmiş siqnal. 2. Tezliyə görə sıxlaşdırılmış kanallarda avtomatik səviyyə tənzimlənməsi üçün etalon səviyyəli nəzarət tonal siqnalı qruppalı siqnalın tərkibinə daxil edilir. (Bu halda hər qruppanın daxilinə nəzarət etalon siqnalı daxil edilir). 3. Genişzolaqlı rejimdə pilot siqnalı fasiləsiz şüalanır (yayımlanır) və baza stansiyası ərazisində bütün mobil stansiyalar onu qəbul edir. Məhz pilot siqnalı vasitəsilə kadr sinxronlaşdırılması baş verir və aparıcı tezlik bərpa olunur. Pilot siqnalın tərkibində stansiya axtarışını sürətləndirmək üçün əlavə məlumat da daxil edilə bilər.

**PİN-KOD** – Müştərinin bankdan əldə etdiyi və gizli saxladığı, bankomat üçün təyin edilmiş plastik kartın xüsusi kodu.

**PİNTA** – Ticarət əməliyyatlarında istifadə edilən qeyri-metrik ölçüdür. Bu ölçü Böyük Britaniyada aşağıdakı kimidir: imperiya (yeni) pintası – 0,568 litr, köhnə böyük pinta - 0,551 litr, köhnə kiçik pinta – 0,473 litr; ABŞ-da pinta aşağıdakı kimidir: şərab və məhsullar üçün – 0,473 litr, mis üçün – 0,680 kq, zeytun yağı üçün – 0,431 kq, dənəvər maddələr üçün – 0,551 litr.

**PİRAMİDA** – Maliyyə şirkətlərinin tətbiq etdiyi, asan qazanc əldə etmək üsulu. Mahiyyəti ondan ibarətdir ki, bura cəlb edilən və "piramida"nın aşağı təbəqəsini təşkil edən insanlara özünün qiymətli kağızlarının satışından əldə edilən vəsaitlərin bir hissəsini ( şirkət onun qiymətli kağızlarını nisbətən əvvəl alan "piramidanın" daha yüksək təbəqəsini təşkil edən insanlara) dividentlərin ödənilməsinə, qismən hədsiz reklama sərf edir, qalan hissəsi isə şirkətin gəlirini formalaşdırır. "Piramida" gec-tez dağılmağa məruz qalır. Bu zaman "piramidanın" alt təbəqələri öz qoyuluşlarını itirir. Bir çox ölkələrin qanunvericiliyi "piramidaların" yaradılmasını qadağan edir.

**PİRAT** – Hansısa əsərin (daha çox bədii ədəbiyyat, dərslik və musiqi) müəllifin və ya onu təmsil edən şəxsin icazəsi olmadan qazanc götürmək məqsədi ilə oğurluq çap edilərək yayılması.

**PİRİNQ** – İnternet provayderlər arasında trafikin mübadiləsi haqqında anlaşma.

**PİRSİNQ** – Bədənin müxtəlif yerlərini iynə, sancaq və ya buna bənzər alətlərlə deşərək həmin yerə üzük, sırğa və s. bərkitmək.

**PLANŞET** – 1. Üzərində iri çertyoj kağızlarını işləmək üçün dördbucaq taxta lövhə. 2. Kiçikölçülü, çoxfunksiyalı, noutbuk və netbukdan fərqli olaraq qatlanmayan kompüter.

**PLASDARM** – 1. Hərbi əməliyyatların hazırlanması və genişləndirilməsi üçün seçilmiş ərazi. 2. Bir dövlətin ərazisini başqa dövlətə hücum üçün meydana çevirmək, oraya canlı qüvvə və hərbi texnika yerləşdirmək.

**PLATA –** Kompüterdə qəbul edilmiş verilənlərin işlənilməsini təmin edən əsas hissə. Elektron komponentləri olan dəyişən panel.

**PLATFORMA –** İnterfeys və protokolların köməyi ilə proqram və aparat vasitələrinin vahid kompleksi bazasında hazırlanmış müxtəlif sahələrdə tətbiq edilmiş sistem.

**PLEREMATİKA -** Qlossematikanın bir bölməsi olub, məzmun formasının quruluşunu öyrənir.

**PLEYBOY** – İdmanla maraqlanan, özü üçün yaşayan varlı və imkanlı gənc.

**PLEYER** – Multimedia fayllarını işə salan proqram və ya avadanlıq. Yazılmış səsin, yaxud təsvirin canlandırılması üçün qurğu.

**PLEY-OFF** – İngilis sözü olub, idman yarışlarında mərhələnin adını bildirir.

**PLOZİYA** – Kipləşən-partlayışlı samitlərin tələffüz məxrəci. Burada əvvəlcə kipləşmə, sonra isə hava axınının təzyiqi nəticəsində kipləşmə partlayışa keçir.

**PLUSTEK KOMPANİYASI** – Skaner istehsalçısı və ona məxsus ticarət markası.

**POÇT BOMBASI** – Poçt hücumu. Diski doldurmaq səbəbi ilə rəqiblər tərəfindən elektron ünvana göndərilən nəhəng ölçülü fayllar.

**POÇTMEYSTER** – İnternetdə poçtla məşğul olan administrator.

**PODİUM** – 1. Heykəltəraş və rəssamların işləməsi üçün hündür yer; 2. Qədim Roma sərdabələrində meyitin külü tökülmüş qabları qoymaq üçün yer. 3. Amfiteatr boyunca balkon.

**PODKAST** – Audio-materiallara (əsasən, musiqi və radio materiallara audio-podkast) MP3 formatda abunə.

**PODKEÇER** – Podkastları (abunələri) internetdən avtomatik endirməyə imkan yaradan proqram.

**POLİFONİK SƏSLİ** – Müasir mobil telefonlarda müxtəlif ritmli, zəngin assonansları olan səsləri çıxarmağa imkan verən səs sistemi.

**POLİNDROM –** Əksinə oxuyanda da (sonundan əvvəlinə doğru) ədədi qiyməti dəyişməyən kod kombinasiyası.

**POLİPTOT -** Eyni sözün eyni tərkibdə müxtəlif hallarda işlədilməsindən ibarət paronomaziya növü.

**POPPURİ** – Populyar mahnı və rəqs melodiyalarından tərtib edilən musiqi nömrəsi; bir neçə mahnının dayanmadan, bir-birinə qarışdırılıb ifa olunması.

**PORT –** 1. Qurğuda çox mərtəbəli giriş və ya çıxış yuvası. 2. İki prosesin qarşılıqlı əlaqəli nöqtəsi. 3. Məntiqi kanalın sonu.

**PORTAL –** 1.Veb-sayt. İnternet kütləvi istifadəçilərə kompleks xidmətləri göstərmək üçün mühüm vasitədir. 2. İnteqrasiya olunmuş informasiyaya malik veb-səhifələr.

**PORTATİV** – Fərdi kompüter, noutbok-kompüter. Stolüstü və cib fərdi kompüterlərarası kompüter.

**PORTYE** – Mehmanxana xidmətçisi; qapıçı, açarları saxlayan, poçtu qəbul edən və s. işləri görən şəxs.

**POSTERİZASİYA** – Təsvirin məhdud miqdar rənglərlə örtülməsi. Bədii fotoqrafiyada və dizaynda istifadə olunur.

**POSTFAKTUM** – Bir şey baş verdikdən sonra; proses, hadisə bitdikdən sonra.

**POZİSİONERLƏR** – Məmulatı qaynaqlamaq üçün əlverişli vəziyyətə gətirən mexaniki avadanlıqlar.

**PRAYM-TAYM** – Televiziya verilişlərinə baxmaq üçün tamaşaçıların ekran qarşısına toplandığı ən gur vaxt.

**PRAYS-LİST** – Hansısa firma, ticarət müəssisənin təklif etdiyi məhsulun texniki xarakteristikası.

**PREAMBULA** – 1. *Hüq*. Qanunvericilik aktının, yaxud digər hüquqi aktın giriş hissəsi. 2. Başlanğıc hissə. Məlumatın başlanğıc hissəsinin tərkibinə ötürücü və qəbuledicinin ünvanları və ya birləşmənin yaradılması üçün verilənlər daxildir.

**PREFAKSİYA** – İmtiyazlı səhmlərin növü.

**PREFERENSİYA** – Müəyyən dövlətin başqa ölkənin bütün, yaxud bəzi mallar üçün müəyyən etdiyi xüsusi güzəştlər.

**PREFİKS** – 1. Endirilməsi və ya qaldırılması mümkün olmayan müəyyən qiymət. 2. Ölkənin və ya ölkə daxili şəhərin (regionun) telefon nömrəsini göstərən kod. Məsələn, Bakselin kodu “55” Azerselin kodu – “50” və s.

**PREFİSİT** – Gəlirlərin xərclərdən üstün olması.

**PRESSİNQ** – Bəzi idman oyunlarında aktiv müdafiə və uduş taktikası.

**PRESS-RELİZ –** Xüsusi olaraq mətbuat üçün hazırlanmış məlumat, informasiya.

**PRESUPPOZİSİYA (ÖNMÖVQE) –** 1. Cümlənin məna komponentidir ki, o cümlənin məna cəhətdən qeyri-konkret qəbul edilməməsi üçün həqiqi, doğru olmalıdır. 2. Kommunikantın həyat təcrübəsi nəticəsində yaranan həcm kompetensiyasının sabitliyi olub, özünə nitq situasiyasının şəraitini də əlavə edir. Presuppozisiya, həm də kommunikasiyanın digər iştirakçılarının presuppozisiyası haqqında təsəvvürləri də birləşdirir. Onun məzmunu əksər hallarda şəxsiyyətin milli-mədəni keyfiyyətlərindən asılıdır.

**PRETENZİYA** – Tərəflərin hüquqi münasibətlərindən yaranan və bir tərəfin digər tərəfə qarşı irəli sürdüyü tələb. Daşıyıcının əmlak məsuliyyəti üçün əsas sayıla biləcək səbəblər müəyyən ölkənin limanında mövcud olan qaydalarla və adətlərlə təsdiqlənir.

**PREYUDİSİYA** – Yoxlamadan və sübut etmədən qəbul etmək vəzifəsi.

**PREZENTASİYA (TƏQDİMAT)** – 1. Təqdim etmək, köçürmə vekselinin ödənişi gerçəkləşdirməli olan şəxsə təqdim olunması. 2. İctimai maraq doğuran hansısa yeniliyin təqdim edilməsi.

**PRİNTER –** Kağız üzərində mətnin və ya təsvirin çap edilməsi üçün istifadə edilən qurğu. EHM-in çap qurğusu.

**PRİNTER PORTU** – Çap qurğusuna məlumatların ötürülmə portu.

**PRİNTER YADDAŞI –** Printerdə bufer kimi işarənin yaradılması üçün istifadə olunan yaddaş.

**PRİORİTET** – Hər hansı fəaliyyətdə əsas və vacib olan; önəmli.

**PRİORİTET İDARƏETMƏ –** Planın yerinə yetirilməsi məqsədilə görüləcək işlərin başlanğıc və tamamlama tarixləri barədə məlumatların istehsalat bölməsinə ötürülməsi prosesidir.

**PRİORİTET PLANLAŞDIRMA –** Fəaliyyətlərin prioritetləşdirmə əsasında planlaşdırılmasıdır.

**PROAKTİV** – Qabaqlayıcı hərəkətlər. Arzuolunmaz hadisələrdən qaçmaq.

**PROBASİYA** – Bir sıra ölkələrdə təqsirkarın şərti məhkum olunması.

**PRODÜSER** – Yaradıcılıq sahəsində hər hansı layihəni təşkilati və maliyyə baxımından gerçəkləşdirən şəxs; kinokompaniyanın, müğənninin, hər hansı yaradıcı şəxsin etibarlı nümayəndəsi.

**PROFAYL** – Nəşriyyat işləri terminologiyasına görə konkret qurğuların informasiya çıxışının parametrləri olan fayl.

**PROFİSİT BÜDCƏ** – Büdcə mədaxillərinin onun məxaricləri üzərində artırılması.

**PROKSEMA** – Proksemanın emik vahidi, daha doğrusu, ünsiyyətin xarakterinə müvafiq olan kommunikantın ətrafında özünəməxsus kommunikativ aktın iş məkanı keyfiyyətini saxlayan fiziki parametrlərə malik vahid. Daha doğrusu, proksema – bu verbal və qeyri-verbal kommunikativ davranışda məkan realizasiyası fonudur.

**PROKSEMİKA –** İnsan davranışının məkan parametrlərini öyrənən elm sahəsi.

**PROQLET** – Meydana çıxmış problemi aradan qaldırmaq üçün etibarlı kiçik proqram.

**PROQNOSTİK XƏRİTƏ -** Müəyyən müddət, yaxud dövrdə müəyyən yerüstü səth və ya hava məkanının bir hissəsi üçün müəyyən meteoroloji ünsürün proqnozun xəritə üzərində qrafiki təsviri.

**PROQRAM –** 1. Müəyyən alqoritmik tapşırığın icrası məqsədilə verilənlərin emal olunmasını təmin edən sistemin konkret komponentlərinin idarə olunması üçün nəzərdə tutulmuş əməliyyat. 2. Emal olunması üçün nəzərdə tutulmuş komandalar ardıcıllığı.

**PROQRAM TƏMİNATI –** Kompüterdə informasiyanın işlənməsinin təşkili və idarə olunması üçün istifadə olunan proqramlar kompleksi.

**PROQRAM TEXNİKASI –** 1. Proqram təminatının texnikası, proqramların yaradılması, qoruyub saxlanılması, təkmilləşdirilməsi və istifadəsini təmin edən texniki vasitələrin məcmusu. 2. Proqram təminatının işlənməsi və tətbiqinin texnologiyası.

**PROQRAMIN ASILI QALMASI –** Proqramın icrasında əvvəlcədən nəzərə alınmayan dayanma. Belə dayanmanın səbəblərindən biri prosedura qoşulmayan qurğuya müraciətdir.

**PROQRAMLAŞDIRMA –** Hər hansı məsələnin elektron hesablama maşınında həlli üçün proqramın tərtib olunması. Proqramlaşdırmanın mühüm bölməsi avtomatik proqramlaşdırmadır. Bu, hesablayan maşın üçün proqramın tərtib üsullarını öyrənir.

**PROLONQASİYA** – Müqavilənin yerinə yetirilməsi vaxtının, səlahiyyətinin, vəkalətinin və s.-nin qüvvədə olması müddətinin uzadılması.

**PROMPT** – 1. Təcili qaydada bağlanan çarter. 2. Sövdələşmə şərtidir, bu şərtə əsasən mallar ancaq sövdələşmə bağlanıb qurtardıqdan sonra göndərilir.

**PROROQASİYA** – 1. Dövlət başçısının qərarı ilə parlamentin iclaslarının təxirə salınması. 2. Beynəlxalq hüquqda məhkəmə aidiyyətinin müqavilə tərifi.

**PROSEDURA –** Verilən alqoritmə (və ya qaydalara) görə müəyyən əməliyyatların ardıcıllığı.

**PROSESSOR –** 1. Müəyyən ardıcıl komandalar həyata keçirən (informasiyanı analiz və emal edən) xüsusi hesablama qurğusu. 2. Proqramın interpretasiyasını icra edən EHM qurğusu, yaxud funksional hissəsi.

**PROTAZİS** – Psixoloji dilçilikdə ritorik fərqləndirmə üçün gərginlik yaradan (protazis) və gərginliyin açılması (apodozis) mərhələləri bir-birindən fərqləndirilir. Struktur baxımdan protazis tabelilik, apodozis isə tabesizliyə uyğun gəlir.

**PROTEJE** – Kiminsə himayəsində olan şəxs.

**PROTOQRAF** – Mətnşünaslıqda sənədin orijinalı olub, onun sonra köçürülmüş surəti üçün əsas götürülür.

**PROTOTİP FAYLI** – Yeni layihə faylı yaratmaq üçün xüsusiyyətlərə malik şablon.

**PROVAYDER –** Kompüter şəbəkələrinə ayrı-ayrı abonentlərə internet xidməti göstərən təşkilat.

**PSEVDOMƏMULAT–**Layihələndirilmənin planlaşdırılmasının və ya materiallar cədvəli ilə əlaqədar olan fiziki fəaliyyətin yerinə yetirilməsinin asanlaşdırılması məqsədilə, məmulatları qruplaşdırmaq üçün əlaqəli komponentlər dəstinə təhkim edilmiş mövcud olmayan əsas məmulatdır.

**PSEVDOXAKER** – Proqramı sındırmaq istəyən, amma əsl xakerdən fərqli olaraq sındıra bilməyən proqramçı.

**PULİNQ** – 1. Müxtəlif vaxtlarda alınmış qiymətli kağızların qiymətlərinin ortalanması. Reallaşmış kapital artımı vergisinə cəlb edilən məbləğlərin müəyyən edilməsindən ötrü keçirilir. 2. İnvestorların qiymətli kağızlarla əməliyyatlarının cobber hesablarında təmərküzləşməsi.

**PULT –** İdarəetmə və indikasiya vasitələri olan panel. Vəzifəsi – sistemi və ya qurğunu idarə etmək və onların işi üzərində nəzarət aparmaq.

## -R-

**RABAT** – 1. Dəniz yük daşınmasında yük daşıyan şirkətlərin yüklərini yalnız onların gəlirlərində göndərənlər üçün təklif etdikləri tarif güzəşti. Kontrakt və təxirə salınmış tarif güzəştləri tətbiq edilir. 2. Əmtəənin böyük partiyalara buraxılmasında qiymət güzəşti.

**RADAR-** 1.Uzaqdakı əşyaları radio dalğalarının köməyi ilə müəyyən edən cihaz. 2.Nəqliyyatda yol qayda pozuntularını müşahidə etmək üçün quraşdırılmış cihaz.

**RADAR DİSPLEYİ (EKRANI)** – Radar vasitəsilə alınmış və hava gəmisinin yerini və hərəkətini əks etdirən informasiyanın elektron indikasiyası.

**RADAR KONTAKTI -** Əlahiddə hava gəmisinin radar mövqeyinin radarın displeyində (ekranında) görünməsi və tanınması üçün mövcud şəraiti.

**RADAR KURSU –** Naviqasiya yönəldilməsinin təmin edilməsi məqsədilə radar vasitəsilə alınmış informasiya əsasında havada hərəkəti idarəetmə dispetçerinin pilota ötürdüyü maqnit kursu.

**RADAR QRUPU –** Bir və ya daha çox xidməti təmin etmək üçün radar avadanlığından istifadə edilən havada hərəkətə xidmət orqanının tərkib hissəsi.

**RADAR MONİTORİNQİ –** Dispetçer icazələrindən kənara çıxmalar daxil olmaqla, hava gəmisini normal uçuş trayektoriyasından əhəmiyyətli dərəcədə meyl etməsinə aid informasiya və bildiriş ilə təmin etmək məqsədilə radardan istifadə etmə.

**RADİOİNTERFEYS –** İki stansiya arasında radiokanalla rabitə təşkili üçün istifadə olunan protokol və prosedurlar toplusu. Fiziki səviyyədə informasiya verilişi və onun idarəetməsi mexanizmi radiointerfeysin spesifikasında yazılır.

**RADİOPELENQ** – Elektromaqnit dalğaların müəyyən yayılma mənbəyinin görünmə istiqaməti ilə başlanğıc istiqaməti arasında radiopelenqator stansiyası tərəfindən təyin edilən bucaq.

**RADİOPELENQASİYA –** Stansiyanın və ya obyektin istiqamətini müəyyənləşdirmək məqsədilə radiodalğaların qəbulundan istifadə etməklə radiotəyin.

**RADİORELE XƏTTİ –** Ötürücü və qəbuledici stansiyalar dövrəsi. Bu stansiyalar görmə (məsafəsində) məntəqələrində yerləşdirilir.

**RAKORD** – Kino, foto və maqnit lentini bəzi hallarda mexaniki zədələrdən qoruyan və ya tanıtma məlumatlarını əks etdirən sonluq, yaxud lentin sonda burulan hissəsi.

**RAM** – Əməli və ya operativ yaddaş qurğusu – ixtiyari müraciətə malik yaddaş olub, kompüter və digər qurğularda informasiyanın oxunması və yazılmasını təmin edən yaddaş.

**RAMBURS –** (fran. Rembourser – geri qaytarmaq, əvəzini ödəmək) – Bir qayda olaraq alınan əmtəənin bank vasitəsilə dəyərinin ödənilməsi.

**RAMBURSLAMAQ –** Borcları, məsrəfləri qaytarmaq, əvəzini ödəmək; veksel verənin yerinə ödəməni etmək, üçüncü tərəfin borcunu örtmək.

**RANQ –** 1. İpoteka girovlarının təsnifat dərəcəsi. 2. Vəzifəli şəxsin əhəmiyyətinin göstəricisi. 3. Sinif, dərəcə.

**RANTYE -** Əsas gəlir mənbəyi borc verdiyi pul vəsaitləri, yaxud alınmış qiymətli kağızlar üzrə aldığı faiz dərəcələri olan şəxs.

**RANTYE DÖVLƏT –** Verilən kreditlərə və qiymətli kağızlara qoyuluşlardan faiz şəklində gəlir və dividentlər almaq məqsədilə başqa ölkələrdə xeyli kapital qoyuluşları yerləşdirilmiş ölkə. Müasir dünyada ənənəvi güclü dövlətlərdən başqa belə ölkələrə Almaniyanı, İsveçi, Yaponiyanı və “yeni şərq pələnglərini” - Cənubi Koreyanı, Sinqapuru, Tailandı, Honkonqu, Tayvanı aid edirlər.

**RAMBURSPROVAT** – 1. Borcların, xərclərin qaytarılması və ödənilməsi. 2. Borcun üçüncü tərəf vasitəsilə ödənilməsi.

**RASİON** – Gündəlik pay; müəyyən müddətə müəyyən sayda insanların təmsil olunduğu qrup üçün müəyyən edilmiş qida norması.

**RASTR –** Bu nöqtəli elementlər çoxluğu vasitəsilə simvol kağızı daşıyıcısına qeyd olunur və ya displey ekranında təsvir olunur.

**RASTR QRAFİKASI –** Təsvirin mozaik nöqtələr toplusu şəklində verildiyi təsvir. Vektor təsvirindən fərqli olaraq rastr qrafikasında təsviri sərbəst şəkildə böyütmək olmaz, çünki bu əməliyyat görüntünün keyfiyyətinin itirilməsinə səbəb olar.

**RATİFİKASİYA –** 1. Ali dövlət hakimiyyət orqanı tərəfindən dövlətin müvəkkil şəxsinin imzaladığı beynəlxalq müqavilənin

təsdiqləməsi. Bu zaman xüsusi sənəd, yəni ratifikasiya fərmanı tərtib edilir. 2. Maddə, prosedur və ya əməliyyatın siyasət və qanunun tələblərinə uyğunluğunu bəyan etmək və ya təsdiqləmək.

**RATUŞA** – 1. Bir sıra Avropa ölkələrində şəhər özünüidarənin binası; 2. Orta əsrlər Almaniyasının və bəzi digər ölkələrin şəhərlərində özünü idarə orqanı.

**RAUNDTERN -** Əks əməliyyatın keçirilməsi, yaxud konkret maliyyə aktivlərinin, əmtəələrin qəbul edilməsi və ya təqdim edilməsi vasitəsilə uzun, yaxud qısa mövqeyin ləğv edilməsi.

**RAYTS** – Artıq səhmdar və ya abunəçi olan şəxslərə bazardakından aşağı qiymətlə təklif edilən imtiyazlı səhmdar, yaxud istiqrazlar.

**RAZILAŞDIRMA** – Müəyyən məzmunlu sənədin buraxılmasına, protokola, müqaviləyə, ümumi qərarın qəbul edilməsinə, birgə əqdin , birgə işlərin görülməsinə dair maraqlı və məsul şəxslər qrupu arasında ilkin razılığın əldə edilməsi.

**REALORİZASİYA –** Kağız pul nişanlarının nominal üzrə qızıla dəyişdirilməsi bərpası.

**REANİMOBİL** – Hər hansı səbəbdən əziyyət çəkən xəstəyə yüksək ixtisaslı tibbi yardım etmək üçün xüsusi təchiz olunmuş reanimasiya maşını.

**REDAKTƏETMƏ –** Mətn faylları və məlumatları ötürmək məqsədi ilə onların hazırlanması və ya əlverişli formada saxlamaq üçün həmin fayllarda aparılan dəyişikliklər.

**REDEMARKASİYA** – Dövlət sərhədində yox olmuş və ya uçurulmuş sərhəd nişanlarının bərpa edilməsi.

**REDEPORTASİYA** – Vaxtilə yaşayış yerindən zorla çıxarılmış, deportasiya olunmuş şəxslərin və ya milli-etnik qrupların yenidən həmin məkana qaytarılması.

**REEKSPORT -** Əvvəllər xaricdən daşınıb gətirilmiş, lakin bu ölkədə emal edilməmiş, habelə beynəlxalq hərraclarda, əmtəə birjalarında və s. satılmış malların ölkədən daşınması.

**REFAKSİYA –** 1. Əmtəənin keyfiyyətinin aşağı olması, sayının az olması, yaxud xarab olması aşkarlandıqda, satıcının ticarət əqdi bağlanıldıqda əmtəənin topdansatış qiymətindən və ya çəkisindən etdiyi güzəşt. 2. Böyük həcmli yük daşınması zamanı xüsusi razılıq əsasında yük göndərənə verilən tarif güzəşti.

**REFERENDUM (informatikada) –** Dövlət hüququnda konstitusiya, qanunvericilik, yaxud daxili və xarici siyasət məsələlərinə dair qəti qərar qəbul edilməsi üçün seçki korpusuna müraciət.

**REFORM** – İslahat, yenidənqurma, köhnəni dəyişdirmə, yeni sistem yaratma.

**REFLYASİYA** – Deflyasiyanı dayandırmaq və əvvəlki deflyasiyanın nəticələrini aradan qaldırmaq üçün inflyasiyaya əlverişli vasitə kimi baxaraq, geriyə istiqamət götürmək məqsədilə hökumət tərəfindən pul-kredit tənzimləməsinin metodlarından istifadə etmə.

**REFLEKSİYA** – Öz təəssüratını təhlil etmə və yaradıcı təfəkkürün insan psixologiyasında düşünmə prosesinin və dərketmə subyektinin stereotip təcrübəsidir. Bu, yeniliklərin ortaya çıxması üçün vacib şərtdir. Bu mənada refleks innivioativ proseslər və refleksiv-yaradıcılıq bacarıqlarından bəhs etmək olar.

**REGENERATOR –** Veriliş prosesində (xətt traktında) qismən təhfir olunmuş rəqəmli siqnalı bərpa edən qurğu.

**REGİSTRASİYA (informasiya) –** İstifadəçilər haqqında verilənlərin, sistemdəki hadisələr və qurğunun vəziyyəti haqqında məlumatların fayl şəklinə salınması və ya elektron jurnalda registrasiya edilməsi.

**REGİSTR –** 1. Bir neçə yaddaş elementləri toplusu. O yaddaş elementlərinə yazı ümumi idarəetmə siqnalının köməyi ilə yazılır. Faktiki registr az tutumlu yaddaş qurğusudur. 2. Mobil rabitə sistemində abunəçilərin nömrələri, servisləri, abunəçi ünvanları və s. saxlanıldığı baza verilənləri.

**REGİSTRATOR (QEYDEDİCİ) –** Hər hansı fiziki prosesin yaranma vaxtını qeyd edən qurğu.

**REGİONAL QOVŞAQ AEROPORTU** – Bir dövlət və ya bir neçə dövlətdən ibarət regiona xidmət göstərən qovşaq aeroportu.

**REİMPORT** – Xarici ölkədə satılmamış və orada emaldan keçməmiş yerli ixracatçının vətənində istehsal edilmiş malların (əvvəllər ixrac edilmiş, hərraclarda satılmamış, yararsız hesab edilmiş və s.) satın alınması və ölkəyə daşınıb gətirilməsi.

**REİNKARNASİYA –** Qiymətli kağızların müəyyən müddətə başqa formaya (məsələn, qızıl sertifikatların xüsusi təyinatlı qiymətli kağızlara, kuponlu istiqrazları kuponsuz istiqrazlara) çevrilməsi.

**REİNVESTİSİYA** – 1. İnvestisiyadan əldə olunmuş gəlirlərin yeni investisiyalara yönəldilməsi. 2. İnvestisiya fəaliyyətindən, o cümlədən qiymətli kağızlar portfelindən, birbaşa investisiyaya yönəldilmiş layihələrdən və s. istiqamətlərdən əldə olunan mənfəətin, gəlirin, rentanın yenidən investisiya şəklində həmin iqtisadi dövriyyəyə cəlb edilməsi

**REKAMBİO –** 1. Veksel məbləğinin əvəzinin və veksel üzrə faizlərin ödənilməsi haqqında tələb, əks veksel, retratta. 2**.** Əks veksel, retratta, veksel məbləğinin kompensasiyası və veksel üzrə faizlərin ödənişi haqqında tələb.

**REKREDİTİV –** Kreditor tərəfindən borc alan subyektə gələcəkdə açılması nəzərdə tutulan kredit vəsaitinə xitam verilməsi, kredit müqaviləsinin ləğv edilməsi barəsində göndərilən məktub, rəsmi göndəriş. R. kredit məktubunun geri

götürülməsini təsdiq edir. Krediti açan məktubun, sərəncamın qüvvəsini məhv edən məktub, yaxud teleqram.

**REKONFİQURASİYA** – Şəbəkənin texnologiyası və ya topologiyası dəyişiləndə şəbəkə yenidən konfiqurasiya edilir.

**REKONVERSİYA** – Təsərrüfatın hərbi məhsul istehsalından mülki məhsul istehsalına keçirilməsi.

**REKREASİYA** – Qüvvələrin bərpası, istirahət, insanların işdən sərbəst olan vaxtını keçirməsi.

**REKREASİYA XİDMƏTLƏRİ** – İnsanların istirahətinin keçirilməsi, onların qüvvə və sağlamlığının bərpası, sərbəst vaxtın keçirilməsi ilə bağlı xidmətlər. İqtisadiyyatın böyük sahələrindən biridir.

**REKUPERASİYA** – 1. Səhm məzənnəsinin kəskin enməsindən sonra əvvəlki səviyyəsinin bərpa edilməsi. 2. Birjada səhm məzənnələrinin oxunmasının təkrar seansı. 3. Borcun qaytarılması, kreditin ödənilməsi.

**REKVİZİSİYA** – 1. Ölkə qanunvericiliyinə müvafiq şəkildə səlahiyyətli dövlət orqanları tərəfindən ayrı-ayrı hüquqi və ya fiziki şəxslərin mülkiyyətində olan əmlakın əvəzi ödənilməklə müsadirə edilməsi, yaxud müvəqqəti olaraq alınması. 2. Fövqəladə hallarda fiziki və ya hüquqi şəxslərin əmlakının dövlət tərəfindən məcburi qaydada müvəqqəti, yaxud daimi əsasda, onun dəyərini ödəməklə zəbt edilməsi. 3. Ayrı-ayrı vətəndaşların, yaxud hüquqi şəxslərin əmlakının dövlət orqanları tərəfindən əvəzi ödənilməklə məcburən müsadirə edilməsi və ya müvəqqəti olaraq alınması bu səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilir.

**REKVİRENT** – Veksel üzrə öhdəlik daşıyan subyektə protest elan etmək üçün notariat kontoruna müraciət edən şəxs, veksel sahibi.

**REQALİYALAR** – Dövlət nəzdində olan və dövlət gəlirləri mənbəyi olan müəssisələr. Məsələn, poçt, teleqraf.

**REQRES –** 1. Malgöndərən, kreditor və ya debitor borca malik hüquqi və ya fiziki şəxsin borc öhdəliyi daşıyan tərəfə, şəxsə öhdəlik məbləğinin ödənilməsi ilə bağlı təqdim etdiyi tələbnamə. 2. Təşkilatın dağılması, inkişafın səviyyəsinin aşağı düşməsi, durğunluq əlamətlərinə, vaxtı keçmiş forma və strukturlara qayıtmaq əlamətlərinə malik olması; 3. Ödənilmiş məbləğin geri qaytarılması haqqında reqressantın reqressata qarşı irəli sürdüyü tələbi.

**REQRES HÜQUQU** – Fiziki və ya hüquqi şəxsin qanunla və ya müqavilə ilə ona həvalə olunmuş əmlak öhdəliklərinin icrası üzrə eyni öhdəlik, yaxud öhdəliyin yaranmasını şərtləndirən hallar üzrə məsuliyyət daşıyan digər şəxsdən müvafiq ödənişi tələb etmək hüququ.

**REQRES İDDİASI** – Sığortada sığorta orqanlarının zərərçəkmişə verdikləri sığorta ödənişləri məbləğinin əvəzinə vurulmuş zərərə görə məsuliyyət daşıyan şəxsdən tələb etmək hüququ.

**REQRESSANT** – Digər şəxsə qarşı zərərlərin ödənilməsi barədə reqres iddiası irəli sürən şəxs; bu zaman zərərlər dedikdə, birinci şəxsin ikinci şəxsin xeyrinə çəkdiyi zərərlər (məsələn, ikinci şəxsin əvəzinə ödənişləri həyata keçirmişdir və reqressant kimi xərclərin ödənilməsini tələb etmək hüququna malikdir ) başa düşülür.

**RELAKSASİYA -** 1. Hər hansı sistemdə itirilmiş müvazinətin tədricən bərpa olunması prosesi. 2. Tib. Bəzi cərrahiyyə əməliyyatları zamanı əzələlərin süni şəkildə yumşaldılması və tonusu aşağı salmaqla psixi gərginliyin çıxarılması.

**RELEVANT –** Dil vahidlərinin differensiya etmə bacarığı linqvistik vahidlərin fərqləndirilməsi (bir-birindən ayırd edilməsi) üçün xidmət edən, dil üçün ünsiyyət vasitəsi kimi vacib olan;

**RELYEF KLAVİŞ** – Toxunma ilə asan təyin olunan klaviatur klavişi. Professional makinaçılar və korlar üçün klavişlər.

**REMARKETİNQ** – Marketinqin növü olub, əsas vəzifəsi əmtəələrə və xidmətlərə tələbat azaldıqda marketçinin səyinin, tələbatının canlandırılmasına istiqamətləndirilməsidir.

**REMİSSİYA** – Xəstəliyin gedişi prosesində simptomların zəifləməsi (natamam remissiya) və ya yox olması ilə səciyyələnən dövr.

**REMİZA** – Qiymətli kağızların satılması üzrə təcili birja sazişi.

**RENC** – Gəmilərin fraxt edilməsində işlədilən termin; müəyyən limanlar arasındakı sahil zolağı kəsiyini bildirir.

**RENDİT** – Qiymətli kağızların nisbi gərginlik göstəricisi. Aksiyaların renditi ödənilən dividentlərin aksiyaların cari məzənnələrinə nisbəti kimi hesablanır və faizlə ölçülür.

**RENTA GİROVU -** Rentanı nəzərdə tutan, bir qayda olaraq, ipoteka girovu; ilk növbədə bacarığı olmayanlar üçün tətbiq edilir.

**RENTABELLİ** – Xərcləri doğruldan, təsərrüfat nöqteyi-nəzərindən məqsədəuyğun olan.

**RENTABELLİK -** Müəssisənin, yaxud sahibkarlıq fəaliyyətinin səmərəliliyi, mənfəətliyi, gəlirliyi. Rentabellik mənfəətin xərclərə, resurs sərfinə bölünməsi yolu ilə hesablanır.

**RENTİNQ –** Maşın və avadanlığın sonradan almaq hüququ olmadan qısamüddətli icarəyə verilməsi.

**REP** – Ritmik musiqinin, özünəməxsus bədən və əl-qol hərəkətlərinin müşayiəti ilə xüsusi tərzdə ifa olunan şeir.

**REPARTASİYA –** 1. Xaricdə olan milli kapitalın ölkəyə investisiya edilməkdən ötrü qayıtması. 2. İnvestorun xaricdə yatırım etdiyi aktivlərin, qiymətlilərin, yaxud investisiya fəaliyyətində əldə etdiyi mənfəətin, gəlirin öz ölkəsinə qayıtması, qaytarılması. 3. Müəyyən dövlətin başqa dövlətin

əsassız hərəkətlərinə qarşı qəbul etdiyi məcburi tədbirlər (**retorsiyadan** fərqli olaraq).Hərbi əməliyyatlar və s. məcburi şərtlər nəticəsində vətəndən kənarda olan hərbi əsrlərin və mülki şəxslərin, həmçinin vətəndaşlıq hüquqlarının bərpası ilə emiqrantların vətənə (çox vaxt mütəşəkkil) qayıtmasıdır.

**REPİTER –** Baza stansiyasının əhatə dairəsini genişləndirmək və ya kabel sistemində uzaq məsafəyə verilişi təşkil etmək üçün istifadə edilən qəbuledici və verici repiter adlanır. Repiter zəif siqnalları (gücləndirərək) regenerasiya edərək xəttə ötürür.

**REPOZİTAR** – Məlumatlar bazası obyektlərinin anbarı.

**REPRESSALİ** – Bir dövlətin qeyri-qanuni hərəkətlərini dayandırmaq və dəymiş zərərin əvəzini ödəmək (məsələn, gəmisinin xarici limanda qeyri-qanuni tutulub saxlanılmasına cavab olaraq xarici gəminin tutulub saxlanılması) məqsədi ilə digər dövlətin tətbiq etdiyi fərdi sanksiyalar və ya gördüyü məcburi tədbirlər.

**REPTER –** Baza stansiyasının əhatə dairəsini genişləndirmək və ya kabel sistemində uzaq məsafəyə veriliş təşkil etmək üçün istifadə edilən  qəbuledici və verici repter adlanır.

**REPUTASİYA** – Hər hansı şəxsin mənəvi keyfiyyətləri haqqında cəmiyyətdə mövcud olan rəy və təsəvvürlər; şəxsə və ya quruma verilən ictimai qiymət.

**RESELLER** – Topdansatış vasitəçisi. Distribüterlərdən mal alıb – satan.

**RESİDİV** – Müəyyən cinayətə görə əvvəllər məhkum olunmuş şəxsin həmin cinayəti yenidən törətməsi.

**RESİPROSİTİ -** Təkrar sığorta müqavilələrinin yerləşdirilməsi zamanı irəli sürülən adi tələb; bu halda riski ötürən şirkət, adətən, ona əsaslanır ki, təkrar sığortalanması təklif olunan riskin müqabilində ona eyni qarşılıqlı imkan – təkrar sığortanın qarşılıqlı müqavilələrində iştirak etmək imkanı verilməlidir.

**RESEPİSSA -** Əmtəə almaq üçün təqdim edilən vəsiqə, yaxud qəbz.
**RESKONTOR** – Xüsusi şəxslərin hesabını yazmaq üçün mühasibat dəftəri.
**RESPONDENT** – Anket sorğularına cavab verən, üzbəüz və ya telefonla rəyi soruşulan şəxs.
**RESTİTUSİYA –** 1. Bağlanılmış əqd etibarsız sayıldıqda tərəflərin müqavilə əsasında əldə etdiyi pul əmtəələrin qarşılıqlı qaytarılması. Əmtəə resurslarının natural formada qaytarılması mümkün olmadıqda onların dəyəri pul şəklində qaytarılır. Əqdin qanuniliyinin pozulmasında tərəflərdən birinin günahkar olması müəyyən edildikdə restitusiya birtərəfli olur, yəni vəsaitlərin qaytarılması yalnız həmin tərəfə şamil edilir. 2. Müharibə edən dövlətin, düşmənin ərazisindən qanunsuz qəsb edilmiş əmlakın qaytarılması.
**RESTRİKSİYA –** 1. Mərkəzi bankın kommersiya banklarına verdiyi kreditlərin məhdudlaşdırılması. Adətən, bu, müəssisələrə, firmalara verilən kreditlərin azalmasına və nəticədə kapital qoyuluşlarının, məhsul istehsalının azalmasına, iqtisadi artım sürətinin aşağı düşməsinə gətirib çıxarır. 2. İstehsal və satışın inhisarlar tərəfindən əmtəə qiymətlərinin süni qaldırılması və bu yolla əlavə mənfəət əldə edilməsi məqsədilə məhdudlaşdırılması.
**RESTRİKTİV** – İfadə və cümləyə bağlayıcılar (ancaq, yalnız, həm də), zərflər (ən azı, lap aşağısı) və təyin budaq cümlələri vasitəsilə məhdudlaşdırma çalarlığı verən semantik əlamət.
**RETARKETİNQ –** Marketinqin növü olub, əsas vəzifəsi əmtəələrə və xidmətlərə tələbat azaldıqda marketinqin səyinin (cəhdinin) tələbatın canlanmasına istiqamətləndirilməsi.
**RETEYLER** – Məhsulların son istehlakçılara təkrar satışını həyata keçirən və onların üzərində mülkiyyət hüququna malik olan pərakəndə satışıdır.

**RETORSİYA –** Müəyyən dövlətin ona iqtisadi, yaxud mənəvi zərər vuran başqa dövlətin tədbirlərinə cavab olaraq keçirdiyi oxşar məhdudlaşdırıcı tədbirlər. Məsələn, xarici vətəndaşların hüquqlarının məhdudlaşdırılması, həmin dövlətin əmtəələrinə gömrük rüsumlarının qaldırılması. ***Repressaliyadan*** fərqli olaraq, retorsiya başqa dövlətin qanuni tədbirlərinə cavabdır.

**RETRAGENT –** Girov qoyulmuş qiymətli kağızların geri alınması ilə məşğul olan şəxs.

**RETREKTİVLİK –** Qiymətli kağızların əvvəlcədən müəyyən edilmiş şərtlərlə və əvvəlcədən xəbərdarlıq etməklə onların sahibi tərəfindən geri alınmasının mümkünlüyü.

**RETROTSESSİYA –** 1. Təkrar sığortalanan tərəfindən öz üzərinə götürdüyü riskin bir hissəsinin başqa təkrar sığortalanana ötürülməsi; risklərin davamedən parçalanması. 2. Bir vasitəçi tərəfindən komisyon haqqının bir hissəsinin başqasına ötürülməsi.

**RETRTANSLYATOR** – Yayımı qəbul edən və ötürülən teleradio qurğusu.

**RETROSPEKSİYA –** Mətnin prospeksiyası – kommunikativlik kateqoriyasının özünü fərdi şəkildə büruzə verməsi. Retrospeksiyanın səbəbi – mətnin prospeksiyası kommunikatın hər bir hərəkətinin əvvəlki və sonrakı hərəkətləri ilə uyğunlaşmasıdır.

**RETSEPİSSA -** Əmtəənin qəbul edilməsində şəhadətnamə rolunu oynayan və sonradan ***konosament*** (əmtəə qəbzi) ilə əvəzlənən ilkin qəbz.

**REVALVASİYA -** 1. Milli valyutanın qızıl məzənnəsinin rəsmi qaldırılması, yaxud onun beynəlxalq valyuta pul vahidlərinə olan məzənnəsinin qalxması. İnflyasiya aradan qaldırıldıqdan sonra daxili pul tədavülünün sabitləşdirilməsi metodlarından biridir. 2. Kassadakı nağd pul vəsaitlərinin

yenidən hesablanması, yəni mərkəzi bankın balansında qeyd edilmiş qızıl və xarici valyutanın milli valyutadakı ümumi həcminin dəqiqləşdirilməsi. 3. Pulun dəyərsizləşməsini nəzərə almaqdan ötrü balansın, o cümlədən onun əsas kapital və ehtiyatlarının yenidən qiymətləndirilməsinə imkan verir. Adətən, revalvasiya qanunvericilik qaydasında baş verir, bu da yeni pariteti və baza dəyəri ətrafında enib-qalxmaların mümkün sərhədlərini müəyyən edən hüquqi aktların rəsmi mövcudluğunu tələb edir. Revalvasiyadan daxili pul dövriyyəsinin stabilləşdirilməsi və ya inflyasiya dövrlərindən sonra pulun alıcılıq qabiliyyətinin yüksəldilməsi üsulu kimi istifadə olunur. Revalvasiya ixracın dəyərinin bahalaşmasına və idxalın ucuzlaşmasına səbəb olur.

**REVANŞİZM** – Qisas almaq; müharibədən əvvəlki sərhədləri bərpa etmək, məğlubiyyətin əvəzini çıxmaq bəhanəsi ilə müharibəyə hazırlıq siyasəti.

**REVERS –** 1. Öhdəliyin, riskin öz üzərinə götürülməsinə zəmanət verən bir şəxsin başqa şəxsin qarşısındakı yazılı öhdəliyi. Məsələn, zəmanət məktubu, yaxud vekselin ödəmə tarixinə qədər geri almaq öhdəliyi. 2. İtirilmiş səhmlərin sahibinin onlardan icazə verilməmiş istifadə nəticəsində banka dəyən itkiləri öz üzərinə götürməyə hazır olduğunu təsdiqləyən bəyannamə. İtirilmiş qiymətli kağızların yerinə dublikat verilir. 3. Bir subyektin başqa subyektə hər hansı işin görülməsi, yaxud hər hansı ödənişin edilməsi ilə bağlı təqdim etdiyi yazılı öhdəlik. 4. Metal monetin arxa tərəfi. 5. Metal pulun dəyəri yazılmış tərəfi. 6. Maşınının geriyə hərəkətinə imkan verən mexanizm.

**REVERSİYA –** 1. Əmlakın onun ilkin sahibinə qaytarılması. 2. Kredit ödənildikdən sonra qaytarılacaq qiymətlilərin kreditin, öhdəliklərin təminatı üçün müvəqqəti olaraq verilməsi.

**REVERSİV BÖLÜŞDÜRMƏ-** İstifadə olunmuş, zədələnmiş, köhnəlmiş, məhsulların və ya bağlamaların yığılması və son istifadəçilərdən reyestrlərə, distribüterlərə və ya istehlakçılara çatdırılmasıdır.

**REVERSİV LOGİSTİKA** – Resurslara qənaət və ətraf mühitin qorunması məqsədilə istifadə olunmuş məhsulların, bağlamaların geriyə qaytarılmasının və təkrar istifadəsinin layihələndirilməsi, planlaşdırılması və idarə edilməsi prosesidir.

**REVOKASİYA –** 1. Əvvəl verilmiş sərəncamın ləğv edilməsi. 2. Çek yazanın əvvəl verdiyi çeki ləğv etməsi.

**REVOLVER KREDİT –** Borc kapital bazarında tətbiq edilən, avtomatik bərpa edilən kredit. Bu cür kredit əvvəl müəyyən edilmiş limit və ödəmə müddətləri həddində olduqda əlavə danışıqlarsız verilir.

**REYAYIM –** Yenidən yayım. Bir stansiyadan digər stansiyaya informasiya verilişi üçüncü aralıq stansiya üzərində təşkil edilərsə, üçüncü stansiya reyayım funksiyasını yerinə yetirir. 2. Rele. Elektromaqnit qurğu. Bir qurğu idarəedici siqnalın təsiri ilə ani vəziyyətini dəyişdirərək öz kontaktlarının köməyi ilə elektrik dövrələri açır və ya qoşur.

**REYD –** Limanda gəmilərin lövbər atması və yüklərin daşınması üçün nəzərdə tutulmuş hissəsi.

**REYDER** – Rəhbərliyi ələ almaq üçün şirkətin aksiyalarının nəzarət paketini əldə etməyə cəhd göstərən şəxs və ya şirkətin aksiyalarını satmaqla, sonradan onları daha kiçik məzənnə ilə almağa cəhd göstərən şəxs.

**REYESTR –** Xarici iqtisadi əlaqə iştirakçıları kimi qeydiyyata alınan və xarici bazara bilavasitə çıxmaq hüququ almış müəssisələrin, təşkilatların qeydiyyat nömrəsini, rəsmi poçt ünvanını, həm də ixrac və idxal nomenklaturunu göstərməklə dərc olunan rəsmi siyahı.

**REYTİNQ –** Hər hansı bir sahədə qazanılmış müvəffəqiyyətin qiymətləndirilməsini əks etdirən rəqəm və ya faiz göstəricisi.

**REZERVASİYA** – Bir sıra ölkələrdə əhalinin müəyyən kateqoriyasının zorla yerləşdirildiyi ərazilər.

**REZİDENT –** EHM-in fəaliyyət göstərdiyi zaman daim əsas yaddaşda qalan idarəedici proqram hissəsi.

**REZİDENT MONİTORLAR -** Daim operativ yaddaşda yerləşən , disklə və operativ yaddaşla aparılan əməliyyatlara nəzarət edən proqramlardır. Məhz bu proqramlar sistemin real yoluxma anına kimi virusu aşkarlamağa imkan verir.

**REZİDENSİYA –** Proqram və verilənlərin daim yerləşdiyi sahə.

**RƏQƏMSAL İMZA-** Konkret məlumata (mətnə, fayla və ya ixtiyari uzunluqlu istənilən bitlər yığınına) əlavə olunan və aşağıdakı funksiyaları təmin etməyə imkan verən sabit uzunluqlu informasiya blokudur; məlumatın müəllifinin identifikasiyası və autentifikasiyası; məlumatın tamlığına nəzarət; məlumatın müəllifliyindən imtinanın qeyri-mümkünlüyünə zəmanət.

**RƏQƏMSAL VİDEO** – Rəqəmsal formatda videofilm. Rəqəmsal filmlərin saxlanılması və göndərilməsi üçün müxtəlif sıxılma metodlarından istifadə olunur. Sıxılmış videonun açılmasında kodekslərdən istifadə olunur.

**RƏQƏMLİ KAMERA –** İnformasiyanın rəqəmli texnologiya sistemi ilə işləyən rabitə xətləri ilə verilməsi prosesini asanlaşdırmaq məqsədi ilə videosıranın da bilavasitə rəqəmli formada yazılışı üçün aparat.

**RƏQƏMLİ MONTAJ –** Təsvirin kompüter avadanlığına köçürülərək xüsusi proqrama əsaslanan rəqəmli üsullarla montaj edilməsi.

**RİÇSTAKER** – Bölüşdürücü (yuxarı qaldırılan konteynerlər üçün) və qarmaqvari (aşağı endirilən dəyişilən kuzovlar üçün) qollarla təchiz edilmiş mobil nəqliyyat vasitəsidir.

**RİKRİSİYA –** Pul vəsaitinin köçürülməsi, təqdim edilməsi və ya alınması, tələb edilməsi ilə bağlı bir iqtisadi subyekt tərəfindən digərinə təqdim olunan rəsmi yazılı tapşırıq.

**RİMESSA –** Beynəlxalq hesablaşmalar üçün nəzərdə tutulmuş, xarici valyutadakı ödəmə sənədi (çek, köçürmək vekseli). Borclu tərəf onu öz ölkəsində milli valyutaya alır və xarici kreditora öhdəliyi ödəməkdən ötrü ötürür.

**RİNQTON** – Telefonlar üçün zəng və melodiyalar. Bu rejimlərdə xəbərdarlıq səsləri sadə səslərdən, mürəkkəb polifonik və $MP^3$ səslərə qədər dəyişə bilər.

**RİTORİO** – Müəyyən səbəblər üzündən sığortadan imtina edən sığortaçının (əgər həmin səbəblər üzündən sığorta idarəsindən imtina etməyə əsas verirsə) sığorta mükafatından tutulan məbləğ.

**RİTORNO –** Sığorta olunan subyekt tərəfindən sığorta müqaviləsinin hər hansı (əsas etibarilə mübahisəli məqamlarla bağlı) şərtinin pozulmasına görə sığorta şirkətinin ödənişin bir hissəsini ödəməkdən imtina etməsi.

**ROLL -OVER –** 1. Kredit müddətinin əvvəlki kreditin texniki ödənilməsi və dərhal yeni kreditin verilməsi yolu ilə bərpa edilməsi. 2. Vəsaitlərin bir investisiya formasından digərinə çevrilməsi.

**ROLL-OVER İPOTEKASI –** Üzən faiz dərəcəli, yaxud vaxtaşırı yenidən müəyyənləşən ipoteka.

**ROLL-OVER KREDİTİ –** Üzən faiz dərəcəli orta və uzunmüddətli beynəlxalq maliyyə kreditləri.

**ROLLOVER** – Veb-səhifənin dizaynında interaktiv element. Funksiyanı işə salmaq üçün mausun orta düyməsini basmaq lazımdır.

**ROTAPRİNT** – Kiçik ofset çap maşını vasitəsilə xidməti və məlumat sənədlərinin, referatların, bülletenlərin və s. nisbətən kiçik tirajlarla artırılması.

**ROTEL** – Hərəkət edən vaqon-mehmanxanadır.
**ROUMER –** Bir sistemdə qeyd olunan mobil stansiyanın başqa sistemdə müvəqqəti işləməsi.
**ROUTER** – İnformasiyanın şəbəkədə müəyyən istiqamət üzrə getdiyi qurğu, proqram-aparat vasitəli marşrutizator (şəbəkədə) qurğu.
**RUBRİKASİYA** – Mətnin onun zahiri ifadəsinin kompozisiya quruluşunun struktur formalaşma vasitələrindən biri. O, formulyar və sənədin mətninin müəyyən tərkib hissələrinə bölünməsinə özündə hissələrin qrafik bölünməsinə, başlıqların, yarımbaşlıq bəndlərin, paraqrafların, abzasların, nömrələrin və punktuasiyanın istifadə olunmasına uyğundur.

**-S-**

**SAMMİT** – Dövlət rəhbərləri və hökumət başçılarının iştirakı ilə keçirilən ali yığıncaq; zirvə toplantı.
**SANKSİYA** – 1. Hüquq qaydalarını pozana qarşı tətbiq olunan cəza tədbiri. 2. Hansısa hərəkətin icrası üçün yazılı icazə, razılıq.
**SANKSİYALAŞDIRMA –** Sistemin xidmətlərindən istifadəetmə hüquqlarının verilməsi.
**SAPALAQ -** Ümumi daxilolmaları vergi orqanları tərəfindən əvvəlcədən müəyyən edilmiş vergi. Bu məbləğ sonradan vergi bazasına proporsional qaydada bütün vergi ödəyiciləri üzrə bölüşdürülür. Vergiqoymanın bu metodu təyin edilmiş məbləğin toplanmasına zəmanət versə də, eyni məbləği əldə etməyə imkan verən vergi dərəcəsinin müəyyən edilməsi çətin olduqda tətbiq edilir. Hal-hazırda sapalaq demək olar ki, heç yerdə tətbiq edilmir, təsbiti dərəcəsi vergi ilə əvəz edilmişdir.
**SATINALMA** – Müəssisənin təchizatı mənbələrini müəyyənləşdirən, kotirovkaları əldə edən məhsulların qiymətinin və

alqı-satqı şərtlərinin razılaşdırılması istiqamətində danışıqlar aparan, satınalma sifarişlərini rəsmiləşdirən və təchizatın idarə edilməsini yerinə yetirən bölməsinin funksiyasıdır.

**SAYT** – İnternet şəbəkəsinin informasiya vahidi. Eyni məzmunda birləşmiş WWW səhifələr qrupu.

**SEANS –** 1. Rabitə kanalında informasiya mübadiləsi aparılan aralıq vaxt (və ya məşğulluq vaxt intervalı). 2. İstifadəçinin şəbəkə resurslarına daxilolma imkanlığı üçün tələb olunan vaxt intervalı.

**SEÇDİRMƏ** - Mətn prosessorundan, elektron cədvəlindən, yaxud verilənlər bazasının istifadə zamanı verilənlərin bir hissəsinin seçdirilməsi (pozmaq, surətini çıxarmaq, yerini dəyişmək məqsədilə).

**SEÇİM (SELEKSİYA) –** 1. Obyektləri onların fərqli cəhətlərinə görə seçilməsi. Praktikada siqnalın seleksiyası kimi onun amplitutadası, tezliyi, zamana görə vəziyyəti və s. ola bilər. 2. Kanalların, rabitə xətlərinin və ya digər şəbəkə obyektlərinin təyin olunmuş kriteriyalara görə ayrılması.

**SEÇMƏ** – İqtisadi obyekt və ya göstəricilərin məcmusunun tədqiqat üçün seçilmiş, ayrılmış elə bir hissəsidir ki, onun əsasında bütün məcmu haqqında fikir yürütmək, qərar vermək olar. Seçmə elə formada, elə miqdarda olmalıdır ki, o statistik cəhətdən təqdirəlayiq olsun, bütün məcmusun xarakterini əks etdirə bilsin. Misal üçün, bazarda tələb və təklifi, qiyməti öyrənmək üçün bazarın bir hissəsini, ayrı-ayrı seqmentlərini tədqiq etmək kifayətdir. Belə tədqiqatı seçmə yolu ilə öyrənmə adlandırırlar.

**SEDATİV** – Mərkəzi sinir sisteminin normal funksiyasını pozmadan bu sistemə sakitləşdirici təsir göstərən dərman maddələri qrupu.

**SEDENT** – Sığortada riski yerləşdirən, riski təkrar sığortaya verən sığorta şirkəti.

**SEKYURİTİZASİYA** – Stabil pul axınları yaradan aktivlərlə təmin edilmiş qiymətli kağızların buraxılışı yolu ilə maliyyələşdirməni cəlb etmənin formalarından biridir (məsələn, ipoteka kreditlərinin, lizinq aktivləri və s.).

**SEQMENT –** 1. Obyektin hissəsini, kod ardıcıllığının hissəsini, məlumat fraqmenti və s. göstərən ümumi termindir. 2. Paket şəbəkələrində ötürülən trafik ölçü vahidi. 3. Asılı olmadan operativ yaddaşa yüklənmə imkanlığı olan proqram hissəsi. 4. Sərhədlərin fiziki olaraq ciddi qeydə alınmayan virtual proqram hissəsi.

**SEQMENTLƏŞDİRMƏ –** 1. Verilənlər massivini fraqmentlərə bölərək, onları bir-birindən asılı olmayaraq emal etmək. 2. Şəbəkənin bir neçə seqmentlərə bölünməsi. 3. Proqramın məntiqi olaraq ayrı-ayrılıqda yaddaşa yüklənə bilən seqmentlərə bölünməsi.

**SELENONİM** – Astrotoponimin bir növü. Ayın səthindəki hər hansı təbii obyektin xüsusi adı.

**SELFİ -** Rəqəmsal kamera, kameralı mobil telefon və ya planşet ilə çəkilən avto-portretin fotoşəkil növüdür. Bu fotoşəkillər, ümumiyyətlə, gündəlik anlardan və bir kamera ilə yuxarıdan qol boyu məsafəsində, ya da güzgü qarşısında çəkilir.

**SEMANTİK XƏTA** – Dilin sintaksisini pozmayan proqram xətası.

**SEMEMA –** Mücərrəd təsvir səviyyəsində məzmun planının minimal vahidi.

**SENDVİÇ -** Ətli və pendirli kökə; arasına istənilən qəlyanaltı qoyulmuş buterbrod növü.

**SENDVİÇ-MEN -** Sinəsindən və kürəyindən reklam lövhəsi asılaraq küçələrdə gəzən adam.

**SENSOR -** Fiziki kəmiyyəti ölçən və onu hər hansı bir müşahidəçi və ya alət tərəfindən oxuna bilən siqnallara çevirən alət. Sensor ona toxunan zaman siqnalı qəbul edir və ona cavab

verir. Sensor alətlə və ya müşahidə ilə fiziki miqdarda ölçmələri və siqnalda çevirmələri oxuya bilən çeviricidir.

**SENSORLU EKRAN –** Kompüterə qələm və ya üst səthinə toxunmaqla (klaviatura və "siçan" istifadə etmədən) idarə olunan ekran.

**SERTİFİKASİYA MƏRKƏZİ** – Rəqəmli sertifikat yaradır və imzalayır.

**SERVER –** Lokal kompüter şəbəkəsi sistemində şəbəkə resurslarını paylamaq funksiyasını yerinə yetirən mexanizm. Hər bir server həm ayrıca, həm də işçi stansiya tərkibində ola bilər. Resurs kimi aparat komponentli proqram, fayl, verilənlər bazası, hətta kompüter də ola bilər. Burada serverlə bağlı bir sıra terminlər meydana gəlir: printer serveri, çap serveri və s.

**SERVİS PROQRAMLAR –** İstifadəçiyə əlavə xidmətlər göstərmək və operasiya sisteminin imkanlarını genişləndirmək üçün verilən proqramlar.

**SERVLET** – Xidməti proqram, serverə müraciət zamanı işə düşür.

**SESSİONARİ** – Sığortada təkrar sığorta riskini öz üzərinə götürən sığorta şirkəti.

**SƏBƏT (informatikada)** – Windows strukturunda pozulmuş fayllar düşən xüsusi qovluq. Həmin faylları asanlıqla geri qaytarmaq mümkündür.

**SƏNƏD (informatikada) –** 1. Mətn prosessoru vasitəsi ilə yaradılan, yaxud ekrana çıxarılan mətn fayl. 2. Müəyyən edilmiş qaydada tərtib edilmiş və qeyd olunmuş şəkildə informasiyanı özündə saxlayan və fəaliyyət göstərən qanunvericiliyə uyğun hüquqi qiymətə malik olan material, obyekt.

**SƏHVLƏRİN AVTOMATİK DÜZƏLİŞİ –** İnformasiyanın ötürülməsi xətlərində mətnin yoxlanılması üçün istifadə olunan sistem.

**SƏPƏLƏMƏ -** Riskin azaldılmasına istiqamətlənmiş, investisiyaların müxtəlif sahələrə yönəldilməsi ilə əlaqəli olan kapital qoyuluşu siyasəti.
**SƏRXOŞ (TUTQUN) MAUS** – Kompüter mausunun kontakt şarının tutulması və ya çirklənməsi zamanı baş verən hadisə.
**SƏRRAF** – Müəyyən haqla (muzdla) pulların, valyutaların mübadiləsini həyata keçirən şəxs.
**SƏRT DİSK (VİNÇESTER)** – İnformasiyanın saxlanılması üçün qurğu. Kompüter söndürüldükdən sonra da informasiya yoxa çıxmır.
**SƏVİYYƏLƏR –** Səviyyələr tələbənin (inkişafetmə silsiləsi daxilində) həyata keçirməli olduğu, hər hansı təhsil proqramı çərçivəsində ümumi nəticələr baxımından ifadə olunan tədbirlər ardıcıllığı kimi anlaşılır.
**SİDİROM (SD-ROM)** – 1. Böyük həcmdə informasiyanı saxlamaq və istifadə etmək üçün lazer-disk. 2. Həmin diskləri yoxlamaq üçün qurğu.
**SİGMET İNFORMASİYA** - Hava gəmilərinin istismar təhlükəsizliyinə təsir edə biləcək və marşrut üzrə faktiki və ya gözlənilən müəyyən hava hadisəsinə aid meteoroloji müşahidə idarəsi tərəfindən dərc edilən informasiya.
**SİLİNMƏ** - EHM-in yaddaşından informasiyanın ləğv edilməsi.
**SİLİNMİŞ BİT –** Səhvləri düzəltmə prosesində səhv bitlərin silinərək ləğv edilməsi.
**SİLLABUS –** Kurikulumla bağlı olan *sillabus* anlayışı özündə bütün fənn və mövzuların hərtərəfli təsvirini əks etdirir. Bu mənada sillabusu bir fənnin kurikulumu adlandırmaq olar. Öyrənilən fənnin təsvirini, fənnin məqsəd və vəzifələrini, onun qısa məzmununu, mövzuları və onların öyrənilmə müddətini, müstəqil işini, tapşırıqlarını, məsləhətlərinin vaxtını, öyrənənlərin biliklərinin yoxlanılması cədvəlini, müəllimin tələblərini,

öyrənənlərin biliklərinin qiymətləndirilmə meyarlarını və ədəbiyyatların siyahısını özündə əks etdirən dərs proqramıdır.
**SİM-KART** – Mobil telefonlarda nömrə yazılan elektron kart.
**SİMPLEKS –** Kanal və ya rabitə xətti ilə eyni zamanda siqnalın yalnız bir istiqamətdə ötürülməsi. Yəni kanalın (rabitə xəttinin) eyni zamanda birtərəfli işləməsi.
**SİMPTOM** – 1. Xəstəliyin xarakterik əlamətləri. 2. Hansısa dəyişikliyin təzahür edən, sezilən əlamətləri.
**SİNDİKASİYA** – Kontentin eyni zamanda bir neçə veb-qovşaqda yerləşdirilməsi.
**SİNEMATİKA** – Nadir və xüsusi əhəmiyyətli filmlərin arxiv kimi saxlandığı yer.
**SİNKOPA** – Söz daxilində vurğusuz saitin düşməsi.
**SİNOPSİS** – 1. Hər hansı məsələyə dair müxtəlif baxış və yanaşmaların qısa, yığcam məğzi, xülasəsi. 2. Kinoda və TV-də çəkiləcək filmin ssenarisinin, süjetinin, epizodlarının ardıcıllıqla, yığcam xronoloji təsviri.
**SİNXRO –** Kompakt diskə yazmanı asanlaşdırmaq üçün diski və lenti eyni vaxtda işə salan sistem.
**SİNXROKANAL –** Sinxronlaşdırma kanalı. Sistemdə yalnız sinxro siqnalları ötürmək üçün ayrılmış kanal sinxrokanal adlanır.
**SİQNATURA –** 1. Sistemə daxil olmaq üçün parola analoji kod autentifikasiyalaşdırma. Eyni növlü obyektləri bir-birindən fərqləndirməyi təmin edən kompleks xarakteristika. 2. İmza. Bu informasiya göndərən haqqında qısa məlumat (identifikator), adətən, məlumatın axırında yerləşdirilir.
**SİSTEM BLOKU –** Kompüter bütün aparat hissəsini, yəni qidalanma blokunu, sərt və çevik disklərdə yaddaş, giriş-çıxış portlarını, həmçinin ən mühüm tərkib hissə olan “ana plata”sını özündə cəmləşdirən gövdə. Bundan başqa, sistem blokunda əlavə olaraq faks modem, multimediya vasitələri (disk, səs

kartı) şəbəkə kartı və s. qurğular da yerləşə bilər. Kompüterin modelləri dəyişdikcə sistem blokunun xarici görünüşü də dəyişir.

**SİTİZENDİUM** – Universal vətəndaş xəzinəsi, qapalı virtual ensiklopediyadır.

**SKANLAŞDIRMA –** Ardıcıl nümayiş (məsələn, cədvəlin, faylın).

**SKAUT** – Bir çox ölkələrdə məktəbdənkənar tərbiyə sisteminin populyar forması.

**SKANER** – 1. Mətnlərin, foto və ya qrafik təsvirlərin kompüterin yaddaşına ötürülməsini təmin edən optik qurğu. 2. Faksmil veriliş qurğularında, qrafik verilənlərin daxil edilməsi sistemlərində şəkil (qrafik məlumatı) skanlaşdıran qurğu. 3. Siqnal formalaşdırıcısı. 4. Prosesi başlamaq, dayandırmaq və ya ştrix-kodu oxumaq üçün kodlaşdırılmış verilənləri optik, elektromaqnit və elektron çevrilmələr vasitəsilə elektrik idarə-etmə siqnallarına transformasiya edən cihazdır.

**SKAYP** – İnternetdə mətni, video və audio mübadiləsi sistemi, pulsuz proqram və apps. Skayp İP-telefoniya ilə internet istifadəçilərinə telefon danışıqları xidməti göstərən ən iri kompaniyadır.

**SKEPTİK** – Hər şeyə inamsız və ümidsiz yanaşan, hər şeydən şübhələnən adam.

**SKİMMİNQ** – Plastik kartların saxtalaşdırılması. Real kartdakı maqnit zolağındakı məlumatların başqa karta köçürülməsi. Bank kartları ilə ən geniş yayılmış dələduzluq halı.

**SKORİNQ** – Ədədi statistik metodları əsasında şəxsin kredit (kredit riskini) qiymətləndirilməsi sistemi.

**SKRAB** – Dərini təmizləmək üçün işlədilən, tərkibi xırda dənəvərli kosmetik vasitə.

**SKRİNŞOT** – Ekran şəkli. Lazım olan an ekranın ani şəklinin "çəkilməsi".

**SKRİPT** – Makros. İri proqram paketi üçün xüsusi yazılmış mikroproqram.
**SKUTER** – Altı xüsusi formaya malik yüngül sürətli qayıqdır. Avar tipli pərlərdən ibarət olan bu qayıqdan sərnişin daşınması və ya idman yarışlarında istifadə olunur.
**SLENQ –** Müəyyən peşə, yaxud sosial təbəqə nümayəndələri tərəfindən istifadə edilən söz və ifadələr. Ümumi və xüsusi slenqlərə bölünür.
**SLOQAN** – Hər hansı şirkətin qısa, yaddaqalan cümlədən ibarət devizi; reklam və təqdimat şüarı.
**SLOT** – Ana platada yuvalı girişlər. Əlavə qurğular – videoplatalar, səs kartları, modem və s. qoşmaq üçün yuvalar.
**SMART-KART** – Plastik bank kartı olaraq, identifikasiya, məlumatların xüsusi işlənməsi və saxlanılması üçün kompüter mikrosxemi olan, müxtəlif hesablamaları apara bilən, məsələn, kredit kartı sahibinin şəxsi identifikasiya nömrəsinin təsdiqlənməsi, hesabdakı qalığın yoxlanılması və pərakəndə alışlara icazə verilməsi funksiyalarına malikdir. Həmçinin, çip kartı və ya yaddaşlı kart adlanır.
**SMARTFON** – Həm mobil rabitə, həm də cib kompüteri kimi işlədilən portativ elektron cihaz.
**SMAYLİK** – "Təbəssüm", emoqram, elektron poçtda, çatda və s. ASCII simvollar vasitəsilə emosiyanın yazıya salınması. Məsələn, gülümsəmə.
**SOLDOVKALAR** – Pulun hərəkətini təsdiq edən qəbz xarakterli bank sənədləri.
**SOLYARİ** – Günəş vannası qəbul etmək üçün xüsusi təchiz olunmuş meydança.
**SOLYARİZASİYA** – Klassik fotoqrafiya işlənmə metodu analoqu. Təsvirin neqativ-pozitivinin yaradılması.
**SORSİNQ** – Tələb olunan malları və ya xidmətləri təmin edən şirkətin müəyyən edilməsi prosesidir.

**SOSİOEKOLOGİYA** – Öz-özünü inkişaf etdirən vahid sistemi təşkil edən sosial və təbii amillərin dinamik qarşılıqlı əlaqələridir. Sosioekologiyada əsas anlayış: sosioekosistem – tək vahid kimi fəaliyyət göstərən hadisə və proseslərin, təbii və sosial-mədəni cisimlərin mürəkkəb kompleksidir.
**SOSİUM** – Müəyyən tipli insan birliyi, cəmiyyətin sosial qrupları.
**SÖRFİNQ** – Su idmanının bir növüdür. Heç yerə bərkidilməyən tıxac və lövhəciklə dalğalar üzərində sürüşür.
**SÖVDƏLƏŞMƏ -** Tərəflərin iqtisadi əməliyyatların keçirilməsindən əvvəl əldə edilən, lakin bəyan edilməyən razılaşması. Ona əsasən tərəflər sırf öz maraqlarına uyğun hərəkət etməyə qərarlaşır. Adətən, qanuna zidd səciyyə daşıyır və dövlətin, yaxud üçüncü tərəfin maraqlarına toxunur.
**SÖZ (proqramlaşdırmada) –** EHM-in tərkibi birləşmiş işarə (simvol, bit) ardıcıllığından ibarət olan (bütöv vahid kimi baxılan) əməliyyat yaddaşı tutumunun ölçü vahididir. Sözün uzunluğu müxtəlif EHM-lər üçün fərqlidir. (EHM-in vahid sistemi-4 bayt). Proqramlarda "söz"ün törəmələrindən istifadə olunur.
**SÖZÇÜ-** Bir şəxsin, qurumun işi, fikirləri barədə məlumat verən şəxs anlamındadır. Daha çox müəyyən təşkilatın mətbuat xidməti rəhbəri və ya bu xidməti təmsil edib məlumat yayan şəxs mənasında işlənir. Məlumdur ki, müstəqillik illərində mətbuat vasitələrinin sayının artması idarə və müəssisələrdə, partiyalarda, təşkilatlarda mətbuat xidməti aparatı yaradılmasını zəruriləşdirmişdir.
**SPAM** – Kommersiya, siyasi və digər xarakterli reklamın, yaxud başqa növ məlumatların onları qəbul etmək istəməyən şəxslərə kütləvi göndərişidir.
**SPAGETTİ –** Bütöv, bölünmədən bişirilən və müxtəlif ədviyyatlarla yeyilən nazik, uzun formalı makaron növü.

**SPEKTR –** Siqnalın amplitud və fazasının onun tezliyində asılılıq funksiyası. Eyni zamanda bu funksiya siqnalın xarakterik xüsusiyyətlərini müəyyən edir.
**SPİKER –** 1. Bəzi ölkələrdə parlament və ya palata sədri. 2. Konfrans, debat və s. toplantılarda əsas məruzəni təqdim edən natiq.
**SPLİT ÇATDIRILMA** – Tədarük sifarişinə, əsasən, daha ucuz qiymətə almaq üçün böyük mal partiyasının sifariş edildiyi, lakin anbar xərclərinə saxlanma yerlərinə qənaət olunması məqsədilə, həmin partiyanın daha kiçik partiyalara bölünərək, müxtəlif razılaşdırılmış tariflər üzrə təchiz edilməsinə əsaslanan metoddur.
**SPLİT PARTİYA –** Sifarişin işlədilməsindən sonra iki və ya daha çox kiçik hissələrə bölünən istehsal sifarişi partiyasıdır.
**SPONTAN MƏTN –** Qabaqcadan hazırlıq aparılmadan danışan tərəfindən ortaya çıxan mətn.
**SPOT** – 1. Elə hesablaşma şərtidir ki, ona əsasən ödəniş dərhal həyata keçirilir; valyuta əməliyyatlarında spot şərtləri sövdələşmə bağlandıqdan sonra ikinci iş günü ərzində (və ya iki iş günü ərzində) hesablaşmanın icrasını nəzərdə tutur. 2. Hər hansı bir anlıq qərarın həll edilməsi üçün bankın öz müştərisinə istisna qaydada verdiyi qısamüddətli (1-3 aylıq) kreditdir. Bu kreditdən sürətlə istifadə edilir, pul bazarının tarifi üzrə indeksləşdirilir, kifayət qədər riskli hesab olunur.
**SPOT BAZARI** – Dərhal göndərişləri nəzərdə tutan nağd pullu sövdələşmələr bazarı.
**SPOT VALYUTA BAZARI** – Valyutanın dərhal ödənilməsi və göndərilməsini nəzərdə tutan bazar.
**SPRAYT** – Ekranda asanlıqla yerini dəyişən rastr qrafik elementi.
**SPRED –** Eyni mala *fyuçers sazişlərinin* eyni zamanda alınması və satılmasıdır, amma fərqli çatdırma müddəti, ya da

fərqli bazarlar üçündür. Spred birjadaxili, birjalararası, məhsullararası, müvəqqəti ola bilər. Spred-in məqsədi qiymət fərqinin oynamasından gəlir əldə etməkdir.

**SPULİNQ** – Sənədlərin çapa göndərilməsi prosesi. Sənəd çap olunana qədər diskdə yadda saxlanır.

**SSUDA** – Borc; pulun, yaxud maddi qiymətlərin hüquqi, yaxud fiziki şəxslərə əlavə faizlə geri qaytarmaq şərti ilə başqa şəxslərə verə biləcəyi məbləğ.

**STANDART –** “Standart” sözünün ilkin mənası ingiliscə “standard” sözündən götürülmüşdür və “norma, nümunə” mənalarını verir. Geniş mənada “standart” anlayışı oxşar obyektlərin bir-biri ilə müqayisəsi üçün əsas götürülə bilən nümunə, etalon, model mənalarında işlənir. Standartlaşmaya səlahiyyətli təşkilatlar tərəfindən təsdiq edilmiş müəyyən fiziki proseslər, sənədlər, xidmətlər və s. üçün standartlar daxildir. Öz təsir dairəsinə görə beynəlxalq milli və regional standartlar mövcuddur. Milli və regional standartların beynəlxalq standarta uyğunlaşdırılması “de-fakto” məcburi hal alıb. Çünki hər bir ölkənin rabitə şəbəkəsi ümumdünya rabitə şəbəkəsinin tərkib hissəsi olaraq qarşılıqlı avtomatik fəaliyyəti məcburidir.

**STANDART SATIŞ** – Kənarlaşmaların aradan qaldırılmasından sonrakı cari satışdır.

**STAQFLYASİYA** – Durğunluq və ya istehsal həcminin aşağı düşməsi meyilləri və inflyasiya cəhətlərinin birləşməsi ilə səciyyələnən iqtisadi vəziyyət.

**STAQNASİYA** – İqtisadi artımın dayanması mərhələsi. Staqnasiya termini həm tələbin müəyyən amilinə (kapital qoyuluşları, ixrac...), həm də ümumilikdə iqtisadi fəallığa və nəticədə, istehsala münasibətdə də tətbiq oluna bilər.

**STATUS-KVO** – Müəyyən müddət ərzində mövcud olmuş və ya hazırda mövcud olan faktiki, yaxud hüquqi vəziyyət. “Status-kvo” termini, adətən, vaxtilə mövcud olmuş vəziyyətə

qayıtmaq, dəyişikliklərə qədər olan situasiyanı bərpa etmək haqqında danışılarkən işlədilir.

**STATUT** – 1. Dövlətdaxili və beynəlxalq təşkilatların təşkili və fəaliyyəti qaydasını müəyyən edən əsasnamə, nizamnamə.

**STEREOEFFEKT** – Obyektin iki müstəvi perspektiv təsirinə baxmaqla onun həcmli qavranışı.

**STEREOFONİYA –** Səs mənbələrinin fəzada paylanması effektini saxlamaqla səsin elektroakustik cihazlarla ötürülməsi və ya yenidən səsləndirilməsi.

**STEREOKİNO –** Ekranda təsvir olunan obyektləri həcmli kimi qavramaq illüziyası yaratmağa imkan verən kinematoqraf növü.

**STƏNDAP** – Reportyorun hadisə yerində kadrda görünüb seyrçilər üçün hadisənin önəmli məqamları haqqında informasiya verməsi.

**STİVİDOR** – Gəmilərin yüklənməsini və boşaldılmasını həyata keçirən hüquqi və ya fiziki şəxs. Gəminin fraxt edilməsi şərtlərindən asılı olaraq, stividoru fraxtedən və ya gəmi sahibi işə götürür və fraxt haqqı da bundan asılı olur.

**STOPOVER** – Müəyyən vaxt ərzində bir aviabilet və ya yük qaiməsi ilə məntəqədən hərəkətin hər hansı məqsədli dayandırılmasıdır.

**STRİMMER** – Məlumatı maqnit lenti üzərində saxlayan yaddaş qurğusudur.Bu qurğular etibarlı işləyir, qiyməti ucuz və böyük yaddaş həcminə malik olur. Məlumatın oxunma və yazma sürəti digər yaddaş qurğularına nəzərən çox aşağıdır.

**STRİNGER** – Təbii fəlakət zonası, cəbhə bölgəsi və bu kimi ekstremal situasiyalardan material hazırlayan reportyor.

**STRİPİNQ** (Boşaldılma) – Yükün intermodal nəqliyyat vahidindən (İNV) boşaldılması prosesidir.

**STÜARD** – Digər istifadəçilərin Vikipediyaya istənilən müraciət hüquqlarını dəyişmək hüququna malik şəxsdir. Stüard

da bürokrat kimi, digər istifadəçilərə administrator və bürokrat hüququnu vermək kimi texniki imkana malik olan istifadəçidir. Lakin bürokratdan fərqli olaraq, stüard bu hüquqları ləğv edə bilir.

**SUBARENDA** – Saziş, razılaşma; razılaşmaya, əsasən, icarədar mülkiyyətin bütövlükdə, ya da onun bir hissəsini müəyyən muzdla başqa şəxsə müvəqqəti istifadə üçün icarəyə verir.

**SUBFONEM** – Allofon səviyyəsinə aid olan.

**SUBORDİNASİYA** – Müəssisə-təşkilat strukturunda, eləcə də sosial münasibətlərdə aşağıdan-yuxarıya tabelilik.

**SUBPODRATÇI –** Əsas podratçının hesabına subpodrat üzrə işlərin yerinə yetirilməsinə dair fəaliyyətin həyata keçirilməsinə razılıq vermiş üçüncü şəxsdir.

**SUBSİDİYA** – Dövlətin öz büdcəsi hesabına yerli hakimiyyət orqanlarına, hüquqi və fiziki şəxslərə, əsasən, pul formasında göstərdiyi yardım.

**SUBTİTR-** Televiziya ekranında təsvirin aşağısında verilən yazı; alt yazı.

**SUBVENSİYA** – Kapitalist ölkələrində dövlətin təsərrüfatın müxtəlif sahələrinə, müəssisələrə və onların sahiblərinə maliyyə yardımı formalarından biri.

**SUKSESSİYA** – 1. Müəyyən ərazidə bir növ canlıların populyasiyasının azalması və onların məhv olması nəticəsində digərlərinin məskən salması və artması hesabına növlərin tədricən və ya bəzən sürətlə bir-birini əvəz etməsidir. 2. Ekosistemlərin həm xarici, həm də daxili amillərin təsiri altında dəyişilməsi prosesi.

**SUPERMARKET –** Əsasən ərzaq malları satan və getdikcə geyri-ərzaq mallarının miqdarını çoxaldan pərakəndə ticarətin özünəxidmət mağazası kimi müəyyənləşdirilir və müxtəlif ölkələrdə ticarət sahəsinə malikdir.

**SUPERMEN –** Qeyri-adi gücə malik olan, fövqəlbəşər insan. Filmlərin, komikslərin məğlubedilməz, hər şeyə qadir olan yenilməz qəhrəmanı.

**SUPERSTAR** – Məşhurlar arasında birinci olan; ulduz adlandırılanlar arasında fərqli, daha öncül statusu olan sənət adamı.

**SUPERSTRUKTUR –** Otellər və turistlərin digər yerləşdirilmə vasitələri, restoranlar, mağazalar, əyləncə mərkəzləridir (kinoteatrlar, muzeylər, bədii qalereyalar, konsert zalları və s.) Superstruktur və infrastruktur terminləri arasında ciddi fərq yoxdur, lakin bu termin yeni tikiləcək kurortların planının tərtib edilməsi zamanı işlədilir.

**SUPERVAYZER** – Qərb TV-lərində kollektivin xüsusi təlim almış üzvü.

**SUPERVİZOR** – 1. İdarəedici proqram, dispetçer. 2. Hesablama resurslarının paylaşdırılmasına və tapşırıqların icrasının planlaşdırılmasına cavabdeh olan idarəetmə proqramı.

**SURROQAT** – 1. Nəyisə qismən əvəz edə bilən şey; düzəltmə. 2. Süni mayalanma.

**SURROQAT ANA** – Başqa qadından köçürülmüş embrionu yetişdirib inkişaf etdirən, uşaq doğulduqdan sonra isə onu əsil valideynlərinə qaytaran qadın.

**SUSPENZİYA** – Maye dispersiya mühitində yayılmış bərk hissəciklərdən ibarət dispers sistem.

**SUVERENİTET** – Dövlətin tam müstəqilliyi, onun öz daxili və xarici siyasətində müstəqil olması.

**SVOP** – Müəyyən müddət ərzində, müəyyən zaman intervalları ilə tərəflər arasında maliyyə aktivləri və ödəniş axınları ilə mütəmadi mübadiləni nəzərdə tutan sövdələşmə.

**SVOP PROVAYDERİ** – Svop provayderi xüsusi hüquqi şəxslə müqavilə bağladığına görə, müqavilənin pozulması və ya qabaqcadan görünməmiş xərclərin ödənməsi ilə (məsələn,

mənbədə verginin tətbiqi ilə yaranmış) bağlı olan cərimələrin ödənişinin yeganə mənbəyi.

**SVOPİNQ** – Qiymətli kağızların uzunmüddətli sahibi olduqda ödənilməli olan vergilərdən yayınmaqdan ötrü qiymətli kağızların satqısı və demək olar ki, dərhal alqısı.

**SVOT TƏHLİLİ –** Planlaşdırmada təhlil metodudur. Amilləri və hadisələri dörd kateqoriyaya bölərək, strukturlaşdırır.

**-Ş-**

**ŞKALLAMA –** Say sistemləri və şkalalar köməyi ilə real iqtisadi proseslərin modelləşdirilməsi metodudur.

**ŞEVRON** – Rəsmi geyimin qoluna vurulan kəskin bucaq şəkilli tikmə; diqqəti cəlb edən işarə.

**ŞEZLONQ** – Oturmaq və yarım uzanmaq üçün düzəldilmiş xüsusi kreslo.

**ŞƏFFAF PƏNCƏRƏ -** Rəngin fonunun pozulma komandası. Qrafiki proqramlarda bir rəngin üzərindəki digər rənglə qarışması.

**ŞIRNAQLI PRİNTER –** Çap qurğusu ilə simvolların mürəkkəb şırnağı vasitəsilə çəkilməsi.

**ŞİFR –** İnformasiyanın sanksiyalaşdırılmamış müdaxilədən qorunması məqsədilə istifadə olunan kod.

**ŞİN –** Kompüterlərin ayrı-ayrı plataları və mərkəzi prosessoru arasında məlumatların ötürülməsi üçün kommunikasiya vasitəsi (naqillər).

**ŞİN SAHİBİ** – Şin üzrə məlumatların ötürülməsini idarə edən adapter plata.

**ŞİN STANDARTI** – Kompüterin arxa panelində universal qoşulma portu. USB ilə kompüterə printer, skaner, monitor, klaviatura və başqa avadanlıqlar qoşmaq olur.

**ŞİPPİNQ-ORDER** – Bəzi limanlarda tətbiq edilən, təyinatı üzrə yükləmə orderinə oxşar olan sənəd.

**ŞLÜZ -** Şəbəkələr arası interfeys – Müxtəlif arxitekturalı və müxtəlif protokollu (siqnal formatları) şəbəkələr arasında qarşılıqlı bağlantı funksiyalarını həyata keçirən aparat və proqram vasitələri. Şlüz faktiki olaraq bir şəbəkəyə aid element olub, digər şəbəkələrlə qarşılıqlı informasiya mübadiləsini yerinə yetirir.

**ŞOMAJ** – Təbii fəlakətlərlə bağlı səbəblər üzündən istehsaldakı fasilələr və dayanmalar nəticəsində yaranmış mənfəətdən itkinin və digər maliyyə zərərlərinin sığortalanması.

**ŞOU** – 1. Sənət ulduzlarının iştirakı ilə təmtəraqlı tamaşa, nümayiş. 2. Daha çox əyləncə xarakteri daşıyan televiziya proqramı.

**ŞOU-BİZNES –** Məşhur müğənni və aktyorların iştirakı ilə təşkil edilmiş konsert, görüş, kütləvi tamaşalardan, həmçinin gözəllik müsabiqələri və s. gəlir əldə edilməsi; əyləncə sahəsində kommersiya fəaliyyəti. Auido və video məhsullar istehsal edən şirkətlər, əyləncə sahəsində çalışan artist və bəzi idmançılar, maliyyə gəliri əldə etməyə üstünlük verən kino, teatr, musiqi, televiziya sahələri də şou-biznesə daxildir.

**ŞOUMEN** – Şounun hazırlanması və keçirilməsi üzrə mütəxəssis.

**ŞTABELLƏŞDİRMƏ** – İntermodal nəqliyyat vahidlərinin (İNH) bir-birilərinin üzərində yerləşdirilmiş şəkildə saxlanılması və ya daşınması prosesidir.

**ŞTEMPEL** – Müəssisənin, idarənin möhür üsulu ilə hazırlanmış rəsmi məlumat verən yazısı; damğa.

**ŞTİVKA** – Yükləmə zamanı göyərtəaltı boşluqları doldurmaq məqsədi ilə anbara verilmiş yüklərin yerləşdirilməsi və boşaltma zamanı göyərtəaltı boşluqdan yüklərin anbar qapaqlarının altına yığılması.

**ŞTRİX-KOD –** Skaner qurğusu vasitəsilə oxunan, dəyişkən qalınlıq və ara məsafələri, eləcə də sayı ilə fərqlənən paralel sütunlar dəsti şəklində olan simvollarla təmsil edilən koddur.
**ŞTRİXLİ KODLAŞDIRMA –** Elektron vasitələr tərəfindən oxunması üçün müxtəlif qalınlıqda, sayda olan dəyişkən sütun və ara məsafələrinin tətbiqi yolu ilə təyin edilmiş verilənlərin kodlaşdırılması metodudur.

**-T-**

**TABULYASİYA –** Kursorun əvvəlcədən müəyyənləşdirilmiş pozisiyaya keçməsi. Qiymətləndirmə meyarları ilə birlikdə təlim nəticələri kreditlərin verilməsi üçün aşağı və ya yuxarı həddə nailiyyətlərin əldə olunmasına əsaslanır. Hansı nailiyyətlərə görə kreditin verilməsini dəqiqliklə göstərən səlis təlim nəticələrinin mövcudluğu kreditlərin toplanılmasını və köçürülməsini asanlaşdırır.
**TABULYATOR** – İşi kommutasiya panelində yığılmış proqrama əsasən idarəolunan və performansiyalı kartlarla təsvir olunmuş informasiyanı avtomatik işləyərək nəticələri kağız lent, yaxud xüsusi blanklara köçürən perforasiyalı hesablama maşını.
**TAĞVARİ BƏND** – Planda əyrixətli olan bənd.
**TAKSONOMİYA –** Yunan sözüdür (taxus-qayda ilə yerləşmə+qanun deməkdir) və təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifat mənasında işlədilir. Elmi termin kimi ilk dəfə botanika və zoologiyada işlənmiş, heyvanların və bitki orqanizmlərinin qruplara görə bölgüsü anlamında istifadə olunmuşdur.
**TALLİMAN** – 1. Adətən, yükün yüklənməsi və boşaldılmasına, əmtəənin qəbulu və təhvilinə nəzarət edən şəxs. 2. Əmtəəni möhlətlə satan şəxs.

**TANTYEMA** – Sığortada təkrar sığortaçının mənfəətində təkrar sığortalının iştirakı, təkrar sığortalının həvəsləndirmə forması.

**TAPŞIRIQ VAHİDİ –** İstifadəçinin təyin etdiyi və EHM-in yerinə yetirdiyi iş vahidi. İcra olunan proqramları və onların istifadə etdiyi verilənləri təyin edən idarəedici operatorlar ardıcıllığından ibarət olan əməliyyat sisteminin iş vahidi.

**TARTAN** – Qaçış zolaqlarını, hoppanmaq üçün sektorları və digər idman meydançalarını örtmək üçün sintetik material.

**TAYM-AUT** – İştirakçı obyektlərin hər hansı birinin əvvəlcədən müəyyən edilmiş vaxt dövrü çərçivəsində tələb olunan cavabı təmin etmədikdən sonra trazaksiyanın ləğvi.

**TAYM-ÇARTER –** Ticarət gəmisinin bir hissəsini, yaxud bütövlükdə gəminin özünü müəyyən müddətə (bir ildən çox olmayaraq) icarəyə götürmək barədə müqavilə.

**TAYMER** – EHM-də vaxt hesablanmasının aparat vasitəsidir.

**TAYMİNQ –** Səhmlərin alışı və ya satışı üçün daha uyğun zamanı bildirən birja termini.

**TEXNOPARK -** Texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan şirkətlərin qurulması və inkişafına təşəbbüs göstərmək üçün qurulur. Texnoparkda fəaliyyət göstərən şirkətlərə, universitet innovativ elmi nəticələrinin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir. Bu proseslərdə bütün yanaşmalar təşəbbüskarlıq və müəllif hüquqlarının qorunması müstəvisində həyata keçirilir.

**TELEDEBAT –** Seçkiqabağı televiziyada namizədlər arasında keçirilən müzakirə, diskussiya, mübahisə; TV-də iqtisadi, siyasi və sosial məsələlərlə bağlı fərqli düşüncələrin verilməsi, bir problemə aid fikir mübadiləsi aparılan proqram.

**TELEFAKS –** Telefon kanalı ilə faksimil məlumatın ötürülməsi xidməti.

**TELEGENİK –** Teledüşərli. Teleekranda yaxşı görünən təsvir; üz cizgiləri ekrana yaxşı düşən şəxs.

**TELEKOMMUNİKASİYA –** Distansiyon əlaqə. Verilənlərin məsafəyə ötürülməsi.

**TELEKS -** Əsasən, işgüzar əlaqələr üçün nəzərdə tutulan abonent teleqraflaşmanın beynəlxalq şəbəkəsi.

**TELEMARKETÇİ** – Elektron ismarıcların köməyi ilə mal satan və ya xidmət təklif edən.

**TELEMATİK –** Video qrafik rabitə texnologiyaları.

**TELEMƏTN** – Ötürülmə videoqrafiyası.

**TELESƏSVERMƏ –** Bu telekommunikasiya xidmət növündə bu və ya digər məsələ haqqında rəy sorğusu aparılır.

**TELETAYP LENTİ** – Teletayp dövrələri üzrə ötürülmə üçün tam perforasiya və ya qismən perforasiya vasitəsilə siqnalların beş işarəli Start-stop kodunda yazıldığı lent.

**TELETƏBABƏT –** Müalicə olunan şəxslə uzaqdan interaktiv informasiya mübadiləsi. Məsləhətçi həkim ilə xəstənin vəziyyəti haqqında ilkin informasiya mübadiləsi aparılır.

**TELETİCARƏT –** Elektron vasitələrlə (internet üzərindən) alqı-satqının aparılması.

**TENDER** – 1. Alış-verişin aparılmasının müsabiqə formasıdır. *Tender sənədlərində* göstərilən meyarlara uyğun olması nöqteyi-nəzərindən, ofertin (müqavilənin, sazişin) təqdim olunan iddiaçılarının müsabiqəsidir. 2. Satınalma müqaviləsinin yerinə yetirilməsi üzrə iddiaçıların yazılı təqdim etdikləri təkliflərdən ən səmərəlisinin seçilməsi məqsədi ilə keçirilən müsabiqədir. 3. Hər hansı məhsulun istehsalı və ya xidmətin göstərilməsi üçün iddiaçılar arasında keçirilən müsabiqə forması.

**TENDER KOMİTƏSİ** – Sifarişçi və ya hərrac təşkilatçısı tərəfindən hərracı təşkil etmək və aparmaq üçün yaradılan daimi və ya müvəqqəti orqandır.
**TENDİNİT** – Kompüterlə iş zamanı professional qaydalara riayət etməməyin üzündən meydana gələn xəstəlik.
**TERAKT** – Terror aktı, terror siyasəti.
**TERMİNAL -** Sərnişin, yük, baqaj və poçt daşımaları zamanı müxtəlif nəqliyyat vasitələrinin qarşılıqlı əlaqəsini təmin edən və nəqliyyat şəbəkəsinin aralıq və ya təyinat məntəqələrində yerləşən qurğular kompleksidir.
**TEST –** EHM və onun proqram təminatının fəaliyyətinə nəzarətetmə məqsədilə istifadə edilən yoxlama tapşırıq.
**TESTER** – 1. Nəyisə yoxlamaq, sınaqdan keçirmək üçün cihaz; elektrik cərəyanının gücünü və ya elektrik xətlərindəki gərginliyi ölçmək üçün cihaz**.** 2. Universal ölçü üçün nəzarət cihazı.
**TESTLƏŞDİRMƏ -** EHM və onun proqram təminatının yoxlanılması prosesində testlərdən istifadə edilməsi; testin nəzərdə tutduğu əməliyyatların icrası.
**TEZAVRASİYA** – Təsərrüfat subyektləri tərəfindən qiymətli əşyalar və ya borc tələblərinin, onların mənfəətsiz istifadəsi olmadan toplanması və ya saxlanılması.
**TƏKRAR YAZILIŞ –** Verilənlərin bir daşıyıcıdan digərinə köçürülməsi. Bu zaman köçürülən verilənlərdə ikinci daşıyıcının xüsusiyyətləri ilə bağlı dəyişikliklər aparılır.
**TƏLƏBATLAR** – Nəzəri və tətbiqi iqtisadıyyatın fundamental kateqoriyalarından biri. Bu, insanların ehtiyac duyduğu, malik olmaq və istehlak etmək, istifadə etmək istədikləri məhsul, əmtəə, xidmət, əşya növləridir. Tələbatlara təkcə fayda verən, həyat üçün son dərəcədə zəruri olanlar deyil, həm də sağlamlıq üçün ziyan olan, lakin formalaşmış adət və

vərdişlər, zövq alınması üzündən insanların istifadə etdiyi əşyalara insanların real tələbatı da aid edilir.

**TƏRCÜMƏ-REMİNİSSENSİYA –** Orijinalın təsiri altında onun məzmununun və yaxud formasının komponentlərindən istifadə etməklə, lakin müəllif əsərinin ilkin mənbəsi göstərilməməklə yaradılmış bədii poetik mətn.

**TƏTBİQİ PROQRAM –** Verilənlərin emalı sistemlərinin müəyyən tətbiq sahəsində məsələnin və ya məsələlər sinfinin həlli üçün tətbiq edilən proqram.

**TİTRLƏŞMƏ** – Kreditor təşkilatı tərəfindən tədavül edən qiymətli kağızların ona məxsus olan ev tələblərinə mülkiyyət titulu kimi buraxılması.

**TOK-ŞOU –** Tanınmış şəxslərin iştirakı ilə televiziya və radioda müxtəlif problemlərə həsr olunmuş içtimai müzakirə proqramları. Əksər hallarda aktual problemlərdən bəhs edən tok-şou qızğın debatlar və diskussiyalarla müşayiət olunur.

**TOLERANT** – Başqa fikir, ideya və ya mövqeyə (hətta xoş gəlməsə belə) dözümlü yanaşan.

**TOPOLOGİYA** – 1. EHM-də elementlərin şəbəkəyə qoşulma konfiqurasiyası. 2. Şəbəkələrin fiziki və məntiqi konfiqurasiyalarını öyrədən tətbiqi elm. Bu müxtəlif şəbəkə elementləri arasında qarşılıqlı əlaqələrin (şəbəkədə elementlərarası məsafə və yük buraxma qabiliyyəti nəzərə almadan) xarakterini müəyyən edir. 3. Coğrafi ərazidə stansiyaların yerləşdirmə sxemi.

**TRAFİK** – 1. Şəbəkə ilə ötürülən informasiyanın tutumu, informasiyanın həcmi. 2. Şose, yol. 3. Rabitə şəbəkəsi, xətti və kanalı ilə ötürülən informasiya selini xarakterizə edən termin. Abunəçiyə aid faydalı yükdən başqa köməkçi, idarəetmə, siqnallaşma xidməti və digər məqsədlər üçün lazım olan sellər də trafikin tərkibinə daxildir. Adətən, trafikin orta intensivliyi Erlanqla ölçülür.

**TRANK EFFEKTİVLİYİ –** Verilən itki ehtimalı ilə xidmət olunan abunəçi sayını müəyyən edən mobil rabitə sisteminin imkanlığını xarakterizə edən əsas göstəricidir. Kanal effektivliyi bir kanala düşən orta abunəçi sayını göstərir.

**TRANK KANALI –** İki kommutatoru və ya kommutasiya mərkəzini bir –birinə birbaşa birləşdirən kanal. Bu kanalla faydalı informasiyadan əlavə kommutasiya avadanlıqlarının normal funksiyalarını yerinə yetirmək üçün nəzərdə tutulan xidməti informasiya seli ötürülür. Bu mənada trank kanalı şəffaf deyil.

**TRANSAKSİYA** – Məlumatların ötürülməsi, həmçinin pul vasitələrinin köçürülməsi.

**TRANSFER** – Malların və ya yük vahidlərinin bir saxlama yerindən digərinə yerdəyişməsi prosesidir.

**TRANSFERLƏR –** Əməliyyatın bir iştirakçısı tərəfindən digərinə birtərəfli qaydada əvəzi ödənilmədən verilən iqtisadi (təqdim edilən) qiymətlərdir; əvəzində digər iştirakçıdan iqtisadi qiyməti ola bilən heç nə alınmır.Əməliyyat kimi müəyyənləşdirilir. Bu zaman bir institusional vahid ikinci vahidə mal, xidmət və aktivlər verir, lakin ikincidən əvəzinə hər hansı mal, xidmət və ya aktiv alınır.

**TRANSFER ANBARI** – İstifadə üçün hazır olana və tələbat yaranana qədər hazırlanmış hissələrin transfer olunması məqsədilə toplandığı anbardır.

**TRANSKRİPT –** Tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri və qiymətləri (rəqəm və hərflərlə) özündə əks etdirən sənəddir.

**TRANSLYATOR -** Bir dildə yazılmış proqram mətnini digər dildə yazılmış mətnə çevirən proqramdır.

**TRANSMİSSOMETR** – Fəzadakı iki nöqtə arasında, yəni trayektoriyanın müəyyən uzunluğu və ya bazis xətti üzrə buraxılma əmsalının ölçülməsi üçün qurğu.

**TRANSPONDER** – Müvafiq sorğuya cavab siqnalını generasiya edən qəbuledici,ötürücü; sorğu və cavab müxtəlif tezliklərdə ötürülür.
**TRANSŞİPMENT** – Bir nəqliyyat əməliyyatı ərzində yüklərin bir nəqliyyat vasitəsindən digərinə transfer edilməsi ilə bağlı fəaliyyətdir.
**TRANZİT** – 1. Hər hansı ərazi və ya sahə üzərindən keçib getmə və ya çıxarılma halıdır. 2. Yüklərin gömrük nəzarəti altında bir gömrük nəzarətindən digərinə daşınmasını nəzərdə tutan gömrük prosedurudur.
**TRASSANT** – Qəbzi yazan və trassata onun remitentə ödənilməsi haqqında göstəriş verən şəxs.
**TRAYBOLİZM** – Keçmişin qalıqlarını saxlayan cəmiyyətdə tayfa və ya etnik separatizm.
**TREKİNQ** – 1. Videolentin başlıqdan keçdiyi bucağın izlənməsi. 2. Videolarda təsvirin qaydaya salınması, ölçü.
**TREND** – Nəyinsə inkişafının əsas istiqaməti, yönümü, tendensiyası; siyasi, iqtisadi inkişafda statistik metodlarla aşkar olunan əsas istiqamət və meyillər.
**TRENİNQ** – Xüsusi təlim rejimi, təlim; nəyisə öyrətmək məqsədilə təşkil olunan silsilə seminarlar.
**TREYDER** – Broker firmasının, qiymətli kağızların alış-satışı üzrə sifarişləri həyata keçirən, birja ticarətində bilavasitə iştirak edən işçisi; Birjada sövdələşmə bağlamaq hüququna malik olan istənilən hüquqi və ya fiziki şəxs.
**TRİNİTRON TEXNOLOGİYASI** – Rəngli monitorların parlaqlığını ekran boyu eyniləşdirən qəfəsşəkilli maska.
**TRİPARTİZM** – Həmkarlar ittifaqları, sahibkarlar və hökumət təşkilatları timsalında dövlət nümayəndələri arasında kompromis üçtərəfli müqavilənin bağlanması məqsədilə üçtərəfli məsləhətləşmələrin keçirilməsi prinsipini və praktikasını səciyyələndirən termin.

**TRİQQER** – 1. Ehtiyatların idarə edilməsi sistemində sifarişin verilməsi nöqtəsi; 2. Kredit müqaviləsinin hər hansı nəticələrini - məsələn, kreditin vaxtından əvvəl ödənilməsi tələbinin avtomatik yaranması şərti. 3. İkidayanıqlı vəziyyəti olan elektron məntiq sxemi. Bu sxem uzun müddət bu iki vəziyyətdən birində qala bilər. Yalnız idarəetmə siqnalı bu sxemi sıçrayışla bir vəziyyətdən digərinə keçirir.
**TSEDENT** – Öz hüquqlarından imtina edən sertifikat sahibi.
**TUNC-QRAFİT** – Metalkeramik material; tuncdan və qrafik hissəciklərindən ibarət məsaməli, bişirilmiş materialdır.
**TURAGENT** – Turoperator tərəfindən formalaşdırılmış turların bilavasitə turizm bazarında satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxsdir.
**TURBROKER -** Turların topdansatışı ilə məşğul olan firma tərəfindən turların tərkibinə daxil edilmiş nəqliyyat xidmətlərini göstərmək məqsədilə şəxsi nəqliyyat vasitəsinə malik olmayan, lakin onu icarəyə götürən hüquqi və ya fiziki şəxsdir.
**TUROPERATOR -** Turist marşrutlarını işləyib hazırlayan, turların kompleklәşdirilməsi, onların fəaliyyətinin təmin edilməsi və reklamını təşkil edən turizm müəssisəsidir. Turoperator, həmçinin normativlərə uyğun olaraq, turların qiymətinin hesablanması və təsbit edilmiş qaydada bu marşrutlar üzrə turların qiymətinin təsdiq edilməsi, eləcə də öz lisenziyası əsasında yollayış blanklarının buraxılması və satılması məqsədilə turların turagentlərə satılması ilə də məşğul olur. Fəaliyyət göstərdiyi ərazi baxımından, turoperatorlar təşəbbüskar və daxili (reseptiv) turoperatorlara bölünür.
**TURPAKET** – Fərdi və qrup halında səyahət üçün təqdim edilən əsas (mütləq) xidmətlər kompleksi olub, seriyalı xarakter daşıyır və geniş satış üçün təklif olunur. Dörd mütləq elementi vardır: turist mərkəzi, nəqliyyat, yerdəyişmə vəsaitləri

və transfer (yəni turist mərkəzi daxilində turistin müxtəlif istiqamətlərində daşınması; məsələn, aeroportdan, dəmiryolu, stansiyasından, dəniz limanından otelə və geriyə; teatr, muzey və s. kimi yerlərə aparılması). Təsbit edilmiş qiymətə malikdir.

**TURİST BAZARI** – Turist fəaliyyəti sahəsində məhsulla (iş, xidmət) və pulla davranış.

**TURİZM MƏHSULU** – Turistin səyahəti müddətində onun tələbatlarının ödənilməsi üçün lazım olan maddi və qeyri-maddi istehlak dəyərlərinin məcmusudur.

**TURİZM MÜƏSSİSƏLƏRİ** – Turist bazaları, yurdları, mehmanxanaları, otelləri, kempinqləri və digərləridir. Turizm müəssisələrində yaşamaq xidmətləri (məcburi xidmətlər), qidalanma və turist – ekskursiya xidmətləri göstərilir.

**TURİZM STRATEGİYASI** – Reallaşdırılmasına xeyli vaxt və maliyyə resursları tələb edilən ümumi inkişaf konsepsiyalarının və məqsədli proqramların işlənib hazırlanmasıdır.

**TURİZM VAUÇERİ** – Xarici turistlərə xidmət göstərilməsi və firma ilə qarşılıqlı ödəmələr aparılması üçün əsas olmaqla, turun tərkibinə daxil olan xidmətlər üzərində turistin hüququnu müəyyənləşdirən və xidmətlərin göstəriləcəyi faktını təsdiq edən sənəddir.

**TUTUM –** Yaddaş qurğusunda saxlanıla bilən verilənlər vahidinin maksimal sayı.

**TV – TÜNER** – Müxtəlif formatlı (PAL, SECAM, NTSC) televiziya verilişlərini qəbul edib, monitorda göstərilməsini təmin edən giriş qurğusudur.

**TVİST** – Hakimiyyətin tarif dərəcələrinə əks istiqamətli tədbirlərdən ibarət siyasətidir.

**TVİTTER** – İstifadəçiyə veb-interfeysdən istifadə etməklə qısa mətni ismarıclar göndərməyə imkan yaradan sistem.

**TYUNİNQ –** Bu terminin formal tərifi müəyyən məqsədlərə çatmaq üçün nəyinsə sazlanması mənasını ifadə edir. Məsələn,

müəyyən notlara, səslərə, titrəyişlərə uyğun olaraq səslənmə üçün fortepianonun və ya tarın simlərinin köklənməsi.

**TYUNİNQ LAYİHƏSİ –** Bu layihənin məqsədi proqramların başa çatdıqdan sonra onların verdiyi ixtisas dərəcələrinin müqayisəsi və uyğunlaşdırılmasını təmin edən təhsilalma nəticələrinə əsaslanan ali təhsilin iki dövrü üzrə təhsil proqramları üçün ümumi metodologiyanın yaradılmasından ibarətdir.

**TYUTOR –** Tyutor tələbələrin akademik məsləhətçisi rolunda çıxış edən müəllimdir.

**-U-**

**UFOLOGİYA** – Naməlum uçan obyekt və onlarla bağlı hadisələri öyrənən elm sahəsi.

**UNİFİKASİYA** – 1. İnşaatda, ayrı-ayrı funksiyaları yerinə yetirən sənaye məlumatı və inşaat detallarının ölçülərinə görə tiplərinin sayının azaldılması. 2. Dilçilikdə, terminologiyada unifikasiya müxtəlif məfhum və anlayışların hər birini vahid formaya salmaqdır.

**UNİFORMA** – 1. Bir sahəyə aid olan vahid geyim forması. 2. Bir cür paltar geyinmiş xidmətçilər.

**URBOEKOLOGİYA** – Şəhər mühiti, onun komponentləri, insan fəaliyyəti və ansamblların formalaşmasının tarixi amilləri və şəhərin digər elementlərini öyrənməklə məşğul olan, eyni zamanda urbanizasiyaya məruz qalmış ərazilərdə insanların istehsal və digər fəaliyyətinin ətraf mühitlə qarşılıqlı təsirinin tibbi-bioloji, şəhərsalma, texniki aspektlərini öyrənən elm sahəsi.

**UTİL FRAKSİYA** – Yararlı fiziki və kimyəvi xassələrə malik olmaları səbəbindən, öz əsas təyinatına uyğun istifadəsini başa

vurduqdan sonra, yeni məhsulların istehsalında istifadə olunan materialdır.

**UYĞUNLAŞMA(bioinformatika)** – İnsanın ətraf mühitə fəal uyğunlaşmasının verilən mühit şərtlərində (məsələn: tərkibində karbon qazının yüksək olduğu zonada) normal həyat fəaliyyətinin davamlı olmasına, təminatına və qorunub saxlanılmasına istiqamətlənmiş biososial prosesdir. Uyğunlaşma zamanı orqanizm ətraf mühitin parametrlərində baş verən dəyişikliklərə əsasən öz həyat fəaliyyətini tənzimləyir, bu da ona yaşamağa və çoxalmağa imkan verir.

**-Ü-**

**ÜMUMİ YADDAŞ –** Bir neçə proqramın istifadə edə biləcək operativ yaddaşın bir hissəsi.

**ÜNVAN –** Yaddaşda baytın nömrəsi.

**ÜNVAN SAHİBİ–** Məlumatın, mesajın göndərilməsi nəzərdə tutulmuş şəxs, təşkilat.

**-V-**

**VAKANSİYA** – Yeni işçinin qəbul oluna bildiyi tutulmamış boş iş yerinin, vəzifənin olması.

**VAKSİNASİYA** – Sistemin məlum olmayan virusları tapmağa köklənməsi.

**VALEOLOGİYA** - Əsasını mürəkkəb, daim dəyişən və ətraf mühitin çoxlu sayda mənfi faktorlarının təsirinə məruz qalan, insanın sağlamlığı haqqında təsəvvürləri öyrənən elm sahəsidir.

**VALİDLİK** – İqtisadi araşdırmalarda istifadə edilən ilkin statistik informasiyanın etibarlılığı, onda məlumatın toplanması metodikasının tam dəqiqliyi üzündən səhvlərin olmaması.

**VALORİZASİYA –** Dövlətin müdaxiləsi nəticəsində əmtəə, xidmət, yaxud maliyyə bazarında qiymətlərin qaldırılması. Valorizasiya iqtisadiyyatın dövlət tənzimlənməsi alətlərindən biridir.

**VALVASİYA** – Xarici valyutanın məzənnəsinin (dəyərinin) milli pul vahidində müəyyən edilməsi. Volorizasiya termininindən fərqli olaraq, valvasiya termini məzənnənin enməyə və qalxmağa tendensiyasını daxil etmir: bunun üçün devalvasiya və revalvasiya anlayışları istifadə olunur.

**VALYUTA –** Ölkənin pul vahidi (milli valyutası), konkret olaraq həmin ölkədə istifadfə edilir.

**VALYUTA ARBİTRAJI** – Müxtəlif valyuta bazarlarında olan valyuta məzənnələrinin fərqi hesabına gəlir əldə etmək üçün valyutanın alınmasını, yaxud satışını müvafiq ekssövdələşmə ilə (məkani), yaxud müəyyən vaxt ərzində (zaman valyuta arbitrajı) uyğunlaşdıran əməliyyat. Sadə valyuta arbitrajı – iki valyutada olan arbitrajdır, mürəkkəb – üç və daha çox valyutada olandır.

**VALYUTA BAZARI** – Təklif və tələb əsasında xarici valyutanın alqı-satqısı aparıldığı sahə. Birja sahəsinə və birjadankənar (banklararası) sahəyə ayrılır.

**VALYUTA BƏYANNAMƏSİ** – Gömrüyə təqdim edilən və aparılan valyuta haqqında məlumatları əks etdirən ərizə şəklində sənəd.

**VALYUTA BLOKADASI** – Dövlət tərəfindən ölkədə başqa ölkənin valyutasının işlənməsinə məhdudiyyətin qoyulmasına dair gördüyü tədbirlər, onlar bu ölkənin müəyyən tələbləri yerinə yetirməyə məcbur etmək məqsədi ilə edilir.

**VALYUTA KOTİROVKASI –** Ölkənin mərkəzi bankı, eləcə də bir sıra hallarda iri kommersiya bankları tərəfindən milli valyuta kursuna nisbətdə hər hansı xarici valyuta kursunun müəyyən edilməsi.

**VALYUTA MƏZƏNNƏSİ** – Bir ölkənin pul vahidinin başqa ölkənin pul vahidlərində ifadə edilmiş qiyməti. Məsələn, əgər İngiltərə funt-sterlinqinin valyuta məzənnəsi 1,2 ABŞ dollarını təşkil edirsə, bu onu göstərir ki, valyuta bazarında funt və dollar bu proporsiyada mübadilə edilirlər. Birja hərracında müəyyən edilən birja məzənnəsini (dəyişən, çevik, üzən) və beynəlxalq orqanlar tərəfindən qoyulmuş valyuta paritetindən irəli gələn təsbit edilmiş məzənnəni ayırırlar.

**VALYUTA SİSTEMİ** – Valyutaların, onların istifadəsinin və qarşılıqlı mübadiləsinin ödənişi vasitəsi kimi istifadə edilməsinin, habelə valyutanın istifadəsi ilə bağlı olan pul-kredit münasibətlərinin cəmi. Valyuta sisteminə valyutanın buraxılışı və tədavülünü tənzimləyən orqanlar da aiddir. Dünya regional (məsələn, Avropa) və milli valyuta sistemlərini ayırırlar.

**VALYUTA SİYASƏTİ** – Dövlətin daxili və xarici iqtisadi siyasətinin tərkib hissəsidir. O, dövlətin valyuta məzənnəsinə, valyuta əməliyyatlarına təsir etmək vasitəsi kimi ölkənin daxilində və xaricində apardığı hərəkət xəttini təmsil edir. Valyuta siyasətinin əsas alətləri - valyuta mübadiləsi, valyuta məhdudiyyətləri, valyuta ehtiyatları, valyuta maliyyələşdirilməsi, valyuta paritetləridir. Ölkənin valyuta siyasəti onun hökuməti, Mərkəzi bankı, mərkəzi maliyyə orqanları tərəfindən aparılır. Dünya miqyasında valyuta siyasəti beynəlxalq valyuta-maliyyə təşkilatları tərəfindən (Beynəlxalq Valyuta Fondu, beynəlxalq banklar) aparılır.

**VALYUTA ZONASI** – Bir qrup dövlətin birliyidir. Onlar qarşılıqlı valyuta münasibətlərinə riayət edir və aparıcı dövlətin valyutasının zona ölkələri və digər ölkələr arasındakı haqq-hesablarda müəyyənedici rolunu qəbul edirlər. Valyuta zonasının əsas qaydaları budur: aparıcı valyuta ödəniş vasitəsi və ehtiyac vasitəsi kimi istifadə edilir, bu valyutanın vasitəsilə

“xarici ödənişlər” həyata keçirilir, valyutalar bir ölkədən başqasına azad keçir.

**VARRANT –** 1) Əmtəə qəbzi, anbarın, bazanın malı saxlanmağa qəbul edildiyi haqqında şəhadətnamə: qiymətli kağızda onun sahibinə əlavə hüquqlar və imtiyazlar verir.

**VASİTƏÇİ –** Əmtəə və xidmətlərin istehsalçıları və istehlakçıları, satıcıları və alıcıları arasında əlaqələrin yaranmasına və əqdlərin, müqavilələrin bağlanmasına xidmət edən şəxs, firma, təşkilat. Vasitəçi rolunda agent, broker, diler, makler, komisyonçu, kommivoyajorlar çıxış edə bilər. Vasitəçilik sahibkarlığın növlərindən biridir.

**VATERKLERK** – Gəmi bortunda qulluqçu. Bir qayda olaraq, ofisdən kənarda agent şirkətinin tapşırığına əsasən gəmiyə agent xidmətinin göstərilməsi ilə bağlı bütün işləri – gəminin qəbul edilməsinin, yola salınmasının rəsmiləşdirilməsini, pulla, ərzaqla, su ilə, yanacaqla təchiz edilməsini, sürveyerin sifariş edilməsini və s. yerinə yetirir.

**VAUÇER** – 1. Pulun alınmasını təsdiq edən sənəd. 2. Əmlakın özəlləşdirilməsində iştiraka hüquq verən sənəd. 3. Özəlləşdirmə çeki, onu özəlləşdirilən müəssisənin səhmlərinə dəyişmək yolu ilə özəlləşdirmədə iştirak etmək hüququnu verir. 4. Yazılı şəhadət, tapşırıq, zəmanət.

**VAY-FAY** – ("simsiz dəqiqlik")Simsiz şəbəkə yaratmaq üçündür. Texnologiya eyni vaxtda onlarla istifadəçinin bir şəbəkədə işləməsi üçün şərait yaradır.

**VEB –** İnternet şəbəkəsində qlobal hipertekst informasiya sistemi.

**VEB-XİDMƏT –** XML, SOAP sistemlərinin köməyi ilə internetdə ismarıc mübadiləsi xidməti.

**VEB-PROQRAM** – Vebdə işləmək üçün yazılmış kiçik proqram.

**VEB-BRAUZER –** İnternet şəbəkəsində veb-səhifələrə baxmaq vasitələri.
**VEB-DİZAYNER –** İnternet səhifələrinin (portalların) qurucusu (yaradıcısı).
**VEB-KAMERA –** Təsviri internet şəbəkəsi ilə ötürmək üçün istifadə olunan rəqəmsal videokamera.
**VEB-QOVŞAQ –** Ümumi adla mövzu və naviqasiya sistemi ilə bağlı veb-səhifələr qrupu-sayt.
**VEB- MASTER –** Veb qovşağın yaradılmasına, onun işləmə qabiliyyətinə və onda yeniliklər etməyə cavabdeh şəxs.
**VEB-NAŞİR –** İnternet materialların təşkilat və ya fiziki şəxs tərəfindən internetdə yerləşdirilməsi.
**VEB-OMAN** – İnternetə həris istifadəçi, internet- konfransların və çatların iştirakçısı, internet-nəşrlərin müəllifi.
**VEB-SAYT** – Veb-serverdə verilənlər bölməsi olub, hər hansı təşkilat və şəxsə aiddir. Bu bölmədə istifadəçi özünün informasiyalarını veb-səhifə ilə əlaqəli çoxluq şəklində yerləşdirir. Saytın titul səhifəsindən istifadə edərək göstərici ilə onun müxtəlif səhifələrinə baxmaq olar. Veb-saytların səhifələri ümumi domen ünvan altında birləşmiş olurlar və eyni məntiqi struktura malikdirlər. Veb-sayt anlayışı (hostinq) server, provayder, domen, şəbəkə və s. anlayışlarla sıx bağlıdır. İnternet texnologiyaları inkişaf etdikcə bir serverdə (kompüterdə) çoxlu sayda domen və veb-saytlar yerləşdirmək mümkündür.
**VEB-SERVER –** İnternetdə və internet şəbəkədə istifadəçinin veb-səhifəsinə giriş verən, internetdə axtarış və başqa xidmətlər təklif edən kompüter.
**VEKSEL –** Müəyyən formada yazılı şəkildə tərtib edilmiş (uzunmüddətli öhdəlik şəklində) qiymətli kağız.
**VEKSEL DİSKONTU** – Nominaldan aşağı qiymətlə veksel satışı və ya köçürülməsi.

**VEKSEL AKSEPTİ –** Vekseldə akseptantın müvafiq yazısı şəklində tərtib edilən vekselin ödənilməsinə razılıq. Akseptdən imtina etmə veksel protesti şəklində qanuniləşdirilir.
**VEKSEL KREDİTİ –** Veksel sahibinin bank tərəfindən kredit vermə formasından biridir, bu ona vekseldə göstərilən məbləğin vaxtından qabaq ödənilməsi yolu ilə, vekselin qeydə alınması anından onunla ödəmə müddətinə qədər vaxt ərzində faizləri, habelə bank komissiyasının məbləğini çıxmaqla edilir. Belə halda, veksel sahibi vekselə dair öz hüquqlarını indosament vasitəsilə banka verir.
**VEKSEL QRASİYASI –** Vekseldə göstərilmiş müddət keçdikdə, onunla pulları ödəməyə qoyulmuş möhlət.
**VELFER** – Pul şəklində sosial müavinət.
**VENDOR** – 1. Pərakəndə satış şəbəkəsinə müxtəlif növ malların, materialların və s-nin satışını həyata keçirən fiziki və ya hüquqi şəxsdir. 2. Məhsul və ya əmtəə növlərinin istehsalçısı və ya bölüşdürücüsüdür. 3. Pərakəndə ticarətdə tətbiq olunan və içərisinə metal pul atılmaqla və ya digər yolla işə salınan, müstəqil fəaliyyət göstərən ticarət avtomatıdır. Bu zaman alıcıya hər hansı ədədi mal vahidi verilir.
**VENDOR ƏMƏKDAŞLIĞI –** Təchizatçı və sifarişçi arasında məhsulun dizaynı, keyfiyyəti və təchizatın idarə olunması kimi məsələlərin qarşılıqlı maraqlara uyğun olaraq razılaşdırıldığı və adətən müqavilə əsasında olan əməkdaşlıqdır.
**VENDOR-MED** – Beynəlxalq lizinq müqaviləsinin yeni növü. Bu müqavilə üzrə, lizinq kompaniyasının xaricdəki satış filialı öz firmasından avadanlıqları açıb xaricdəki alıcıya icarəyə verir və ya möhlətlə ödənmək şərti ilə satır.
**VERBAL** – Hər hansı mətləbin sözlə, şifahi deyilişi.
**VERDİKT** – Məhkəmə baxışı nəticəsində təqsirləndirilən şəxsin günahkar olub-olmaması barəsində andlı iclasların çıxardığı qərar.

**VERGİ İMMUNİTETİ** – Ayrı-ayrı hüquqi və fiziki şəxslərin milli və beynəlxalq hüquq normaları əsasında vergi ödəməkdən azad edilməsi.

**VERGİ KADASTRI –** Vergiyə cəlb olunan şəxslərin siyahısı.

**VERGİ KVOTASI –** Vergi ödəyicisinin gəlirlərindən faizlə ifadə olunmuş vergi dərəcəsi.

**VERGİQOYMA** – Ölkədə vergilərin müəyyən edilməsi və tutulması, vergilərin kəmiyyətinin və onların dərəcələrinin, həmçinin vergilərin tutulması qaydasının və vergiyə cəlb edilən hüquqi və fiziki şəxslərin dairəsinin müəyyən edilməsi prosesidir.

**VERİLƏNLƏR(Məlumat bazası) –** Rəqəmlər, mətn işarələri və s. ibarət olan informasiya. Avtomatik vasitələrlə insanın iştirakı ilə emal olunması üçün yararlı olan vəziyyətdə verilmiş informasiya.

**VERİLƏNLƏR BANKI –** Müəyyən kateqoriyalı istifadəçi-lərin marağına görə hazırlanmış informasiya axtarış sistemi. Adətən bu sistem müəyyən sahə üzrə verilənlərdən ibarətdir.

**VERİLƏNLƏR BAZASI –** 1. Faylda yerləşdirilən informasiya məcmusudur. İnformasiyanın surətinin çıxarılması, yaxud onu dəyişdirmək imkanlarına malik olan proqramlar tərəfindən istifadə olunur. Lakin bu zaman istifadə həmin informasiyanın yazılması metodunu dəyişir. 2**.** Müəyyən mövzuya və ya sahəyə dair obyektləri, onların vəziyyətlərini və qarşılıqlı əlaqələrini əks etdirən verilənlərin məcmusu, informasiya massivi; EHM-in yaddaş qurğularında saxlanılır.

**VERİLƏNLƏR BLOKU –** Vahid tam şəklində ötürülən və ya emal edilən ardıcıl rəqəmli kod kombinasiyaları.

**VERİLƏNLƏR TOPLUSU –** İlkin verilənlərin (danışıq səsinin, tekstin, şəklin) rəqəmli formaya çevriləcək yığılması.

**VERİLƏNLƏRİ EMAL EDƏN SİSTEM –** İnformasiyanın emalı prosesinin mexanikləşdirilməsi və avtomatlaşdırılması üçün nəzərdə tutulmuş aparat və digər vasitələr kompleksi.

**VERİLƏNLƏRİN ADI –** Verilənlərin elementini adlandırmaq üçün istifadə olunan simvol və ya simvollar qrupu.

**VERİLƏNLƏRİN AVTOMATİK İDENTİFİKASİYASI –** Yalnız kompüter sistemi və ya proqramlaşdırıla bilən kontroller kimi mikroprosessorla idarə olunan qurğunun daxilində verilənlərin identifikasiyası və yığılmasıdır.

**VERİLƏNLƏRİN MÜHAFİZƏSİ –** Verilənlərin emalı sistemində verilənlərin tipləri və nüsxələri üçün təyin edilmiş məhdudiyyətlərin ödənilməsinə yönəldilmiş təşkilat proqram, texniki metodlar və vasitələr.

**VERİLƏNLƏRİN SIXILMASI –** Maneəyə davamlılığı təmin etmək üçün əlavə edilmiş informasiyanın ləğv edilməsi və ya verilənlərin yenidən statistik kodlaşdırılması.

**VERİLƏNLƏRİN VAHİDİ –** Sistemdə qəbul edilmiş verilənlər strukturunun tərkib hissəsi.

**VERİLƏNLƏRİN YIĞIMI –** Fayl şəklində olan verilənlər toplusu. Verilənlər yığımı vahid blok şəklində identifikasiya və emal edilir.

**VERSİYA –** 1. Proqram məhsulunun variantı. Faylın dəyişməsindən yaranan fayl. 2. Obyektin (sistem, protokol, proqram və s.) əvvəlkinə nəzərən yeni variantı.

**VİBRATO** – Səsin işlənməsində istifadə olunan populyar xüsusi effekt. Səs tonunun dalğavari dəyişilməsinə gətirib çıxarır.

**VİBROXƏLBİR –** Vibrasiyanın təsiri altında, titrəyişlə işləyən xəlbir.

**VİDEO DİSPLEY BLOKU –** Video (hərf, rəqəm, qrafik və s.) məlumatları öz ekranında əks etdirən qurğu.

**VİDEOİNFORMASİYA –** Videoverilənləri; təsvir formasında təqdim olunan verilənlər; rəsmlər, sxemlər, qrafiklər, obrazlar, təsvirlər.

**VİDEOPLATA –** Videotəsviri rəqəmli siqnala çevirən və onu monitorun ekranına çıxaran qurğu.

**VİDEOPLEYER –** Kaset video maqnitofonu; hazır videofilim kasetinə baxmağa imkan verən məişət texnikası.

**VİDEOROLİK** – Qısa, adətən, bir dəqiqədən çox çəkməyən reklam filmi.

**VİDEOTEKST –** Video məlumatları ötürmək üçün interaktiv xidmət. Video məlumatların qəbulunu videotekst koderi ilə təchiz edilmiş televizorlar vasitəsi ilə təşkil etmək mümkündür.

**VİDEOTELEFON –** İnteraktiv rejimdə videoinformasiyanın verilişi və qəbulu qurğusudur. Videotelefonlara displey, videokamera, audio,video siqnalları ötürən qurğu və s. daxildir. Hazırda İP (İnternet protokolu ilə) videotelefonlar geniş tətbiq edilir.

**VİNDİKASİYA –** İddiaçının öz əmlakını məhkəmə vasitəsi ilə bu əmlaka qanunsuz əsasla yiyələnmiş şəxslərdən tələb etməsi.

**VİNDİKASİYA İDDİASI** – Sahibkarın öz əmlakını başqa şəxsin qanunsuz mülkiyyətindən geri alınması haqqında iddia. Daşınan əmlak üzrə iddiaçı cavabdehin ona qanunsuz sahib olduğunu və özünün qanuni sahib olduğunu sübut etməyə borcludur.

**VİNTİMOLOGİYA –** Səhv, yaxud fors-major nəticəsində uğursuz birja sazişinin "səbəblər sistemi".

**VİNTLİ ENDİRİCİ** – Ağırlıq qüvvəsinin təsiri altında dənəvər və ədəbi yükləri endirən nəqliyyat qurğusu; vintli novcuq şəklində düzəldilir.

**VİNTVARİ SEPARATOR** – Qravitasiya üsulu ilə zənginləşdirmədə istifadə olunan vintvari növ şəklində qurulmuş aparat.

**VİP** – Xüsusi əhəmiyyətli, yüksəkvəzifəli şəxslər üçün nəzərdə tutulmuş yer, xidmət haqqında deyilən ifadə.

**VİREMENT** – 1. Müttəfiqin bankda olan pul vəsaitinin nağdsız olaraq bir hesabdan digərinə köçürülməsi. 2. Bank əməliyyatı, bir şəxsin cari hesab məbləğinin başqa şəxsin hesabına keçirilməsi.

**VİRTUAL (FƏRZ EDİLƏN) MAŞIN** – Çoxlu istifadəçisi olan, virtual şəraitdə istifadə olunan sistem. Bu zaman hər bir istifadəçi kompüterdən təkbaşına istifadə etdiyi kimi proqramlar üzərində işləyə bilər.

**VİRTUAL DİSK** – Fiziki şəxsin öz virtual ünvanı olan disk ; virtual əməliyyat sistemində fiziki maqnit diskinin proqram təsviri.

**VİRTUAL YADDAŞ** – Real yaddaşın tutumundan asılı olmayaraq ayrıca istifadəçiyə verilən kəsilməz yaddaş fəzası. Xarici yaddaş vasitələri və xarici yaddaşla əsas yaddaş arasında səhifəli mübadilə əsasında yaradılır.

**VİRTUALLAŞDIRMA** – Hesablama sisteminin konkret konfiqurasiyasının idarə edilməsində daha yüksək mücərrədlik səviyyəsinə keçmə.

**VİRUS** – 1. Kompüter virusu. Kompüter, proqram və şəbəkələri zədələyən, onları nasaz vəziyyətə gətirən, faylları məhv edən və s. zərərlər vuran istifadəçidən gizlənən proqramlar. 2. Əməliyyat sistemində müstəqil daxil olma imkanına malik olan proqram. O, faylları pozur, kompüterdə işləməyə mane olur. Buna bəzən öz-özünü köçürən proqram da deyillər.

**VİZUAL İNFORMASİYA** – Displeyin və televizorun ekranında, tabloda əks olunan məlumat bazası.

**VİZUAL METEROLOJİ ŞƏRAİT** – Müəyyənləşdirilmiş minimumlara müvafiq, yaxud onlardan yüksək olan görünüş, buludlara qədərki məsafə və buludların aşağı həddinin hündürlüyü kəmiyyətləri ilə ifadə edilən meteroloji şərait.

**VİZUAL NƏZARƏT –** Proqramı yerinə yetirərkən proqramçının displey ekranında təsvir olunmuş proqramı və ya verilənləri gözdən keçirmə metodu ilə yoxlaması.
**VİZUALİZASİYA** – 1. Təsvirin formalaşdırılması. 2. Verilənlərin vizual təsviri; İnformasiyanın displeyin ekranında təsviri.
**VİZUALLAŞDIRMA –** Verilənlərin vizual təsviri; İnformasiyanın ekranda əks etdirilməsi.
**VOLONTYOR** – İlkin mənada Avropanın bəzi ölkələrində hərbi xidmətə könüllü gəlmiş şəxs; müasir anlamda: ictimai-sosial hərəkatlarda, maarifləndirmə və xeyriyyəçilik işlərində iştirak edən könüllü.
**VORKFER –** Sosial təminat sisteminin dəyişməsi,yəni müavinəti olan şəxslərin üzərinə, onların iş axtarması haqqında tələblər qoyur.
**VOTSAP** – Smartfonlar üçün ani mesajlaşma mübadilə sistemi. Mətn mesajlarını, təsvirləri, videonu və audionu göndərməyə imkan verir.
**VOTUM** – Səsvermə yolu ilə müəyyən edilən rəy.
**VOYAJER** – Malları həm reklam, həm də realizə edən səyyar satıcı.
**VÜCUD** – Himayəçinin əlindəki əmlak, əsas məbləğ, yaxud kapital.
**VYUVER** – Faylın və ya sənədin tərkibinə tez baxmaq üçün proqram.

## -Y-

**YADDAŞ –** İstənilən informasiyaları, verilənləri və icra olunan proqramı kompüterdə yerləşdirən qurğu. Funksional baxımdan yaddaş iki yerə bölünür: daxili və xarici. Böyük həcmdə informasiya saxlayan xarici yaddaşın əsas xüsusiyyəti odur ki,

o, enerjidən asılı olmayan daşıyıcılarda (maqnit diskində, lentdə, kartda, optik diskdə və s.) qurulur. *Əlavə yaddaş* - əməli yaddaşın tutumunu artırmaq məqsədilə EHM-ə qoşulan qurğu. *Əsas yaddaş* (operativ yaddaş) – kompüterə daxil edilmiş yaddaş.

**YADDA SAXLAMA –** Yaddaşda verilənlərin saxlanılması. Kompüterin istifadə etdiyi proqram verilənlərlə birlikdə əsas yaddaşda saxlanılır və icra olunma prosesində lazım olduqda xarici yaddaş qurğularına müraciət edə bilər.

**YADDAŞ QURĞULARI –** Rəqəmli qurğuların əsas tərkib hissələrindən biri. Yaddaş qurğuları bir sətirlik, ya da bir neçə sətirlik informasiya həcmində olur.

**YADDAŞ TUTUMU –** Kompüterin yaddaşında saxlana bilən informasiyanın (təsvir, yazı və s. işarələrin) maksimum miqdarının göstəricisi.

**YADDAŞIN BOŞALMASI –** Məsələ həll olunandan sonra ona ayrılan yaddaş bölgəsinin boşalması proseduras ı.

**YADDAŞIN MÜHAFİZƏSİ –** Yaddaş müraciət vaxtı sözün, məsələnin ünvan fazasına mənsub olunmasının yoxlanılması.

**YARIMQOŞQU** – Bir hissəsinin motorlu nəqliyyat vasitəsinə (MNV) birləşdirilib, dayaq qismində üstündə qaldığı və özünün, eləcə də daşıdığı yükün çəkisinin MNV üzərinə düşdüyü nəqliyyat vasitəsidir.

**YAZI –** 1. Proqramla xarici yaddaş arasında verilənlərin mübadiləsi vahidi. 2. Yaddaş müşahidəsi verilənlərin həkk olunması (fiksasiyası).

**YENİDƏNGÜZƏŞT** – İkinci şəxsə qarşı hüquqlar sahibinin bu hüquqları üçünçü şəxsə ötürməsi.

**YENİDƏNSIĞORTA –** Riskin sığortalanması üzrə sığortaçılar arasındakı münasibətlərin məcmusu.

**YENİDƏNUÇOT** – Maddi qiymətlərin növbəti uçotu.

**YENİLİKLƏR** – İqtisadi və texniki yeniliklərdir (innovasiya).

**YERİNDƏCƏ** – Maliyyə və ödəmə tələbnamələrinin təqdim edilən kimi təxirə salınmadan ödənilməsini bildirən şərtdir.
**YETKİNLİK** - Əmtəənin yaşama dövrünün mərhələsidir. Onunla səciyyələnir ki, alıcıların çoxu artıq malı alır, satışın artma templəri aşağı düşür, mənfəət isə azalmağa başlayır.
**YETƏRSAY (KVORUM)** – Hər hansı iclasın keçirilməsi və qəbul edilən qərarların etibarlı və qanuni sayılması üçün iştirakçıların tələb olunan minimum sayı.
**YÜKLƏNMƏ** - Prosessorun əməliyyatlarında verilənlərdən bilavasitə istifadə etmək məqsədilə, onların verilənlər daşıyıcısından əsas yaddaşa və ya əsas yaddaşdan registr yaddaşına yüklənməsi.
**YÜKLƏYİCİ –** Yükləməni yerinə yetirən proqram.
**YÜKLƏYİCİ DİSK -** Əməliyyat sistemi bu disklə yüklənir və ya təzədən yüklənir.
**YUNİDO** – BMT-nin sənayenin inkişafı üzrə ixtisaslaşdırılmış təşkilatıdır. Təşkilatın məqsədi inkişaf etmiş ölkələrdə sənayenin inkişafına yardım etməkdir.
**YUNSİTRAL** – Beynəlxalq ticarət hüququ üzrə BMT-nin komissiyasıdır, beynəlxalq ticarət hüququnun razılaşdırılması və vahid şəklə salınmasına köməklik göstərilməsi məqsədilə beynəlxalq ticarət hüququ sahəsində BMT sistemində mərkəzi hüququ orqandır.
**YUZER -** Kompütere, müəyyən internet saytına daxil olmaq, proqram vasitələrindən istifadə etmək hüququ olan şəxs, istifadəçi.

## -Z-

**ZARİN** – Sinir iflicedici təsirli güclü zəhərləyici maddə. Zarindən buxar və aerozal şəklində istifadə olunur.
**ZİP -** Faylların sıxılması (arxivləşdirilmə) proqramı.

**ZİP DİSKİ -** 100 meqabayt və artıq tutumlu.

**ZİP TUTUM –** ZİP disk oxucusu. Keçmişdə populyar olan, məlumatların arxivləşdirilməsi üçün istifadə olunan, dəyişdirilən plastik korpuslu, yumşaq – 100 və ya 250 meqabayt tutumlu disklər.

**ZONDAJ** – Kontragentin, yaxud danışıqlar və ya saziş iştirakçısının mövqelərinin qabaqcadan aydınlaşdırılması; mühitin yoxlanılması.

**ZOMBİ** – 1. Öləndən sonra, guya dirilərək ona təsir edən şər qüvvələrin iradəsini kor-koranə yerinə yetirən mistik varlıq. 2. Bir mistik varlıq kimi başqa insanların iradəsini sözsüz yerinə yetirən adam.

**ZMODEM PROTOKOLU –** Faylların sürətlə göndərilməsi protokolu.

## İstifadə edilmiş lüğətlər:

1. Ağayev A.Q. "Maliyyə terminlərinin izahlı lüğəti". Bakı-Elm-2005.
2. Əliyev Q., Rüstəmova A. "İzahlı diplomatiya terminləri lüğəti". Bakı-Nurlan-2004.
3. "İzahlı iqtisadi terminlər lüğəti". Bakı-Nurlan-2005, I cild.
4. "İzahlı iqtisadi terminlər lüğəti". Bakı-Nurlan-2005, II cild.
5. Xəlilova T. "Azərbaycan dilində izahlı inşaat terminləri lüğəti". Bakı-Nurlan-2005.
6. Məşədiyev Q., Seyidəliyev N. "İzahlı onomastik terminlər lüğəti". Bakı-Nurlan-2005.
7. Məhərrəmli Q. Mediada işlənən alınma terminlərin izahlı lüğəti. Bakı-2008.
8. Əliyeva N., Şərifov R., Əhmədov C. İnformatika terminlərinin izahlı lüğəti. Bakı, Elm, 2008.
9. Sədirxanov R., Həsənov R. "Bank-maliyyə terminlərinin izahlı lüğəti", :Bakı, Şərq-Qərb, 2011.
10. Məmmədli R. İngiliscə-azərbaycanca izahlı kompüter terminləri lüğəti, Bakı, Kitab klubu,2014.
11. "Logistika terminlərinin izahlı lüğət"i (redaktor: akademik A.Paşayev; tərtibçilər: Elman Nəcəfov, Ənvər Həzərxanov, Azər Qurbanov, Heydər Turabov, Məlahət Mənsimli, Emin Qasımov, Könül Hüseynova, Polad İsmayılov). Bakı, "Çaşıoğlu", 2015.

# ***QEYDLƏR ÜÇÜN***

Nəşriyyatın Baş direktoru: Şöhrət Səlimbəyli
Texniki redaktor: Maıl  Xəlilov

**S.A.Sadıqova, S.M.Quliyeva**

# *İZAHLI  TERMİNLƏR LÜĞƏTİ*

"Avropa" nəşriyyatı.
Bakı.2015.

**Format**:60x84 1/16
**Tiraj:** 200 ədəd
**Həcmi:** 15 çap vərəqi

***Hazır diopozitivlərdən çap olunmuşdur.***